# Xristianlar hz. İsanı dinləsinlər

Harun Yəhya
(Adnan Oktar)

# İçindəkilər

Ön söz: Xristianlar hz. İsanı dinləsinlər

Bu kitabın məqsədinin, doğru başa düşülməsi niyə əhəmiyyətlidir?

Giriş: Xristianlıq əslində bir tövhid dinidir

I Fəsil: Tarixi mənbələrə görə İncil zaman keçdikcə təhrif edilmişdir

Xristianlar İncilin dəyişdirildiyinə ehtimal verməklə dindən çıxmazlar

II Fəsil: Təslis yanılması

Allah səbəblərdən asılı deyildir və özünə övlad götürməmişdir

III Fəsil: Hz. İsa (ə.s)-ın çarmıxa çəkildiyi yanılması

Hz. İsa (ə.s)-ın guya çarmıxa çəkildiyi iddiası ilə əlaqədar dörd İncildə yer alan müxtəlif ziddiyyətlər

IV Fəsil: Xristianlarin Allah qorxusu və Allah sevgisi mövzusundakı yanılmaları

Əsil imanda Allah sevgisi, Allah qorxusu ilə birlikdə yaşanılar

V Fəsil: Hz. İsa (ə.s)-ın ilah olduğuna inananların cənnətə gedəcəkləri yanılması

Əsil iman sahibləri çətinliklərlə imtahan olunarlar

VI Fəsil: Bəzi xristianların armaqedon yanılması

Axırzaman, Dəccal fitnəsinin yaşanılacağı dövrdür

VII Fəsil: Bəzi xristianların müsəlmanlar barəsindəki yanlış dünyagörüşləri

VIII Fəsil: Hz. İsa (ə.s) nüzul etdi

Hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) hazırda dünyadadırlar

IX Fəsil: Bəzi yevangelistlərin Antichrist (Dəccal) düşüncəsindəki təhlükə

Əlavə fəsil: Təkamül yanılması

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# Ön söz

# Xristianlar hz. İsanı dinləsinlər

## Bu kitabın məqsədinin, doğru başa düşülməsi niyə əhəmiyyətlidir?

Bu kitabı oxuyan xristian qardaşlarımızın anlamalarını istədiyimiz çox mühüm bir həqiqət var: Kitabın yazılmasındakı məqsəd, əsla xristian qardaşlarımızı tənqid etmək, pisləmək, İncili tamamilə etibarsız etmək və ya xristianlıq dinini ortadan qaldırmaq deyildir.

Müsəlmanlar, Bəqərə surəsinin 136-cı ayəsində bildirildiyi kimi: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə nazil olana, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların arasında fərq qoymuruq. Biz yalnız Ona təslim olanlarıq" deyərlər. Dolayısilə müsəlmanlar da, eynilə xristianlar kimi, İncildəki haqq hökmlərə əməl etməklə, hikmətli açıqlamaları ucaltmaqla məsuldurlar.

Bir müsəlman, müsəlman olduğu kimi eyni zamanda **HƏQİQİ BİR İBRAHİMİ, HƏQİQİ BİR NUHİ, HƏQİQİ YƏHUDİ VƏ HƏQİQİ İSƏVİDİR. BÜTÜN PEYĞƏMBƏRLƏRİ QƏBUL EDƏR, SEVƏR, TƏRİFLƏYƏR VƏ UCALDAR.** Xristianlarla birlikdə müsəlmanlar da yaşadığımız Axırzamanda hz. İsa (ə.s)-ın gəlməsini gözləyirlər. Həmçinin sülh və sevgi dini olan İslamın bir tələbi olaraq **ƏSİL MÜSƏLMANLAR QURANDA KİTAB ƏHLİ OLARAQ TANIDILMIŞ XRİSTİANLARI VƏ YƏHUDİLƏRİ SEVMƏK VƏ ONLARI QORUYUB HİMAYƏ ETMƏKLƏ MƏSULDURLAR.**

Quranda hz. İsa (ə.s), hz. Məryəm (ə.s), xristianların və İncilin təriflƏndiyi çoxlu ayə var. Xristianlığa sonradan daxil edilmiş bəzi yanlış inancların, yanlışlığı Quranda bildirilsə də, Quran Haqq olan İncilin Allahın vəhyi olan Kitab kimi endirildiyini təsdiqləyər. Quranda **XRİSTİANLAR VƏ YƏHUDİLƏR "KİTAB ƏHLİ" OLARAQ XÜSUSİ STATUSA SAHİBDİRLƏR VƏ DİNSİZLİYƏ QARŞI MÜSƏLMANLARIN MÜTTƏFİQİDİRLƏR.**

Dolayısilə Kitab əhlinin doğru, səhih Tövrat və İncil hökmlərinə əməl etməyə dəvət etmək, onlara doğru olanı göstərib onların daha dindar və daha səmimi olmalarını təmin etmək, onları Allaha bir və tək olaraq iman gətirməyə dəvət etmək müsəlmanların vəzifəsidir. Bu, Allaha inananlar arasında qardaşlığın, bütünləşmənin və birliyin təmin edilməsi üçün də olduqca əhəmiyyətlidir.

Bu kitabda yer alan və xristian qardaşlarımıza dair açıqlamaların məqsədi, səmimiyyətə, doğru olana, yəni haqq olan İncilə dəvət etməkdir. Xristianları, hz. İsa (ə.s)-a vəhy edilən haqq İncildə olmayan yanlış tətbiqlərdən və batil bidətlərdən təmizləyə bilmək

və **ONLARIN ƏSİL İNCİL HÖKMLƏRİNƏ ƏMƏL EDƏN, ƏSİL XRİSTİANLAR OLMALARINI TƏMİN ETMƏKDİR.**

Xristianların səmimi dindar olmaları, müsəlmanlar olaraq bizim də istəyəcəyimiz bir şeydir. Üzərimizə düşən vəzifə, Allahın Quranda: **"Yaxşı işlər görməyi buyurmaq və pis əməlləri qadağan etmək"** (Ali İmran surəsi, 104) və Kitab əhlini tövhidə (Allahın vahid olduğu inancına) dəvət etmək (Ali İmran surəsi, 64) əmrlərinin tələbindən ötrü, bəzi xristian qardaşlarımızı bilmədən qapıldıqları yanlış fikirlərdən uzaqlaşdıra bilmək, onlara haqq və doğrunu göstərə bilməkdir. Məhz bundan ötrü də, bütün inananlar kimi, xristianların da bu təhlükələrə qarşı xəbərdar edilmələri, Allahın bildirdiyi haqq hökmlərə, ağla və məntiqə dəvət edilmələri olduqca vacibdir.

Bu kitabda haqq din olan xristianlığa illər ərzində daxil olmuş və Quranda təhlükə olaraq bildirilmiş inanclar mövzu kimi götürüləcək. Bu yanlış fikirləri çatdıran Quran ayələri qeyd edilərkən, əsasən xristianların öz Müqəddəs Kitabları olan İncildən bu yanlış fikirləri ortadan qaldıracaq dəlillər gətiriləcək. Bütün inanclarda olduğu kimi, xristianlıq inancında da, mövzulara olduqca radikal dünyagörüşü ilə yaxınlaşan, bəhs etdiyimiz bu yanlış inanclarında olduqca israrlı olan, Qurana qarşı ön mühakimə ilə yaxınlaşan xristianlar ola bilər. Həmin bu xristian qardaşlarımıza olan tövsiyəmiz, buradakı yazıları obyektiv gözlə oxumaları və qeyd edilənləri yeni bir dünyagörüşü ilə ağıllı şəkildə qiymətləndirmələridir. Bu onları, İncil hökmlərindən uzaqlaşdırmayacaq, tam əksinə (Allahın icazəsi ilə) İNCİLİ DAHA SƏMİMİ ŞƏKİLDƏ QİYMƏTLƏNDİRMƏLƏRİNƏ VƏ ONA DAHA MÜKƏMMƏL TABE OLMALARINA vəsilə olacaq.

## Kitabdakı Allaha qarşı hörmətə layiq olmayan bütün ifadələrdən Allahı tənzih edirik

### Rəhman və Rəhim olan Allahın adı ilə

**De: "O Allah Təkdir! Allah Saməddir (hər şey ona möhtacdır, əbədi yaşayandır, heç nəyə ehtiyacı olmayandır). O, nə doğub, nə doğulub, Onun tayı da yoxdur". (İxlas surəsi, 1-4)**

# Giriş

# Xristianlıq əslində bir tövhid dinidir

Müqəddəs torpaqlarda yaşayan yəhudilər arasında meydana gələn xristianlıq dini, hz. Musa (ə.s)-ın şəriətinə uyğun yaşayan səmimi yəhudilərin, hz. İsa (ə.s)-a tabe olmaları ilə yaranmışdır. Hz. İsa (ə.s)-a tabe olan yəhudilərin xüsusiyyəti isə, Allaha bir və tək İlah olaraq iman gətirmələridir.

Lakin bu tövhid inancı, hz. İsa (ə.s)-ın göyə qaldırılması və xristianlığın bütpərəst torpaqlara doğru yayılmasından sonra dəyişmişdir. Hz. İsa (ə.s), xristianlıq dininə sonradan daxil edilən təslis inancından ötrü ilah hesab edilməyə başlanmışdır (Allahı tənzih edirik). Bu yanlış inanca sahib xristianlar, Uca Allahın Şəxsinin hz. İsa (ə.s)-da bir insan olaraq bədən sahibi olduğunu iddia etməyə başlamış və bu inancı yaymışdırlar.

Təslis və ya üç üqnum inancı, (Allahı tənzih edirik) "Ata, Oğul və Müqəddəs Ruh"dan ibarət olduğu irəli sürülən üçlü Allah inancı mənasında işlədilir. Xristianlıq inancını dəyişdirmək istəyən müxtəlif insanlar, dövrün Roma imperatoru Konstantinin liderliyi və dəstəyi ilə özlərinə bu mövzuda Tövrat və İncildə işlədilən "Allahın oğlu" ifadələrini dəlil götürüblər. Hz. İsa (ə.s)-ın, Allahın həqiqi oğlu olduğunu iddia etmiş və ona ilahlıq isnad etmişdirlər. Halbuki, Tövratda və İncildə işlədilən "Allahın oğlu" ifadələri, bütün iman sahiblərinin Allahın sevimli qulları olduğunun gözəl ifadəsidir. Matta İncilində bu həqiqət, *"Böyük xoşbəxtlik sülhü təmin edənlərədir! Onlara Tanrı oğulları deyiləcək"* (Matta, 5:9) ifadəsiylə açıq şəkildə bildirilmişdir. Hz. İsa (ə.s) barəsində işlədilən bu ifadə də eyni mənanı daşıyır, İncildə işlənən "oğul" ifadəsi Allahın bircəcik və sevimli qulu mənasını verir və qətiyyən Allahın həqiqi oğlu (Allahı tənzih edirik) mənasını vermir.

Xristianlığa sonradan daxil edilmiş və tövhid inancını yox etməyə yönəlmiş bu yanlış və olduqca təhlükəli iddia, zaman keçdikcə xristianlıq dininin ən böyük tələbi və şərtinə çevrilmiş və hətta bu inanca qəbul etməyənlər dindən çıxmış insanlar hesab edilmişdirlər. Bu, üçləməni müdafiə edən bəzi rahiblərin rəhbərliyi altında sanki təzyiq və zorlama üsulu ilə cəmiyyətlərə qəbul etdirilməyə çalışılmış, xristianlıq dininə zorla daxil edilmişdir. Təslis inancına qarşı çıxanlar ciddi şəkildə cəzalandırılmış, ölkələrindən çıxardılmış, hətta öldürülmüşdürlər [mövzuyla əlaqədar ətraflı məlumat toplamaq üçün baxın: *"Hz. İsa (ə.s) Allahın oğlu deyil, Allahın Peyğəmbəridir", Adnan Oktar, www.globalkitap.com].*

Bunu əhəmiyyətlə vurğulamaq lazımdır ki, xristianlığa sonradan daxil edilmiş təslis inancı və ya bəzi xristianların deyimi ilə üç üqnum inancı, **nə Tövratda nə də İncildə yer alır**. İncilin heç bir yerində təslis ifadəsi keçmir, lakin buna baxmayaraq, təslis dinin şərti hesab edilir. Halbuki dinin şərti olaraq zorla qəbul etdirilməyə çalışılan və hz. İsa (ə.s)-ı Allahın

oğlu olaraq göstərməyə çalışan bu inanc, çox böyük yanılma və çox böyük təhlükədir. Xristian qardaşlarımızın əksəriyyəti bu təhlükənin ölçülərini tam bilmirlər. Uca Allah Quranda, bu təhlükənin böyüklüyünü belə təsvir edir:

**Onlar: “Mərhəmətli Allah özünə övlad götürmüşdür!” dedilər.**

**Siz olduqca ÇİRKİN CƏSARƏT göstərdiniz.**

**BUNDAN AZ QALDI GÖYLƏR PARÇA-PARÇA OLSUN, YER YARILSIN VƏ DAĞLAR DAĞILIB UÇSUN**

**Mərhəmətli Allaha övlad isnad etdiklərinə görə.**

**Mərhəmətli Allaha özünə övlad götürmək yaraşmaz.**

**Göylərdə və yerdə olanların hamısı Mərhəmətli Allahın hüzuruna ancaq bir qul kimi gələcək. (Məryəm surəsi, 88-93)**

Allah bu cəsarəti, bundan ötrü az qala göylərin parça-parça olacağı və dağların dağılıb uçacağı böyük cəsarət kimi xarakterizə edir. Səmimi xristianlar, Allahı qəzəbləndirən bu böyük təhlükəni mütləq görməlidirlər. İncilə əsrlər sonra əlavə olunmuş və bütün reaksiyalara baxmayaraq, böyük fitnə mühiti içində, zorakı yolla qəbul etdirilməyə çalışılmış təslis inancının əslində həqiqi İncillə tamamilə ziddiyyət təşkil etdiyini görməlidirlər. Əhkamlardan xilas olub ağıllı qiymətləndirmə aparmalıdırlar.

Əlbəttə ki, "təhlükəni görün" demək, həyatı boyu təkcə təslis mövzusunda təlim almış bir xristian üçün kafi izah olmaya bilər. Məhz buna görə də, təslis iddiası və bunun kimi xristianlıq inancına sonradan daxil olma ehtimalı ola biləcək mövzular ətraflı, İncil keçidləri əsasında və dəlillərlə izah olunmalıdır. Bu dəlillər kitabın irəliləyən səhifələrində təqdim edilir. Kitabda, üçləmə mövzusuyla əlaqədar bundan sonrakı açıqlamalar üç ayrı hissədə ələ alınacaq.

Bunlardan birinci hissə, üçləmənin İncilə və xristianlıq inancına sonradan daxil edildiyini sübut edən tarixi məlumatlardan ibarətdir. Həmçinin bu hissədə, təslis anlayışının Tövrata əsaslanan hər hansı təməli olmadığı mövzusuna da toxunulacaq.

İkinci hissədə isə, səmimi xristianları İncil və Quran ayələri barəsində düşünməyə və bəzi həqiqətləri görməyə yönəltmək məqsədi qarşıya qoyulur. Xristian qardaşlarımız bu sətirləri oxuduqları vaxt, səmimi bir dindarın niyə üçləməyə inanmamalı olduğunu anlayacaq və bunun Allahın qanununda əsla ola bilməyəcəyini açıqca görəcək.

Üçüncü hissədə isə, ağıl və vicdanla baxan bir insanın həyatını tamamilə dəyişdirəcək bir həqiqətdən bəhs edilir. Bu, maddə barəsindəki həqiqət mövzusudur. Maddə həqiqi

mahiyyəti haqqında verilən məlumatlar əsasında təcəlli anlayışı mükəmməl şəkildə aydın ola biləcək və üçləmənin zorla qəbul etdirilməyə çalışıldığı fikri təməl tamamilə ortadan qaldırılmış olacaq.

## Quran özündən əvvəlki kitabları təsdiqləyir və Ondan kitab əhli də məsuldur

Bu mövzuyla əlaqədar açıqlamalara keçmədən əvvəl, olduqca mühüm bir xüsus çox yaxşı vurğulanmalıdır. Əlinizdəki kitabda müxtəlif mövzuların başa düşülməsi üçün, İncildən dəlillərlə yanaşı Qurandan da dəlillər verildiyi görüləcək. Bunun səbəbi, **Quranın əslində müsəlmanların olduğu kimi, xristianlar və yəhudilərin də kitabı olmasıdır.**

Quran, göndərilən son haqq kitabdır. Qorunmuşdur. Bundan ötrü də, onda heç bir ziddiyyət və tutarsızlıq yoxdur. Bu mövzuda Rəbbimiz Peyğəmbərimiz (s.ə.v)-ə bunu vəhy etmişdir: **"Sənə oxudacağıq, sən də unutmayacaqsan"** (Əla surəsi, 6). Allah Quranı qoruduğunu: **"Həqiqətən, bu, bir Qurani Kərimdir, qorunub saxlanılan Yazıdadır (Lövhi-məhfuzdadır)"** (Vaqiə surəsi, 77-78) ayələriylə də bildirmişdir.

Quran saf vəhydir. Eynilə Tövrat və İncilin səhih hissələri kimi insanın içinə fərəh və aydınlıq verər. Ağlı və vicdanı ilə baxan bir insan bunu dərhal görər. Quranı oxuyan kimi bunu anlayar. Başqa dəlilə ehtiyac yoxdur. Heç bir vicdan Quranın gözəlliyi və doğruluğu qarşısında dayana bilməz. Quran; fövqəladə üslubu, heyrətamiz dəqiqliyi, vicdana və ruha mükəmməl xitab etməsi, dürüst açıqlamaları, səmimi izahları, mükəmməl sübutları və özündə heç bir ziddiyyət olmaması kimi xüsusiyyətlərlə oxucuda dərhal güclü qənaət meydana gətirər. Haqq kitab olduğu çox bəllidir. Uca Allah bunu, Qurana xas yaradılmış və heyranlıq oyandıran Quran möcüzələri ilə də gücləndirmişdir (mövzu ilə əlaqədar ətraflı məlumat toplamaq üçün baxın: *"Quran möcüzələri 1-2"*, Adnan Oktar, *www.globalkitap.net)*

Xristianların Quranla əlaqədar bilməli olduqları mühüm bir həqiqət var: Quran; özündən əvvəlki kitabların hökmlərini aradan qaldırmaq üçün endirilməmişdir. **Əksinə <u>Quran, Tövrat və İncildəki haqq hökmlərin doğruluğunu təsdiqləmək, haqqı və doğrunu göstərmək</u> məqsədiylə endirilmişdir.** Dolayısilə bir müsəlman üçün Qurandan əvvəlki haqq kitabların varlığını inkar etmək haramdır (bəzi müsəlmanlar bunun əksini müdafiə edə bilərlər, lakin onlar Quran barəsində məlumat sahibi olmadıqlarından ötrü İslamı da tanımayan bəzi məlumatsız radikal zehniyyətdəki insanlardır. Burada bəhs edilən radikalların məntiqinə görə deyil, Quranın aydın ayələrinə görə açıqlamalar verilir). Müsəlmanlar, Qurandakı vəhyin tələbi olaraq bütün peyğəmbərləri qəbul edər və canlarından çox sevərlər. Hz. Məhəmməd (s.ə.v) bizim peyğəmbərimiz olduğu kimi, hz.

Musa (ə.s) və hz. İsa (ə.s) da bizim peyğəmbərimizdir. Quranda əmr edildiyi kimi, aralarında fərq qoymağımız qeyri-mümkündür:

**Deyin: "Biz Allaha, bizə nazil olana, İbrahimə, İsmailə, İshaqa, Yaquba və onun nəslinə nazil olana, Musa və İsaya verilənlərə, özlərinin Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə iman gətirdik. Biz onların arasında fərq qoymuruq. Biz yalnız Ona təslim olanlarıq!" (Bəqərə surəsi, 136)**

Dolayısilə bir müsəlman eyni zamanda həm **həqiqi bir yəhudi, həm də həqiqi bir İsəvidir**. Yenə Qurana görə bir müsəlman, Tövrat və İncilin Quranla üst-üstə düşən hissələrinə əməl edər. Müsəlman, bütün peyğəmbərləri sevdiyi və qəbul etdiyi kimi, haqq İncili və haqq Tövratı da qəbul etmək və Quranla üst-üstə düşən hissələrinə tabe olmaq məcburiyyətindədir.

Quran; əvvəlki haqq kitabları və peyğəmbərləri təsdiqlədiyindən, **həqiqi yəhudilik və həqiqi xristianlıq Quranda bildirilib**. Dolayısilə həqiqi İsəvilik və real yəhudilik, ancaq Quranı qəbul etmək və Məhəmmədi olmaqla mümkündür. Məhz bundan ötrü də, **Qurandan təkcə müsəlmanlar deyil, bütün yəhudilər və bütün xristianlar da məsuldurlar.**

Allah Quranı, Kitab əhli (yəhudilər və xristianlar) üçün bir nur və açıq-aydın bir kitab olaraq göndərdiyini bir Quran ayəsində belə bildirmişdir:

**Ey Kitab əhli! Artıq sizə Kitabdan gizlətdiyiniz şeylərin çoxunu bəyan edən və bir çoxunun da üstündən keçən Elçimiz gəlmişdir. Artıq sizə Allahdan bir nur və açıq-aydın bir Kitab gəldi. (Maidə surəsi, 15)**

Quranın, İncil və Tövratı təsdiqləyici olaraq göndərildiyi həqiqəti ayələrdə belə bildirilir:

**De: "Cəbrailə düşmən olan kəs bilsin ki, Allahın icazəsi ilə Onu (Quranı) özündən əvvəlkiləri (Tövrat və İncil) təsdiqləyən, möminlərə doğru yol göstərən və müjdə verən bir kitab kimi sənin qəlbinə o nazil etmişdir". (Bəqərə surəsi, 97)**

**O, sənə Kitabı həqiqət olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etdi. (Ali İmran surəsi, 3)**

Bütün bu ayələrdən Quranın; xristianlar və yəhudilərin, öz kitablarını təsdiqləyən, onlara doğru və yanlışın nə olduğunu göstərən, ixtilafa düşdükləri məsələləri həll edən, hər şeyin ən mükəmməl açıqlamasını tapacaqları bir kitab olaraq endirildiyi aydındır. Xristian və yəhudilərin Qurana tabe olmalı olduqları, digər bir Quran ayəsində belə bildirilmişdir:

**Ey Kitab verilmişlər (yəhudilər və xristianlar)! Üzləri sıyırıb dümdüz edərək arxalarına çevirməmişdən, yaxud şənbə əhlini lənətlədiyimiz kimi onları da lənətləməmişdən öncə yanınızda olanı (Tövrat və İncili) təsdiqləyici kimi nazil etdiyimizə (Qurana) iman gətirin! Allahın əmri mütləq yerinə yetəcəkdir. (Nisa surəsi, 47)**

Digər bir ayədə, Qurana tabe olmağa dəvət edildiyi halda, təkcə öz kitablarına tabe olmaqda israr edən Kitab əhli Qurana dəvət edilir, Quranın öz kitablarını təsdiqləyici olaraq göndərildiyi xatırladılır:

**Onlara: "Allahın nazil etdiyinə inanın!" deyildikdə, onlar: "Biz özümüzə nazil edilənə inanırıq" deyib onun ardınca gələni (Quranı) inkar edirlər. Halbuki O (Quran) onların yanında olanı təsdiqləyən bir həqiqətdir. De: "Əgər siz inanan idinizsə, bəs nə üçün əvvəllər Allahın peyğəmbərlərini öldürürdünüz?" (Bəqərə surəsi, 91)**

Uca Allah, bundan əvvəl Tövrat və İncilin hidayət mənbəyi olduğunu, lakin artıq əsil hidayət mənbəyinin digər kitabların bütün səhih açıqlamlarını təsdiqləyən Quran olduğunu da ayələrdə bizə bildirir:

**O, sənə Kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etmişdi. Onlar bundan (Quran) əvvəl insanlara doğru yolu göstərən rəhbərdilər. Doğrunu yanlışdan ayırd edəni (Furqan) də O nazil etdi. Şübhəsiz ki, Allahın ayələrini inkar edənlər üçün şiddətli bir əzab vardır. Allah Güclüdür, intiqam almağa qadirdir. (Ali İmran surəsi, 3-4)**

Quranın bu xüsusiyyəti digər bir ayədə təkrar ifadə edilir, eləcə də, eyni ayədə Quranda hər şeyin izah olunduğu və həqiqi iman əhli üçün hidayət olduğu da bildirilir:

**Onların rəvayətlərində təmiz ağıl sahibləri üçün bir ibrət vardır. (Bu Quran) uydurulacaq bir kəlam deyildir. Ancaq özündən əvvəlkiləri təsdiqləyən və hər şeyi müxtəlif**

**formalarda izah edəndir; iman gətirən bir camaat üçün hidayət və mərhəmətdir. (Yusif surəsi, 111)**

Allah Quranda yəhudilərə belə səslənir:

**Sizdə olanı (Tövratı) təsdiqləyici kimi nazil etdiyimə (Qurana) iman gətirin və onu inkar edənlərin ən birincisi olmayın! Mənim ayələrimi az bir dəyər qarşılığında dəyişməyin və yalnız Məndən qorxun. (Bəqərə surəsi, 41)**

Xristian qardaşlarımız bu xüsusi yanlış anlamamalıdırlar: **Yuxarıdakı açıqlamalarla heç bir xristiandan İncilə və hz. İsa (ə.s)-a bağlılığı tərk etməsi tələb olunmur.** Belə bir şeyi tələb etmək müsəlmanlar üçün haramdır. Dinimizə görə, hz. İsa (ə.s)-ı və ya İncilin varlığını inkar edən bir insan dindən çıxmış olar. Buradakı dəvət, xristianların Quranı anlamaları, Ona inanmaları və özlərinə Qurandan gətirilmiş dəlillərə razı qalmaları üçün edilən bir dəvətdir. Bu, xristianların daha mükəmməl xristian olmaları, hz. İsa (ə.s)-ı daha çox sevmələri üçün edilən bir dəvətdir. Çünki bir xristian, təkcə Məhəmmədi olacağı, Quranın haqq kitab olduğuna inanacağı təqdirdə öz dinini daha yaxşı anlayacaq və hz. İsa (ə.s)-ı tam mənasıyla sevə biləcək.

Xristian qardaşlarımız bu mühüm xüsusa diqqət yetirməlidirlər: **Qurana tabe olmaq və hz. Məhəmməd (s.ə.v)-ə iman gətirmək, xristianların əlindən hz. İsa (ə.s)-ı almaz. Tam əksinə onları bu mübarək peyğəmbərimizə daha da yaxınlaşdırar.** Quranı oxuyan və qəbul edən bir insan, həm mükəmməl bir İsəvi, həm mükəmməl bir yəhudi, həm Nuhi, həm İbrahimi, həm Yusifi, həm də Məhəmmədi olar. Bütün peyğəmbərləri qəbul etmiş, bağrına basmış, tam iman əhli olmuş olar. **Özlərinə doğrunu göstərən, öz kitablarını təsdiqləyən, özləri üçün böyük hidayət mənbəyi olan Quranın varlığı və qətiyyən dəyişməmiş olması, Kitab əhli üçün də çox böyük nemətdir.**

Necə ki, Allah ayəsində, Qurana tam tabe olan Kitab əhlindən bəhs etmiş və onları axirətdə Qatından veriləcək mükafatla müjdələmişdir:

**Həqiqətən, Kitab əhlindən Allaha; sizə nazil edilənə və özlərinə nazil edilənə (Allaha dərin hörmət göstərənlər olaraq) iman gətirənlər var. Onlar Allahın ayələri qarşılığında az bir dəyəri satın almazlar və öz Rəbbləri qatında mükafatları var. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir. (Ali İmran surəsi, 199)**

Kitabın irəliləyən bölmələrində Qurandan verilən dəlillər buradakı məlumatlar

əsasında qiymətləndirilməlidir.

## Peyğəmbərimiz (s.ə.v)-in səhih Tövratın oxunmasını təşviq etdiyinə dair hədislər

*Müslim belə nəql etmişdi: "Əbu Hüreyrənin şahidliyi altında hz. Peyğəmbər (s.ə.v)-in belə söylədiyini nəql etmişdir: "Hz. Məhəmməd (s.ə.v) əvvəllər demişdir ki, Kitab əhlindən olanlar Tövratı ibrani dilində oxuyurdular və müsəlmanlar üçün ərəb dilinə tərcümə edirdilər"". (Mişkatu'l Masabih, 1-ci kitab, 6-cı bölmə, səh. 42)*

*Əl-Hafiz əz-Zəhəbi belə yazır: "Yəhudilikdən İslamiyyətə qayıdan Abdullah İbn Salam hz. Peyğəmbər (s.ə.v)-in yanına gəldi və ona: "(Dünən gecə) Quranı və Tövratı oxudum" dedi. O da ona belə cavab verdi: "Bunu bir gecə oxu və digərini də başqa bir gecə oxu". (Al-Thalabi, Al-İman al-Thalabi Tathkarar al-Huffadh, I cild, səh. 27)*

*"Hz. Məhəmməd (s.ə.v)-in yaxın ətrafından olan Abdullah İbni Əmr, tez-tez Tövrat oxuyarmış. Bir gecə yuxusunda bir əlində bal, digərində yağ tutduğunu, bəzən bal tutan əlindən, bəzən də yağ tutan əlindən yediyini görər. Abdullah İbni Əmr yuxusunu hz. Məhəmməd (s.ə.v)-ə danışar. Hz. Məhəmməd (s.ə.v), Abdullahın yuxusunu iki kitab, yəni bəzən Tövrat, bəzən də Quran oxuması kimi yozar". (Buhârî, Sahîh-i Buhârî, VI cild, 987. hadis, səh. 439)*

*Əbu Səid əl-Hudridən belə rəvayət olunur: "Peyğəmbərimiz (s.ə.v)-ə: "Ey Allahın Elçisi! İsrailoğullarından götürə bilərikmi?" dedik. O da belə buyurdu: "Bəli, İsrailoğullarından da götürə bilərsiniz, problem yoxdur. Onlardan bir şey götürsəniz, bilin ki, yanlarında daha maraqlı məlumatlar da var". (Hanbel, Müsned, 111/12, hadis no:11034)*

*Abdullah ibn Əmr ibn Asdan belə rəvayət olunur: "Rəsulullah belə buyurdu: "İsrailoğullarından da götürə bilərsiniz, problem yoxdur"". (Hanbel, Sahih Müsned, 11/159, H.no: 6486)*

# I Fəsil

# Tarixi mənbələrə görə İncil zaman keçdikcə təhrif edilmişdir

## Xristianlar İncilin dəyişdirildiyinə ehtimal verməklə dindən çıxmazlar

Xristian qardaşlarımızın böyük əksəriyyəti, İncilin zaman keçdikcə dəyişdirildiyi məsələsinə ciddi şəkildə reaksiya verir və bunu əsla qəbul etmirlər. Çünki bu vəziyyəti bir cür "dindən çıxmaq" kimi qiymətləndirirlər. Əlbəttə ki, xristianların tabe olduqları kitabın təhrif olunduğuna dair iddiaları reaksiya ilə qarşılamaları aydın məsələdir. Lakin bunun əsla dilə gətirilməməli və "dindən çıxmağa" səbəb olacaq qəti hökm olub-olmadığının aydın ola bilməsi üçün, bir qədər düşünülməli, xristianlıq tarixinə baxılmalı və bütün bunlar əsasında İncil yenidən araşdırılmalıdır.

Bir daha əhəmiyyətlə ifadə etməli olsaq İncil, müsəlmanlar olaraq bizim də kitabımızdır. Dolayısilə İncilin dəyişdirilmiş və yanlış şərh olunmuş olması bizim arzulayacağımız bir şey deyil. Lakin bu hal yaşanmışdır və bu, bizə, Quranda da xəbər verilmişdir. Belə olan halda, bu dəyişməni göstərən dəlillərə və tarixi hadisələrə baxılmalıdır. Əlbəttə ki, bu vəziyyət əsil İncilin yox olduğu mənasını verməz. İncilin əsli, qorunmuş halda dövrümüzə qədər gəlib çatmışdır. Hazırda gizlənmiş vəziyyətdədir və Allahın icazəsi ilə mütləq tapılacaq. Dolayısilə mühüm məsələ, İncilin haqq hökmlərini görə bilmək, Qurana görə qiymətləndirmək, eləcə də, ağıllı və vicdanlı şəkildə düşünməkdir.

Hal-hazırda xristian qardaşlarımız tərəfindən istifadə edilən dörd İncil haqqında mütləq bilinməli və üzərində düşünülməli bir məsələ daha var:

**Bu kitabda oxuyacağınız izahatlar, müsəlmanların etdiyi çıxarışlar və ya ortaya atdığı iddialar deyildir. Tam əksinə kitabda izah edilənlər, xristianların öz mənbələrinə əsaslanır.**

Daha əvvəl, *"hz. İsa (ə.s) Allahın oğlu deyil, Allahın Peyğəmbəridir"* adlı kitabımızda ətraflı şəkildə izah etdiyimiz xristianlıq tarixinə dair məlumatlara, burada yalnız xatırlatma olması məqsədiylə bəndlər halında toxunulacaq:

## Tarixi mənbələrə görə xristianlığın yayılması və təslis inancının kökü

- İlk dövr xristian sənədləri ilə xristian camaatlarını araşdırdığımız vaxt, hz. İsa (ə.s)-ın; **Allahın varlığı və vahidliyi mövzusunda nə hz. Musa (ə.s)-dan, nə də hz. Məhəmməd (s.ə.v)-dən fərqli bir təlim gətirmədiyini görərik.**

- Xristianlıq hz. İsa (ə.s)-dan sonra həvarilər tərəfindən yayılmışdır. Onlar, xüsusilə

Orta Şərq, Qüds, Antakya və Urfa kimi tövhid inancının hakim olduğu bölgələrdə təbliğlə məşğul olublar. Bu bölgələr peyğəmbərlərin zühur etdiyi bölgələr olduğu üçün, **onsuz da tövhid inancından xəbərdar olan bir çox insan tezliklə xristianlığı seçmişdir.**

- O dövrə qədər mövcud olmayan təslis inancının xristianlığa yerləşməsi isə, hz. İsa (ə.s)-dan çox sonra, xristianlığın Yunan-Roma bütpərəstliyinin hakim olduğu bölgələrdə yayılmasıyla ortaya çıxmışdır.

- Bunun səbəbi, Misirdəki İskəndəriyə, Yunanistan, İtaliya və Anadolu kimi bölgələrdə bütpərəstlikdən imtina etmiş xristianların, qədim inanclarının təsiriylə təslis adlandırdıqları xristianlıq forması meydana gətirməyə başlamalarıdır.

## Bütpərəstlik təslis inancına necə zəmin hazırladı?

 Tarix boyunca bütpərəstlər, bütlər arasında həmişə üç bütü digərlərindən üstün hesab ediblər. Bunlardan ən böyüyünü Ata, digərini Ana, digərini isə Oğul kimi qəbul ediblər. Buna dair bəzi nümunələr belədir:

✷ Hind bütpərəstliyində təslis anlayışı var. Bu üçlü tanrı, Brahma, Vişnu və Şuvadır.

✷ Quranda, ərəb bütpərəstliyində də təslis fikrinin olduğuna işarə edilir: **“Siz tapındığınız Lat və Uzzanı gördünüzmü? Həmçinin üçüncü olan Mənatı da?”** (Nəcm surəsi, 19-20)

✷ Xristianlıqdan əvvəlki dövrdə, Suriya və ətraf bölgələrdə də üçlü tanrı inancının geniş yayıldığı məlumdur.

✷ Eynilə Misir bütpərəstliyində Osiris (Ata), İsis (Ana) və Horus (oğul) **üçlü tanrısı** var.

✷ Fars bütpərəstliyi olan **mitraizm də üçləməyi müdafiə edən batil bir inancdır.** Eradan əvvəlki əsrlərdə Anadoluda və Avropada geniş yayılmışdır.

✷ Roma və Yunan bütpərəstliyində də təslis fikri və inancı var. Zevs, Yupiter və Apollon, Qədim Yunanistanın **üçlü tanrılarıdır**. Onsuz da xristianlığa təslis fikrinin də Roma və Yunan bütpərəstliyindən daxil olduğu məlumdur.

✷ Yunan mifologiyasında çox sayda Ata və Oğul tanrı var. Hətta Platon bu təslisə müəyyən forma qazandırmış və saxta tanrılarının **"loqos" (söz) adlı bir oğlu və "sofiya" (müdriklik) adlı bir qızı** olduğunu müdafiə etmişdi. Məlum olduğu kimi, xristianlıqda **hz. İsa (ə.s) üçün işlədilən ifadələrdən biri də "loqos"dur.**

Amerikalı teologiya professoru dr. Pol R. Eddi (Paul R. Eddy) də bu mövzuya diqqət çəkmiş və *"was early christianity corrupted by hellenism?"* (erkən xristianlıq ellinizm

tərəfindən təhrif olundu mu?) başlıqlı məqaləsində bu açıqlamaları vermişdir:

*Babilə qədər gedib çıxan qədim dünya tarixi boyunca, üçlü qruplaşdırmalarla bütpərəst tanrılara tapınmaq geniş yayılmışdı. Bu təsir özünü, hz. İsadan əvvəlki və sonrakı əsrlərdə Misirdə, Yunanistanda və Romada da çox göstərirdi. Həvarilərin ölümündən sonra, bu cür bütpərəst inanclar xristianlığı zəbt etməyə başladı...* ***Ptolomey, təslisin hazırkı formasını öyrətməmiş olsa da, onun fəlsəfələri bu doktrina üçün, müəyyən ön hazırlıq xüsusiyyətində idi*** *(dr. Paul R. Eddy, Was Early Christianity Corrupted by 'Hellenism'?, http://www.xmark.com/focus/Pages/hellenism.html).*

Ümumiyyətlə bütpərəstlikdə, xüsusilə də Yunan və Roma bütpərəstliyində üçlü tanrılardan ən böyüyünün ölümlü qadınlarla evləndiyinə və bu evlilikdən həmişə oğlan uşağı dünyaya gəldiyinə və bu uşaqların da tanrı olduğuna inanılardı.

- Ölümlü bir ananın dünyaya gətirdiyi tanrı uşaq inancı bu gün xristianlıqdakı təslis inancı ilə, ciddi bənzərliklər daşıyır.

Yunan fəlsəfəsində filosoflar fiziki dünya barəsində fikir yürüdərək öz ağıllarınca vahid tanrı fikrinə gəliblər. Lakin dəyişməz və sonsuz qəbul etdikləri tanrının, necə olub da sonlu, dəyişən varlıqları yarada bildiyini qavraya bilməyiblər. Bundan ötrü də, kainatın yaranmasını **maddi bir varlıq** vasitəsilə izah etməyə çalışıblar.

Buna görə də, məsələn, bir uşaq ata-anadan törədiyi kimi, kainatın meydana gəlməsi üçün də, tanrı ilə varlıqlar arasında olması lazım gələn vasitəçilər, yəni iyerarxik tanrı xüsusiyyəti daşıyan varlıqlar olmalı olduğunu iddia ediblər. Bu iyerarxiyaya görə ən üst tanrı, avtoriteti və başlanğıcı (yəni yaradılışı), digərləri zaman və məkana aid dünya işlərini, ikinci səviyyəli tanrılar isə, cəza vermə və mükafatlandırma kimi işləri yerinə yetirirlər.

Bu saxta tanrılar və tanrı xüsusiyyəti daşıyan varlıqlar, ümumiyyətlə ən əhəmiyyətlisindən başlamaqla, həmişə "üçlük" kimi müəyyənləşməklə xarakterizə olunublar. Dolayısilə təslis və ya üçlük inancı, bütpərəstlik dövründə yaranan geniş yayılmış bir inanc formasıdır.

Uilyam Varner (William Varner), hz. İsa (ə.s)-ın təbliğini alan gentilelərin (Bibliyada qeyri-yəhudilər üçün işlədilən bir ifadədir. Hz. İsa dövründəki Romalılar üçün işlədilər) dünyagörüşlərinin bu fikirlər çərçivəsində formalaşdığını söyləyir və sözünə belə davam edir:

*Onların Allahın oğlu fikirləri çox tanrılı düşüncə üzərində qurulmuşdu. Bundan ötrü də, bu fikirlərini hz. İsa və həvarilərinin tək Tanrılı inanclarına çevirmələri olduqca çətindi. Şərq və ellin düşüncələrinin hakim olduğu, dolayısilə kralların və digər mübarək insanların Allahın oğlu kimi adlandırıldığı bu bölgədə, hz. İsa da Allahın oğlu elan edildi. (Uilyam C. Varner (William C. Varne), "Jesus the Son of God")*

## Təslis inancı ilə Yunan mifologiyasındakı Dionis xarakteri arasındakı bənzərliklər

Təslis tərəfdarlarının hz. İsa (ə.s)-a dair verdikləri açıqlamalar, e.ə. 1000-ci ilə qədər davam etdiyi təxmin edilən, Yunan mifologiyasındakı Dionis xarakteri ilə də bənzərliklər daşıyır:

- Dionis, **ölümsüz tanrı atadan meydana gələn ölümlü tanrı oğuldur.**
- Dionis, Semela adlı **ölümlü bir anadan** dünyaya gəlmişdir.
- **Ölümlü insanlar tərəfindən öldürülmüşdür.**
- Dünyaya **xilaskar olaraq göndərilmişdir.**
- Dionis bədənlə öldükdən sonra yenidən bədənlə diriləcək.
- Dionis yarı Tanrı olduğu halda insanlar arasında **insan görünüşündə və insanların sahib acizliklərlə yaşamışdır.**
- Dionis özünün insanlar tərəfindən tutulub öldürülməsinə **azad iradəsi ilə, bir fədakarlıq olaraq** icazə vermişdir.
- Qədim Yunanistanda Dionis ardıcılları, Dionisi xatırlamaq və minnətdarlıq üçün **ət yeyib şərab içirdilər.** Bunu Dionisin ətini yeyib qanını içməklə bir tutardılar və bunun onları Dionisə yaxınlaşdıracağına inanardılar. Bu bütpərəst ayin Yuhanna İncilində qəribə şəkildə hz. İsa (ə.s)-a uyğunlaşdırılmışdır:

*"Sizə doğrusunu söyləyim, bəşər oğlunun bədənini yeyib qanını içmədikcə, sizdə həyat olmaz. Bədənimi yeyənin, qanımı içənin sonsuz həyatı var və mən onu son gündə dirildəcəyəm. Çünki bədənim əsil yemək, qanım da əsil içkidir. Bədənimi yeyib qanımı içən məndə yaşayar, mən də onda". (Yuhanna 6:53-56)*

Başqa hissəyə görə də, İsa öz əliylə həvarilərinə şərab içirdər və bunun öz qanı hesab edilməsini söyləyər:

*"Yemək vaxtı İsa əlinə çörək aldı, təşəkkür duasını edib çörəyi böldü və tələbələrini verdi. "Alın, yeyin, bu mənim bədənimdir" dedi. (Matta 26: 26)*

*"Sonra bir kasa götürüb şükür etdi və bunu tələbələrinə verərək: "Hamınız bundan için, çünki bu mənim qanımdır, günahların bağışlanması üçün bir çoxları üçün axıdılan müvaqilə qanıdır" (Matta 26:27, 28)*

## Bütpərəst inanca paralel yaradılan təslis inancı necə yayıldı?

 Xristian tarixçiləri və ilahiyyatçıları, təslis inancının ilk dəfə Pavel (Pavlus) tərəfindən yayıldığı mövzusunda həmfikirdirlər. Bu mövzudakı tarixi sənədlər və Pavelin (Pavlus) 4 İncildə yer alan məktubları nəzərə alındıqda, bu iddianın doğruluğu aydın ola bilir.

 **Pavel (Pavlus) İsa (ə.s)-ın həvarisi deyildir.** Nəinki həvarisi olmamış, hətta sağlığında ona şiddətlə qarşı çıxmışdır. Hz. İsa (ə.s)-ın göyə alınmasından dörd il sonra qəfildən görmə gücünün artdığını iddia edərək özünü həvari elan etmiş və ilk xristian camaatı arasına daxil olmuşdur.

 Pavelin (Pavlus) məqsədi xristianlığı Qərbdə yaya bilmək olmuşdur. Bunu edə bilmək üçün, həmişə Qərbdə müxtəlif bölgələrə məktublar göndərmişdir. Bu məktublardan 14-ü "dəyişdirilə bilməz" müqəddəs mətn kimi İncilə əlavə olunmuşdur.

 Pavel (Pavlus), yəhudi xalqının danışdığı arami və ibrani dilindən başqa **Yunan dilində də yaxşı danışan bir Roma vətəndaşı olmuşdur. Romalıları yaxşı tanımış və onlara qarşı necə bir siyasət yürüdəcəyini yaxşı bilmişdir.**

 Dolayısilə Pavel (Pavlus), Qərbdə fikirlərini yaya bilmək üçün, **həmin bölgənin bütpərəst inancına uyğun bir xristianlıq inancı meydana gətirmişdir** (təbiidir ki, izahatlarının bəhs olunan bütpərəst cəmiyyət tərəfindən yanlış şərh olunma ehtimalı da var). Ata və Oğul anlayışlarını Roma bütpərəst inancına uyğun hala gətirmiş və bütpərəstlikdəki ata və oğulların meydana gətirdiyi üçlü tanrı inancına bənzər bir məhfum meydana gətirmişdir. Bunu xristianlığın bu üsulla asan yayılacağını ümid etdiyi üçün, etmiş olma ehtimalı yüksəkdir.

 İncilə daxil edilən **məktublarında, Ata və Oğul ifadələri tez-tez işlənmişdir.**

 Xristianlığa daxil edilmiş bu bütpərəst inanc, (Qərbin bütpərəst fikirləriylə uyğun gəldiyi üçün) **asanlıqla bölgədə yayılmışdır**. Zamanla, Qərbi Roma imperiyası və Bizans torpaqlarının maddi və siyasi cəhətdən də güclənməsi nəticəsində, Şərq xristianlığının tövhid anlayışı üzərində müəyyən təzyiq siyasəti özünü göstərmişdir. Şərq xristianlığının tövhid inancı yox edilməyə çalışılmış və bunun üçün göstərilən səylər də böyük ölçüdə müvəffəqiyyətlə nəticələnmişdir.

## Şuralarda, "səs çoxluğu ilə" yaradılan İncil mətnləri

 Təslis inancı ilk dəfə və rəsmi şəkildə xristianlığa **325-ci ildə toplanılan İznik şurası** ilə daxil edilmişdir. Bu şura, Roma imperatoru Konstantinin iştirakı ilə

gerçəkləşmişdir.

- Belə bir şuranın toplanılma səbəbləri bunlardır:

✷ *Roma imperiyası ərazisinin xristianlığın yayıldığı bölgələrə doğru genişlənməsi.*

✷ *Bu genişlənmədən ötrü bütpərəstlərllə xristianlar arasında narahatlıq yaranması və imperiyanın iki yerə parçalanma təhlükəsi ilə üz-üzə gəlməsi.*

✷ *İmperiyanın iki yerə parçalanmaması üçün, qədim bütpərəstlik dini ilə, yeni İsəvilik arasında birləşmiş inanc forması yaradılmalı olduğuna inanılması və bundan ötrü müəyyən işlər görülməsi.*

- Yuxarıda bəhs etdiyimiz kimi, bütpərəst torpaqlar üzərində baş verə biləcək bir qarşıdurmanın xristianlığın dəyişdirilməsi ilə mümkün olacağı zənn edilmişdir. İznikdə toplanılan bu şuradan sonra, daxili qarışıqlığın həllinin **İncilə təslis inancının daxil edilməsi olduğu qərarlaşdırılmış və bu qərar tətbiq olunmuşdur.**

- Həmin bu şurada təslis inancını müdafiə edən 4 İncil səhih qəbul edilmişdir.

- Qorunub saxlanılmış bir neçə əlyazmasından başqa, tövhid inancını müdafiə edən digər İncillər isə "heretik", yəni azğın elan edilmiş və **yandırılaraq yox edilmişdir**.

- Tövhid inancının müdafiəçiləri yenə azğın bir inancı müdafiə etdiklərindən ötrü məhkum ediliblər. **Azğınlığın cəzası isə yandırılaraq edam edilməkdir.**

- **Aforoz** adı və tətbiqi, tarixdə ilk dəfə təslis inancına qarşı çıxanlar üçün, yaradılmış bir tətbiqdir. Papa hakimiyyəti, Roma və Bizans siyasətçiləri, təslis tənqidçilərini və onu rədd edənləri yandıraraq öldürmə də daxil olmaqla, müxtəlif cəzalara məhkum ediblər. Onsuz da inkvizisiya adlanan məhkəmələr bu məqsədlə qurulmuşdur.

- O dövrdə ilk və səhih yazılara əsaslanaraq İskəndəriyəli rahib Ariusun başlatdığı tövhidə əsaslanan arianlıq hərəkatı da təsirli olmuşdur. Lakin bu hadisədən ürkən **Romalılar, 411-ci ildə bəhs olunan sənəd və kitabın olduğu İskəndəriyə kitabxanasını yandırdılar.**

## Kilsənin meydana gətirdiyi "dini əhkam" və xristianlara yüklədilən buna tabe olma məcburiyyəti

- "Əhkam" sözünün dini məna qazanması, təslis tərəfdarı xristianlar tərəfindən gerçəkləşdirilmişdir.

- Dini əhkam qısaca bu deməkdir: *"Xristian inanc doktrinası yalnız və yalnız Papalıq və ya Kilsə nüfuzu tərəfindən düstura edilə bilər və ona o şəkliylə inanılması şərtdir."*

- Digər bir sözlə, bir xristianın, dininin tələbindən ötrü nəyə inanıb nəyə inanmayacağına Bibliyaya əsaslanaraq qərar verməsi qeyri-mümkündür. **Onun nəyə inanıb, nəyə inanmayacağını kilsə müəyyənləşdirər.**

- Məsələn, bir insan: "Mən üçləməni rədd edirəm və Allahın bir və tək Yaradıcı olduğuna, hz. İsa (ə.s)-ın isə onun oğlu deyil, Peyğəmbəri olduğuna inanıram" desə, o **artıq xristian olmaz**. Hər nə qədər oxuduğu Bibliyadan, apardığı araşdırmalardan bunu anlamış; ağlı, vicdanı, dərin anlayışı və düşünmə qabiliyyətindən ötrü belə doğru bir nəticəyə gəlsə də, kilsəyə görə **xristian qəbul edilməz**.

- Bir insanın "xristian" qəbul edilə bilməsi üçün vicdanı, elmi və ağlı təcrübələrinin göstərdiyi həqiqət qarşısında gözlərini yummalı və **kilsənin zəruri etdiyi şəkildə Ata, Oğul və Müqəddəs Ruh kimi xarakterizə olunan üçlük inancını qəbul etməlidir.**

- **Bu inanc formasını kilsə bu cür düstura etmişdir və buna bu şəkildə inanmaq bir xristian üçün zəruridir.**

- Məhz dini əhkam və ya digər bir sözlə, **dini zorakılıq** budur.

- Bu, hazırda xristianların böyük əksəriyyətinin əsla rədd edilə bilməz hökmü ilə qəbul etdikləri təslis inancına bu qədər sahib çıxmalarının tək səbəbini təşkil edir. Kilsə və Papa hakimiyyəti, Roma imperiyasının quruluşuna görə formalaşdığından, təslis inancının kökü də kilsə olmuşdur. Məhz bundan ötrü də, İncilin dəyişdirildiyini qəbul etmək və ya üçləməni rədd etmək **"dindən çıxmaq"** kimi qəbul edilir.

- Halbuki "dindən çıxmağı" tələb etdiyi iddia edilən bu hökmlərin hamısı hz. İsa (ə.s)-dan əsrlər sonra ortaya çıxan, **kilsənin ortaya atdığı tətbiqlərdir. Bir çox xristian qardaşımızın bundan xəbəri belə yoxdur.**

Açıq şəkildə başa düşülə biləcəyi kimi, tarixdə Papa hakimiyyəti və kilsə, həmişə Bibliya üzərində müəyyən nüfuz sahibi olublar. Hətta Bibliyaya qayıdış mənası daşıyan reformasiya və protestantlıq hərəkatlarına baxmayaraq, bu belə olmuşdur.

## Xristianlığa sonradan və müxtəlif mərhələlərlə əlavə olunmağa çalışılan təslis inancı

- **"Təslis inancı" heç bir müqəddəs mətndə yoxdur.** Nə ad, nə də təlim etibarilə, xristianlığın (yaxud digər haqq dinlərin) heç bir müqəddəs təlimində yer almır. Bunu xristianların özləri də qəbul edirlər.

- Təslis inancı, tarixin gedişatında uydurulmuş və İncilə də müxtəlif mərhələlərlə yerləşdirilmişdir. Bunlar belə yekunlaşdırıla bilər:

✷ Hz. İsa (ə.s)-ın tanrı olduğuna dair iddialar 325-ci ildə toplanmış İznik şurasında,

✷ Müqəddəs Ruhun tanrı olduğuna dair iddialar 381-ci ildə toplanmış İstanbul şurasında,

✷ Hz. İsa (ə.s)-ın biri bəşəri, digəri isə, tanrı xüsusiyyəti daşıyan iki təbiəti olduğuna dair iddialar isə, 451-ci ildə toplanmış Kalkedon şurasında qəbul edilmişdir.

✓ Təslis mövzusu hər nə qədər 381-ci ildə toplanmış İstanbul şurası ilə müəyyən forma qazanmış olsa da, təslis ünsürlərinin təbiəti və aralarındakı əlaqəyə heç vaxt hər kəsin razılığa gəldiyi qəti çıxış yolu gətirmək mümkün olmamışdır.

✓ Matta İncilinin "Ata, Oğul və Müqəddəs Ruh üçün vəftiz edin" cümləsindən başqa, **heç bir müqəddəs mətndə Müqəddəs Ruh sözünün, təslisin ilk iki ünsürü olan Ata və Oğul sözləri ilə birlikdə çəkildiyi tək bir cümlə belə yoxdur.**

✓ **Hətta Müqəddəs Ruhun tanrı olduğuna dair İncilin heç bir yerində, müəyyən ifadə və işarə yoxdur. Əksinə bəzi xristian mənbələrində Müqəddəs Ruhun, Quranda bildirildiyi kimi "Ruhul Qüds", yəni Cəbrayıl (ə.s) mənasını verdiyi bildirilir.**

✓ Matta İncilinin son hissəsinə 4-cü əsrdə qəbul edilən təslis inancına uyğunluq təşkil etməsi üçün 28/18, 20 kimi nömrələnən ayədə "Ata, Oğul və Müqəddəs Ruh üçün vəftiz olma əmri" **əlavə edilmişdir**.

✓ Dördüncü əsrdə rəsmiləşən təslis doktrinası, birinci əsrdə yazılan **mətnə əlavə olunmuş**, beləliklə də, bu mətnin, şuranın aldığı qərarla Matta İncilinə uyğunlaşdırılması təmin edilmişdir. Sonradan edilən bu əlavələrlə, **tövhid inancını müdafiə edən bir mətn, təslis inancını göstərən vəziyyətə gətirilmişdir.**

✓ Demək olar ki, hər kəs eyni mövzuda müxtəlif fikir sahibi olmuşdur. Bunun üçün hər kəs hər kəsi səhvlik etməklə, azğın və zındıq olmaqla günahlandırmışdır. **Hətta bəzən eyni inanca sahib təslis tərəfdarları belə müxtəlif fikirlərə sahib olublar.**

## Təslis mövzusunda kilsənin verdiyi son qərar: "Təslis ağıl və məntiq mövzusu deyildir, onu düşünüb anlamağınıza ehtiyac yoxdur"

✓ Təslis mövzusu, arxabaarxa toplanılan şuralar, görülən işlər, alınan qərarlarla həmişə yeni forma almış, İncildəki müxtəlif sözlər yenidən şərh olunmuş, **daha əvvəl rədd edilən sözlər birdən səhih qəbul edilərək İncillərə əlavə olunmuş, bəziləri isə çıxardılmışdır**.

✓ Kilsə görünməmiş dərəcədə ziddiyyətli olan bu mühitdə, təslis əhkamından

güzəştə getməmək üçün, **gətirilən yeni təklif və etirazlara uyğun hərəkət etməyə çalışmışdır.**

✓ **Təslis inancı ilə əlaqədar ziddiyyətlər və mübahisələr məsələsində, dövrümüzə qədər nəticə əldə olunmamışdır.** Bu mövzuda son qərar 1443-cü ildə toplanmış Florensiya şurasında verilmişdir. Lakin bu şurada bu mövzudakı ziddiyyət və zidlikləri ortadan qaldırmamış və mübahisə çox uzun müddət davam etmişdir.

✓ Sonu gəlməyən bu mübahisələrə son qoymaq məqsədiylə Papa hakimiyyəti, 1868-1870-ci illər arasında [hz. İsa (ə.s)-dan tam 1870 il sonra] təşkil etdiyi birinci Vatikan şurasında **təslisin AĞIL VƏ MƏNTİQ MÖVZUSU OLMADIĞINA, iman mövzusu olan bir SİRR olduğuna qərar vermişdir.** (Const. "De fide, cath", IV)

✓ Digər bir sözlə, içindən çıxılmaz hal alan təslis mövzusu; ağlın, məntiqin və səhih İncil keçidlərinin tələb etdiyi haqlı etirazları, müxalifətləri qəti şəkildə ortadan qaldırmaq məqsədiylə kilsə tərəfindən "sirr" elan edilmişdir. Yəni insanlara bu mesaj verilmişdir: **"Artıq bu mövzu üzərində düşünməyinizə ehtiyac yoxdur!".**

- Bu mövzu, irəliləyən sətirlərdə daha geniş ələ alınacaq.

## İncilin dəyişməzliyini müdafiə edən kilsənin səhih qəbul etdiyi 4 İncil üzərində rəsmi şəkildə etdiyi "əlavələr və çıxarışlar"

 Əldəki səhih qəbul edilən müqəddəs kitabələrin əlyazma nüsxələrinin ən qədimləri 3-cü əsrə qədər gedib çıxır. Yəni bunlar **hz. İsa (ə.s)-dan üç əsr sonra yazılmışdır.** Necə ki, hər bir müqəddəs mətn əlyazmalarında **nüsxə və ifadə fərqlərinin olduğu məlumdur.**

 Hətta mətnlərdə, yazıldıqları qəbul edilən ən keçmiş tarixlərdən **çox sonrakı hadisələr və insanlardan belə bəhs edilir.**

 **Yuhanna mətninin ən qədim nüsxəsi təxminən 200-ci ilə qədər gedib çıxır və sırf Yuhanna mətninin 10 000-dən artıq fərqli nüsxəsi var. Bu 10 000 fərqli nüsxə arasında olduqca ciddi əhəmiyyətıə malik fərqlərin sayı 200 000-ə çatır.**

 Qarışıqlığın qarşısının alına bilməsi üçün, **müxtəlif İncillərdə tez-tez haşiyələr qoyulduğu müşahidə edilir.** Bu haşiyələrdə bu ifadələrə rast gəlinir: "Digər keçmiş avtoritetlərə görə bu cümlə və ya söz yoxdur", "digər keçmiş avtoritetlər belə... oxuyublar", "digər keçmiş avtoritetlər əlavə ediblər" və ya "digər keçmiş avtoritetlər ardınca gələn bu sözün üstündən keçiblər" kimi.

 Holy Bible (Müqəddəs Bibliya) *(Revised Standart Version, New York Glasgow 1971)* nəşrində, Markos İncilinin ilk cümləsində, hz. İsa (ə.s)-dan "Allahın oğlu" kimi bəhs

edilir. Bu səhifənin aşağısına bir haşiyə əlavə edilmişdir və bu haşiyədə belə deyilir: **"Digər keçmiş avtoritetlər (Allahın oğlu) ifadəsini yazmayıblar".**

-  Səhih qəbul edilən 4 İncil arasında ciddi fərqlər və ziddiyyətlər var. Lakin bu fərqlilik təkcə bu İncillərlə məhdudlaşmır. **Bu İncillərin hər birinin qədim əlyazması və çap edilmiş nüsxələri arasında da fərqlər var.**

-  Bəhs olunan Mattanın mətni standart vəziyyətə gətirilərkən **onun əvvəllər çap edilmiş nüsxələrinin əlyazmalarındakı fərqlər, əskiklik və çoxluqlar istəyə uyğun seçilmişdir.** Dolayısilə hansı ifadənin doğru və etibarlı qəbul edilməli olduğunu anlamaq qeyri-mümkündür.

-  **Markos İncilinin İznik şurasında qəbul edilə bilməsi üçün, həmin bu İncilin son hissəsindəki bəzi cümlələri çıxartmaq zəruri hesab edilmişdir.** Çünki buradakı ifadələr təslis əhkamına tamamilə tərs düşür.

-  **Digər İncil yazıçılarının əsərlərindən müxtəlif hissələr götürülüb, Markos İncili üçün bitmə paraqrafı hazırlanmışdır.**

-  **Yuhanna İncilindən hz. İsa (ə.s)-ı yəhudilərin Məsihi kimi tanıdan bütün ayələr çıxardılmışdır.** Bunun yerinə fövqəlbəşər bir İsa fiquru ortaya qoyulmuşdur.

*(Prof. Dr. Mehmet Bayrakdar, Bir Hristiyan Dogması Teslis, Ankara okulu nəşriyyatı, sentyabr 2007, səh. 163)*

Bəzi təbəqələr tərəfindən Yuhanna mətninin 110-cu ildə yazıldığı qəbul edilir. Belə olan halda, Həvari Yuhanna ən azı 140-150 il yaşamamış olmalıdır ki, bu da qeyri-mümkün kimi görünür. Həmçinin Yuhanna mətnində daha sonrakı dövrlərə aid məlumatların olması da, bu mətni yazanın Həvari Yuhanna olması məsələsində şübhə yaradır.

Digər İncillərdə hz. İsa (ə.s)-ın yəhudilərin Məsihi, yəni hz. Davud (ə.s)-ın nəslindən gələn və İsraili xilas edəcək insan olduğu vurğulanıb. **Yuhanna İncilində isə, yunanlı xristianlarının xoşlamadığı bütün yəhudi məhfumlar ortadan qaldırılmışdır.** Yunan fəlsəfəsinin təsiri Yuhanna İncilində çox aydın görülür.

✓ Daha sonrakı illərdə yenə kilsə tərəfindən saxta qəbul ediləcək müxtəlif İncillər və bu İncillərə aid ayələr, uzun müddət ərzində səhih qəbul edilmişdir. Bu dövr ərzində bunlara da tabe olunmuş və bunların yanlış olduğunu iddia edənlər dinsiz qəbul edilmişdirlər.

✓ Məsələn, **4-cü əsrdə bir xristian məzhəbi, İncildə yer alan kitabların sayını 23 qəbul etdiyi halda, bir neçə əsr sonra bu sayı 27-yə yüksəltmişdir.**

## Təslis mövzusundakı ziddiyyətlər, məntiqsizliklər və tutarsızlıqlardan ötrü yaranan yeni məzhəblər

✓ Müqəddəs Ruhun sonradan üçlüyün bir hissəsi olduğuna qərar verilməsinin ardınca, təslis mövzusundakı mübahisələr və anlaşmazlıqlar çox artmışdır.

✓ Bu mübahisələr nəticəsində, Müqəddəs Ruhun həm atadan, həm də oğuldan zühur etməli olduğuna dair anlayış meydana gətirilmişdir. **Bunun üçün "oğuldan" mənasını verən məşhur filioque məhfumu təslis əhkamına əlavə olunmuşdur.**

✓ Həm bundan, həm də daha sonra ortaya çıxan müxtəlif məsələlərdən ötrü, **1054-cü ildə Roma kilsəsi, katolik və pravoslav olmaqla iki məzhəbə ayrılmışdır.**

✓ Filioqueni qəbul edən katolik kilsəsi (həmçinin sonra buradan ayrılacaq protestant kilsəsi) **Müqəddəs Ruhun həm Atadan, həm də Oğuldan gəldiyini qəbul edərək** onsuz da qarışıq olan təslis inancını xeyli qarmaqarışıq vəziyyətə gətirmişdir.

✓ **Filioqueni qəbul etməyən pravoslav kilsəsi Müqəddəs Ruhun yalnız atadan gəldiyini müdafiə edir.** Bu iki kilsə arasında bu günə qədər davam edən təslis mövzusundakı ən böyük ixtilaf filioque mövzusundadır.

✓ Dolayısilə, **Müqəddəs Ruhun təslis tərəfdarları tərəfindən Tanrı qəbul edilməsi, Oğul Tanrı qəbul edilməsindən zaman etibarilə 56 il sonradır.**

Təslis qarışıqlığına çıxış yolu gətirmək üçün görülən işləri xülasə olaraq belə qeyd etmək olar: (Allahı tənzih edirik) Açıq və rəsmi şəkildə hz. İsa (ə.s)-ın Tanrı olması barədə **325-ci ildə toplanmış İznik şurasında** və Müqəddəs Ruhun Tanrı olması barədəki qərar isə, **381-ci ildə toplanmış İstanbul şurasında** verilmişdir. **431-ci ildə toplanmış Efes və 451-ci ildə toplanmış Kalkedon şuralarında,** hz. İsa (ə.s)-ın biri bəşəri, digəri isə, Tanrı olan iki təbiəti olması, **447 və 589-cu illərdə Toledoda təşkil edilən şuralarda isə,** Müqəddəs Ruhun hz. İsa (ə.s)-dan olması, yəni filioque məsələsi gündəmə gətirilmiş və İstanbul şurasında alınan qərarlar sırasına daxil edilmişdir. Buradakı qısa xülasələrdən görüldüyü kimi, hər şuradan sonra xristianlıq get-gedə qarışıq hal almışdır.

Təkrar ifadə etmək lazımdır ki, yuxarıda verdiyimiz bütün məlumatlar, (müsəlmanların deyil) xüsusilə **xristian tarixçilər və teoloqların** əldə etdiyi, ümumi qəbul edilən və dəlillərə əsaslanan məlumat və sənədlərdir. Bu məlumatlar, xristianlıq tarixinin və hazırki İncilin necə formalaşdığı məsələsində, bizə olduqca təməl məlumatlar verir. Təslis inancının əslində İncildə olmadığını sübut etmək məqsədiylə mühüm tarixi incəliklər təqdim edirlər.

Bütün bu dəlilləri gördükdən sonra bir insanın etməli olduğu şey, İncili, həmin bu tarixi incəliklərlə birlikdə qiymətləndirərək, "fikir yürüdərək", "düşünərək" doğruları anlamağa çalışmaqdır. Bu fikir yürütmə icra etməyi edə bilmək üçün aşağıdakı sualları

məntiq və vicdan daxilində qiymətləndirmək yerində olacaq:

-  Hər bir haqq dinə təkcə bir haqq kitab göndərilib. Xristianlıqda **4 ayrı İncilin olması və bunların hər birinin ayrı-ayrılıqda səhih qəbul edilməsi necə mümkün ola bilər?**

-  4 kitabın hər biri səhihdirsə, **aralarındakı ziddiyyətlər, ciddi məna boşluqları və tarixi məlumatlarda olduqca ciddi fərqlər necə meydana gələ bilər?**

-  Haqq dinə göndərilən haqq kitab, necə **bir-birindən təməl iman etiqadında fərqli olan kitablar arasından "səs çoxluğuyla"** müəyyənləşdirilə bilər?

-  Az səs çoxluğu toplayan tövhid inancını müdafiə edən İncillər və onların ilk əlyazmaları **niyə yandırılaraq yox edilib?**

-  Tövhid inancını müdafiə edənlər **niyə edam cəzasına məhkum edilib? Bu əleyhdarlığın və vəhşiliyin səbəbi nədir?**

-  4 İncil və bu İncillərlə birlikdə xristianlığa daxil edilən təslis inancı 4-cü əsrdə qəbul edilmişdir. **O vaxta qədər həmin bu İncillərin və təslisin varlığından xəbərsiz olan xristianların vəziyyəti nədir?**

-  Müqəddəs Ruh xeyli müddət sonra Tanrı qəbul edilmişdir. Bu vaxta qədər Müqəddəs Ruhu Tanrı qəbul etməmiş **kilsə də daxil olmaqla, digər bütün xristianlar günahkardırlarmı?**

-  Kilsənin səhih qəbul etdiyi mətnlərin müəllifləri Matta, Markos, Luka və Yuhanna kilsə tərəfindən "vəhy almış insanlar" kimi qəbul ediliblər. Bu insanlar, peyğəmbərdirlərmi? **Peyğəmbərlərdən başqa yerdə qalan insanların (həvari belə olsa) vəhy alması necə mümkün ola bilər?** Bu zaman həmin bu həvari **peyğəmbər xüsusiyyətinə sahib olmazmı?**

-  **Bir insanın vəhy alıb-almadığı kilsə tərəfindən səs çoxluğu ilə necə müəyyənləşdirilə bilər?**

-  **Bir insanın vəhy aldığını səs vermə yoluyla qəbul edib, sonra isə, onun yazdığı mətnlər barəsində (üzərlərində bir çox dəyişiklik apardıqdan sonra) "dəyişdirilə bilməz və dəyişməmişdir" hökmü necə verilə bilər?**

-  Əgər həmin bu 4 İncil dəyişdirilə bilməz hökmündədirsə, illər ərzində **kilsə necə bu kitablara əlavələr etmiş, bəzi yerlərini düzəltmiş, bəzi yerlərini isə, ləğv etmişdir?**

-  Kilsə tərəfindən 4 İncilə sonradan əlavə olunmuş olan hissələrə də, o dövrədək heç bir xristian əməl etməmiş mövqeyindədir. **Belə olan halda, o dövrə qədərki xristianların vəziyyəti nədir?**

-  Bir xristian necə olub da həyatını və inancını səhih İncil keçidlərinə, vicdanına və ağlına görə deyil, əksinə təkcə **kilsənin müəyyənləşdirdiyi və üstəlik, hərdənbir dəyişdirdiyi bir inanc formasına görə qaydaya sala bilər?**

-  Bütün haqq dinlərin təməli olan və digər bütün haqq dinlərdə qəti və dəqiq şəkildə ifadə edilmiş Allahın varlığı və vahidliyi mövzusunda, niyə yalnız xristianlıqda **bir-birindən fərqli bu qədər çox fikir var?**

-  Bir-birindən fərqli sayda kitab qəbul edən, bir-birindən fərqli xristian məzhəblərindən **hansı doğru yoldadır? Hansının kitabları dəyişməz və rədd edilə bilməz şəkildə səhihdir?**

-  Tək bir məzhəbdə zaman keçdikcə kitab sayı 23-dən 27-yə necə qaldırıla bilər? Hansına inanılmalı və hansı doğru qəbul edilməlidir?

Həmin bu suallara təslis tərəfdarı heç bir xristian həqiqi mənada məntiqli, ağıllı, başa düşülən, razı salan, dəqiq və konkret bir cavab verə bilmir. Təslis adı altında yaranan bu fövqəladə qarışıqlıq açıqlanıla biləcək kimi deyil.

Yuxarıdakı suallarla, yalnız tarixi məlumatlara əsaslanaraq 4 İncil mövzusundakı ziddiyyətlərdən bəzilərinə toxunulmuşdur. Əsas məsələ isə, təslis inancının özü ilə gətirdiyi böyük məntiqsizlikdir. Səmimi xristianlarda təslis inancı barədə şübhə yaratmalı əsil şey, bu böyük və əsaslı məntiqsizlik olmalıdır. Bu mövzuya irəliləyən sətirlərdə toxunulacaq.

## Tövratı təsdiqləyici olaraq göndərilmiş İncil, tövhid inancını da təsdiqləməlidir

Təslis tərəfdarı bir xristian, ilk anda yuxarıdakı tarixi sənədlərə əsaslanan açıqlamaları və bu mövzudakı şərhləri öz ağlınca doğru qəbul etməyə bilər. Lakin bu, hazırkı İncillərin 27 fərqli İncil arasından seçilmiş olduğu həqiqətini dəyişdirmir.

Xristianlığın haqq kitabı olaraq 4 ayrı İncil, şura qərarı ilə müəyyənləşdirilib. Bu açıq bir həqiqətdir. Bu 4 İncil arasındakı ziddiyyət və fərqlər də inkar edilə bilməyəcək ölçülərdədir. Dolayısilə səmimi bir xristian, kilsənin doqmatik qərarlarını bir kənara qoyaraq, ağlı və vicdanı ilə düşünməli, bunları "tək bir sözü belə dəyişdirilməmiş" kitablar kimi qəbul etmək məsələsində bir qədər düşünməlidir. Tək bir sözünün belə dəyişdirilmədiyi iddia edilən həmin bu kitablar üzərində, **bilavasitə kilsə tərəfindən dəfələrlə dəyişikliklər edilmişdir. Bu, xristian tarixi mənbələrinin ifadə etdiyi haldır.** Müasir İncil nəşrlərində qeyd olunan keçmiş İncil nüsxələrindəki açıqlamalara dair haşiyələr belə, bunu anlamaq üçün kifayətdir.

Burada əhəmiyyətlə toxunulmalı olan digər bir mövzu isə, hz. İsa (ə.s) və həvarilərdən sonra, təslis inancının qeyd olunduğu 4 İncil qəbul edilənə qədər keçən 3 əsr müddətində yaşamış xristianların vəziyyətidir. Bu xristianlar hər nə qədər bütün səmimiyyətləriylə hz. İsa (ə.s)-a və İncilə tabe olmuş olsalar da, kilsənin zorla qəbul etdirməyə çalışdığı əhkama görə,

dindən çıxmış hökmündədirlər. Belə bir şey necə mümkün ola bilər? Xəbərdar edəni gəlmiş bir haqq din və onun müqəddəs kitabı mövcud olduğu halda, insanların həmin böyük dövrdə həqiqətləri bilmədən yaşadıqlarını kim iddia edə bilər? Şübhəsiz ki, Allah belə bir şeyə icazə verməz.

Dolayısilə ilk əlyazmalarının olduğu, İncilin orijinal dili olan arami dilinin işlədildiyi, ən azından çoxaltma və tərcümə səhvlərinin olmadığı IV əsrdən əvvəlki dövr deyil, sonrakı dövrdən şübhələnilməlidir. Həvarilərdən dərhal sonrakı dövr, çox böyük ehtimalla hz. İsa (ə.s)-ın yazdırmış olduğu İncilin [hz. İsa (ə.s)-ın özünə gələn vəhyi öz dövründə yazdırmış olma ehtimalı böyükdür] orijinal nüsxələrinin olduğu və tətbiq olunduğu dövrdür. Bundan ötrü də, yəhudiliyin davamı olan tövhid inancı həmin dövrdə mövcudluğunu qorumuşdur. Necə ki, İncil, Quranda da bildirildiyi kimi, Tövratı təsdiqləyici olaraq göndərilmişdir. Dolayısilə səhih İncildə, yəhudiliyin təməl etiqadı olan tövhid inancı da təsdiqlənmiş olmalıdır. Rəbbimiz Quranda belə bildirir:

**Onların ardınca Məryəm oğlu İsanı özündən əvvəlki <u>Tövratı təsdiqləyici olaraq</u> göndərdik. Ona içərisində hidayət və nur olan, özündən əvvəlki <u>Tövratı təsdiqləyən</u>, müttəqilər üçün yol göstəricisi və öyüd-nəsihət olan İncili verdik. (Maidə surəsi, 46)**

Bəzi xristianlar, hz. İsa (ə.s)-dan sonra həvarilərin təslis inancını yaydıqlarını, hətta bu yolda öldüklərini iddia edirlər. Halbuki bu bir yanıltmadır. Hz. İsa (ə.s)-ın yanında olan əsil həvarilərin heç biri təslis inancını qətiyyən müdafiə etməmişdir və müdafiə etmələri də qeyri-mümkündür (təslis inancını yaydığı bilinən tək insan Paveldir (Pavlus) və bu gün bir çox xristian ilahiyyatçı və xristian mənbənin təsdiqlədiyi kimi Pavel (Pavlus), hz. İsa (ə.s) ilə heç görüşməmiş, hətta onun vaxtında ona qarşı çıxan biri olmuşdur). Hz. İsa (ə.s) və həvarilər, İncilin vəhyindən əvvəl eynilə digər bütün ilk xristianlar kimi, yəhudi idilər və İsrail qövmlərinə mənsubdular. İlk xristianlarda isə, əsla təslis inancı yox idi. Onlar, Tövratı təsdiqləyici olaraq göndərilən kitablarında, Tövratda açıqca bildirilmiş olan tövhid inancının olduğunu gördülər. Qəribədir ki, bu gün xristianlar onlara "yəhudi xristianlar" deyərək özlərindən hesab etmirlər. Sanki hz. İsa (ə.s), özünə vəhy gəlmədən əvvəl bir yəhudi və eyni zamanda İsrailoğullarından biri deyilmiş kimi.

Dolayısilə 4-cü əsrdən əvvəlki dövr, yəhudi tövhid dininin davamı olan, böyük ehtimalla İncilin əsli ilə hökm edilən, bundan ötrü də tövhid inancının hakim olduğu bir dövr olmuşdur. Bütün bunlara əsaslanaraq, Roma imperiyasının hakim olduğu, bütpərəstliyin və bütpərəst təslis inancının imperiya ilə birlikdə dünyaya yayıldığı və İncilin orijinal dili olan arami dilinin unudulub yunan dilinin işlədilməyə başlandığı, siyasi döyüşlərin, daxili qarşıdurmaların və din müharibələrinin hökm sürdüyü 4-cü əsrdən sonrakı dövr, bidətlər və xristianlığa gətirilən yeni hökmlər baxımından şübhə ilə baxılmalı bir dövrdür. Dolayısilə

yuxarıda verdiyimiz tarixi məlumatlar, bu baxımdan yaxşı dəyərləndirilməlidir.

## Əlbəttə ki, Allah vəhy etdiyi haqq kitabı qorumağa qadirdir

Bəzi xristianların, Allahın bir nur olaraq göndərdiyi haqq kitab olan İncilin zaman keçdikcə dəyişdiyi və yanlış şərh olunduğu ehtimalını qəbul etmək istəməmələri, əlbəttə ki, aydın məsələdir. Təhrif edilmiş bir haqq kitaba tabe olmaq fikrindən narahat olmaları mümkün ola bilər. Lakin səmimi xristianlar bu həqiqəti nəzərə almalıdırlar: **Hazırkı İncilin böyük hissəsi doğrudur. Hz. İsa (ə.s)-a endirilən orijinal İncil, çox dərin və hikmətli izahatlardan, gözəl açıqlamalardan ibarət olan Allahın vəhyidir və Quranda təriflənilir.** Müsəlmanlar, eynilə xristianlar kimi bu hökmlərə əməl etməklə məsuldurlar.

Lakin bununla yanaşı, **onsuz da İncilin əsli, yəni təhrif edilməmiş variantı qorunub saxlanmışdır.** Gizləndiyi yerdə, tapılacağı tarixi gözləyir. Allahın icazəsi ilə hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın zühurunu görəcəyimiz dövrdə **İncilin əsli tapılacaq. Dolayısilə xristianların inandığı kimi, heç bir dəyişikliyə uğramamış bir İncil var.** Buradakı tənqidimiz, hazırda haqq qəbul edilən lakin içində bir çox tutarsızlıq olan 4 İncilin dəyişdirilmiş və yanlış şərh olunmuş hissələrinə istiqamətlidir. Həmin bu hissələrin mövcudluğu, səmimi gözlə baxan hər xristianın asanlıqla anlaya biləcəyi qədər aydındır. Bu kitabda izah edilənlərlə səmimi xristian qardaşlarımız; ağla, vicdana və məntiqə dəvət edilirlər.

Əlbəttə ki, Allah, insanlara yol göstərici olaraq endirdiyi haqq kitabları qorumağa qadirdir. Bəzi xristianlar, İncilin təhrif edilmiş olduğuna dair açıqlamaları qəbul etməmək üçün, Rəbbimizin bu üstün xüsusiyyətini dəlil kimi göstərirlər. Halbuki burada lazımınca başa düşülməli olan gizli bir hikmət var:

Təkrar ifadə etmək lazımdır ki, Allah, əlbəttə, Öz kitabını qorumağa qadirdir. Uca Allah bütün kainatda hər şeyi mükəmməl yaratmağa da qadirdir. Lakin kainatdakı hər şey mükəmməl deyildir. Kainatda çatışmazlıqlar və qüsurlar var, həmçinin bunları yaradan da Allahdır. Allahın çatışmazlıqlar yaratmasının xüsusi hikməti var. Çatışmazlıqlar sayəsində bu dünyanın müvəqqəti imtahan yeri olduğu, Allah qarşısında aciz varlıqlar olduğumuz həqiqəti və dünyanın deyil, axirətin əsil yurd olduğu həmişə yadda qalar. Çatışmazlıqlar olduqca insan lovğalanmaz və həmişə Allah qarşısında aciz və möhtac olduğunu bilər.

Dəlilləri olduqca açıq olan Müqəddəs İncilin təhrif edilməsi də, Allahın icazəsi və istəyi ilə, baş verən bir hadisədir. Bu, müəyyən hikmətlə, Allahın xüsusi bir imtahanının tələbindən ötrü belə yaradılıb. Allah belə yaradırsa və bu mövzudakı dəlilləri açıq şəkildə göstərirsə, bu mövzuda qatı olmaq deyil, bunun arxasındakı hikmətləri görmək və anlamaq lazımdır.

Aydındır ki, hal-hazırda xristian aləmi bununla imtahan olunur və vicdanlarının səsinə qulaq asmağa dəvət edilirlər.

Aydındır ki, bu vəziyyət, hz. İsa (ə.s)-ın gəlişi və əsil İncilin axtarılması üçün lazım gələn xüsusi zərurətdir.

Aydındır ki, bu imtahandan ötrü yanlış inanclar dünyanı bürüyəcək, insanlar din adından qarışıqlığa, qarmaqarışıqlığa və qan tökücülüyə sövq ediləcək və hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın gəlişi üçün, Tövratda, İncildə, Quran və hədislərdə bildirilən Axırzaman əlamətləri gerçəkləşəcək. Dolayısilə səmimi xristianların üzərinə düşən əsil vəzifə, İncilin həqiqi hökmlərinin axtarılması və onalara əməl olunmasıdır.

Lakin eyni zamanda xristianlar, Quranın, haqq olan İncilin bütün hökmlərini özündə saxlayıb çatdırdığı həqiqətini də bilməlidirlər. Haqq İncil hökmləri Quranda mövcuddur və buna görə, müsəlmanlar da haqq İncili tətbiq etməklə məsuldurlar.

Quran, İncili təsdiqləyən haqq kitabdır. Dolayısilə müsəlmanlar, Məhəmmədi olduqları kimi, haqq İncili tətbiq edən bir İsəvi və haqq Tövratı tətbiq edən bir yəhudidirlər. Dolayısilə, səmimi bir xristian da İncilin əslinə tabe olmaq və haqq İncillə hökm etmək istəyirsə, Quranda bütün bu hökmlərin olduğunu görəcək. Haqq İncil, Quranda Uca Allahın təriflədiyi müqəddəs kitabımızdır. Allah, İncilin, göndərildiyi dövrdə insanlar üçün yol göstərici olduğunu Quranda belə bildirir:

**O, sənə Kitabı gerçək olaraq, ondan əvvəlkiləri təsdiqləməsi üçün nazil etdi. Tövratı və İncili də O nazil etmişdi. Onlar bundan (Quran) əvvəl insanlara doğru yolu göstərən rəhbərdilər... (Ali İmran surəsi, 3-4)**

**Onların ardınca Məryəm oğlu İsanı özündən əvvəlki Tövratı təsdiqləyici olaraq göndərdik. Ona içərisində hidayət və nur olan, özündən əvvəlki Tövratı təsdiqləyən, müttəqilər üçün yol göstəricisi və öyüd-nəsihət olan İncili verdik. (Maidə surəsi, 46)**

**Sonra onların ardınca dalbadal elçilərimizi yolladıq. Sonra Məryəm oğlu İsanı göndərib ona İncil bəxş etdik. Onun ardınca gedənlərin qəlblərinə şəfqət və mərhəmət saldıq. Rahibliyi isə, (bidət olaraq) özlərindən icad etdilər. Biz bunu onlara vacib buyurmamışdıq. Onlar bunu Allahın razılığını qazanmaq üçün etdilər, lakin ona lazımınca riayət etmədilər. Biz onlardan iman gətirənlərin mükafatlarını verdik. Onların çoxu isə fasiqlərdir. (Hədid surəsi, 27)**

Nəticə etibarilə, xristian qardaşlarımız Quranı, (ön mühakimələrə əsaslanaraq, rədd etmədən əvvəl) bu dünyagörüşüylə oxumalıdırlar. Unudulmamalıdır ki, səmimi şəkildə

Allahdan, özünə doğrunu yanlışdan ayırd etmə bacarığı verməsini istəyən hər insan, Allahın bu böyük nemətinə nail olacaq.

# II Fəsil

# Təslis yanılması

## Allah səbəblərdən asılı deyildir və özünə övlad götürməmişdir

Təslis yanılması, kitabda üç hissə halında ələ alınacaq:

Birinci hissədə kilsənin 1870-ci ildə aldığı, təslisin "ağıl və məntiq mövzusu olmayıb, üzərində düşünülməməli olan bir sirr" olduğuna dair qərarı üzərində dayanılır. Təslis qarışıqlığının zaman keçdikcə necə "düşünülməməli" bir əhkam halına gətirildiyi izah edilir və səmimi xristianlar Allahın xüsusiyyətləri mövzusunda dərin düşünməyə dəvət edilir.

İkinci hissədə bəzi xristianların təslis iddialarının dindən və məntiqdən kənar olduğuna İncil və Tövratdan dəlillər gətirilir və bu mövzuda xristianların əhəmiyyətlə düşünməli olduqları müxtəlif məntiqlər təqdim edilir.

Üçüncü və son hissədə isə, xristianlara maddə barəsindəki həqiqət mövzusunda çox mühüm məlumatlar verilir. Maddənin əsil mahiyyəti ilə əlaqədar verilən bu məlumatlar təslis yanılmasının əsaslandırıldığı bütün iddiaları qəti şəkildə aradan qaldırır və xristian qardaşlarımızın həyatını dəyişdirəcək, indiyə qədərki dünyagörüşlərini tamamilə nəzərdən keçirmələrini təmin edəcək, yeni anlayış təqdim edir.

## 1-ci hissə

### Yaradılan hər şeydə, "düşünə bilən cəmiyyət üçün ayələr var" (Nəhl surəsi, 11)

Əllərimizin, hüceyrələrimizin, DNT, zülal, ferment kimi strukturların; növbənöv yaradılmış canlıların, quşların uçmasının, balıqların üzməsinin, yarpaqların fotosintez etməsinin, göylərin, ulduzların, planetlərin, Günəşin, Ayın, ağacların yazda yaşıllaşmasının, canlıların qış yuxusuna getməsinin, günün 24 saat olmasının, yağışın, qarın, bir sözlə, görüb tanıdığımız, eşitdiyimiz, varlığından xəbərdar olduğumuz hər şeyin müəyyən məqsədi var. Bütün bunları düşünmədən, varlıqlarının hikmətini anlamadan, onları görüb keçərək yaşamaq asandır. Məhz bəzi insanları digərlərindən ayıran ən böyük fərq, asana tabe olmamaları, yaradılan hər şey üzərinə xeyli dərin düşünmələridir. Allah, həm Quran, həm də İncildə dərin düşünmə xüsusiyyətinin iman gətirənlərə məxsus bir xüsusiyyət olduğunu

ifadə etmişdir.

Əgər insan düşünməsə, həm özünün, həm də bu həyatın yaradılma məqsədini anlamaz. Əgər düşünməsə, haradan gəldiyini, məsuliyyətlərinin nə olduğunu və hara gedəcəyini bilmədən, həyatını boş, məqsədsiz keçirə bilər. Lakin insan, digər canlılardan fərqli olaraq ağla, vicdana, düşünmə və mühakimə qabiliyyətinə sahibdir. Dolayısilə mühüm bir məsuliyyəti var. Belə ki, o, necə və nə üçün yaradıldığını düşünmək, Yaradanı anlamaq və Onun qarşısındakı məsuliyyətlərini yerinə yetirməklə məsuldur. İnsan, bu məsuliyyətini görməzlikdən gələrək də yaşaya bilər. Bu onun seçimidir. Məhz insanlar, etdikləri bu seçimdən ötrü bir-birlərindən fərqlənərlər. İman gətirənləri, düşünənləri və axirətdə qazanclı çıxacaq insanları digərlərindən ayıran ən böyük fərq Yaradılış dəlilləri və ayələr üzərində dərin düşünmələri və Yaradıcımızı lazımınca anlaya bilmələridir.

Necə ki, İncildə və Tövratda da dərin düşünmənin əhəmiyyətinə diqqət çəkilir:

***...Düşünmürsünüzmü?** Anlamırsınızmı? Qəlbiniz bu qədərmi qatılaşdı? (Markos, 8:17)*

*Dediklərimi yaxşı düşün. Rəbb sənə hər mövzuda anlayış verəcək. (Pavlus'tan Timoteos'a 2. Mektup, 2:7)*

*Qardaşlarım, aldığınız dəvəti düşünün... (Pavlus'tan Korintlilere 1. Mektup, 1:26)*

*...Göydəki dəyərlərin [Allahın Qatında qiymətli olan şeylərin] ardınca gedin.... Yer üzündəki deyil, göydəki [Allah Qatındakı] dəyərləri düşünün... (Pavlus'tan Koloselilere Mektup, 3:1-2)*

*Rəbbin işləri böyükdür, onlardan zövq alanlar həmişə onları düşünər. (Mezmurlar, 111:2)*

*Beləliklə də, bütün bunları düşündüm və bu nəticəyə gəldim: Doğrular, müdriklər və etdikləri hər şey Allahın əlindədir... (Vaiz, 9:1)*

*...Hüzurunda, düşündükcə qorxaram Ondan. (Eyüp, 23:15)*

*Yatağıma uzandıqda Səni xatırlayaram və gecə boyu Səni olduqca dərindən düşünərəm. (Mezmurlar, 63:6)*

*Lakin zövqünü Rəbbin qanunundan alar və gecə-gündüz onun üzərində xeyli dərin düşünər. (Mezmurlar, 1:2)*

*Rəbbin işlərini xatırlayacağam, Bəli, keçmişdəki möcüzələrini xatırlayacağam. Etdikləri üzərində xeyli dərin düşünəcəyəm, bütün işlərinin üzərində diqqətlə dayanacağam. (Mezmurlar, 77:11-12)*

*Öndərlər toplanıb məni pisləsələr belə, mən qulun Sənin qanunlarını xeyli dərindən düşünəcəyəm. Nəsihətlərin mənim zövqümdür, mənə ağıl verərlər. (Mezmurlar, 119:23-24)*

*Nə qədər sevərəm Qanununu! Bütün gün düşünərəm onun üzərində. Buyruqların məni*

*düşmənlərimdən müdrik edər, çünki hər vaxt ağlımdadır onlar. Bütün müəllimlərimdən daha ağıllıyam, çünki nəsihətlərin üzərində düşünürəm. (Mezmurlar, 119:97-99)*

*Allahın etdiyini düşün: Onun əyiltdiyini kim doğrulda bilər? Yaxşı gündə xoşbəxt ol, lakin pis gündə diqqətlə düşün... (Vaiz, 7:13-14)*

*Dinlə, əyyub, bir dayanıb düşün Allahın təəccüblü işlərini. (Eyüp, 37:14)*

*Qanun Kitabında yazılanları dilindən salma. Hamısına diqqətlə əməl etmək üçün, gecə-gündüz onu düşün. Bu zaman müvəffəqiyyət qazanacaq və məqsədinə nail olacaqsan. (Yeşu, 1:8)*

*Keçmiş günləri xatırlayır, bütün etdiklərini xeyli dərin düşünür, əllərinin işinə baxıb dalıram. Əllərimi Sənə açıram, canım quru torpaq kimi Sənə susamışdır. (Mezmurlar, 143:5-6)*

*Təkcə Rəbbdən qorxun, Ona bağlılıqla və bütün qəlbinizlə qulluq edin. Onun sizin üçün necə möhtəşəm işlər gördüyün bir düşünün! (1. Samuel, 12:24)*

*Sənin buyruqlarından zövq alır, onları sevirəm. Hörmət və sevgi duyuram buyruqlarına, xeyli dərindən düşünürəm qanunlarını. (Mezmurlar, 119:47-48)*

*Etdiklərin nəsildən-nəslə təşəkkürlə xatırlanacaq, güclü elan olunacaq.* ***Düşünəcəyəm mükəmməl işlərini;*** *insanlar böyüklüyündən, uca görkəmindən danışacaq. (Mezmurlar, 145:4-5)*

Uca Allah, Quranda da, Özünə yönəlib iman gətirənlərin, Yaradılış dəlilləri üzərində düşünən insanlar olduqlarını və beləliklə Allahın üstün qüdrətini lazımınca qiymətləndirə bildiklərini xəbər vermişdir:

**O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən çox Ucasan. Bizi Odun əzabından qoru! (Ali İmran surəsi, 191)**

Əsil dindar ola bilmək üçün, dərin düşünmək əhəmiyyətlidir. Əsil dinin səthi və düşünmədən yaşanılması qeyri-mümkündür. Dərin düşünmək, iman gətirmiş müsəlmanlar, yəhudilər və xristianlar diqqətlərini çox yaxşı cəmləşdirməli olduqları bir iman şərtidir. Təkcə dərin düşünüldüyü təqdirdə, Allahın böyüklüyü və ucalığı yaxşı şəkildə dərk edilə bilər və ancaq bu zaman Müqəddəs kitablardakı səhih və dərin sözlərin batini və mənəvi mənaları başa düşülə bilər. Din, yalnız öyrədilən və əzbərdən yaşanılan bir həyat tərzi deyil.

## Vatikan şurasının qərarı: "Təslis mövzusu ağıl və məntiqdən uzaq bir sirrdir, düşünməyinizə ehtiyac yoxdur"

Allahın varlığını dərin düşünməyin zəruriliyini xristian qardaşlarımıza izah etməmizin xüsusi səbəbi var. Bu səbəb, kilsənin xristianlara nəsihət etdiyi "düşünməmə" doktrinasının nə qədər yanlış olduğunu göstərə bilməkdir.

Xatırlamaq lazımdırsa, 4-cü əsrdən etibarən ardı-arxası kəsilməyən və bir çox şura ilə gündəmə gətirilərək nəticələndirilməyə çalışılan təslis mövzusu, ən son, 1868-1870-ci illər arasında təşkil edilən birinci Vatikan şurasında, ardı-arxası kəsilməyən mübahisələrə son qoymaq məqsədiylə belə nəticələndirilmişdir: "Təslis, ağıl və məntiq mövzusu deyildir, dolayısilə bir sirr kimi qalmalıdır".

Kilsənin müəyyənləşdirdiyi bir əhkam daha, hz. İsa (ə.s)-ın peyğəmbər kimi yer üzünə göndərilməsindən təxminən 1900 il sonra, iman şərti olaraq xristianlığa daxil edilmişdir. Kilsənin bu qərarına tabe olan xristianlar, hazırda təslis mövzusunu, üzərində heç düşünülməməli bir iman sirri kimi qəbul etməkdə problem görmür, hətta bunu açıqca müdafiə edirlər.

Kilsənin düşünməmə istiqamətindəki fətvasının tək səbəbi təslisin böyük səhvlik olmasından qaynaqlanır. Şübhəsiz ki, Allah hər uydurma və batil şeyi məntiqsizliklər, tutarsızlıqlar, ziddiyyətlər və məğlubiyyətlərlə yaradar. Təslis də bu cürdür. Bundan ötrü də, bu tutarsızlıqları görən kilsə, yenə əhkam ənənəsini davam etdirmişdir. Çünki xristianlığın başlanğıcından etibarən bir qədər ağlından və məntiqindən istifadə edən və bundan ötrü də, rəsmi mövqelər tərəfindən azğın hesab edilən xristianlar, bütün bu tutarsızlıqları və məntiqsizlikləri görüblər. Ya təslisi tamamilə rədd edib, ya da başqa cür anlayaraq dəyişdiriblər. Dolayısilə kilsə, düşünüb ağıl işlədildiyi təqdirdə, zorla qəbul etdirməyə çalışdığı təslis inancına qarşı çıxacaq qrupların meydana çıxacağını bilir.

Hazırda təslisin, üzərində düşünülməməli, sirri açılmaq üçün çalışılmamalı, başa düşülmədən tabe olunmalı bir sirr olduğuna inanan bir çox sayda xristian var. Onları düşünməməyə təşviq edən bir dinləri olduğunu zənn edir və Allahı anlamadan yaşamağa davam edə biləcəklərini güman edirlər. Bunu çox vaxt açıq şəkildə söyləməzlər. Lakin buradakı "anlaşılmazlığın" normal olduğunu, hər şeyi anlamağa qadir olmadığımızı, dolayısilə düşünüb tapmağa çalışmağın da bir fayda verməyəcəyini ifadə etməkdən də çəkinməzlər.

Əlbəttə ki, hər şeyi anlamağa qadir olaraq yaradılmadıq. Lakin Allah bizə Öz Qüdrətini açıqca göstərdiyini və bunun da imanla, düşünərək anlaşılacağını bildirmişdir. Bizi Yaradan Uca Qüdrəti anlamaq, bizim üzərimizdəki bir məsuliyyətdir. Bir insan, özünü yaradan Allahı tanımadan, kimə necə ibadət və necə dua edəcəyini bilmədən necə bir din anlayışına sahib

ola bilər? Yaradılışdakı sirləri necə kəşf edər, axirəti necə anlaya bilər? Allahın hər an özünü eşidən və görən olduğunu necə qavraya bilər? Dindar olmaq üçün düşünmək, Allahı anlamaq, Allahın böyüklüyünü qiymətləndirə bilmək şərtdir. Bu, imanda dərinləşmənin ən mühüm göstəricilərindən biridir.

Təslisi müdafiə edən hansı xristianla qarşılaşsanız da, özünə təslis barəsində verilən suallara mütləq olduqca tutarsız, anlaşılmaz, qəribə məntiqlər təqdim edən qarmaqarışıq cavablar verəcəyini görəcəksiniz. Üstəlik, hər bir xristian təslisi fərqli izah edəcək. Çünki təslis mövzusunda nə izah etdiklərindən əsasən özləri də xəbərsizdirlər. Təslisi ağıl və məntiqi cəhətdən izah etməyə çalışan xristianlar, müəyyən şəkildə təslis kimi təsvir etdikləri şeydən də kənara çıxırlar. Bəziləri anlamağa çalışır, lakin onlar da bunu bacara bilmirlər. Bəziləri müəyyən məntiq qurmağa və bunu da formullarla izah etməyə çalışırlar. Böyük əksəriyyət isə, imtina etmişdir. Kilsənin özlərinə zorla qəbul etdirməyə çalışdığı şəkildə "düşünməməyi" seçir, soruşanlara da bu mövzunun bir sirr olduğunu, dolayısilə üzərində düşünməklə məsul olmadığımızı söyləyirlər.

Əlbəttə ki, düşünmədikcə hər şey çox asan olar. Bu zaman məsuliyyətlər də zahirən ortadan qalxar. Düşünməyə ehtiyac duymayan bir insan, anlaşılmaz bir Allahın (Allahı tənzih edirik) necə yaratdığını, yaratdıqlarına necə hakim olduğunu, Allah qarşısındakı məsuliyyətlərini, Allaha necə hesab verəcəyini düşünməyə də ehtiyac duymayacaq. Bu zaman həyat olduqca sadələşər. Necə ki, hazırda xristianların böyük əksəriyyəti bu cür yaşayır. Əlbəttə ki, bəzi müsəlmanlar və yəhudilər də belə yaşayırlar. Lakin xüsusilə təslis mövzusunda xristianlara verilən təlqin, onların Allah və yaratdıqları barəsində dərin düşünmələrinə tamamilə maneə olduğu üçün, onlar üçün bu vəziyyət daha təhlükəli ölçülərdədir. Bir çoxu yalnız bazar günləri kilsəyə getmək və hz. İsa (ə.s)-ın Allahın oğlu olduğuna inanmaqla Allahın rizasına və cənnətinə layiq ola biləcəklərini düşünürlər. Bu da xristianların böyük əksəriyyətini xəbərsiz şəkildə şirk içində yaşamağa; dünya əhli olmağa; halal-haram anlayışlarından asılı olmamağa; Allahın rizasını qazanmaq üçün dua etmək və kilsəyə getməkdən başqa heç nə etməməyə; ateizm, darvinizm, kommunizm, materializm, terrorizm kimi Allah inancına qarşı meydana gətirilmiş cərəyan və ideologiyalara qarşı mübarizə aparmağa; dünyada dindarlara, məzlum insanlara yönəldilən hücumlardan uzaq yaşamağa və bütün dünyaya göz yumaraq təkcə öz evlərindəki kiçik dünyada yaşamağa davam etməyə yönəldir. Əlbəttə ki, istisnalar da var. Lakin xristianların böyük əksəriyyətinin bu vəziyyətdə olduğu, danılacaq və ya etiraz ediləcək vəziyyət deyil. Hər hansı bir xristian, dünya səviyyəsində hakim olan ortabab xristian həyat tərzinin əsasən bu cür olduğunu çox yaxşı bilir. Məhz bu təqdirdə, düşünmədən yaşamağın gətirdiyi dindarlıq belə dindarlıq olar. Həmin bu xristianlar belə bir din anlayışının təhlükələrini görməlidirlər.

## "Üçlük tək Tanrı deməkdir" yalanı

Təslis mövzusu ilə əlaqədar ən böyük yalanlardan biri və bəlkə də, ən böyüyü, bəzi xristianların təslis adı altında əslində, bir Allahın nəzərdə tutulduğuna dair sözləridir. Xüsusilə təslisin bütpərəst inancla uyğunlaşdırılmasından narahat olan bəzi xristianlar, üçlükdə birləşmiş tək bir İlahı nəzərdə tutduqlarını müdafiə edirlər. Ümumiyyətlə bu izahatı özləri də çox yaxşı anlamır və əslində açıq-aydın şəkildə üç tanrı inancını təsvir edirlər.

Bəzi təslis tərəfdarları üç üqnumda tək bir cövhərin birləşdiyini, dolayısilə üç üqnumun da tanrı olduğunu; bəziləri atanın ən böyük olduğunu, digərlərinin atadan gəldiyini; bəziləri üç Tanrı arasında müəyyən iş bölgüsü olduğunu; bəziləri isə Oğlun Atadan, Müqəddəs Ruhun da Oğuldan gəldiyini iddia edirlər. Təslisə dair buna bənzər iddiaların sayı çoxdur. Lakin hamısı, qarmaqarışıq izah etdikləri bu təslis əhkamı ilə, nəzərdə tutduqlarının əslində tək Allah olduğunu iddia edərlər. Əgər həqiqətən tək Allah inancına sahibdirlərsə, əlbəttə ki, bu gözəldir, lakin bunun üçün verilən təriflər olduqca yanlışdır.

Bu çox əhəmiyyətlidir: **İncil, tamamilə xristianlara Allahın vahid olduğunu söyləyər.** İncildə Allahın vahildiyini ifadə edən və tək Allaha qul olmağı əmr edən bir çox ayə var. Eləcə də, bütün bu ayələr olduqca açıqdır. Lakin buna baxmayaraq, İncilin heç bir yerində təslis ifadəsi keçmədiyi kimi, təslisə dəlil göstərilə biləcək tək bir açıqlama da yoxdur. Dəlil kimi irəli sürülən bütün ayələr, üzərində zorakı şərhlər edilən, mötərizədaxili şərhlərlə içinə Allahın oğlu və Müqəddəs Ruh ibarələri əlavə olunan, tamamilə fərqli mənaya sahib olduğu halda, qəsdli şəkildə təslisə dəlilmiş kimi şərh olunan ayələrdir. **İncildə açıq və aydın şəkildə tək Allahdan bəhs olunur, lakin Onun heç bir yerində üç Tanrıdan bəhs olunmur.**

Təslis tərəfdarları, meydana gətirdikləri təslisin üç üqnumu olan Ata, Oğul və Müqəddəs Ruhun həm ayrı şəxslər və ya ayrı-ayrı varlıqlar, həm tək bir "cövhər", həm necə olub da, üçünün həm üç, həm də bir olduğunu əsla açıqlaya bilməyiblər. Bu böyük ziddiyyətdən də həmişə xəbərdar olublar. Yenə eyni şəkildə üç Tanrının necə fərqli vəzifələr boynuna götürdüyünü; yaratmaq işi ataya aiddirsə, necə digərlərinin bu xüsusiyyətə sahib ola bilmədiyini; doğmayan, doğulmayan, zamandan və məkandan asılı olmayan tək bir İlahın, necə zaman və məkan daxilində fərqli şəxslərə ayrılmış olduğunu əsla açıqlaya bilmirlər. Onsuz da açıqlaya bilmələri də qeyri-mümkündür.

Təslis tərəfdarlarının iddialarına görə, əgər üç Tanrı hər cəhətdən bərabərdirsə (belə ki, bu təslisi müdafiə edən əksər xristianın müdafiə etdiyi şeydir) belə olan halda ayinlərdə birinə tapınmaq onların məntiqinə görə kafi olmalıdır. Lakin təslis tərəfdarı xristianlar üçünə eyni anda tapınmalı olduğuna inanarlar. Bu da təslisin üçallahlıqdan çox fərqli bir inanc olmadığını göstərər.

Üç Tanrının tək Tanrı olduğu iddiası, fövqəladə dərəcədə məntiqsizdir. Hər şeyə qadir olan, bütün varlıqların Hakimi olan, onların hamısını yoxdan yaradan Allahın üç ayrı varlıq şəklində təzahür etməsinə necə ehtiyac ola bilər? (Allahı tənzih edirik) Üstəlik, tək İlaha inandıqlarını iddia edən təslis tərəfdarları, müsəlmanların və yəhudilərin tövhid inancı olan "Allahın mütləq vahildiyi və təkliyi" xüsusiyyətini tam olaraq anlamırlar. **Tövhid inancında Allah mütləq vahiddir, təkdir, HƏR HANSI TAYI VƏ BƏNZƏRİ YOXDUR. HEÇ NƏ ONA TAY OLA BİLMƏZ, HEÇ NƏ ONUN BƏNZƏRİ OLA BİLMƏZ. Allahın vahidliyi budur.** Dolayısilə təslis inancı əsla və əsla tövhid inancı deyil. Təslislə vahid Allaha inandığını iddia edənlər ya aldadılıblar, ya da yalan danışırlar.

Lakin əsil sual, belə qarışıqlığa niyə ehtiyac olmasıdır. Tək Allaha inanmağın bəxş etdiyi qəlb rahatlığı, rahatlıq, əmin-amanlıq və xoşbəxtlik olduğu halda, belə dolaşıq, bir-birini tutmaz və fövqəladə ziddiyyətli izahlara niyə ehtiyac duyulUr? Bütün bu qarışıqlığın yerinə bilavasitə bir və tək olan Uca Allaha inanmaq, bir və tək İlah olaraq Ona yönəlmək daha çox gözəldir. Hər şeyi görən və bilən Bir Allahın varlığı rəhmətdir. Hər an bizimlə olan, dua etdiyimiz vaxt bizi eşidən, hətta kökslərdə gizli olanı da bilən və ona cavab verən, hər şeyi nəzarəti altında saxlayan Uca Rəbbimizin varlığı necə böyük nemətdir. Təslis inancının qarışıqlığı içində boğulmuş vəziyyətdə olan bəzi xristian qardaşlarımız tövhid inancının bu gözəlliyini bilmirlər. Allaha belə yaxın olmağın gözəlliyini bilsələr, təslislə özlərini Yaradandan necə uzaqlaşdırdıqlarını görəcəklər. Allahın ucalığını bilmək, Allaha bir və tək İlah olaraq iman gətirmək, Allahın gücünü lazımınca qiymətləndirə bilmək xoşbəxtliklərin ən böyüyüdür.

**De: “Mən yalnız xəbərdar edənəm. <u>Tək olan, qəhr edən Allahdan başqa ilah yoxdur</u>”. O, göylərin, yerin və onların arasında olanların Rəbbidir. O, Üstün və Güclüdür, Bağışlayandır. (Sad surəsi, 65-66)**

## Haqq dində qarışıqlıq yoxdur, əgər qarışıqlıq varsa batil etiqadlardan şübhələnilməlidir

Allahın yaratdığı hər haqq din çox asandır. Dinin hökmləri düşünülməsi çətin, anlaşılmaz, sirr kimi qalacaq mövzular deyil. Uca Rəbbimizin varlığı çox açıqdır. Allahın varlığı, yaratma sənəti, yaratdığı varlıqlara olan yaxınlığı və hakimiyyəti də çox asan anlaşılacaq mövzulardır. Dində əsla qarışıqlıq yoxdur. Vicdanı və ağlı ilə baxan bir insan Uca Yaradanın hər şeyin Sahibi olan və hər şeyə Hökm edən tək Yaradıcı olduğunu, "hər şeyə qadir olmaq" xüsusiyyətinin tələbi olaraq Özünə övlad götürməyə ehtiyacı olmadığını, bütün

varlıqlara ən yaxın olduğunu, Ondan başqa heç bir Güc sahibi olmadığını mükəmməl şəkildə anlaya bilər. Dolayısilə təslis inancını müdafiə edənlər və onlara uyanlar yanılırlar.

Əgər dində təslis tərəfdarlarının yaşadığı tərzdə bir qarışıqlıq olduğu iddia edilsə, bu şübhə səbəbidir. Orada artıq haqq öz yerini batilə vermişdir. Əgər Öz üstün əsərlərini ən kiçik zərrədə, nəhəng böyüklükdəki kainatda və ya tək bir atomun dərinliklərində də göstərmiş və açıqca sərgiləmiş olan Uca Allahın xüsusiyyətini açıqlamaq və anlamaq bu qədər çətinləşdisə, burada şeytanın oyunundan şübhələnilməlidir.

Tək bir Yaradıcı var və kainatdakı hər şey bu üstün Yaradıcının sənətinə göstərər. Şübhəsiz ki, onları yoxdan yaradan Allah, onları hər an idarəsi və nəzarəti altında saxlamağa da qadirdir. Rəbbimizə çatmaq üçün vəsilələrə ehtiyac yoxdur. Başqa saxta ilahlara da ehtiyac yoxdur (Allahı tənzih edirik). Allah bizi bizdən daha yaxşı tanıyan, bizi hər an nəzarəti altında saxlayandır. Dolayısilə səmimi xristianlar, qarışıqlıq içində olduqlarını görməli və haqq dinin aydın və olduqca zövqlü tövhid anlayışına qarşı qəlblərini açmalıdırlar. Necə ki, Allah Quranda bundan başqa bir yolun "ixtilaf" olduğunu belə bildirmişdir:

**Əgər onlar da siz iman gətirdiyinizə iman gətirsələr, doğru yola yönəlmiş olarlar. Yox, əgər üz döndərsələr, <u>onlar, əlbəttə, ziddiyyət içindədirlər</u>. Onlardan qorunmaq üçün Allah sənə kifayət edər. O, Eşidəndir, Biləndir! (Bəqərə surəsi, 137)**

## Təslis inancı, Allahı qiymətləndirə bilməyin qarşısındakı böyük maneədir

Təslis inancını kilsənin dəyişdirilə bilməz doktrinası kimi görüb bu gün ona tabe olan xristianların bəlkə də bu mövzudakı ən böyük problemlərindən biri, Allahı lazımınca qiymətləndirə bilməmələri və Onun xüsusiyyətlərini tam olaraq anlaya bilməmələridir. Uca Allah, nəhəng böyüklüklərdən kəşf edilməsi belə fövqəladə dərəcədə çətin kiçiklikdəki bütün aləmləri, bütün kainatı YOXDAN yaratmışdır. Yoxdan böyük bir kainat yaradan, ondakı hər şeyi müəyyən tarazlıq və nizam içində meydana gətirən, insanı və digər bütün canlıları bu möhtəşəm sistem içində mükəmməl şəkildə yaradan, insana bir tale bəxş edən Allah, şübhəsiz ki, yaratdığı hər canlını himayə edib qorumağa da qadirdir. Rəbbimiz, hər şeyin məlumatına sahibdir. O, hər şeyi görər, hər şeyi eşidər. Ondan heç nə gizli qalmaz. Onun xəbəri olmadan tək bir canlı tək bir nəfəs də ala bilməz, tək bir yarpaq da hərəkət edə bilməz, tək bir elektron yer dəyişdirə bilməz. Allah istədiyi təqdirdə, bunların hamısını yox etməyə və yenidən görülməmiş, tanınmamış gözəllikdə yoxdan yaratmağa qadirdir. Şübhəsiz ki, bu, Allah üçün çox asandır. Rəbbimizin təkcə "ol" əmri ilə hər şey olar.

Allah hər gözün gördüyünü görər, hər səsi eşidər. Onsuz da hər gözün görəcəyini və hər qulağın eşidəcəyini də yaradan Odur. Quranın bizə göstərdiyi İslamı tam olaraq anlaya

bilməmiş bəzi xristianlar, İslamda Allahın insanlara uzaq olduğuna dair anlayış olduğunu iddia edərək təslis əhkamını öz ağıllarınca haqlı çıxartmağa çalışarlar. Halbuki Allah bizdən uzaq deyildir, əksinə hər an bizimlədir. Allah hər yerdədir və İslam bu həqiqəti Quran ayələriylə insanlara bildirir. İslamın əksinə olaraq, təslis düşüncəsi Allahı uzaq görər. Bundan ötrü də, Allahın ancaq hz. İsa (ə.s)-ı vəsilə edərək qullarına çata bildiyi düşüncəsi hakimdir. Məhz bu düşüncə, Allahı tam anlaya bilməmək və lazımınca qiymətləndirə bilməməkdən qaynaqlanar.

Əlbəttə ki, Allahın özlərindən uzaq olduğunu düşünən bəzi müsəlmanlar da var. Lakin onların qaynağı Quran deyil, yaratdıqları xurafatlardır. Dolayısilə onların müdafiə etdikləri şeyin məlumatı İslamda yoxdur. Əslində Allahın özlərindən uzaq olduğunu düşünən bəzi müsəlmanlar da, Allahın özlərinə vəsilələrlə çata biləcəyini düşünən təslis tərəfdarı xristianlar da eyni yanlış anlayışı bölüşürlər. Uca Rəbbimiz Quranda:

**İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq. (Qaf surəsi, 16)**

**Sən öz Rəbbinin hökmünə səbir et! Həqiqətən, sən Bizim Gözlərimiz önündəsən... (Tur surəsi, 48)**

**"...Quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. (Ənam surəsi, 59)**

**"...Allah onların gizli saxladıqlarını da, aşkara çıxartdıqlarını da bilir. Həqiqətən də, O, kökslərdə olanları bilir. (Hud surəsi, 5)**

**"...Yerdə və göydə heç bir şey Allaha gizli qalmaz". (İbrahim surəsi, 38)**

Ayələrində və bunun kimi bir çox ayədə xəbər verdiyi kimi, insana **ƏN YAXIN olduğunu açıqca bildirmişdir. Heç kim, heç bir varlıq, insana Allahdan daha yaxın deyil. Allah hər gözdən görər, hər qulaqdan eşidər.** Allah, bəzi müsəlmanların və xristianların düşündüyü kimi, yalnız göylərdə deyil, **HƏR YERDƏDİR**. Bir yarpaq düşdükdə onu görən biri olmasa da, Allah onu mütləq görər və bunu bilər. Yerin altındakılar, dənizin kilometrlərlə dərinliyində olanlar, hüceyrələrimizdəkilər və tamamilə görünməz bir aləm olan atomlar, elektronlar,

kvarklar bizim üçün naməlum olsa da, Allah onların hər birindən hər an xəbərdar olar və onları hər an görər.

Bir-birindən fərqli müxtəlif xüsusiyyətləri olan üç ayrı Tanrının varlığını irəli sürən təslis tərəfdarları, Allahın məhz bütün bu sətirlərdə izah edilən üstünlüyünü, ucalığını, qüdrətini bilmirlər. Bunu bilsələr, Allahın özlərinə müxtəlif vəsilələrlə çatdığı düşüncəsinin yanlışlığını dərhal anlaya biləcəklər. Allahın vəsilələrə ehtiyacı yoxdur. O, yaradılanı hələ yaradılmadan tanıyan və kökslərdə olanı biləndir.

Bu həqiqəti daha yaxşı anlamaq üçün təcəlli anlayışının nə olduğu, bunun üçün də, maddə barəsindəki həqiqəti mövzusu bilinməlidir. Bu zaman xristianlar, bütün bu izah edilənlərin metafizik inanc olmadığını, Allahın açıqca insanlara bildirdiyi bu həqiqətin elmi cəhətdən sübut edilmiş olduğunu daha yaxşı anlayacaqlar. Bu mövzudan üçüncü hissədə ətraflı şəkildə bəhs ediləcək.

# 2-ci hissə

## Uca Allah Özünə övlad götürməmişdir

Uca Allah, bütün varlıqların Hakimi, yaradılan hər şeyin Sahibidir. Allah heç bir səbəbdən asılı deyildir, çünki baş verən bütün hadisələri və bu hadisələrin yaranma səbəblərini də yaradan Özüdür. Yer üzündəki hər şey müəyyən səbəblərdən asılı olaraq baş verər. Lakin Rəbbimizin bu səbəblərə ehtiyacı yoxdur. Atalıq, oğulluq, övlad sahibi olmaq kimi insan həyatına dair vəziyyətləri də Rəbbimiz yaratmışdır. Dolayısilə "Allah Özünə övlad götürdü" (Allahı tənzih edirik) deyənlər Allahın ucalığını və sifətlərini anlamırlar. Uca Rəbbimizin hər hansı bir şeyi yaratmaq, hər hansı bir şeyi etmək üçün yalnız istəməsi kifayətdir. Heç nə Ondan uzaqda deyil. O, yaradılanı ən yaxşı tanıyan, yaradılmadan əvvəl təqdir edəndir.

Allaha övlad isnad edənlər, Rəbbimizin bu xüsusiyyətlərini bilməyənlər və ya lazımınca anlamayanlardır. Daha əvvəl də xatırlatdığımız kimi, Allah Quranda, Rəbbimizi qiymətləndirə bilməyənlərin göstərdiyi bu cəsarətin böyüklüyünü bu ayələri ilə bildirmişdir:

**Onlar: “Mərhəmətli Allah özünə övlad götürmüşdür!” dedilər. Siz olduqca çirkin cəsarət göstərdiniz. Bundan az qaldı GÖYLƏR PARÇA-PARÇA OLSUN, YER YARILSIN VƏ DAĞLAR DAĞILIB UÇSUN - Mərhəmətli Allaha övlad isnad etdiklərinə görə. Mərhəmətli Allaha özünə övlad götürmək yaraşmaz. Göylərdə və yerdə olanların hamısı Mərhəmətli Allahın hüzuruna ancaq bir qul kimi gələcək. (Məryəm surəsi, 88-93)**

Ayələrdə açıqca görüldüyü kimi, Allaha övlad isnad etmək; bütün kainatı yerlə-yeksan edəcək qədər şiddətli, Rəbbimizin qəzəbinə layiq olacaq çox böyük günahdır. Quranda Rəbbimizin övlad götürmədiyi bir çox ayə ilə vurğulanmışdır. Ayələrdə, Rəbbimizin övlad götürməkdən uzaq olduğu, "doğulmamış və doğmamış" olduğu, heç nəyin Onun tayı ola bilməyəcəyi açıqca bildirilir. Mövzu ilə əlaqədar ayələr belədir:

**De: "O Allah Təkdir! Allah Samәddir (hər şey ona möhtacdır, əbədi yaşayandır, heç nəyə ehtiyacı olmayandır). O, nə doğub, nə doğulub, Onun tayı da yoxdur". (İxlas surəsi, 1-4)**

**Diqqət yetirin; Həqiqətən, onlar yalan uydurub deyirlər: "Allah doğmuşdur". Şübhəsiz ki, onlar yalançıdırlar. (Saffat surəsi, 151-152)**

**Onlar: "Allah Özünə övlad götürmüşdü!" dedilər. O, (bundan) Ucadır! O, heç nəyə möhtac deyildir. Göylərdə və yerdə nə varsa, Onundur. Buna aid sizdə heç bir dəlil yoxdur. Niyə Allaha qarşı bilmədiklərinizi söyləyirsiniz? (Yunis surəsi, 68)**

**Allah övlad götürmək fikrində olsaydı, xəlq etdiklərindən hər hansı birini seçərdi. O, ucadır. O, Tək olan, qəhr edən Allahdır. (Zumər surəsi, 4)**

Uca Rəbbimiz bütün kainatın mütləq Hakimidir, Rəbbimizin heç bir ortağa və ya köməkçiyə ehtiyacı yoxdur (Allahı tənzih edirik). O istədiyi vaxt "ol" deyər və istədiyi olar. Allah ayələrində belə bildirir:

**Göylərin və yerin mülkü Ona məxsusdur. O, Özünə övlad götürməmişdir və mülkündə də şəriki olan yoxdur. O, hər şeyi müəyyən nizam və ölçü ilə yaratmışdır. (Furqan surəsi, 2)**

**De: "Tərif (həmd) Özünə heç bir övlad götürməyən, mülkündə heç bir şəriki olmayan, aciz qalmamaqdan ötrü Özünə kömək edəcək heç bir dosta möhtac olmayan Allahadır!" Onu təkbir etdikcə təkbir et. (İsra surəsi, 111)**

**Allahın övlad götürməsi qeyri-mümkündür. O, ucadır! O, bir işin olmasını istədikdə**

**ona ancaq “ol!” deyər, o da dərhal olar. (Məryəm surəsi, 35)**

Uca Allah, "Allah övlad götürdü" iddia ilə çıxış edənləri QURAN vasitəsilə xəbərdar edib qorxutduğunu bildirir. Deməli, təslislə səhvə yol vermiş xristianlara Quran doğru yolu göstərəcək. Allah onları Quran vəsiləsi ilə bu mühüm səhvi etməkdən qoruyur:

**Bu (Quran) "Allah Özünə övlad götürdü!" deyənləri xəbərdar edib qorxudur. Bu haqda nə onların, nə də atalarının heç bir biliyi yoxdur. Ağızlarından çıxan söz necə də ağırdır. Onlar yalandan başqa bir şey danışmırlar. (Kəhf surəsi, 4-5)**

Həmçinin yuxarıdakı ayələrdə, Allah övlad götürdü deyənlərin bu mövzuda nə özlərinin, nə də özlərindən əvvəlkilərinin heç bir məlumatı olmadığı, yəni bunun tamamilə yalana olduğu bildirilir. Allah məlumatsızlıq ucbatından ortaya atılmış bu iddianın təhlükəsini Quranda: **"Ağızlarından çıxan söz necə də ağırdır"**, ifadəsiylə xatırladır.

Rəbbimiz, övlad götürmədiyini bildirdiyi bir ayədə, eyni zamanda Özündən başqa bir ilah olmadığını da bildirir:

**Allah Özünə heç bir övlad götürməmişdir. Onunla yanaşı heç bir ilah yoxdur. Əks təqdirdə hər bir ilah, əlbəttə, öz yaratdığını alar və (ilahların) bir qisminə qarşı üstünlük təmin edərdi. Allah onların Ona aid etdikləri sifətlərdən uzaqdır. (Muminun surəsi, 91)**

Bu ayə, təslis tərəfdarı xristianların hər iki iddiasını da (hz. İsa (ə.s)-ın Allahın oğlu olduğu və hz. İsa (ə.s)-ın ilahlıq xüsusiyyətinə sahib olduğu iddialarını) tamamilə ortadan qaldırır.

Allah, Quranda, Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-ə, bu iddia ilə ortaya çıxanlara belə söyləməsini vəhy etmişdir:

**De: “Əgər Mərhəmətli Allahın övladı olsaydı, ona ilk ibadət edən mən olardım. (Zuxruf surəsi, 81)**

"Allahı lazımınca qiymətləndirə bilməmək" deyərkən, Allahın ayələrdə bildirilən üstün sifətlərini anlamamaq nəzərdə tutulur. Çünki bir insanın təslis inancını qəbul edə bilməsi üçün, Allahın hər şeyin Hakimi olduğunu, yaratmaq və yaşatmaq üçün heç bir vəsiləyə,

köməkçiyə ehtiyacı olmadığını; Allahın istəsə övlad götürməyə qadir olduğunu, lakin bunu etmədiyini; bir şeyin olmasını istədiyi təqdirdə yalnız "ol" əmrini verməsinin kafi olduğunu; yerin, göyün bütün varlıqların Onun əmrinə boyun əymiş olduqlarını anlamamalıdır. Allahın heç bir şey üçün Özündən başqa ilahlar yaratmağa ehtiyacı yoxdur. Allah, hələ dünyaya gəlmədən gələcək olanı, hələ deyilmədən deyiləcək olanı, hələ baxmadan görüləcək olanı, kökslərdə olanı, BİR SÖZLƏ, HƏR ŞEYİ əzəliyyətdən əbədiyyətə qədər bilər. Rəbbimiz bir ayəsində belə bildirir:

**Allah, Ondan ilah yoxdur, Diridir, Qaimdir. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun icazəsi olmadan Onun yanında kim şəfaət edə bilər? O, onların gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, çox ucadır, Uludur. (Bəqərə surəsi, 255)**

Allahın sonsuz güc və qüdrət sahibi olması, İncil keçidlərində isə belə bildirilir:

...*O, hər şeyin üzərində hökm sürən, əbədiyyən təriflənəcək Allahdır. (Pavlus'tan Romalılara Mektup, 9:5)*

*...Hər şeyə qadir olan Rəbb Allah, sənin işlərin böyük və təəccüblüdür... (Vahiy, 15:3)*

*Allahın edə bilməyəcəyi heç nə yoxdur. (Luka, 1:37)*

*...Allahdan [Allaha aid] olmayan rəhbərlik yoxdur. Mövcud olanları Allah qurmuşdur. (Pavlus'tan Romalılara Mektup, 13:1)*

*Hər şeyin qaynağı Odur; hər şey Onun tərəfindən və Onun üçün meydana gəldi. Sonsuza qədər Ona ucalıq olsun. (Pavlus'tan Romalılara Mektup, 11:36)*

Hər şey Ona təslim olmuşdur. Heç nə nəzarətsiz deyildir. Hər biri mütləq Rəbbimizə itaət etməklə məsuldur. Allah məhz belə qəhr edici, böyük və üstün gücə malikdir:

**...Halbuki göylərdə və yerdə olan hər şey (istər-istəməz) Ona təslim olmuşdur... (Ali İmran surəsi, 83)**

## Hz. İsa (ə.s), dərin Allah sevgisi ilə yaşayan bir QULDUR

İncildə Rəbbimiz belə buyurur:

*Allah sizi, tutduğunuz pis yoldan döndərib günahdan təmizləmək üçün, qulunu [hz.*

*İsa (ə.s)-ı] ortaya çıxardıb ilk öncə sizə göndərdi". (Elçilerin İşleri, 3/26)*

Allah bir Quran ayəsində isə belə buyurur:

**Nə İsa Məsih Allahın qulu olmağı özünə ar bilər, nə də Allaha yaxınlaşdırılmış (yüksək dərəcə sahibi) mələklər. Allah Ona ibadət etməyi özlərinə ar bilənlərin və təkəbbürlük göstərənlərin hamısını Öz hüzuruna toplayacaqdır. (Nisa surəsi, 172)**

İncil və Quran ayələrində açıqca bildirildiyi kimi, hz. İsa (ə.s) Allahın bir quludur. Həmçinin yenə Quran ayəsində xüsusi olaraq bildirildiyi kimi, hz. İsa (ə.s), Allaha qulluq etməkdən zövq alan, Ona təslim olmuş və Ona dərin sevgiylə bağlı olan gözəllər gözəli bir peyğəmbərdir. Onun Allaha dərin sevgiylə yerinə yetirdiyi qulluq vəzifəsi, bəzi xristianlar üçün qəbul edilə bilməzdir. Onun sevgi və böyük zövqlə yerinə yetirdiyi Allaha qul olma vəzifəsini öz ağıllarınca yanlış qiymətləndirir və rədd edirlər.

Quran ayələri və aşağıda ətraflı şəkildə araşdıracağımız İncil keçidlərinə baxmayaraq, hz. İsa (ə.s)-ın yalnız bir qul kimi yaradıldığını qəbul etməyənlərin böyük əksəriyyəti ehtimalla cəhalətdən bu səhvə yol veriblər. Hz. İsa (ə.s)-a olan sevgilərindən, onun "qul" olduğunu qəbul edəcəkləri təqdirdə, bununla dəyərinin azalacağını, ona lazımi hörməti göstərmiş olmayacaqlarını zənn edirlər. Halbuki hz. İsa (ə.s)-ın şövqlə, sevgi və xoşbəxtliklə, bir ibadət olaraq yerinə yetirdiyi qulluq vəzifəsi, hz. İsa (ə.s) üçün çox böyük nemətdir və təbiidir ki, onun dəyərini azaltmaz. Tam əksinə belə bir sevgi ilə Allaha qulluq etmək, qiymətli Peyğəmbərimiz hz. İsa (ə.s)-ı qat-qat daha qiymətli etmiş, onun cənnətdəki mövqeyini yüksəltmiş, onu kütlələrin sevgilisi halına gətirmişdir. Allahı razı salmağa çalışan bir qul və peyğəmbər olmaq, bütün həyatı boyu Allahı ucaldan və Allaha şirk qoşmadan iman gətirən belə dərin ağıl sahibi bir insan olmaq, hz. İsa (ə.s) üçün nemətlərin ən böyüyüdür.

Hz. İsa (ə.s)-ın Allaha yalnız bir qul olaraq yaradıldığı başqa ayələrdə də bildirilmiş bir həqiqətdir:

**O (İsa) dedi: "<u>Həqiqətən də, mən Allahın quluyam</u>! O mənə Kitab verdi və məni peyğəmbər etdi. (Məryəm surəsi, 30)**

Başqa bir ayədə isə, hz. İsa (ə.s)-ın ölümlü olduğu, hər insan kimi öldükdən sonra axirətdə yenidən dirildiləcəyi bildirilmişdir:

**Doğulduğum gün də, öləcəyim gün də, yenidən dirildiləcəyim gün də mənə salam olsun!" (Məryəm surəsi, 33)**

Sevimli Peyğəmbərimiz hz. İsa (ə.s), özü üçün Allahın müəyyənləşdirdiyi vaxt gəlib çatdıqda, yenidən yer üzünə endiriləcək və Allahın əmr etdiyi şəkildə hz. Mehdi (ə.s) ilə birlikdə elçilik vəzifəsini tamamlayacaq (bu mövzuya kitabın irəliləyən bölmələrində toxunulur). Hz. İsa (ə.s), bu dünyada vəzifəsini tamamladıqdan sonra hər ölümlü insan kimi vəfat edəcək, ruhu cənnətə alınacaq. Bütün insanlarda olduğu kimi, onun da bütün taleyini; həyatı boyu qarşılaşdığı hər hadisəni yaradan Allahdır. Göstərdiyi bütün möcüzələri yaradan da Allahdır. Hz. İsa (ə.s) bunları öz gücü ilə deyil, Allahın özünə olan rəhməti ilə həyata keçirmişdi. Hz. İsa (ə.s), dünya həyatında yaşadığı müddət boyunca Allaha olan güclü imanını dilə gətirmiş və insanları Allahın dosdoğru yoluna dəvət etmişdir. Hz. İsa (ə.s)-ın insanları Allaha iman gətirməyə və Ona qulluq etməyə dəvət etməsi, İncildə də bildirilmiş açıq bir həqiqətdir:

*İsa ona bu cavabı verdi: ""Allahın Rəbbə tapın və təkcə Ona qulluq et" deyə yazılmışdır"". (Luka, 4: 8, Matta, 4: 10)*

Quranda isə hz. İsa (ə.s)-ın insanları Allaha iman gətirməyə dəvət etdiyi belə bildirilir:

**İsa dedi: "Həqiqətən, Allah həm mənim Rəbbim, həm də sizin Rəbbinizdir. Elə isə yalnız Ona ibadət edin! Dosdoğru yol da budur". (Məryəm surəsi, 36)**

## Xristianlar batini təfsirin əhəmiyyətini görməlidirlər

Tövratda işlənən "oğul" ifadələrini qiymətləndirərkən bəzi səmimi xristianların etdiyi ən böyük səhvlik, bu ifadələri zahiri mənaları ilə qəbul etmək, batini təfsir edə bilməməkdir. İncil sözlərini və hətta Tövratı da qiymətləndirərkən eyni səhvliyi edərlər. Halbuki batini təfsir, Allahın sözünü anlamaq üçün mühüm bir sirr və dərin düşünməyi təmin edən mühüm ehtiyacdır.

Allahın sözləri açıq, aydın olan, əsaslı və hikmətlidir. Lakin Uca Rəbbimiz, Öz sözlərində bəzən möhkəm (mənası və ifadə tərzi açıq-aydın olan) bəzən də mütəşabeh (birdən çox mənanı verən ifadə forması, müəyyən səviyyədə şərh tələb edən izah) mənalar gizlədər. Mütəşabeh mənaları görə bilmək üçün bu hikmətli sözlərdəki dərin məna və sirləri iman gözüylə qiymətləndirə bilmək lazımdır. Məhz batini təfsir də budur.

Uca Rəbbimiz bu dərin mənaları bəzi vəziyyətlərdə təşbeh və bənzətmələrlə xəbər

vermişdir. Məsələn, bir Quran ayəsində Allah: **"Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın"** (Ali İmran surəsi, 103), digər bir ayədə isə: **"Şübhəsiz ki, ayələrimizi yalan sayanlara və onlara təkəbbürlüklə yanaşanlara göyün qapıları açılmayacaq və kəndir (dəvə) iynənin gözündən keçməyincə onlar Cənnətə girməyəcəklər..."** (Əraf surəsi, 40) deyə bildirir. Həmin bu ayələr bəzi insanlar tərəfindən zahiri mənaları ilə də götürülüb şərh oluna bilər. Lakin əslindı, hər iki ayədə də edilən bənzətmələr çox hikmətli bir izahat formasıdır və insanların üzərində düşündükcə dərinləşə biləcəyi mənalar gizlənmişdir. Rəbbimiz, "Allahın ipi" təşbehi ilə, insanların Allaha və Onun göstərdiyi yola güclü bağlanmalarını, bunda qətiyyət göstərmələrini nəsihət edir. Yenə Rəbbimiz; "kəndir iynə dəliyindən keçənə qədər" bənzətməsi ilə də, ayədə bildirilən insanların (Allahın istəməsi istisna olmaqla) cənnətə qətiyyən girə bilməyəcəklərini təsirli bənzətmə ilə bildirir. Bu, olduqca gözəl və dərin izahatdır. Lakin bunu doğru anlamaq üçün, burada batini təfsir edilməlidir.

Bu vəziyyət, Quran üçün olduğu kimi, Tövrat və İncil üçün də hakimdir. Məsələn, İncildəki bir ayədə, batini cəhətdən şərh olunması lazım gələn, dərin hikmətli bir izahat belədir:

*Onlara bənzətmələrlə danışmağımın səbəbi budur: Çünki, "gördükləri halda görməzlər, eşitdikləri halda eşitməz və anlamazlar". "Beləliklə də, Yeşayanın peyğəmbərlik sözü onlar üçün gerçəkləşmiş oldu: "Eşidəcək eşidəcək, lakin heç anlamayacaqsınız, baxacaq baxacaq, lakin heç görməyəcəksiniz! Çünki bu xalqın qəlbi duyğusuzlaşdı, qulaqları ağırlaşdı. Gözlərini yumdular. Belə ki, gözləri görməsin, qulaqları eşitməsin, qəlbləri anlamasın və Mənə qayıtmasınlar. Qayıtsaydılar, onları yaxşılaşdırardım". (Matda, 13:13-15)*

Bənzər nümunələri Tövratdan da vermək mümkündür:

*Ey karlar, eşidin, ey korlar, baxın da görün!... Bir çox şey gördünüz, lakin vecinizə almırsınız, qulaqlarınız açıqdır, lakin eşitmirsiniz. (Yeşaya, 42:18, 20)*

*Rəbb mənə belə səsləndi: "Bəşər oğlu, üsyankar bir xalqın arasında yaşayırsan. Gözləri olduğu halda görmür, qulaqları olduğu halda eşitmirlər. Çünki bu xalq üsyankardır". (Hezekiel, 12:1-3)*

Quranda bu bənzətmə belə qeyd olunur:

**Sənmi karlara eşitdirəcəksən, yaxud korları və aşkar azğınlıq içində olanları doğru yola yönəldəcəksən? (Zuxruf surəsi, 40)**

**Onlar kar, lal və kor olduqlarına görə qayıtmazlar. (Bəqərə surəsi, 18)**

Əlbəttə ki, Quran, İncil və Tövratdakı bu ifadələrdə fiziki korluq və ya fiziki karlıqdan bəhs edilmir. Burada mənəvi korluq, mənəvi karlıq və mənəvi dilsizlik vurğulanılır. Bu sözlərdə bəhs edilən insanlar, Allahın varlığının bütün dəlilləri öz gözlərinin önünə sərildiyi və bu dəlillər həmişə qarşılarında olduğu halda, bunu görə bilməyən, Allahı qiymətləndirə bilməyən insanlardır. Mənəvi cəhətdən kor və kar olmuş bu insanları Allah lənətləyir.

Əgər burada bildirilən korluq və ya karlıq zahiri mənada götürülsə, əlbəttə ki, bu özü ilə olduqca yanlış şərhləri gətirəcək. Bu yanlış şərhlərdən qaça bilmək üçün, batini təfsir edə bilməyin əhəmiyyəti böyükdür. Çünki Allah, bu dərin mənalarla insanlara çox böyük və mühüm mesajlar verir, onları doğru yola yönəldəcək sirlər gizlədir.

## İncildəki "Oğul" ifadəsi, batini təfsir yoluyla qiymətləndirilməlidir

Əvvəlcə bunu ifadə etmək lazımdır ki, batini təfsir çatışmazlığı, İslamda, yəhudilikdə və xristianlıqda müxtəlif formalarda qarşılaşılan vəziyyətdir. Dolayısilə bu, təkcə bəzi xristianlara məxsus bir çatışmazlıq hesab edilməməlidir. Lakin burada mövzu etibarilə bunun təkcə xristian qardaşlarımıza aid hissəsindən bəhs edilir.

Batini təfsir edə bilmək, bəzi xristian qardaşlarımızın qapıldığı yanlış düşüncələr baxımından böyük əhəmiyyət kəsb edir. Çünki illərdir ki, davam etmiş hz. İsa (ə.s)-ın Allahın oğlu olduğuna dair batil inanc (Allahı tənzih edirik), batini təfsir çatışmazlığından qaynaqlanan olduqca mühüm və təhlükəli səhv şərh etmədir. İncildə və yuxarıda bildirdiyimiz kimi, Tövratda qeyd olunan "Allahın oğlu" ifadələri, bu sözlərdə işlənən zahiri mənaları ilə qəbul edilmiş və dərin mənaları lazımınca düşünülmədən olduğu kimi təfsir edilmişdir.

Halbuki burada işlənən "oğul" ifadəsi, daha əvvəl də bildirdiyimiz kimi, Allaha mənəvi cəhətdən yaxınlıq, sevgi, seçilmişlik, dostluq ifadəsidir. Allahın sevimli və seçilmiş qulu üçün bildirdiyi olduqca dərin izahatdır.

Xristianlar, "Allahın oğlu" ifadəsiylə haşa fiziki mənanın nəzərdə tutulmadığını, burada bir qulun Allaha mənəvi yaxınlığının vurğulandığını anlamalıdırlar. Batini dünyagörüşü ilə baxdıqları vaxt, bu xitab forması ilə çox fərqli və dərin mesaj verilmiş olduğunu daha yaxşı görəcəklər.

## Hz. İsa (ə.s)-ın Allahın Oğlu olmadığına dair İncildən dəlillər

Bəzi xristianlar hz. İsa (ə.s)-ın yalnız bir qul olduğu həqiqətinin təkcə Quranla

bildirildiyini düşünə bilərlər. Halbuki, xristianların öz kitabları olan İncil, hz. İsa (ə.s)-ın imtahan verən, dua edən, yemək yeyən, yorulduğu vaxt yatan, Allaha qulluq edən bir bəşər olduğunu açıqca və müxtəlif formalarda xəbər vermişdir. Təslis tərəfdarı xristianlar hər nə qədər müsəlmanların gətirdiyi təslis əleyhdarı dəlillərə qarşı çıxsalar da, hz. İsa (ə.s)-ın Allahın oğlu olmadığını öz kitabları, yəni İncil söyləyir. Təlqinlərdən və ön mühakimələrdən xilas olmuş hər ağıl və hər vicdan; İncil keçidlərinin açıq, şərhsiz, saf mənalarının bu şəkildə olduğunu dərhal anlayacaq.

Hz. İsa (ə.s)-ın Allahın oğlu olmadığına, onun yalnız Allaha qul olan bir bəşər olduğuna dair İncildən dəlillər belədir:

## Hz. İsa (ə.s)-ın dünyaya gəlməsi, nəsli, yaxınları

Məlum tarixi məlumatlara görə, hz. İsa (ə.s), hz. Davud (ə.s) nəslindəndir. Hz. İsa (ə.s) xalq arasında tanınan biridir. Xalq onun kimin nəslindən gəldiyini, harada doğulub böyüdüyünü bilir. Hz. İsa (ə.s)-ın ailəsi də xalq tərəfindən yaxından tanınır. Dolayısilə o da, digər bütün insanlar kimi nəsli və dünyaya gəlməsi bəlli olan bir bəşərdir:

*Keçmiş vaxtlardan bəri müqəddəs peyğəmbərlərin ağzından bildirdiyi kimi, qulu Davudun nəslindən bizim üçün güclü bir xilaskar çıxartdı; düşmənlərimizdən, bizdən nifrət edənlərin hamısının əlindən qurtulmağımızı təmin etdi. (Luka 1: 69-71)*

*İbrahim oğlu, Davud oğlu İsa Məsihin nəsli ilə, əlaqədar qeyd belədir... (Matta 1: 1-2)*

*Öndən gedən və arxadan gələn izdihamlı kütlələr belə qışqırırdılar: "Davud oğluna şükürlər olsun! Rəbbin adıyla gələnə təriflər olsun, ən ucalarda şükürlər olsun!" İsa Qüdsə girdiyi vaxt bütün şəhər camaatı: "bu kimdir?" deyərək çalxalandı. İzdihamlı kütlələr: "bu, Qalileyanın Nazaret şəhərindən olan İsa peyğəmbərdir" deyirdi. (Matta, 21/9-11)*

*Bu Məryəmin oğlu, Yaqub, Yose, Yəhuda və Simonun qardaşı olan dülgər deyildirmi? Bacıları burada, aramızda yaşamırmı?.. (Markos, 6/3)*

## Hz. İsa (ə.s)-ın bəşəri xüsusiyyətləri

Hz. İsa (ə.s)-ın bir bəşər olması, təslisi təməlindən sarsıdan mühüm mövzudur. Hər nə qədər üçlük müdafiəçiləri hz. İsa (ə.s)-ın yer üzündə maddi varlıq, yəni bəşər olaraq təcəlli etdiyi, bu şəkildə insanlara çatdığı kimi səthi məntiq göstərsələr də, bu vəziyyət hz. İsa (ə.s)-ın hər insan kimi bəşəri xüsusiyyətləri olmasının təslis inancını tamamilə yox etdiyi

həqiqətini aradan qaldırmır. Mələklər də insan surətində təcəlli edə bilərlər. Lakin üstün yaradılışlarının təzahürü olaraq yemək yemək, yorulduqda dincəlmək kimi ehtiyacları yoxdur. Vəziyyət belə olduğu halda (haşa) bir Tanrının bu insani ehtiyaclarla yer üzündə olduğunu iddia etmək çox dəhşətlidir (Allahı tənzih edirik).

İncildə hz. İsa (ə.s) ilə əlaqədar verilən məlumatlardan, bu qiymətli insandan "Allahın oğlu deyil, Allahın mübarək elçisi olaraq danışıldığı" açıqca aydın olur. Onun da hər insan kimi bir həyat yaşadığı görülür. O da digər insanlar kimi doğulmuş, körpəlik, uşaqlıq və gənclik dövrlərindən keçmişdir. Yemək yemə ehtiyacı hiss etdiyi vaxt, yanındakı həvariləriylə birlikdə Allaha şükür edərək yemək yemiş, uzun bir gündən sonra hər insan kimi yorulmuş və yatmaq ehtiyacı hiss etmişdir. Bununla yanaşı hz. İsa (ə.s)-ın yuyunmaq, təmizlənmək kimi fiziki ehtiyaclarının olduğu İncildə bildirilir. Bütün bu insani xüsusiyyətlər təslis iddiasını tamamilə ortadan qaldırır. Hz. İsa (ə.s), bir qul, bir peyğəmbər olması və hər insan kimi imtahan olunmasından ötrü bəşəri xüsusiyyətlər və ehtiyaclarla yaradılmışdır. Əlbəttə ki, ehtiyacların və çatışmazlıqların ortadan qalxdığı yer yalnız cənnətdir.

Hz. İsa (ə.s)-ın, iddia edilən ilahlıq xüsusiyyətini ortadan qaldıran, bəşəri xüsusiyyətləri ilə əlaqədar İncil keçidlərindən bəziləri belədir:

*İsa bilik və boy cəhətdən inkişaf edir, Allahdan və insanlardan yaxşılıq görürdü. (Luka, 2/52)*

*Onlarla süfrədə oturarkən İsa çörək götürdü, şükür etdi və çörəyi bölüb onlara verdi. (Luka, 24/30)*

*Sevincdən hələ inana bilməyən, çaşbaş qalmış tələbələrindən: "Sizdə yeməyə bir şey varmı?" deyə soruşdu. Özünə bir qədər qızarmış balıq verdilər. İsa onu alıb gözlərinin qarşısında yedi. (Luka, 24/41-43)*

*Mayasız çörək bayramının ilk günü tələbələr İsanın yanına gələrək: "Pasxa yeməyini yeməyin üçün harada hazırlıq görməyimizi istəyərsən?" deyə soruşdular. (Matta, 26/17)*

*Daha sonra İsa, Levi'nin evində yemək yeyən vaxtı... (Markos, 2/15)*

*İsa bundan sonra evə getdi. Yenə elə böyük insan kütləsi toplandı ki, İsayla tələbələri yemək belə yeyə bilmədilər. (Markos, 3/20)*

*Süfrə başına əyləşmiş halda yemək yeyərlərkən İsa: "Sizə doğrusunu söyləyim" dedi, "sizdən biri, mənimlə yemək yeyən biri, məni satacaq" (Markos, 14/18)*

*Fəriseylərdən biri İsanı yeməyə dəvət etdi. O da onun evinə gedib süfrə başına əyləşdi. (Luka, 7/36)*

*...İsa, səfərdən ötrü yorulduğu üçün quyunun yanında əyləşmişdi. Saat on iki radələri idi. Samariyalı bir qadın quyudan su çəkməyə gəldi. İsa ona: "Mənə su ver, içim" dedi. (Yuhanna, 4/6-7)*

*İsa, qayığın uc hissəsində bir yastığa yaslanmış vəziyyətdə yatırdı... (Markos, 4/38)*

*İsa onlara: "Gəlin, tək başımıza tənha bir yerə gedək ki, bir qədər istirahət edəsiniz" dedi. Gələn-gedən elə çoxdu ki, yemək yeməyə belə vaxt tapa bilmirdilər. (Markos, 6/31)*

*...Səfərdən ötrü yorulan İsa quyunun yanında əyləşdi... (Yuhanna, 4/4)*

## Hz. İsa (ə.s)-ın da sınaqlardan keçməsi, imtahan verməsi, şeytanın onu da azdırmaq üçün çalışması

İncildə hz. İsa (ə.s)-ın Allah tərəfindən sınanılan, imtahan olunan bir bəşər olduğu açıqca bildirilir. Şübhəsiz ki, Allahın sınadığı, sınaqlardan keçirdiyi bir bəşərin Allah olması qeyri-mümkündür (Allahı tənzih edirik). Şeytanın azdırmağa çalışdığı bir insanın belə bir xüsusiyyətə sahib olması qeyri-mümkündür. Allah, İncildə hz. İsa (ə.s)-ın sınanılan, imtahan olunan və Allaha qulluq edən bir bəşər olduğunu bildirmişdir:

*[Hz. İsa (ə.s)]: "Sınandığım vaxtlar mənimlə birlikdə səbir edənlər sizdiniz". (Luka 22: 28)*

*Sonra İblis İsanı hündürlüyə çıxardaraq bir anda ona dünyanın bütün ölkələrini göstərdi. Ona: "Bütün bunların idarəsini və var-dövlətini sənə verəcəyəm. Bunlar mənə təslim edildi, mən də istədiyim insana verərəm. Mənə tapınsan, hamısı sənin olacaq" dedi. İsa ona bu cavabı verdi: ""Tanrın Rəbbə tapınmalı, təkcə Ona qulluq etməlisən" deyə yazılmışdır". (Luka 4: 5-8)*

*İblis, İsanı hər cəhətdən sınadıqdan sonra bir müddət onun yanından ayrıldı. (Luka 4: 13)*

## Hz. İsa (ə.s)-ın atasız dünyaya gəlməsi təslis iddiasına bir dəlil ola bilməz, belə ki, hz. Adəm (ə.s) həm anasız, həm də atasız dünayaya gəlmişdir

Təslis tərəfdarı xristianlar iddialarına dəlil olaraq hz. İsa (ə.s)-ın atasız olaraq möcüzəvi dünyaya gəlməsini göstərərlər. Halbuki bu iddianı güclü dəlil hesab edərlərkən hz. Adəm (ə.s)-ın həm anasız, həm də atasız yaradılmış olduğunu düşünməzlər. Hz. Adəm (ə.s) heç bir səbəb və vəsilə olmadan Rəbbimizin "ol" əmri ilə cənnətdə yaradılmışdır. Belə bir yaradılma, daha da möcüzəvidir. Lakin buna baxmayaraq, heç bir xristian hz. Adəm (ə.s)-a ilahlıq isnad etməmişdir. Dolayısilə bəzi xristianların təslisə dəlil olaraq göstərdikləri bu

məntiq tamamilə əsassızdır. Əsla və əsla hz. İsa (ə.s)-a isnad edilməyə çalışılan ilahlıq xüsusiyyətini dəlilləndirmir.

Hz. Adəm (ə.s)-ın yaradılışı, İncil və Tövratda belə bildirilir:

*Çünki əvvəlcə Adəm, sonra isə Həvva yaradıldı; (1. Timoteos 2: 13)*

*RƏBB Tanrı, Adəmi torpaqdan yaratdı və burnuna həyat nəfəsini üflədi. Beləliklə də, Adəm yaşayan varlıq oldu. (Yaratılış 2: 7)*

## İncildə işlənən "Allahın oğlu" ifadələrinin heç biri fiziki mənasıyla qəbul edilməmişdir, təkcə hz. İsa (ə.s)-a həqiqi oğul mənası aid edilmişdir

İncilin bir çox yerində "Allahın oğlu" və ya "Allahın oğulları" ifadələri işlədilir. Daha sonra ətraflı şəkildə izah edəcəyimiz kimi, Allahın oğlu sözləri, sevgi və məhəbbət ifadəsidir. Bir insanın mübarək, etibarlı, sadiq və Allahın sevimli qulu olduğunun bir izahıdır. Dolayısilə qətiyyən həqiqi (fiziki) oğul mənasını daşımır. Necə ki, bu ifadə İncilin çox yerində və çox insana xitab məqsədiylə işlədilmiş, lakin heç birində fiziki mənada qəbul edilməmişdir. *"Böyük xoşbəxtlik sülhü təmin edənlərədir! Onlara Tanrı oğulları deyiləcək"* (Matta, 5/9) ayəsində olduğu kimi, sülhü təmin edənlər Allahın sevimli və qiymətli qullarına çevriləcəkdir. Bunu heç bir xristian həqiqi oğul mənasında anlamaz, buna fərqli məna yükləməz.

Vəziyyət belə olduğu halda, İncildə təkcə hz. İsa (ə.s) üçün işlədilən "Allahın oğlu" ifadələri fiziki mənada işlədilməyib. Eyni ifadələrin keçməsinə, heç bir fərqli söz işlədilməməsinə baxmayaraq, təkcə hz. İsa (ə.s)-a həqiqi oğul sifəti isnad edilmişdir. Bu vəziyyət, Allahın oğlu ifadəsinin əsil mənasından uzaqlaşdırıldığını və qəsdli surətdə hz. İsa (ə.s)-a məxsus xüsusi məna ilə işlədildiyini göstərir. İncildə Allahın oğlu və ya oğulları ifadəsinin işləndiyi bəzi ayələr belədir:

*[Hz. İsa (ə.s)]: "Lakin siz düşmənlərinizi sevin, yaxşılıq edin, heç bir qarşılıq gözləmədən borc verin. Alacağınız mükafat böyük olacaq, Ucalar Ucasının oğulları olacaqsınız. Çünki O, nankor və pis insanlara qarşı yaxşı qəlblidir". (Luka 6: 35)*

*Hər şeyə qadir olan Rəbb belə deyir: "Sizə Ata olacağam, siz də oğullarım, qızlarım olacaqsınız". (Korintlilere 2. Mektup 6: 18)*

Burada ayrıca ifadə etmək lazımdır ki, müqəddəs mətnlərdə hz. İsa (ə.s) 80 dəfə bəşər oğlu kimi xarakterizə edilir. Təslis tərəfdarı xristianlar bu ifadəni müxtəlif formalarda şərh etməyə çalışsalar da, bəşər oğlu ifadəsi hz. İsa (ə.s)-ın ana dili olan arami dilində barnaşa, yəni "insan" mənasını verən xüsusi deyimdir. Dolayısilə bəşər oğlu deyimi bu dildə insan sözü ilə eyni mənalıdır. *(Prof. Dr. Mehmet Bayrakdar, Bir Hristiyan Dogması Teslis, Ankara Okulu nəşriyyatı, sentyabr 2007, səh. 168)*

## İncildə işlənən "Ata" xitabı yenə məcazi mənadadır və bütün insanlara səslənilir

İncildə oğul sözü ilə yanaşı, "Ata" sözü də işlədilir. Buradakı Ata ifadəsi, himayədarlıq, sevgi və şəfqət mənalarını verir, buradakı xitabla Allahın ruhunu daşıyan, cənnətlə müjdələnilən və Allaha mənəvi cəhətdən yaxın insanlar hədəflənir və təbiidir ki, sözün əsl mənası qətiyyən nəzərdə tutulmur. Lakin təslis tərəfdarları, İncildə mənası bu qədər açıq olan bir sözü həmin bu İncil keçidlərində məcazi mənası ilə götürdükləri halda, hz. İsa (ə.s)-a xitab edilən ayələrdə hz. İsa (ə.s)-ın bioloji atası kimi götürürlər. Bu, açıq şəkildə səhv istiqamətləndirmə, mənası dəqiq olan bu mövzuda açıqca yanıltmadır.

İncildə "Ata" xitabının işlədildiyi və məcazi mənası olduqca açıq olan ayələrdən bəziləri belədir:

*Belə ki, verdiyiniz sədəqə gizli qalsın. Gizlicə ediləni görən Atanız sizi mükafatlandıracaq... Çünki Rəbbiniz nələrə ehtiyacınız olduğunu hələ siz Ondan istəmədən əvvəl bilir. (Matta 6:4, 8)*

*"Doğruluğunuzu insanların gözü qarşısında özünüzü onlara göstərmək məqsədiylə etməyin, yoxsa göylərdə olan Atanızdan mükafat ala bilməzsiniz. (Matta 6: 1)*

*Lakin siz dua edərkən "daxili otağınıza çəkilib, qapını örtüb" və qeybdə olan Atanınıza dua edin. Qeybdə ediləni görən Atanız sizi mükafatlandıracaq. (Matta 6: 6)*

## İncildəki "Tanrının övladları" ifadəsi də, yenə məcazi məna daşıyır

İncilin bir çox ayəsində işlənən "Tanrının övladları" ifadəsi ilə iman gətirənlər nəzərdə tutulur, eləcə də, mənəvi və məcazi yaxınlığa işarə edilir. Bu insanların mübarək, Allah Qatında qiymətli, Allah rizasını qazanmış olduğu ümid edilən insanlar olduqları vurğulanır. Burada qətiyyən ilahlıq xüsusiyyətindən söhbət getmir. İncildəki "Ata", "Oğul" və "Tanrının övladları" ifadələrinə ön mühakiməsiz yanaşan hər kəs sözlərin məcazi məna daşıdığını, Allahın yaxınlığını, şəfqətini, sevgisini və himayədarlığını göstərmək üçün, xüsusilə bu ifadələrin işlədildiyini asanlıqla anlaya bilər. İncildə tez-tez işlədilən bu sözlərin, hz. İsa (ə.s) barəsində niyə fərqli şərh olunduğu isə, aydın ola bilmir. Əlbəttə ki, məna dəyişmir, eyni məcazi mənadan istifadə olunur, lakin təslis tərəfdarları qəsdli surətdə bu cür şərh edirlər.

İncildə Tanrının övladları ifadələrinin işləndiyi müxtəlif ayələr belədir:

*Özünü qəbul edib, adına iman edənlərin hamısına <u>Tanrının övladları</u> olma haqqını*

*verdi. (Yuhanna, 1/12)*

*Əziz qardaşlarım, hələ indidən Tanrının övladlarıyıq, lakin nə olacağımız hələ bizə göstərilmədi. Lakin, Məsih göründüyü zaman, ona bənzər olacağımızı bilirik. Çünki onu olduğu kimi görəcəyik. (Yuhanna'nın 1. Mektubu, 3:2)*

*Tanrını sevib buyruqlarını yerinə yetirməklə, Tanrının övladlarını sevdiyimizi anlayarıq. (Yuhanna'nın Birinci Mektubu, 5/2)*

## Ata ifadəsinin məcazi məna daşımasına dair bir nümunə, bu ifadənin hz. İbrahim (ə.s) üçün işlədilməsidir

İncildə hz. İbrahim (ə.s), iman gətirənlərin "atası" kimi tanıdılır. Aydındır ki, burada da ata sözü məcazi mənada işlədilmiş, bu ifadə ilə hz. İbrahim (ə.s)-ın liderliyi, himayədarlığı, özünü izləyənlərə yol göstərdiyi vurğulanmışdır.

*Bundan ötrü də, vəd, Tanrının lütfünə nail olmaq və İbrahimin bütün nəsli üçün, zəmanət altına alınmaq məqsədiylə imandan asılı edilmişdir. İbrahimin nəsli təkcə Müqəddəs Qanuna bağlı olanlar deyil, eyni zamanda İbrahimin imanına sahib olanlardır. "Səni bir çox millətin atası etdim" deyə yazılmış olduğu kimi İbrahim, iman gətirdiyi (ölülərə həyat verən, var olmayanı buyruğuyla var edən) Tanrının gözündə hamımızın atasıdır. (Romalılar, 4:16)*

*"Bizim atamız İbrahimdir" deyə cavab verdilər. İsa da: "İbrahimin övladları olsaydınız, İbrahimin etdiklərini edərdiniz" dedi. (Yuhanna, 8:39)*

## İncildə "Yaradan əvəzinə yaradılana, ölümsüz Allah əvəzinə ölümlü insana qulluq etmək" qınanılmışdır

İncildə bu mövzuda işlənən ayələr çox əhəmiyyətlidir. Dövrün insanlarının, Yaradan əvəzinə yaradılana, yəni ölümlü insana tapındıqlarından, onu ilah qəbul etdiklərindən bəhs edər. Məhz bu, təslis tərəfdarı xristianların hazırkı vəziyyətləridir. Onlar da bir bəşəri ilah qəbul edərək, yaradılan bir qulu öz aləmlərində yaradıcı elan ediblər. Allah onları İncildə xəbərdar etmişdir:

*Tanrını tanıdıqları halda, Onu Tanrı kimi ucaltmadılar, Ona şükür etmədilər. Əksinə, axmaq düşüncələrə qapıldılar; anlayışsız qəlblərini qaranlıq bürüdü. Ağıllı olduqlarını irəli sürdükləri halda, ağılsız çıxdılar. Ölümsüz Tanrının ucalığı əvəzinə ölümlü insanı, quşları, dörd ayaqlıları, sürünənlərə bənzəyən bütləri üstün görüb onlara yönəldilər. Buna görə də,*

*Tanrı, bir-birlərinin bədənlərini alçaltsınlar deyə, onları qəlblərinin arzuları içində əxlaqsızlığa təslim etdi. Onlar Allahla əlaqəli həqiqətin yerinə yalanı qoydular. Yaradan əvəzinə, yaradılana tapınıb qulluq etdilər. Halbuki Allah əbədiyyən təriflənməyə layiqdir! Amin. (Romalılar, 1:21-25)*

## Hz. İsa (ə.s)-ın "Allah təkdir" deməsi

Allah təkdir. İncil görə hz. İsa (ə.s), bunu açıqca söyləmişdir. İncildə Allahın bir və tək olduğu, təkcə Ona qulluq edilməli və Ona şirk qoşmadan iman gətirilməli olduğu bir çox ayədə çox açıq şəkildə bildirilmişdir (İncildə Allahın vahidliyi ilə əlaqədar bütün ayələri irəliləyən səhifələrdə görə bilərsiniz). Bu ayələrdə, nə üçlükdən, nə üç ayrı Tanrının tək Tanrı mənasını verdiyindən, nə də əslində tək, lakin mövcudluqda üç kimi məntiqsiz açıqlamalardan bəhs edilir. Təkcə "Allah təkdir" deyilir. İncil keçidlərində qəti olan həqiqət, **Ondan başqa ilah olmamasıdır**. Bunu görmək elə asandır ki, bu qədər çox xristianın İncil keçidlərindəki açıq ifadələrə baxmayaraq, qarışıq təslis inancı meydana gətirmələri həqiqətən təəccüblənməli haldır.

*Onların mübahisələrini dinləyən və İsanın onlara gözəl cavab verdiyini görən bir din alimi yaxınlaşıb ondan: "Buyruqların ən əhəmiyyətlisi hansıdır?" deyə soruşdu. İsa ona belə cavab verdi: "[Allahın buyruqlarının] ən əhəmiyyətlisi budur: Dinlə, ey İsrail! Allahımız olan Rəbb tək Rəbbdir... Din alimi İsaya: ""Yaxşı söylədin, müəllimim. Allah təkdir və Ondan başqası yoxdur" deməklə doğrunu söylədin" dedi. (Markos, 12/28-32)*

*Xilaskarımız Tək Allaha ucalıq olsun... (Yahuda'nın Mektubu, 1: 24)*

*Sən Allahın Tək olduğuna inanırsan, yaxşı edirsən. Cinlər belə buna inanır və [Allah qorxusuyla] titrəyirlər! (Yakup'un Mektubu, 2: 19)*

## Hz. İsa (ə.s)-ın Allahdan qorxmağı əmr etməsi

İncilə görə hz. İsa (ə.s) özündən deyil, təkcə Allahdan qorxulmasını nəsihət edir. Bəzi xristianlar üçlüyün nəzərdə tutulduğunu, dolayısilə hz. İsa (ə.s)-ın bu əmrlə özünü də nəzərdə tutduğunu iddia edə bilərlər. Əlbəttə ki, bu qarışıqlıq, təkcə təslis müdafiəçilərinin göstərəcəkləri və insanları yanıltmaq üçün işlədəcəkləri bir məntiqdir. Güclü vicdan sahibi olan heç kəs, bu sapdırmaya aldanmamalıdır. Ayənin mənası qəti və açıqdır. Hz. İsa (ə.s) heç kimi özünə tapınmağa dəvət etmir, hətta əksinə yalnız tək ilah olan Allaha istiqamətləndirir.

*O [hz. İsa (ə.s)] belə dedi: "Bədəni öldürə bilən, lakin canı öldürə bilməyənlərdən qorxmayın. Canı da, bədəni də cəhənnəmdə məhv edə bilən Allahdan qorxun". (Matta, 10:28)*

## Hz. İsa (ə.s)-ın Allahı sevməyi əmr etməsi

Yenə İncilə görə hz. İsa (ə.s), insanları həmişə tək Allaha yönəldir və Onu sevmələrini istəyir.

*İsa belə cavab verdi: "Ən əhəmiyyətlisi budur: "Dinlə, ey İsrail! Allahımız olan Rəbb tək Rəbbdir. Allahın olan Rəbbi bütün qəlbinlə, bütün canınla, bütün ağlınla və bütün gücünlə sev"". (Markos, 12/29-30)*

## Hz. İsa (ə.s)-ın Allaha yalvarmağı əmr etməsi

Təslis tərəfdarlarına görə, özünə dua edilməli insan hz. İsa (ə.s)-dır. Həmçinin hazırda təslis müdafiəçisi xristianlar hz. İsa (ə.s)-a dua edirlər. Halbuki İncildə, hz. İsa (ə.s)-ın öz ağzından duanın Allaha edilməli olduğu deyilir. Hökmdə heç bir qarışıqlıq yoxdur, hz. İsa (ə.s), heç bir yerdə Allaha yalvarmaq üçün insanların özünə yönəlməli olduqlarını söyləmir. Bilavasitə Allaha yalvarmalarını nəsihət edir. Dua etmək üçün vasitəçilər olduğu, hz. İsa (ə.s) olmadan duanın Allaha çatmayacağı kimi qarışıq və ziddiyyətli fikirlər, təkcə təslis tərəfdarlarının uydurmasıdır. Qəlb və məntiq gözü ilə baxan bir insan üçün İncil keçidləri olduqca aydındır.

*O vaxt İsa tələbələrinə: "Məhsul boldur, lakin işçi azdır, bundan ötrü də, məhsulun sahibi olan Rəbbə yalvarın, məhsulunu götürəcək işçilər göndərsin" dedi. (Matta, 9:37-38)*

## Hz. İsa (ə.s)-ın təkcə Allaha qulluq edilməsini söyləməsi

İncilə görə hz. İsa (ə.s) insanları, özünə deyil, Allaha qulluq etməyə dəvət etmişdir. Hz. İsa (ə.s)-ın bu sözlərində əslində özünü nəzərdə tutduğu kimi, zorakı məna axtaranlar, yenə təslisi İncilə daxil etməyə çalışanlardır. Ayə aydındır; hz. İsa (ə.s), eynilə hz. İbrahim (ə.s), hz. Musa (ə.s) və hz. Məhəmməd (s.ə.v) kimi Allahın sevimli peyğəmbəri olaraq özünə verilən təbliğ vəzifəsini yerinə yetirir və insanları Allaha qulluq etməyə dəvət edir.

*İsa ona bu cavabı verdi: ""Allahın olan Rəbbə tapın və təkcə Ona qulluq et" deyə*

*yazılmışdır". (Luka, 4:8, Matta, 4:10)*

## Hz. İsa (ə.s)-ın Allaha iman gətirilməsini əmr etməsi

İncilə görə hz. İsa (ə.s), yenə özünə endirilən peyğəmbərlik vəzifəsini yerinə yetirir və insanları Allaha iman gətirməyə dəvət edir.

*İsa onlara belə cavab verdi: "<u>Tanrıya iman gətirin</u>". (Markos, 11:22)*

## Hz. İsa (ə.s)-ın, hər şeyin Allah rizası üçün edilməsini nəsihət etməsi

Hz. İsa (ə.s), İncildə insanları öz rizasına deyil, tək olan Allahın rizasını qazanmağa yönəldir. Deməli, rizası axtarılacaq varlıq, hz. İsa (ə.s) deyil, Uca Allahdır.

*Nəticə etibarilə, <u>nə yesəniz, nə içsəniz, nə də etsəniz, hər şeyi Allahın ucalığı üçün edin</u>. (Pavlus'tan Korintlilere 1. Mektup, 10:31)*

*Günü qeyd edən, Rəbb üçün qeyd edər. Hər şeyi yeyən, Allaha şükür edərək <u>bunu Rəbb üçün yeyər</u>. Bəzi şeyləri yeməyən də <u>Rəbb üçün yeməz və Allaha şükür edər</u>. Heç birimiz özümüz üçün yaşamarıq, heç birimiz də özümüz üçün ölmərik. <u>Yaşasaq, Rəbb üçün yaşayarıq; ölsək, Rəbb üçün ölərik</u>. (Pavlus'tan Romalılara Mektup, 14:6-8)*

*Rəbbdən miras mükafatını alacağınızı bilərək, hər nə etsəniz, insanlar üçün deyil, <u>Rəbb üçün qəlbən edin</u>... (Pavlus'tan Koloselilere Mektup, 3:23-24)*

## Hz. İsa (ə.s)-ın insanları, Allahı tərifləməyə və ucaltmağa təşviq etməsi

Hz. İsa (ə.s), ətrafındakı insanları hər vaxt, tək təriflənilləcək və ucaldılacaq olan Uca Rəbbimiz Allaha istiqamətləndirmiş və Onu ucaldıb tərifləməyə təşviq etmişdir. Hz. İsa (ə.s) İncil keçidlərində özünü nəzərdə tutmur. Belə bir şərh ayələrdə yoxdur. Hz. İsa (ə.s), sahib olduğu elmin özündən deyil, Allahdan olduğunu söyləyir və insanları bilavasitə Uca Rəbbimiz olan Allaha istiqamətləndirir.

*Yəhudilər təəccüblənərək belə dedilər: "Bu insan heç təhsil almadığı halda, necə bu qədər bilikli ola bilər?". İsa isə onlara: "<u>Mənim təhsilim mənim deyil, məni Göndərənindir</u>" deyə cavab verdi. "Əgər biri Allahın istəyini yerinə yetirmək istəyirsə, <u>bu təhsilin Allahdanmı olduğunu, yoxsa özlüyümdənmi danışdığımı biləcək</u>. Öz istəyi ilə danışan özünü ucaltmaq istəyər, lakin <u>özünü Göndərəni ucaltmaq istəyən dürüstdür və onda haqsızlıq yoxdur</u>".*

*(Yuhanna, 7:15-18)*

*İsa yola çıxarkən, biri qaçaraq yanına gəldi. Qarşısında diz çöküb ondan: "Yaxşı (yaxşı insan mənasında) müəllimim, əbədi həyata qovuşmaq üçün nə etməliyəm?" deyə soruşdu. İsa ona: "...yaxşı olan tək biri var, O da Allahdır". (Markos, 10/17-18)*

## Hz. İsa (ə.s)-ın, Allaha itaət etdiyini söyləməsi

İncilə görə hz. İsa (ə.s) Allahın qulu olduğunu, peyğəmbər kimi göndərildiyini və peyğəmbərlik xüsusiyyətinin tələbindən ötrü də Allahın özünə əmr etdiklərinə əməl etməklə məsul olduğunu bildirir. Özündən bir şey etmədiyini və Özünü göndərən Uca Allahın buyruqlarını yerinə yetirdiyini söyləyir.

Sonsuz güc sahibi bir İlah ancaq Quranın: **"...O, bir işin olmasına qərar versə, ona yalnız "ol" deyər, o da dərhal olar"** (Bəqərə surəsi, 117) ayəsində bildirildiyi kimi, yaratdıqlarına hökm edər. Hz. İsa (ə.s) da bu həqiqəti bilən və Allaha itaət edən bir quldur.

Diqqət yetirilsə hz. İsa (ə.s) demək olar ki, hər sözündə, özünü yaradan Allahın böyüklüyünü tərifləyir və Onun əmrlərini yerinə yetirdiyini bildirir. Dolayısilə hz. İsa (ə.s)-ın bu mövzuda İncildə qeyd olunan sözlərində də təslisi dəstəkləyəcək heç bir açıqlama yoxdur.

*O [hz. İsa (ə.s)] belə dedi: "...Öz istəyimi deyil, məni Göndərənin [Allahın] istəyini yerinə yetirmək üçün gəldim". (Yuhanna, 6:38)*

*O [hz. İsa (ə.s)] belə dedi: "Mən özlüyümdən heç nə edə bilmərəm. Eşitdiyim kimi mühakimə edərəm və mənim mühakiməm ədalətlidir. Çünki məqsədim öz istəyimi deyil, məni Göndərənin [Allahın] istəyini yerinə yetirməkdir". (Yuhanna, 5:30)*

## Hz. İsa (ə.s)-ın, möcüzələri Allahın icazəsi ilə gerçəkləşdirdiyini söyləməsi

Əlbəttə ki, tək Hakim Allahdır. Eləcə də, hər şeyin Hakimi olan Allah, şübhəsiz ki, bir peyğəmbər olaraq göndərdiyi hz. İsa (ə.s)-ın da Hakimidir. Əlbəttə ki, hz. İsa (ə.s), etdiyi hər şeyi Rəbbimizin icazəsi ilə etdiyini bilir. Necə ki, İncil sözlərinin çox böyük hissəsində hz. İsa (ə.s)-ın bunu bilərək danışdığı, Allahı ucaltdığı və insanları Allaha yönəltdiyi açıqca görülür.

*...İsa, Rəbbin gücü sayəsində xəstələri sağaldırdı. (Luka, 5:17)*

*İsa, Allahın hər şeyi öz əllərinə verdiyini və Allahdan gəlmiş olub yenə Ona qayıtdığını*

*bilirdi. (Yuhanna, 13:3)*

Bəzi xristianlar, İncildə bildirilən bu açıqlamaları da belə şərh edə bilərlər: "Hz. İsa (ə.s) həm insan, həm də tanrı xüsusiyyəti göstərirdi. Dolayısilə insan xüsusiyyətləri göstərməsi normaldır". Belə bir şərh, təslis inancının təməlindəki böyük məntiqsizliyi ifadə edir. İnsan xüsusiyyətləri göstərən, dünya həyatının tələbi olaraq acizliklərlə yaradılmış bir varlıq, necə ilah ola bilər? Belə bir iddia, Allahı sevdiyini iddia edən insanlar tərəfindən necə qəbul edilə bilər?

Allah ucadır, dünyadakı çatışmazlıqları imtahan üçün yaradandır, lakin Özü bütün çatışmazlıqlardan uzaqdır. Daha əvvəl dəfələrlə üzərində dayandığımız və kitabın irəliləyən səhifələrində də dayanacağımız kimi, problem, Allahın ucalığını lazımınca anlamamaq və Onu qiymətləndirə bilməməkdir.

Burada, İncilə əsaslanaraq verilən bütün açıqlamalar, hz. İsa (ə.s)-ın Allaha sadiq və itaətkar bir qul və bəşər olduğunu açıqca göstərir. İncildə qəti olaraq bildirilən bu ifadələr, zaman keçdikcə təslis məntiqsizliyinin süzgəcindən keçirilmiş, İncil sözləri qarmaqarışıq şərhlərlə təslis inancına uyğunlaşdırılmağa çalışılmışdır. Halbuki bu hiyləgər təlqini almamış bir insan, İncilə baxdığı vaxt, hz. İsa (ə.s)-ın insan və qul xüsusiyyətini asanlıqla anlaya bilər. Belə bir insan, təslis iddiasının nə qədər zorakı bir izah olduğunu da asanlıqla görə bilər. Hətta belə aydın açıqlamalardan təslis kimi bir məntiqin çıxmasına da olduqca təəccüblənəcək. Deməli, açıq zehin və ön mühakiməsiz dünyagörüşü ilə baxıldığı vaxt, hər xristian İncildə qətiyyən təslis inancına dair heç nə olmadığını, üstəlik, yuxarıdakı İncil sözlərindən də aydın ola biləcəyi kimi, əksinə bu inancı ortadan qaldıracaq ifadələrin işləndiyini görəcək.

## Hz. İsa (ə.s)-ın bir bəşər olduğuna dair Qurandan dəlillər

Allah, Quranda hz. İsa (ə.s) və anası hz. Məryəm (ə.s)-ın insani xüsusiyyətlər göstərən elçi olduqlarını bildirir. Ayədə işlənən "hər ikisi də yemək yeyirdi" ifadəsi, bu mühüm həqiqəti vurğulamaq üçün, xüsusi olaraq işlədilir:

**Məryəm oğlu Məsih ancaq bir elçidir, ondan əvvəl də elçilər gəlib getmişlər. Onun anası isə, dosdoğru bir qadın idi. Hər ikisi də yemək yeyirdi. Bax gör ayələrimizi onlara necə bəyan edirik, sonra da gör onlar necə döndərilirlər. (Maidə surəsi, 75)**

Uca Allah, hz. İsa (ə.s)-ın doğulduğunu, uşaqlıq dövrü keçirdiyini və Allahın icazəsi ilə möcüzələr gerçəkləşdirdiyini də bildirir:

**Allah deyəcəkdir: "Ey Məryəm oğlu İsa! Sənə və anana olan nemətimi xatırla! O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən həm <u>beşikdə ikən</u>, həm də yetkin çağında insanlarla danışırdın. Sənə yazmağı, hikməti, Tövratı və İncili öyrətmişdim. Sən <u>Mənim iznimlə</u> palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürdün, o da <u>Mənim iznimlə</u> quş olurdu. Sən <u>Mənim iznimlə</u> anadangəlmə koru və cüzam xəstəliyinə tutulanı sağaldır və <u>Mənim iznimlə</u> ölüləri dirildirdin. Sən İsrail oğullarının yanına açıq-aydın dəlillərlə gəldikdə Mən onları səndən dəf etmişdim. Onlardan inkar edənlər isə demişdilər: "Bu, açıq-aydın sehrdən başqa bir şey deyildir". (Maidə surəsi, 110)**

Uca Allah digər bir ayəsində isə, təslis tərəfdarlarına, digər bütün insanlar kimi hz. İsa (ə.s)-ın da Allah istəmədiyi təqdirdə heç nəyə malik ola bilməyəcəyini xatırladır.

**"<u>Şübhəsiz ki, Allah Məryəm oğlu Məsihdir!" deyənlər artıq küfr edənlərdən oldular</u>. De: "Əgər Allah Məryəm oğlu Məsihi, onun anasını və yer üzündə olanlarını hamısını məhv etmək istəsə, <u>kim Ona bir şeylə mane ola bilər?</u>" Göylərin, yerin və onların arasında olanların mülkü Allaha məxsusdur. Allah istədiyini yaradır. Allah hər şeyə qadirdir. (Maidə surəsi, 17)**

Əlbəttə ki, hz. İsa (ə.s), Allahın çox sevdiyi, şərəfləndirdiyi, seçdiyi bir insandır; Onun peyğəmbəridir. Amma nəticədə bir quldur. Quranda hz. İsa (ə.s)-ı ilahlaşdırmalarına baxmayaraq, hz. İsa (ə.s)-ın İsrailoğullarını tək Allaha ibadət etməyə dəvət etdiyi bildirilir:

**"Şübhəsiz ki, Allah Məryəm oğlu Məsihdir" deyənlər artıq küfr edənlərdən oldular. Məsih isə demişdir: "Ey İsrail oğulları! <u>RƏBBİM VƏ RƏBBİNİZ OLAN ALLAHA İBADƏT EDİN</u>! Həqiqətən də, Allaha şərik qoşan kimsəyə, Allah Cənnəti haram etmiş və onun sığınacağı yer Oddur. Zalımlara kömək edən olmayacaqdır". "<u>Allah üçlüyün üçüncüsüdür!" deyənlər artıq küfr edənlərdən oldular. Halbuki tək İlahdan başqa heç bir İlah yoxdur</u>. Əgər onlar dediklərinə son qoymasalar, onlardan inkar edənlərə mütləq ağrılı-acılı bir əzab toxunacaqdır. Yenə də Allaha tövbə edib Ondan bağışlanma diləməyəcəklər? Allah ki, Bağışlayandır, Rəhmlidir. (Maidə surəsi, 72-74)**

Qurandakı bir ayəyə görə, hz. İsa (ə.s) İsrailoğullarına, bu təbliği etmişdir:

**Məndən əvvəl nazil olmuş Tövratı təsdiqləyici kimi və sizə haram edilmiş bəzi şeyləri**

**halal etmək üçün sizə Rəbbinizdən bir dəlillə göndərildim. Allahdan qorxun və mənə itaət edin. Həqiqətən, Allah MƏNİM DƏ RƏBBİM, sizin də Rəbbinizdir. Elə isə, Ona ibadət edin! Çünki bu, dosdoğru yoldur". (Ali İmran surəsi, 50-51)**

Hz. İsa (ə.s) Uca Allahın, həm özünün, həm də bütün yaradılanların Rəbbi olduğunu bildirərək təbliğ etmişdir. Hz. İsa (ə.s)-ın bu təbliğini qəbul edən az sayda həvari, hz. İsa (ə.s)-dan "elçi" kimi bəhs edir:

**...Həvarilər dedilər: "Bizik Allahın yardımçıları! Biz Allaha iman gətirdik. Sən də şahid ol ki, biz müsəlmanlarıq! Ey Rəbbimiz! Biz sənin nazil etdiyinə iman gətirdik və göndərdiyin elçiyə tabe olduq. Bizi də şahidlərlə bir yerdə yaz!" (Ali İmran surəsi, 52-53)**

Uca Allah, yer üzünə xəbərdar edənlər olaraq "elçilər" göndərdiyini və bu elçilərin **"Allahı tərk edib mənə qulluq edin"** dəmələrinin qeyri-mümkün olduğunu bir ayəsində açıqca bildirmişdir:

**Hər hansı insanın, Allah ona Kitab, hikmət və peyğəmbərlik verdikdən sonra insanlara: "Allahı tərk edib, mənə qulluq edin!" deməsi qeyri-mümkündür (belə ki, buna haqqı və səlahiyyəti yoxdur). Əksinə, o: "Öyrətdiyiniz və dərs keçdiyiniz Kitabın sayəsində rəbbanilər olun! (demək vəzifəsinə sahibdir)" (Ali İmran surəsi, 79)**

Yuxarıdakı ayələr kimi bir çox ayədə dəlilləri verildiyi kimi, hz. İsa (ə.s); Allahın yaratdığı mübarək bir elçi, sevimli dostu, peyğəmbəri və Ona qul olan bir bəşərdir. Lakin qətiyyən Allahın oğlu deyildir; əsla ilahlıq iddia etməmiş və bundan Allaha sığınmışdır. Təbliğində həmişə Allaha bir qul olduğunu xatırlatmış və insanları Allaha iman gətirməyə dəvət etmişdir.

Rəbbimiz, Quran və İncildəki açıq dəlillərə baxmayaraq, "Allah üçlüyün üçüncüsüdür" deyənləri "küfr edənlərdən olanlar" kimi xarakterizə edir. Təslis yanılması Quranda şiddətlə qarşı çıxılan, Uca Rəbbimizin bir çox ayə ilə xəbərdarlıq etdiyi çox böyük təhlükədir. Hazırda bir çox xristian qardaşımız böyük ehtimalla bu böyük təhlükədən xəbərsiz şəkildə, yalnız özlərinə öyrədilənlərə əməl edərək yaşamağa davam edirlər. Həmin bu xristianlar, bu böyük təhlükəni mütləq görməlidirlər.

Quran son kitabdır, İncili təsdiqləyici olaraq göndərilmişdir və dolayısilə xristian qardaşlarımız da Quranda bildirilən həqiqətləri nəzərə almaqla məsuldurlar. Quranın yol göstərici xüsusiyyətini yaxşı qarşılamalıdırlar. Bu, onlar üçün böyük şəfa və rəhmət olacaq.

(Mövzuyla əlaqədar ətraflı məlumat toplamaq üçün baxın: *"Hz. İsa (ə.s) Allahın oğlu deyil, Allahın Peyğəmbəridir"*, Harun Yəhya)

## Təslisin Tövratdan gəldiyini iddia edən xristianlar yanılırlar

Tövratda müxtəlif yerlərdə, Allahın oğlu ifadəsi və bəzi yerlərdə isə, Allahın Öz Şəxsi üçün işlətdiyi "Biz" ifadəsi qeyd olunur. Xristianların bir hissəsi həmin bu ifadələri təslis inancının mənbəyi kimi qəbul edirlər. Halbuki bu mövzuda ciddi səhvə yol verirlər.

1) İbrani dilində Allahın adlarından biri "Elohim"dir. İbrani dilində ümumiyyətlə sonluqdakı "im" şəkilçisi çoxluq ifadə etmək üçün, işlədilə bilər ("bayit" ev, "batam" evlər demək olduğu kimi). Elohim adındakı "im" şəkilçisindən ötrü bəzi xristianlar burada Allahın adının çoxluq şəklində keçdiyini düşünmüş və Tövrata görə İsrailoğullarının təslis inancına sahib olduqlarını iddia etmişdirlər. Lakin ibrani dilində tək bir obyekt və ya məhfum ifadə edən, lakin sonu "im" ilə bitən bir çox söz var: "Panim" yüz, "Shamayim" səma və ya göylər, "Rahamim" mərhəmət və ya acıma, "Mayim" su, "Pnim" iç deməkdir və buna bənzər bir çox söz var. Buna görə də, buna əsaslanmaqla Tövratda təslis olduğunu iddia etmək tamamilə cəhalətdən qaynaqlanar.

Onsuz da ibrani dilində obyektin çoxluqda və təklikdə olması vəziyyətinə görə fel fərqlənir. Dolayısilə felə baxaraq, cümlənin tək şəxsəmi yoxsa cəm şəxsəmi işarə etdiyi asanlıqla aydın olar. Əgər Elohim sözü, bəzi xristianların iddia etdiyi kimi çoxluq mənasını versəydi o zaman bu söz ibrani dilində "Vayomru Elohim" (ilahlar dedi ki) şəklində olmalı idi. Lakin bütün Tövrat ayələrində bu ifadə "Vayomer Elohim" (Allah dedi ki) şəklində işlənir.

2) Eyni vəziyyət, İbrani İncilində, Allahın digər bir adı üçün də hakimdir. Bəzi xristianlar "Adonai" sözünü yanlış tələffüz edərlər. Bu əslində "mənim əfəndilərim" mənasını verər. Lakin bu ibrani dilindəki düzgün tələffüzü deyil. İbrani dilində bu söz, "Adonoy" şəklində oxunar və bu ifadə **qətiyyən çoxluq mənası ifadə etməz.**

3) Xristianlar Tövratın Yaradılış hissəsində işlənən bu sözləri, üçün birliyi iddiasına dəlil gətirməyə çalışarlar:

*Tanrı: "İnsanı öz surətimizdə, özümüzə bənzər yaradaq. O, dənizdəki balıqlara, göydəki quşlara, evcil heyvanlara, sürünənlərə və bütün yer üzünə hakim olsun" dedi. Tanrı insanı öz surətində yaratdı. Beləliklə də, insan Tanrı surətində yaradılmış oldu. İnsanları erkək və dişi olaraq yaratdı. (Yaradılış, 1: 26-27)*

Tövrat hissələrindən, Yaradılış 1:26-cı sözdə qeyd olunan, Allahın Öz Şəxsi üçün buyurduğu; *"insanı öz surətimizdə, özümüzə bənzər yaradaq"* cümləsinin çoxluq ifadə etməsini və sonrakı ayədə Allahın Öz Şəxsindən bu dəfə tək olaraq bəhs etməsini,

xristianlar, üçlük üçün mühüm dəlil kimi göstərməyə çalışarlar. Halbuki bu görünməmiş dərəcədə zorakı izahdır. Təslis təlqinlərinin təsiri altında qalmamış hər hansı bir insan hətta bir uşaq belə, buradakı çoxluq ifadələrin Allahın qüdrətini və böyüklüyünü vurğulamaq üçün işlədilən xüsusi izahat və xitab forması olduğunu dərhal anlayacaq. Rəbbimizin Öz Şəxsi üçün işlətdiyi "Biz" ifadəsi, təslis və ya üçlük məntiqini şiddətlə lənətləyən Quranda da bir çox ayədə işlənir:

**Sizin aranızda ölümü Biz müəyyən etdik və heç nə Bizim qarşımızı ala bilməz. (Vaqiə surəsi, 60)**

4) Xristianlar, Tövratda qeyd olunan aşağıdakı ayəni də öz istəklərinə uyğun şərh edərlər:

*"Yaxınlaşın mənə, dinləyin söyləyəcəklərimi: Başlanğıcdan bəri açıqca danışdım, o zamandan indiyədək oradayam". <u>Hakim RƏBB indi məni və Ruhunu göndərir</u>. (Yeşeya, 48:16)*

Həmin bu Tövrat ayəsi, xristianlar tərəfindən mötərizə daxili zorakı şərhlərlə təslisə dəlil kimi göstərilməyə çalışılır. Bununla da xristianlar, üçlükdəki üç varlıqdan həmin bu ayədə bəhs olunduğunu iddia edirlər. Halbuki burada, Allahın oğlu ifadəsi qətiyyən işlənmədiyi kimi, Müqəddəs Ruh kimi şərh olunan hissə isə, Allahın insana üfürmüş olduğu Öz ruhudur. Allah insanı Öz ruhundan yaratmış olduğunu Quranda da bildirir:

**Hansı ki, yaratdığı hər şeyi gözəl biçimdə yaratmış, insanı ilk olaraq palçıqdan xəlq etmiş, sonra onun nəslini bir damla dəyərsiz sudan əmələ gətirmiş, sonra onu düzəldib müəyyən şəklə salmış və <u>ona Öz ruhundan üfürmüş</u>, sizə qulaqlar, gözlər və ürək vermişdir. Siz necə də az şükür edirsiniz! (Səcdə surəsi, 7-9)**

Allahın ruhundan üfürməsi, hər insanın Allahın ruhunu daşıdığını və heç nəyin Allahdan ayrı olmadığını göstərər. Bunun xristianlar tərəfindən necə Müqəddəs Ruh kimi şərh olunmuş olduğu və burada Allahın oğlu çıxarışının necə edilmiş olduğu aydın ola bilməmişdir.

5) Zəburda (Tövratın Məzmurlar hissəsi) aşağıda qeyd olunan ayə, bəzi xristianlar tərəfindən yanlış şərh olunur:

*RƏBBin bildirişini elan edəcəyəm. O, Mənə: "<u>Sən mənim oğlumsan, bu gün Mən sənin Atan oldum</u>. Məndən istə, miras olaraq sənə millətləri, mülk olaraq yer üzünün dörd bucağını verim" dedi... (Məzmurlar 2:7-8)*

Tövratın başqa ayələrində də bildirildiyi kimi, burada "oğul" kimi ifadə edilən anlayış İsraildir. Allahın dindar İsrail xalqına qarşı himayədarlığı bir təşbehlə bildirilir. Bir Atanın oğullarına qarşı davranışları və himayədarlığı nümunə verilir və buradakı açıqlama Allahın sevimli qulları mənasını verir.

6) Yenə Tövratda Daniel 7:13-14 hissələrində işlənən "bəşər oğlu" ifadəsi, İncildəki kimi yanlış xarakterizə edilməyə çalışılmış və hz. İsa (ə.s) üçün iddia edilmiş olan Tanrı xüsusiyyətinə işarə etdiyi iddia edilmişdir. Halbuki bu tamamilə yanlış bir şərhdir:

*“Bir gecə <u>bəşər oğluna</u> bənzər birinin göyün buludlarıyla gəldiyini gördüm. Əzəldən bəri var Olanın yanına doğru irəlilədi, Onun önünə gətirildi. Ona hakimiyyət, ucalıq və krallıq verildi. Bütün xalqlar, millətlər və hər dildən olan insan ona tapındı. Hakimiyyəti heç bitməyəcək sonsuz hakimiyyət, krallığı heç dağılmayacaq bir krallıqdır". (Daniel, 7:13-14)*

Burada nəzərdə tutulan ölümlü bir insandır və Tövrat alimlərinin fikir birliyi ilə, qəbul etdikləri şəkildə bəhs edilən hakim Kral, Axırzamanda gələcək olan Kral Məsih, yəni Mehdidir. Kral Məsih, bütün millətlərə hakim olacaq, bütün xalqlar və millətlər ondan razı qalacaq.

Bu ifadə edilməlidir ki, yəhudilər, nə hz. Musa (ə.s) dövründə, nə də ondan sonrakə dövrdə heç vaxt həmin bu Tövrat ayələrini təslis məntiqində qiymətləndirməyiblər. Tövrat ilk endirildiyi tarixlərdə belə, bu məhfumlar heç vaxt təslis mənasında başa düşülməmişdir. Yəhudilər, Tövratda işlənən bu istiqamətdəki ifadələrin həqiqi və dərin mənasını çox yaxşı bilərlər və bunu təslis mənasında işlətməkdən Allaha sığınarlar. Buradakı ifadəni batini olaraq şərh edər və Allahın quluna olan sevgisini, himayədarlığını, yaxınlığını vurğuladığını anlaya bilərlər. Necə ki, yəhudilər, bəzi xristianların zahiri təfsirlə Tövrat ayələrinə verməyə çalışdıqları yanlış mənalara da qarşı çıxırlar.

Həmin bu ayələri təslis məntiqində qiymətləndirməyə çalışan bəzi xristianlar, Tövrata da tabe olduqlarından bu iddialarına Tövratdan da hökm çıxartmağa çalışırlar. Halbuki bütün Tövrat və Zəbur ayələrində ifadə edilən tək iman etiqadı tövhid inancıdır. Necə ki, İncil də, Tövratı təsdiqləyici olaraq bu tövhid inancını ucaldır. Xristian qardaşlarımız İncildəki bu həqiqəti mütləq görməlidirlər.

## Allahın Şəxsinin insanda zühur etdiyi fikrini xristianlar da istəməməlidirlər

Saleh xristianlar bu mövzuda səmimi davranmalı və bir insana ilahlıq isnad etməyin Allahın qanunu ilə, hz. İsa (ə.s)-ın gətirdiyi xristianlıq diniylə, İncil və Tövratın hökmləri ilə ziddiyyət təşkil etdiyini; eyni zamanda ağla və məntiqə zidd olduğunu da anlamalıdırlar.

Həqiqi və haqq İncilə əsrlər sonra əlavə olunan belə inancın ciddi təhlükə ola biləcəyinə ehtimal verməli və bunun üzərində dərin düşünməlidirlər. Allahın üstün xüsusiyyətlərini bir insana aid etməyə çalışmağın və acizliklərlə yaradılmış bir insanı ilah hesab etməyin və göstərməyin necə bir mənası və faydası ola bilər? Şübhəsiz ki, Uca Allahın buna ehtiyacı yoxdur (Allahı tənzih edirik). Belə bir yaraşdırma, (çox vaxt xatırlatdığımız kimi) ALLAHIN QÜDRƏTİNİ VƏ BÖYÜKLÜYÜNÜ LAZIMINCA QİYMƏTLƏNDİRƏ BİLMƏMƏK MƏNASINI VERƏR.

Bütün bunlardan savayı, Uca Allahın yer üzündə insan olaraq Şəxsi ilə zühur etməsi kimi bir fikri, onsuz da xristianlar da istəməməlidir. Bunu, Uca Allahın şəninə yaraşdırmamalıdırlar. Allahın böyüklüyü, ucalığı, ululuğu, qüdrəti və sonsuz gücü xristianlar üçün bir nemətdir. **Sonsuz güc sahibi bir Allaha inanmaqmı daha gözəldir**; yoxsa yatan, yemək yeyən, ehtiyac sahibi bir insanı ilah qəbul etməkmi? Əlbəttə ki, bunun cavabını bütün xristianlar dərhal görəcəklər.

Allahın Öz üstün Şəxsini insanlara tanıtmaq üçün, ölümlü və ehtiyac sahibi bir varlıqda zühur etməyə ehtiyacı yoxdur (Allahı tənzih edirik). Xristian qardaşlarımız İncilə və Tövrata ağılla baxmalı və bütün bunları Allahın şəninə uyğun şəkildə qiymətləndirməlidirlər.

Əlbəttə ki, hz. İsa (ə.s)-ın insani xüsusiyyətlərə sahib olması, onun bir peyğəmbər olaraq dəyərini azaldacaq bir şey deyil. Hz. İsa (ə.s), Uca Rəbbimizin qiymətli və çox mübarək bir peyğəmbəridir. Allah Qatında digər bütün peyğəmbərlər kimi ən yüksək və ən müqəddəs mövqedədir. Allahın sevimli dostu, uca elçisidir. Dolayısilə onun bir insan olaraq yaradılması, əlbəttə ki, onun dəyərinə, əhəmiyyətinə və peyğəmbər kimi ucalığına zərər gətirməyəcək.

Mühüm məsələ, Allaha (bir və tək olan Yaradıcımıza) iman gətirməkdir. Allah insanlardan Özünə şirk qoşmadan iman və qulluq etmələrini istəyər. İnsanların qulluq edə bilmələri üçün Allahın yer üzündə bir insan olaraq zühur etməsinə ehtiyac yoxdur. Xristian qardaşlarımız, əgər həqiqətən səmimi bir dünyagörüşü ilə, bu mövzuya yaxınlaşmaq istəyirlərsə, özlərinə bu sualı yönəltməlidirlər:

Allahın, hz. İsa (ə.s)-da Şəxs olaraq təcəlli etməməsi, uca Allahın xüsusiyyətlərindən nəyi itirər? (Allahı tənzih edirik)

Allahın insanda Şəxs olaraq təcəlli etməməsi, Allahın xüsusiyyətlərini, üstünlüyünü və gözəlliyini azaldan şey deyil. Əksinə bu, Allahın gözəlliyinə gözəllik qatar, Onun üstün xüsusiyyətlərinin daha yaxşı və lazımınca başa düşülməsini təmin edər. Ölümlü, yatan, yemək yeyən, acizliklər və ehtiyaclar içində olan bir insana Allahın Şəxsi olaraq təcəlli yaraşdırması etdikdən sonra, Allahın üstün xüsusiyyətlərini lazımınca qiymətləndirə bilmək necə mümkün ola bilər? Əlbəttə ki, belə şey qeyri-mümkündür.

## İncil, təslis inancını rədd edir

## İncildə Allahın təkliyindən və şirk qoşmamaqdan xəbər verən ayələr

*Onların mübahisələrini dinləyən və İsanın onlara gözəl cavab verdiyini görən bir din alimi yaxınlaşıb ondan: "Buyruqların ən əhəmiyyətlisi hansıdır?" deyə soruşdu. İsa ona belə cavab verdi: "[Allahın buyruqlarının] ən əhəmiyyətlisi budur: Dinlə, ey İsrail!* ***Allahımız olan Rəbb tək Rəbbdir****... Din alimi İsaya: ""Yaxşı söylədin, müəllimim. Allah təkdir və Ondan başqası yoxdur" deməklə doğrunu söylədin" dedi. (Markos, 12/28-32)*

***...Allah təkdir.*** *(Pavlus'tan Galatyalılara Mektup, 3: 20)*

***...Rəbb təkdir.*** *Müxtəlif fəaliyyətlər vardır, lakin hər kəsdə hamısını təsirli edən eyni Allahdır. (Pavlus'tan Korintlilere 1. Mektup, 12: 5-6)*

***Təkcə bir Allah var...*** *(Pavlus'tan Timoteos'a 1. Mektup, 2: 5)*

*İsa ona belə cavab verdi:* ***""Allahın olan Rəbbə tapın və təkcə Ona qulluq et"*** *deyə yazılmışdır". (Matta, 4: 10)*

***Xilaskarımız tək Allaha ucalıq olsun...*** *(Yahuda'nın Mektubu, 1: 24)*

***Sən Allahın bir olduğuna inanırsan, yaxşı edirsən.*** *Cinlər belə buna inanır və [Allah qorxusuyla] titrəyirlər! (Yakup'un Mektubu, 2: 19)*

*Sonsuz əsrlərin Hökmranı, ölümsüz, gözə görünməz* ***tək Allaha əsrlər əsri qürur və ucalıq olsun****. (Pavlus'tan Timoteos'a 1. Mektup, 1: 17)*

*Ey bir-birinizi ucaldan və* ***tək olan Allahdan*** *gələn ucalığı axtarmayanlar, siz mənə necə iman gətirə bilərsiniz? (Yuhanna, 5:44)*

*İsa yola çıxarkən, biri qaçaraq yanına gəldi. Qarşısında diz çöküb ondan: "Yaxşı (yaxşı insan mənasında) müəllimim, əbədi həyata qovuşmaq üçün nə etməliyəm?" deyə soruşdu. İsa isə ona:* ***"...Yaxşı olan tək biri var, O da Allahdır"*** *dedi. (Markos, 10/17-18)*

*...Bilirik ki büt, dünyada əslində olmayan bir şeydir və* ***birdən çox ilah yoxdur... Bizim üçün tək Allah var:*** *Hər şeyin Özündən meydana gəldiyi Allah. Biz də Onun üçün yaşayırıq... (Pavlus'tan Korintlililere 1. Mektup, 8: 4-6)*

***...Təkcə bir Allahınız var...*** *(Matta, 23: 9)*

*İsa: "Mənə niyə yaxşılıq barəsində sual verirsən? Yaxşı olan tək biri var. Həyata qovuşmaq istəyirsənsə,* ***Onun [Allahın] buyruqlarını yerinə yetir" dedi.*** *(Matta, 19: 17)*

*Yerdə və ya göydə ilah kimi adlandırılanlar varsa da... [Allahı tənzih edirik]* ***bizim üçün***

***tək bir Allah var****. O hər şeyin qaynağıdır və biz Onun üçün yaşayırıq. (Pavlus'tan Korintlilere 1. Mektup, 8:5)*

*...Rəbb birdir, iman birdir... Hər şeydən üstün, hər şeylə və hər şeydə olan* ***hər kəsin Allahı... birdir.*** *herkesin Allah'ı... birdir. (Pavlustan Efeslilere Mektup, 4: 4-6)*

*Hər evin bir qurucusu var,* ***hər şeyin qurucusu isə Allahdır.*** *(İbranilere Mektup, 3:4)*

# 3-cü HİSSƏ

# VAR OLAN HƏR ŞEY ALLAHIN TƏCƏLLİSİDİR

## Mühüm bir sirr: Təkcə beynimizdəki təsvirlə təmasda olarıq

Dünyadakı insanların çox böyük hissəsi, mühüm bir həqiqətdən xəbərsiz yaşayar. İnsanların bütün həyatlarını, dünya həyatına və axirətə olan dünyagörüşlərini köklü şəkildə dəyişdirəcək bu sirr, **təkcə beynimizin içində yaşadığımız həqiqətidir**. Digər bir sözlə, heç kim özünə beyninin içində ruhuna izlətdirilən dünyadan kənara çıxa bilməz və xarici aləmdə olan maddənin əsli ilə təmasda ola bilməz.

Bu belə açıqlana bilər: Bizə xarici aləmdən təsvir kimi çatan məlumatlar, yalnız müəyyən miqdar işıqdır. Əgər bir almanın görünüşünü görür, qoxusunu hiss edir, dadını ala bilir və ona əlimizlə toxuna biliriksə, bunların hamısı bizə müəyyən işıq seli ilə gəlir. Digər bir sözlə, xarici aləmdəki almadan, bizə bu işıq selindən başqa heç nə gəlmir. **Almanın əslinə isə, qətiyyən çata bilmərik.** Məsələn, almadan gözümüzə çatan fotonlar, gözümüzdə elektrik siqnalına çevrilər və beynimizə ötürülən elektrik siqnalı orada bir alma görünüşü kimi şərh olunar. Həmçinin digər bir sözlə, beynimizdə xarici aləmdəkindən müstəqil tamam ayrı bir təsvir meydana gələr və biz yalnız beynimizdəki bu alma ilə təmasda olarıq. **Xarici aləmdəki alma ilə beynimizdəkinin heç bir əlaqəsi yoxdur.**

Bu, gördüyümüz, daddığımız, toxunduğumuz, iylədiyimiz və eşitdiyimiz hər şey üçün hakimdir. **Beynimizdə yaranan təsvirlərdən heç biri xarici aləmdəki təsvirin əsli deyildir. XARİCİ ALƏMDƏ MADDƏNİN ƏSLİ VARDIR,** lakin bu maddənin əsli tamamilə **ŞƏFFAF VƏ QARANLIQDIR**. Xarici aləmdəki bu şəffaf və qaranlıq maddəyə hər hansı yolla çatmağımız isə, qeyri-mümkündür. Bu, elm adamlarının müəyyənləşdirdiyi və fikir birliyi ilə, qəbul edib ortaya qoyduqları elmi bir həqiqətdir *(atomda 99,9999%-lik boşluq olduğunun və kvant fizikası ilə atomaltı zərrəciklərin, zərrəcik xüsusiyyəti ilə yanaşı dalğa xüsusiyyəti də*

*göstərdiklərinin sübut edilməsiylə xarici aləmdəki maddənin həqiqi mahiyyəti və xarici aləmdə işıq və rəng olmadığı ortaya çıxarılmışdır. Mövzuyla əlaqədar ətraflı açıqlama üçün baxın: "Darvini çıxılmaz vəziyyətdə qoyan məsələ: Ruh", Harun Yəhya)*

Burada bu vurğulanmalıdır: Maddənin əslinə heç vaxt çata bilmədiyimiz həqiqəti, **elmi cəhətdən sübut edilən mübahisəsiz və qəti nəticədir**, belə ki, bu heç kəsin xüsusi inancı deyildir. Elm, **bütün həyatımızın beynimizin içində mükəmməl incəlik və dəqiqliklə yaradılmaqda olduğunu, xarici aləmdəki dünyaya isə, heç vaxt çata bilməyəcəyimizi, xarici aləmdə olan maddənin isə tamamilə şəffaf olduğunu** sübut etmişdir.

İnsanların böyük əksəriyyəti, bu həqiqətin elmi izahını bilsələr də, xarici aləmdəki dünya ilə təmasda olduqları hissindən qətiyyən xilas ola bilməzlər. Təsvirin kəsilməz dəqiqliyi və keyfiyyəti, onların bu mövzu barədə düşünmələrinə mane olar. Bunun səbəbi isə, beynimizdə yaradılan və təkcə elektrik siqnallarından ibarət olan təsvirin heyrətamiz dərəcədə həqiqi, fövqəladə dərəcədə canlı, rəngli, hərəkətli və mükəmməl olmasıdır. Əlbəttə ki, bu, bütün aləmlərin Yaradıcısı olan, bir atomun içində və nəhəng kosmosda heyranlıq oyandıracaq aləmlər yaradan, hər şeyi mükəmməl nizam və fövqəladə gözəllikdə yaratmağa qadir olan, bütün gözəlliklərin Sahibi və bütün nöqsan və çatışmazlıqlardan uzaq olan Uca Allah üçün çox asandır. Rəbbimiz, hər insanın zehnində, təkcə ona məxsus və incəliklərində mükəmməlliklərlə təchiz edilmiş bir aləmi yaratmağa qadirdir.

Bu məlumat bu mənanı verər: Xarici aləmdə ucsuz-bucaqsız zənn etdiyimiz planetlər, Süd Yolu qalaktikası, ulduzlar, Günəş, Yer üzündəki bütün insanlar, milyonlarla canlı növü, onların həyatları, yerin altındakılar, hüceyrələr, zülallar, atomlar və atomun içindəki digər bütün aləmlər, bunların hər biri Allahın icazəsi ilə **beynimizdə mərcimək ölçüsündəki bir yerdə yaradılır**. Təsvirin yaradıldığı bu kiçik zərrə də əslində bizim üçün yalnız bir təsvirdir. Beynin içində bu təsvirləri görən, bu hissləri qəbul edən isə, ruhumuzdur. "Həyatımız" və ya "xarici aləm" dediyimiz şey isə, əslində Allahın ruhumuza yaşatdırdıqları, hiss etdirdikləridir.

Ruhun nə beyni, nə də qulağı var, lakin bunlara ehtiyac olmadan beynə gələn siqnalları xoşagələn bir musiqi, bir küçə səs-küyü və ya bir dostunuzun səsi olaraq eşidərsiniz. Eləcə də, ruhun gözü də yoxdur, lakin ruhumuz elektrik cərəyanı halında beynə gələn siqnalları gözə ehtiyac olmadan zövq verən bir mənzərə və ya tanış bir sima kimi görər. Dolayısilə dünya və kainat metafizikdir. İnsanlar bu həqiqəti düşünmək istəməsələr də, anlamazlıqdan gəlsələr də, yalnız və yalnız Allahın ruhlarına izlətdirdiyi dünya ilə təmasdadırlar və (Allah istəmədikcə) heç kim bu dünyadan kənara çıxa bilməz, eləcə də, əsli xarici aləmdə olan maddə ilə təmasda ola bilməz.

## Beynimizdəki bütün dünya, heç nə istisna olmadan Allahın təcəllisidir

Hər şeyin beynimizdə yalnız bir təsvir olaraq yaradıldığı həqiqəti, təcəlli anlayışını da daha yaxşı anlamağımızı təmin edər. Hər şey bizim üçün bir təsvirdən ibarət olduğuna, maddənin xarici aləmdəki əsli şəffaf və qaranlıq olduğuna görə, zehnimizdə yaradılan bütün rəngli, hərəkətli və işıqlı təsvirlər mahiyyət etibarilə bir-birindən fərqsizdir. Digər bir sözlə, bizim təmasda olduğumuz dünyaya aid hər şey **zehnimizdə yaranan xəyallardır**. Biz, beynimizdəki bir ekranın içində hər biri bir xəyal olan bu təsvirləri izləyərik. Bu Allahın yaratdığı qanundur. Allahın qanununa görə, MADDƏ XARİCİ ALƏMDƏ VARDIR, **LAKİN BİZİM bundan kənara çıxıb maddənin əslinə çatmağımız, beynimizdəki bu təsvirlərdən kənara çıxmağımız qeyri-mümkündür.**

**Dolayısilə "HƏR ŞEY", belə ki, beynimizin içində gördüyümüz və təmasda olduğumuz HƏR ŞEY Allahın təcəllisidir.** Bütün analar və atalar Allahın təcəlliləridir. Bütün uşaqlar Allahın təcəlliləridir. Bütün kəpənəklər, quşlar, ağaclar, güllər, meyvələr Allahın təcəllisidir. Planetlər, günəşlər, ulduzlar, nəhəng kainat Allahın təcəllisidir. Allah, hz. Musa (ə.s)-a koldan səsləndiyi vaxt da, Allah kolda təcəlli etmişdir. Heç nə istisna deyildir. Çünki hər şey, xarici aləmdə olan maddənin beynimizdə yaradılan təsvirinin bir hissəsidir. Bu təsvirdə gözəl insanlar, ailəmiz, gözəl evlər, binalar, quşlar, bir-birindən ehtişamlı dağlar olduğu kimi, tərk edilmiş evlər, yarıqaranlıq küçə araları, müharibələr, qırğınlar, döyüşlər, çirkinliklər, xəstəliklər də var. Gözəl şeylər necə bu təsvirin parçası isə, pis şeylər də eyni təsvirin parçasıdır. Çünki hamısı bu dünya həyatını meydana gətirmək üçün, beynimizdə bir xəyal olaraq yaradılar və dolayısilə hamısı Allahın yaratdığı təsvirlər, yəni təcəllilərdir.

Bəzi xristianlar, maddənin yalnız beynimizdəki bir təsvir olduğu həqiqətini bilmədiklərindən və ya tam qavramadıqlarından, "Allahın dünyadakı təcəlliləri" ifadəsini də yanlış şərh edirlər. Həmin bu xristianlar, yalnız hz. İsa (ə.s) Allahın təcəllisidir deyərək, haşa ona ilahlıq isnad edir; digər varlıqları isə haşa Allahdan müstəqil hesab edirlər.

Əlbəttə ki, hz. İsa (ə.s) Allahın ruhunu daşıyır və Allah onda ən Rəhmani şəkildə təcəlli edir. Lakin dünyada olan heç nə Allahdan müstəqil deyildir; hamısı Allahın əsəri və Allahın təcəllisidir. Gözəl, çirkin, yaxşı, pis, bir sözlə, hər şey Allahın yaratmasıyla, Allahın icazəsiylədir. Lakin bu mövzuda qeyd olunan xristianlar Allahın təcəllisi olmağı, Allahın Şəxsi şəklində yanlış şərh edərək mühüm səhvə yol verirlər. Təkcə hz. İsa (ə.s)-ın Allahın təcəllisi olduğunu, yer üzündəki başqa varlıqların, xüsusilə pisliklərin və çirkinliklərin əsla təcəlli olaraq qəbul edilə bilməyəcəyini iddia edirlər.

**Allahın təcəllisi demək, Allahın Şəxsi demək deyildir.** İnsanlar, heç vaxt Allahın Uca Şəxsini görə bilməzlər, lakin Onun təcəlliləriylə həmişə təmasda olarlar. Gördüyümüz hər şey xarici aləmdə olan maddəyə məxsus bir təsvirdir və bu təsvir tək bir ekran içində bütündür. Bizim üçün bütün dünya beynimizdəki bu təsvirlərdən ibarətdir, çünki biz xarici aləmdəki maddi dünyanın əsliylə heç vaxt təmasda ola bilmərik. **Beynimizdəki bu surət təsvirlər isə, Rəbbimizdən müstəqil deyildir (Allahı tənzih edirik), müstəqil ola bilməsi də**

**qeyri-mümkündür.** Dolayısılə həm hz. İsa (ə.s), həm də digər bütün varlıqlar eyni təsvirin parçasıdırlar və hamısı Allahın təcəllisidir.

Yuxarıda elmi cəhətdən izah etdiyimiz maddənin əsli mövzusu, xristianların hz. İsa (ə.s)-a istiqamətli bu yanlış inanclarını tam mənasıyla ortadan qaldırır. Bunun üçün səmimi xristian qardaşlarımız bu mövzu üzərində geniş şəkildə düşünməlidirlər. İzah etdiyimiz bu həqiqət, daha əvvəl də ifadə etdiyimiz kimi, bir şərh və ya bir inanc forması deyildir. Bu, **sübut edilmiş, elmi bir həqiqətdir** və yaşadığımız 21-ci əsrdə bunu inkar edəcək tək bir elm adamı yoxdur. Bunu inkar etmək, yer kürəsinin düz olduğu kimi anti-elmi bir iddianı müdafiə etməklə eyni şeydir. Dolayısılə maddi dünyanın varlığını qarşıya qoyaraq, hz. İsa (ə.s)-a ilahlıq isnad etməyə çalışanlar, hələ təməldən çürüdülmüş materializmin təsiri altında aldanırlar.

Əlbəttə ki, hz. İsa (ə.s), güclü Allah qorxusu və sevgisi, üstün əxlaqı, nümunəvi rəftarı, Rəbbimizin özünə bəxş etdiyi möcüzələriylə Allahın xüsusi təcəllisidir. Allahın çox sevimli bir qulu, Rəhman adının çox güclü şəkildə təcəlli etdiyi mübarək bir peyğəmbəridir. Bəzi xristianlar Allahın mübarək qulu və peyğəmbəri olan hz. İsa (ə.s)-ı, Rəbbimizin digər bütün təcəlliləri kimi bir təcəlli olaraq qəbul etdikləri vaxt, ona xəyanət edəcəklərini və ya bəslədikləri sevgiyə zərər gələcəyini düşünə bilərlər. Halbuki **Allahın mübarək Peyğəmbərini haşa ilahlaşdırmaq qətiyyən sevgi ifadəsi ola bilməz.** Tam əksinə bu, Allah sevgisini anlaya bilməməkdən qaynaqlanan ciddi yanılmadır. Belə bir anlayışdan Allaha sığınılmalıdır. Sevgi, hər şeyin Yaradıcısı və tək Sahibi olan Allaha yönəldilər. Rəbbimizin ən mübarək təcəlliləri də məhz buna görə çox sevilərlər. Bizim hz. İsa (ə.s)-a olan sevgimiz, Allaha olan sevgimizdən qaynaqlanan sevgidir. Allahı nə qədər çox sevsək, hz. İsa (ə.s)-a olan sevgimiz də bir o qədər güclənib böyüyəcək.

Hz. İsa (ə.s)-ın Allahın yaratdığı bütün təcəllilər kimi bir təcəlli olması, **əlbəttə ki, onun dəyərini azaltmaz.** O, Allahın gözəl əxlaqlı və saleh quludur, Rəbbimizin seçdiyi gözəllər gözəli peyğəmbəridir. Onu bu üstün xüsusiyyətiylə, Allah rizası üçün sevmək, daha çox qiymətli və gözəldir. Allahın razı qalacağı, əsl göstərilməli və doğru olan sevgi forması da budur.

## Allah hər yerdədir

**And olsun, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsələr verməkdə olduğunu bilərik. <u>Biz ona şahdamarından daha yaxınıq</u>. (Qaf surəsi, 16)**

Bəzi müsəlmanlar və xristianlar, ayədə işləmən **"Biz ona şahdamarından daha yaxınıq"**

ifadəsinin fiziki deyil, bir cür mənəvi yaxınlıq olduğunu iddia edərək Allahın hər yerdə olduğu həqiqətinə etiraz etməyə çalışarlar. Həmin bu xristianlar öz yanlış inanclarından ötrü İslamda "uzaq bir Allah inancının" hakim olduğunu, Allahın (haşa) əlçatmaz olduğunu iddia edirlər. Beləliklə də, "Allahın oğlu" anlayışına da öz aləmlərində zəmin tapmağa çalışır və öz aləmlərində İslamdakı "uzaq" Allah inancı (Allahı tənzih edirik) əvəzinə, xristianlıqda Allahın hz. İsa (ə.s) vəsiləsi ilə qullarına çatdığını iddia edirlər. Bu çox ciddi yanılmadır, eləcə də, Allahın Şəxsi və Allahın təcəllisi olma arasındakı fərqi tam olaraq qavraya bilməməkdən qaynaqlanır.

Ayədə işlənən **"Biz ona şahdamarından daha yaxınıq"** ifadəsi ilə, həm mənəvi, həm də fiziki yaxınlıq nəzərdə tutulur. Daha əvvəl açıqladığımız kimi, hər şey beynimizdəki təsvirin bir hissəsi olduğuna və bütün həyatımız beynimizdə yaranan bu təsvirlər toplusu olduğuna görə, bizim bədənimiz, hüceyrələrimiz, sahib olduğumuz və təmasda olduğumuz hər şey yenə bir təsvirdir və xarici aləmdə olan maddəyə məxsus bütün bu surət təsvirlər kimi, onlar da Allahın bir təcəllisidir. Dolayısilə **Allah bizə, ən yaxınlığımızda olduğunu zənn etdiyimiz insandan belə daha yaxındır.** Bu, tam mənasıyla fiziki yaxınlıqdır; çünki Allah insanı içdən, çöldən, hər cəhətdən tam əhatə etmişdir.

Əlbəttə ki, Allahın Şəxsi başqadır. Lakin **Allahın təcəllilləri hər yerdədir.** Bir insan bir otağa daxil olsa, burada Allah yoxdur desə, dindən çıxmış olar. "Hər şey Allahın təcəllisidir, lakin bu kiçik qutudan başqa" desə yenə dindən çıxmış olar. Bu ifadə ilə öz aləmində, sonsuz Allahın böyüklüyünü məhdudlaşdırır və Ondan müstəqil başqa varlıqlar olduğunu iddia edir (Allahı tənzih edirik). Allahdan müstəqil hesab etdiyi şey kiçik bir qutu belə olsa, Allah qorusun özü də bilmədən yenə Allahın sonsuz böyüklüyünü inkar etmiş olar. Halbuki sonsuz və mütləq olan yalnız Allahdır. Dolayısilə bir insan bir otağa daxil olduğu vaxt, Allahın təcəllilləri həmin otaq da daxil olmaqla, gördüyü və görmədiyi hər yerdədir. **Bir insan hara dönsə, Allahın təcəllisi oradadır.**

Allahın hər yeri əhatə etdiyi, hara dönsək Allahın orada olduğu həqiqəti bir çox Quran ayəsi ilə bildirilmişdir. Bu ayələrdə işlənən ifadələr möhkəmdir. Məsələn, Allah, Bəqərə surəsinin 255-ci ayəsində: **"...Onun kürsüsü, bütün göyləri və yeri əhatə edir..."** deyə bildirir. Hud surəsinin 92-ci ayəsində isə: **"...Şübhəsiz ki, Rəbbim sizin nə etdiklərinizi əhatə edir"** deyilərək Allahın, insanları və etdiklərini də əhatə etdiyi bildirilir.

Allah bu həqiqəti İncildə də çox açıq şəkildə bildirmişdir:

*Hər şeydən əvvəl var olan Odur (Allahdır) və hər şey varlığını Onda davam etdirir. (Pavlus'tan Koloseslilere Mektup, 1:17)*

*Allahın görmədiyi heç bir varlıq yoxdur. Özünə hesab verəcəyimiz Allahın gözləri qarşısında hər şey çılpaq və açıqdır. (İbranilere Mektup, 4:13)*

Yuxarıda bəhs etdiyimiz, xarici aləmdə olan maddənin əsli ilə əsla təmasda ola

bilməyəcəyimiz, bizim təkcə beynimizdəki surət təsvirlərlə, xəyalla təmasda olduğumuz həqiqəti tam şəkildə aydın olduqda, Allahın hər yerdə və tək mütləq varlıq olduğu da tam olaraq aydın ola biləcək. Allah təkcə göylərdə deyildir. **Allah, hər yeri əhatə edəndir.** Bu məlumat bizə Quran vasitəsilə verilir. Dua etdiyimiz vaxt, **Allah bizi hər yerdə hər an eşidər**. Allah bizə hər yerdə təcəlliləriylə Özünü göstərər. Allah bizi sevəndir və **bizə ən yaxın olandır. Heç kim bizə Allahdan daha yaxın deyildir. Allah ilə aramızda heç bir məsafə yoxdur.** Maddənin xarici aləmdəki əsli ilə əsla təmasda olmayacaqlarını anlayan insanlar, **Allahın hər an hər yerdə olduğunu, hər an özlərini gördüyünü və eşitdiyini, hər şeyə şahid olduğunu və özlərinə şah damarlarından daha yaxın olduğunu, hər dua edənin duasını eşitdiyini, dolayısilə mənəvi və fiziki cəhətdən insana ən yaxın olanın yalnız və yalnız Uca Rəbbimiz Allah olduğunu** tam açıq şəkildə anlayacaqlar.

Biz, zaman və məkandan asılı şəkildə yaşayan varlıqlar olduğumuz üçün, Allahın göyləri, yeri və bütün varlıqları əhatə etdiyi həqiqətini lazımınca qavramaya bilərik. Halbuki Allahın əhatə etməsi, bir insanı hüceyrələrinə, atomlarına qədər əhatə etməsi mənasını verər. Heç bir atom, Allahdan müstəqil deyildir. Hər biri Onun təcəllisidir və Allah onların hamısını bilər. **Allahın olmadığı heç bir yer yoxdur.**

## Maddi bir dünyaya maddi bir İlahın lazım olduğu yanılması

Yuxarıda bəhs etdiyimiz maddənin əsli mövzusunu bilməyən və ya lazımınca anlaya bilməyən bəzi xristianlar, hz. İsa (ə.s)-a ilahlıq isnad etmələrinin səbəbini bəzən belə bir məntiqlə açıqlayarlar: "Biz maddi bir varlıq, dünya isə maddi bir məkan olduğu üçün, bizim və bütün dünyanın xilas olması üçün, yenə maddi bir varlığa ehtiyac var". Belə bir iddia, **Allahın hər yerdə və hər an bizə ən yaxın olduğunu, istədiyi vaxt, istədiyi şəkildə, hər quluna çata biləcəyini lazımınca anlamamaqdan və maddənin həqiqi mahiyyətini bilməməkdən** qaynaqlanan olduqca səthi bir çıxarışdır. Əvvəlcə bizim təmasda olduğumuz heç nə maddə deyildir. Buna biz də daxilik. Bizim əsla əslinə çata bilməyəcəyimiz xarici aləmdəki maddə də əslində bildiyimiz mənada maddi varlığa sahib deyildir, belə ki, o şəffaf və qaranlıqdır. Biz, yalnız beynimizdə gördüyümüz, xarici aləmdəki varlıqlarıyla əsla təmasda olmadığımız surət təsvirlərdən, yəni xəyallardan ibarət olan bir aləmdə yaşayırıq. Beş duyğu orqanımızla xarici aləmdəki dünyaya çatdığımızı zənn edirik. Halbuki hər şey elektrik siqnallarından ibarətdir. Beynə gedən bütün elektrik siqnalları kəsilsə, maddi dünya adlandırdığımız dünya da tamamilə yox olar. Xülasə olaraq, bizim gördüyümüz dünyada, heç nə maddi varlıq deyildir. Xarici aləmdə olan hər şey, yalnız beynimizdə qəbul etdiyimiz surət təsvirlərdən ibarətdir. Dolayısilə xəyallardan ibarət olan belə bir dünyada, [haşa] maddi bir ilahın olmalı olduğu fikri olduqca məntiqsizdir. Beynimizdəki bu dünyada, maddi heç nə yoxdur.

Həmin bu xristianların iddia etdikləri şəkildə Allahın bizə çatması, sevgisini və yaxınlığını göstərməsi üçün yalnız tək bir insan üzərində təcəlli etməli olduğu iddiası; həqiqi olmayan, xəyali bir inancdır. Allahın buna ehtiyacı yoxdur, Uca Rəbbimiz hər cür çatışmazlıqdan uzaqdır (daha əvvəl də ifadə etdiyimiz kimi, buradakı təcəlli, qətiyyən Allahın Şəxsi mənasında deyildir) **Allah hər yerdədir. Hər an bizimlə birlikdədir. O, hər şeydə təcəlli edər.**

Əsl Allahı qullarından uzaq hesab edən anlayış, təslis inancındakı ağla və məntiqə zidd açıqlamalardır. Həmin bu xristianlar, hər şeydə və hər yerdə təcəlli edən, hər yeri əhatə edən və qullarına hər an ən yaxın olan Allah inancını bir kənara qoyub, uzaq bir Allah inancına sahib çıxırlar. Bu batil inanca görə, Allah özlərindən elə uzaqdır ki, ancaq bir insan vəsiləsi ilə qullarına çata bilir (Allahı tənzih edirik). Bu, Allahın təcəlli olaraq göndərdiyi insandan başqa bütün varlıqların Allahdan müstəqil varlıqları olduğunu iddia etməkdir, yəni şirkdir. Allaha şərik qoşmaq, Allahdan başqa varlıqlara müstəqil güc isnad etmək, Allah Qatında böyük günahdır və Allahı tanıya bilməmək, qiymətləndirə bilməməkdir.

Allah, qullarına olan yaxınlığını İncildə də çox açıq şəkildə bildirmişdir:

*Siz onlara bənzəməyin! Çünki Allahınız nələrə ehtiyac duyduğunuzu siz hələ Ondan istəmədən əvvəl bilər. (Matta, 6:8)*

*Allahın görmədiyi heç bir varlıq yoxdur. Özünə hesab verəcəyimiz Allahın gözləri qarşısında hər şey çılpaq və açıqdır. (İbranilere Mektup, 4:13)*

*[Allah qatında] aşkara çıxmayacaq gizli bir şey yoxdur, bilinməyəcək və aşkara çıxmayacaq gizli bir şey yoxdur. (Luka, 8:17)*

*...Yerdə və göydə, görünən və görünməyən hər şey (taxtlar, hakimiyyətlər, rəhbərliklər, hökmranlıqlar) Onda yaradıldı. Hər şey Onun tərəfindən və Onun üçün yaradıldı. Hər şeydən əvvəl var olan Odur və hər şey varlığını Onda davam etdirir. (Pavlus'tan Koloselilere Mektup, 1:16-17)*

*Lakin siz dua etdikdə daxili otağınıza çəkilib, qapını örtün və qeybdə olan Allaha dua edin. Gizlilik içində ediləni görən Allah sizi mükafatlandıracaq. (Matta, 6:6)*

*Beş sərçə iki qəpiyə satılmırmı? Amma bunların biri belə Allah Qatında unudulmamışdır. Necə ki, başınızdakı saçlar belə tək-tək sayılmışdır... (Luka, 12/6-7)*

Uca Allah Quranda isə belə bildirmişdir:

**"...Aşkara çıxartdığınızı və gizli saxladığınızı bilirəm” (Bəqərə surəsi, 33)**

İncil və Quran ayələrində açıqca bildirildiyi kimi, Allaha çatmaq üçün bir insanın

içindən səmimi dua etməsi kifayətdir. Harada olmağından asılı olmayaraq, Allah insan mütləq eşidər, görər və istədiyi təqdirdə onun duasına cavab verər.

Dolayısilə İslamda uzaq Allah inancı olduğunu iddia edərək təslis inancına zəmin hazırlamağa çalışan bəzi xristianlar xeyli yanılırlar. Onlar, Uca Allahın bir və tək İlah olaraq hər şeyin Yaradıcısı olduğu, hər yeri və hər şeyi əhatə etdiyi və maddə barəsindəki həqiqəti qavradıqları vaxt, əsil bu vaxt Allahın özlərinə nə qədər yaxın olduğunu anlaya biləcəklər.

Qapıldıqları təslis yanılmasından ötrü, Allahı yanlış tanıyır və Onun böyüklüyünü anlamırlar. Çünki əgər anlasalar, Allahdan başqa, Allahın təcəllisi olmayan varlıqlar olduğunu iddia etməz və Ona şirk qoşmaqdan şiddətlə çəkinərdilər.

Hər şeyi yaradan, hər şeyə və hər yerə Hakim olan bir Rəbbimiz var. Xristianlar bu həqiqətləri ağılla qiymətləndirməli, Allahın Uca Qüdrətinə yaraşan bir din anlayışını mənimsəməlidirlər. Allah göydə, yerdə, insanın həyatını davam etdirdiyi, gördüyü, görmədiyi hər yerdədir. Beynimizdə yaradılan və "həyatımız" dediyimiz bütün təsvirlər Allaha məxsusdur. Vəziyyət belə olduğu halda, bir insan necə Allaha çatmaq üçün bir vəsilə olmalı olduğunu iddia edə bilər? Bir insan içindən keçirdiyi an, Allah onun duasını eşidər. Allahın bizə bu qədər yaxın olması, bütün xristian qardaşlarımızı sevindirməlidir. Səmimi xristianlar, maddənin əsil mahiyyətini anlamalı, Allahın şənini lazımınca təqdir etməli, eləcə də, Allahın belə məntiqsiz və lüzumsuz açıqlamalara icazə verməyəcəyini bilməlidirlər.

## Təslis inancı niyə bir təhlükədir?

Bəzi xristianların müdafiə etdiyi təslis yaxud üçlük inancı, həm çox ciddi yanılma, həm Allaha və hz. İsa (ə.s)-a atılmış böyük bir böhtan, həm də çox ciddi bir təhlükədir. Xristianların təslis inancının gətirdiyi və gətirə biləcəyi bu təhlükələri görmələri böyük əhəmiyyət daşıyır. Bu təhlükələrin bəziləri bunlardır:

### 1) Şirk təhlükəsi:

İstər İncil və Tövrat, istərsə də Qurana görə Allaha şəriklər qoşmaq "şirk" mənasını verər. Dolayısilə səmimi xristianlar, təslis inancı ilə, özləri də bilmədən hz. İsa (ə.s)-ı Allaha şərik qoşaraq (Allahı tənzih edirik) bu böyük şirk təhlükəsinə düçar olurlar. Bu şirk təhlükəsi, görməzlikdən gəlinəcək bir məsələ deyildir. Uca Allah Quranda bu böyük təhlükədən ötrü az qala; **"göylər parça-parça olacaq, yer yarılacaq və dağlar dağılıb uçacaqdı"** deyə buyurur (Məryəm surəsi, 90). Şirk, Allah Qatında böyük günahdır. Allah Quranda bu günahı işləyənlərə qarşı təhdidini belə bildirir:

**Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, yerdə qalanların isə, istədiyini**

**bağışlayar. Allaha şərik qoşan kəs iftira atmaqla böyük bir günah etmiş olur. (Nisa surəsi, 48)**

Allah, İncildə də xristianlara şirki qadağan etmişdir:

*Ölümsüz Allahın ucalığı əvəzinə ölümlü insanı, quşları, dörd ayaqlıları, sürünənlərə bənzəyən bütləri üstün görüb onlara yönəldilər [Allahı tənzih edirik]... Onlar Allahla əlaqəli həqiqətin yerinə yalanı qoydular. Yaradan əvəzinə, yaradılana tapınıb qulluq etdilər [Allahı tənzih edirik]. Halbuki Allah əbədiyyən təriflənməyə layiqdir! (Pavlus'tan Romalılara Mektup, 1:23-25)*

*İsa ona bu cavabı verdi: ""Allahın olan Rəbbə tapın və təkcə Ona qulluq et" deyə yazılmışdır". (Luka, 4:8)*

Təslis adı altında əslində tək İlaha tapındıqlarını; (Allahı tənzih edərik) tək bir varlığın bədən, ruh və şüur kimi üç fərqli istiqamətdə təzahür etdiyini iddia edən xristianlar özlərini bu şirk təhlükəsindən uzaq hesab etməməlidirlər. Hər şeyin Yaradıcısı olan və hər an bizimlə birlikdə olan vahid Allahı qəbul etmək əvəzinə belə bir qarışıqlıq içində yaşamaq haqq dindən uzaqlaşmaqdır. Vahid Allaha qəlbən bağlanmaq əvəzinə, üçlük kimi sözlərlə bütpərəstlərin batil dinini xatırladan fərqli din tətbiq olunması böyük sapmadır. Bu cür sözlərin arxasına sığınaraq, tək Allaha iman gətirdiyini söyləyənlər də çox diqqətli olmalıdırlar. Təslisə inanan bir xristian tək Allaha inanmaq istəyə bilər, özünü bu cür də görə bilər və bu gözəl şeydir. Lakin təslis inancı, əsla tək Allah inancı deyildir. Bir xristian qəbul etsə də, etməsə də təslislə açıqca başqa saxta varlıqların da ilahlığına hökm edir və beləliklə şirk qoşur.

Rəbbimiz bir Quran ayəsində xristianlardan təslis yanılmasına qapılanları bu hikmətli sözlərlə xəbərdar edir:

**Ey Kitab əhli! Dininizdə ifrata varmayın və Allah barəsində yalnız həqiqəti deyin. Məryəm oğlu İsa Məsih ancaq Allahın elçisi, Onun Məryəmə göndərdiyi "Ol!" kəlməsi və Onun tərəfindən göndərilən bir ruhdur. <u>Allaha və Onun elçisinə iman gətirin və: "Tanrı üçdür!" deməyin. (Buna) son qoyun! Bu sizin üçün xeyirli olar. Həqiqətən, Allah tək İlahdır! O, övladı olmaqdan Ucadır</u>. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Qoruyan olaraq Allah yetər. (Nisa surəsi, 171)**

## 2) Zəhmətlərin boşa çıxma təhlükəsi

Təslis yanılması ilə səmimi xristian qardaşlarımızın üzləşəcəyi ən böyük təhlükələrdən biri də, **Allah üçün çəkdiklərini söylədikləri bütün zəhmətlərin boşa çıxma ehtimalıdır.**

Xatırlatmaları və xəbərdarlıqları nəzərə almadan, sırf bu yanılmadan ötrü şirk içində yaşayan, bu mövzuda vicdanına müraciət etməyən, lakin özünü doğru yolda zənn edən xristianlar üçün bu çox böyük təhlükədir. Belə bir təhlükə kiçik hesab edilməməlidir. Allah Quranda: **"çalışıb, boşuna yorulanlar"**dan xəbər vermişdir (Ğaşiyə surəsi, 3). Yenə bir Quran ayəsində: **"O kəslər ki, onların dünya həyatındakı səyləri boşa çıxdığı halda, yaxşı işlər gördüklərini güman edirlər"** deyə bildirilir (Kəhf surəsi, 104). Tövratda isə səmimi iman gətirənlərin duaları belə bildirilir:

*"Tanrımız Rəbb bizdən razı qalsın. <u>Zəhmətimizi boşa çıxartma. Bəli, zəhmətimizi boşa çıxartma</u>". (Mezmurlar 90:17).*

Dolayısilə Rəbbimizin əvvəlcədən xəbərdar verdiyi kimi axirətdə, özünü doğru yolda zənn edən, çalışıb zəhmətləri boşa çıxan insanlar olacaq. Səmimi bir dindarın belə bir təhlükəni özündən uzaq görməməsi və vicdanına müraciət etməsi şərtdir. Allah hazırda bu xatırlatma və xəbərdarlıqlarla, illərlə təslis inancının doğru olduğu təlqinini almış xristian qardaşlarımızı vicdanlarıyla hesablaşmağa dəvət edir.

## 3) Gizli dinsizlik, münafiqlik və ateizm təhlükəsi

Təslis inancının gətirdiyi ən böyük təhlükələrdən biri isə, bu yanlış inancın gizli dinsizliyə gətirib çıxartması və ya insanları ateizmə sürükləməsidir. Əlbəttə ki, İncili yaxşı bilən hər hansı bir insanın, təslis inancının məntiqsizliyini qavraması çətin məsələ deyil. Əslində xristianların demək olar ki, hamısı bu həqiqəti bilirlər. Lakin müxtəlif açıqlamalarla özlərini buna inandırır və ya "inanmasan dindən çıxarsın" təhdidindən ötrü bir çoxu susqun qalır.

Bəziləri isə **daxilən inanmadıqları bu inancdan ötrü dinsizliyə sürüklənir.** Məhz bu çox böyük təhlükədir. Bunlar, xristianlıq dinində, təslis inancının əsassızlığını bildiyi halda, **dindar kimi görünmək məcburiyyətində qalan gizli dinsizlərdir**. Bu batil inancdan ötrü imanını itirən gizli dinsizlər, xristianlıqdakı münafiqlik təhlükəsini meydana gətirirlər. Münafiqlər isə, eynilə müsəlmanlıq və yəhudilikdə olduğu kimi, xristianlıqda da fitnə və ayrılıqlara səbəb olmaq; onları zəiflətmək, ibadətlərdən uzaqlaşdıra bilmək üçün yaradılan təhlükəli bir cəmiyyət və batil inancların mənbəyidirlər.

Bununla yanaşı, əsrlərdir ki, sayları getdikcə artan bir çox xristian, ağıl və məntiqlə ziddiyyət təşkil edən təslis inancından ötrü, tamamilə inkar edib ateist olmuşdur. Həmin bu ateistlər inancsızlıqlarının səbəbi olaraq, xristianlıqdakı ziddiyyət və zorakı məntiqləri göstərirlər. Şübhəsiz ki, təslis tərəfdarı xristianlar da bu vəziyyətdən xəbərdardırlar.

Xristian təbliğini dinləyənlərin təslis mövzusuna qənaət gətirə bilməmələrinin, onları gizli dinsizliyə, münafiqliyə və ya ateizmə sürükləməsi ehtimalı, əlbəttə, bir təhlükədir. Əlbəttə ki, bir insan, həqiqi mənada səmimdirsə, bu zaman o, Allaha qəlbən yönələrək ən

doğrusunu görmək və anlamağa çalışmaq, eləcə də, vicdanının özünə göstərdiyini yerinə yetirməklə məsuldur. Lakin yenə də bu təhlükə qətiyyən görməzlikdən gəlinməməlidir.

Təslis inancının gətirdiyi dinsizlik təhlükəsinin nə qədər böyük fikri və feli qarşıdurmalara gətirib çıxartdığını xristianlıq tarixindən də anlamaq mümkündür. Bu qarşıdurmalar hazırkı dövrdə hələ də davam edir. Haqq olan bir inancın belə böyük qarışıqlıqların və fitnələrin mənbəyi ola bilməsi qeyri-mümkündür. Bəzi xristianlar bu böyük təhlükənin ölçüsünü indiyə qədər yaxşı görə bilməmiş ola bilərlər. İncilin hökmü deyərək, atalarından gəlmiş bir inanca bilmədən dəstək verməyə çalışa bilərlər. Lakin bu, qəti şəkildə Allahın əmrinə zidd bir inancdır. İncilə ağıl və vicdan gözüylə baxdıqları və batil bir inancın yaratdığı fitnələri gördükləri vaxt, bunu çox yaxşı anlayacaqlar. Dolayısilə səmimi xristianları, Allaha sığınaraq, eləcə də, bütün təlqinlərdən və xristian aləmində kök salmış yanlış inanclardan xilas olaraq, ağıllı şəkildə düşünməyə və bu mövzuda müdaxiləsiz şəkildə sırf vicdanlarıyla qərar verməyə dəvət edirik.

## Şirk qoşmadan təkcə Allaha qulluq etməklə əlaqədar İncil keçidləri

*İsa ona bu cavabı verdi: "**"Allahın olan Rəbbə tapın və təkcə Ona qulluq et"** deyə yazılmışdır". (Luka, 4: 8)*

*İsa onlara bu cavabı verdi: "**"Allahın olan Rəbbə tapın və təkcə Ona qulluq et"** deyə yazılmışdır". (Matta, 4: 10)*

*Əziz qardaşlarım, **bütpərəstlikdən qaçın**. (Pavlus'tan Korintlilere 1. Mektup, 10: 14)*

*Hər kəs bizi nə qədər yaxşı qarşıladığınızdan danışır. **Yaşayan həqiqi Allaha qulluq etmək...** üçün bütlərdən Allaha necə qayıtdığınızdan danışırlar. (Pavlus'tan Selaniklilere 1. Mektup, 1: 9-10)*

*O [hz. İsa (ə.s)] belə dedi: "Heç bir nökər iki ağaya qulluq edə bilməz... **Siz həm Allaha, həm də pula qulluq edə bilməzsiniz*** [Allahı tənzih edirik]*". (Luka, 16: 13)*

*...İçinizdəki "işıq" qaranlıqdırsa, nə qorxuncdur o qaranlıq! **Heç kəs iki ağaya qulluq edə bilməz.** Ya birindən nifrət edib o birisini sevər, ya da birinə bağlanıb o birisini xor görər. Siz həm Allaha, həm də pula qulluq edə bilməzsiniz. (Matta, 6: 23-24)*

*...**Hələ də bütpərəst vərdişlərinin təsiri altında qalan bəziləri, yedikləri ətin bütə təqdim edildiyini düşünürlər.** Vicdanları zəif olduğu üçün ləkələnir. Yemək bizi Allaha yaxınlaşdırmaz. Yeməsək bir şey itirmərik, yesək də bir qazancımız olmaz. (Pavlus'tan*

*Korintlilere 1. Mektup, 8: 7-8)*

***Bütpərəstlər Allah üçün deyil, cinlər üçün qurban kəsirlər.*** *Cinlərlə ortaq olmağınızı istəmərəm. Həm Rəbbin, həm də cinlərin kasasından içə bilməzsiniz; həm Rəbbin,* ***həm də cinlərin süfrəsinə ortaq ola bilməzsiniz.*** *(Pavlus'tan Korintlilere 1. Mektup, 10:20-21)*

*Bütlər üçün kəsilən qurban ətinin yeyilməsinə gəldikdə isə, bilirik ki, "dünyada büt heç nədir" və* ***"birdən artıq Allah yoxdur".*** *(Pavlus'tan Korintlilere 1. Mektup, 8: 4)*

*Balalarım,* ***özünüzü bütlərdən qoruyun****. (Yuhanna'nın 1. Mektubu, 5: 21)*

*Geriyə qalan insanlar, yəni bu bəlalardan ölməmiş olanlar,* ***öz əlləriylə düzəltdikləri bütlərdən əl çəkib tövbə etmədilər.*** *Cinlərə və görə bilməyən, eşidə bilməyən, yeriyə bilməyən qızıl, gümüş, tunc, daş, taxta bütlərə tapınmaqdan imtina etmədilər. (Vahiy, 9: 20)*

# III Fəsil

# Hz. İsa (ə.s)-ın çarmıxa çəkildiyi yanılması

### Hz. İsa (ə.s)-ın guya çarmıxa çəkildiyi iddiası ilə əlaqədar dörd İncildə yer alan müxtəlif ziddiyyətlər

Dövrümüzdəki halıyla xristianlıq, hz. İsa (ə.s)-ın çarmıxa çəkildiyi və çarmıxda öldüyü, sonra təkrar diriləcəyi inancı üzərinə qurulub. Halbuki bu məlumatlar həqiqətləri əks etdirmir. Quranda da ətraflı şəkildə açıqlandığı kimi, hz. İsa (ə.s) çarmıxa çəkilməmiş, dolayısilə öldürülməmiş, hələ həyatda olarkən göyə qaldırılmış və Axırzamanda təkrar yer üzünə geri qaytarılmaq üzrə Allah qatına alınmışdır. Hazırda xristian aləminin hz. İsa (ə.s)-ın çarmıxa çəkildiyi inancını müdafiə etməsinin səbəbi, dörd İncildə qeyd olunan bəzi ziddiyyətli sözlərdir. Lakin bu sözlər, daha əvvəl də toxunduğumuz kimi, hz. İsa (ə.s)-ın Allah qatına alınmasından sonra, 3-cü əsrdə İncilə əlavə olunmuş və ya yanlış şərh olunmuş, öz aralarında çox ciddi ziddiyyətlər olan sözlərdir.

Dörd İncildə hz. İsa (ə.s)-ın çarmıxa çəkildiyi an və bundan dərhal əvvəl və dərhal sonra yaşanan hadisələr fərqli izah edilir. Əvvəlcə, 4 kitabdakı bu ziddiyyətli sözləri nəzərdən keçirək:

## Hz. İsa (ə.s)-ın çarmıxa çəkilməsi mövzusu ilə əlaqədar İncildəki ziddiyyətli ifadələr

### Xaçı kim daşıdı?

Markos 15:21, Matta 27:32 və Luka 23:26-da, xaçı Kirenalı Simonun daşıdığına dair ifadələr qeyd olunur:

*Çölə çıxdıqları vaxt, Simon adlı Kirenalı biriylə qarşılaşdılar. İsanın çarmıxını ona zorla daşıtdırdılar. (Matta 27:32)*

Yuhanna İncilində isə, xaçı hz. İsa (ə.s)-ın özünün daşıdığı bildirilir:

*Əsgərlər İsanı götürüb apardılar. İsa çarmıxını özü daşıyıb kəllə (ibrani dilində golgota) adlı yerə çıxdı. (Yuhanna 19:17)*

## Çarmıxa çəkilən quldurlar (oğrular):

Markos 15:27-28, Matta 27:44 və Luka 23:39-42 hissələrində, hz. İsa (ə.s)-ın guya iki quldur (oğru) ilə birlikdə çarmıxa çəkildiyi bildirilir. Buradakı ziddiyyət, Romalıların heç vaxt oğruları çarmıxa çəkməmələridir.

*İsa ilə birlikdə, biri sağında, digəri isə, solunda olmaqla, iki qulduru da çarmıxa çəkdilər. (Markos 15:27-28)*

*İsa ilə birlikdə çarmıxa çəkilən quldurlar da Onu eyni şəkildə təhqir etdilər. (Matta 27:44)*

## Hz. İsa (ə.s)-ın guya çarmıxa çəkilmə saatı ilə əlaqədar ziddiyyətli məlumatlar:

Matta 27:45-46, Luka 23:44-46 və Yuhanna 19:14-15 hissələrində hz. İsa (ə.s)-ın guya çarmıxa çəkilməsi ilə əlaqədar olaraq, saat on ikidən üçə qədər olan müəyyən vaxt intervalı bildirildiyi halda, Markos 15:25-də bu vaxtın saat doqquz olduğu bildirilir.

*Günorta saat on iki radələrində günəş qaraldı və üçə qədər bütün ölkənin üzərinə qaranlıq çökdü. Məbəddəki pərdə ortasından cırıldı. İsa yüksək səslə: "Rəbbim, ruhumu əllərinə buraxıram!" deyə səsləndi. Bunu söylədikdən sonra son nəfəsini verdi. (Luka 23:44-46)*

*İsanı çarmıxa çəkdikləri vaxt, saat doqquz idi. (Markos 15:25)*

## Hz. İsa (ə.s)-ın guya son sözləri

Hz. İsa (ə.s)-ın guya çarmıxa çəkilmə anındakı son sözləri ilə əlaqədar də dörd İncildə ziddiyyətli məlumatlar vardır. Markos 15:34-37 ilə Matta 27:46-50 hissələrində, hz. İsa (ə.s)-ın belə səsləndiyi bildirilir:

*Saat üçdə İsa yüksək səslə: "Elohi, Elohi, lema şevaktani", yəni: "Tanrım, Tanrım, məni niyə tərk etdin?" deyə qışqırdı [Allahı tənzih edirik]. (Markos 15:34)*

Luka İncilində isə hz. İsa (ə.s)-ın guya son sözləri daha fərqli bildirilmişdir:

*İsa yüksək səslə: "Allahım, ruhumu əllərinə buraxıram!" deyə səsləndi. Bunu söylədikdən sonra son nəfəsini verdi. (Luka 23:46)*

Yuhanna İncilində isə bu mövzudakı açıqlamalar tamamilə fərqlidir:

*İsa şərabı daddıqda: "Tamamlandı!" dedi və başını əyərək ruhunu təslim etdi.*

*(Yuhanna 19:30)*

## Hz. İsa (ə.s)-ın guya basdırıldığı vaxt zəlzələ baş verməsi

Bu məlumat, Matta İncilində qeyd olunur:

*Həmin anda məbəddəki pərdə yuxarıdan aşağıya doğru cırılaraq iki yerə bölündü. Yer sarsıldı, qayalar yarıldı. Məzarlar açıldı, ölmüş olan bir çox mübarək insanın cəsədləri dirildi. Bunlar məzarlarından çıxıb İsanın dirilişindən sonra müqəddəs şəhərə daxil oldular və bir çox insana göründülər. (Matta 27:51-53)*

Markos, Luka və Yuhanna İncillərində isə, hz. İsa (ə.s)-ın guya gömülməsinə dair müxtəlif açıqlamalar verilir, lakin baş vermiş olsa unudulması mümkün olmayacaq belə bir zəlzələ hadisəsindən qətiyyən bəhs edilmir.

## Hz. İsa (ə.s)-ın guya gömülməsindən sonra yaşanan hadisələr

Hz. İsa (ə.s)-ın sözdə gömülməsindən sonra yaşandığı iddia edilən hadisələr dörd ayrı İncildə fərqli bildirilir:

*Həmin anda məbəddəki pərdə yuxarıdan aşağıya doğru cırılaraq iki yerə bölündü. Yer sarsıldı, qayalar yarıldı. Məzarlar açıldı, ölmüş olan bir çox mübarək insanın cəsədləri dirildi. Bunlar məzarlarından çıxıb İsanın dirilişindən sonra müqəddəs şəhərə daxil oldular və bir çox insana göründülər. (Matta 27:51-53)*

*Başlarını qaldırıb baxdıqda, o nəhəng daşın yana diyirlənmiş olduğunu gördülər. Məzara girib sağ tərəfdə, ağ kaftan geyinmiş gənc bir insanın oturduğunu gördükdə çox təəccübləndilər. (Markos 16:4-5)*

*Daşın məzarın girişindən diyirlənib getmiş olduğunu gördülər. Lakin içəri girdikdə İsanın cəsədini tapa bilmədilər. Onlar bu vəziyyət qarşısında təəccübləndikləri anda, yanlarında şimşək kimi parıldayan geyimlərə bürünmüş iki insan meydana çıxdı. (Luka 24:2-4)*

*Bundan sonra Pyotrla (Petrus) o biri tələbə çölə çıxıb məzara doğru yönəldilər. İkisi birlikdə qaçırdı. Lakin o biri tələbə Pyotrdan (Petrus) daha sürətli qaçaraq məzara ondan qabaq çatdı. Əyilib içəri baxdı, orada sərilmiş vəziyyətdə kətan bezlər gördü, lakin içəri girmədi. Sonra da Simon Pyotr (Simun Petrus) gəldi və məzara girdi. Orada sərilmiş vəziyyətdə duran bezləri və İsanın başına sarılmış dəsmalı gördü. Dəsmal kətan bezlərlə*

*birlikdə deyildi, ayrı bir yerdə büzülmüş vəziyyətdə dururdu. (Yuhanna 20:3-8)*

## Hz. İsa (ə.s)-ın guya çarmıxa çəkilmədən əvvəl aparıldığı səlahiyyətli orqanların fərqli olması:

Markos (14:53), Matta (26:57) və Luka (22:54) İncillərində hz. İsa (ə.s)-ın yanına aparıldığı səlahiyyətli şəxsin adının baş kahin Kayafa kimi qeyd olunduğu halda, Yuhanna İncilində bu səlahiyyətli şəxs baş kahinin qayınatası Hanan kimi qeyd olunur.

*İsanı vəzifəli baş kahinə apardılar. (Markos 14:53)*

*İsanı ələ keçirənlər, onu baş kahin Kayafanın yanına apardılar. (Matta 26:57)*

*İsanı ələ keçirənlər, onu götürüb baş kahinin evinə apardılar. Pyotr (Petrus) onları uzaqdan izləyirdi. (Luka 22:54)*

*Onu əvvəlcə, həmin il baş kahin olan Kayafanın qayınatası Hanana apardılar. (Yuhanna 18:13)*

## Hz. İsa (ə.s)-ın guya ittihamlardan ötrü mühakimə olunması

Dörd İncildə hz. İsa (ə.s)-ın guya mühakimə olunması ilə, əlaqədar bütün söylənənlər bir-biriylə ziddiyyət təşkil edir.

Yuhanna İncilinə görə hz. İsa (ə.s)-ı yalnız baş kahin sorğu-suala çəkmişdir:

*Bundan sonra komandirlə əmri altındakı əsgər manqası və yəhudi vəzifəli şəxslər İsanı tutub bağladılar. Onu əvvəlcə, həmin il baş kahin olan Kayafanın qayınatası Hananın yanına apardılar. Xalqın uğruna tək bir insanın ölməsinin daha məqsədəuyğun olacağını yəhudilərdən olan səlahiyyətli şəxslərə təlqin edən Kayafa idi. ...Baş kahin İsaya, tələbələri və təlimiylə əlaqədar suallar verdi. (Yuhanna 18:12-14, 19)*

Markos, Luka və Matta İncilinə görə hz. İsa (ə.s) ali təşkilatın bütün üzvləri tərəfindən mühakimə olunar:

*Gün doğduqda xalqın öndə gedənləri və din alimləri toplandılar. İsa, bunlardan meydana gələn ali təşkilatın önünə çıxarıldı. Ona: "Sən Məsihsənsə, söylə bizə" dedilər. (Luka 22:66-67)*

*İsanı vəzifəli baş kahininin yanına apardılar. Bütün baş kahinlər, öndə gedənlər və din alimləri də orada toplandı. ...Baş kahinlər və ali təşkilatın digər üzvləri, İsanı ölüm cəzasına məhkum etmək məqsədiylə, əleyhində çıxış edəcək şahid axtarır, lakin tapa bilmirdilər. Bir*

*çox insan onun əleyhində yalan yerə şahidlik etdisə də, şahidlikləri bir-birini tutmadı. (Markos 14:53-56)*

*İsanı ələ keçirənlər, onu baş kahin Kayafanın yanına apardılar. Din alimləri və öndə gedənlər də orada toplanmışdılar. Pyotr (Petrus), İsanı uzaqdan, ta baş kahinin həyətinə qədər izlədi. Nəticəni görmək üçün içəri daxil olub, növbətçilərin yanında əyləşdi. Baş kahinlərlə ali təşkilatın digər üzvləri, İsanı ölüm cəzasına məhkum etmək üçün, əleyhində çıxış edəcək yalançı şahidlər axtarırdılar. (Matta 26:57-59)*

## Hz. İsa (ə.s)-ın guya böyük Herod tərəfindən sorğu-sual edilməsi

Luka İncilində hz. İsa (ə.s)-ın guya böyük Herod tərəfindən sorğu-sual edilməsindən bəhs edilir:

*Ponti Pilat bunu eşitdikdə: "Bu insan Qalileyalıdırmı?" deyə soruşdu. İsanın, böyük Herodun hakimiyyəti altındakı ərazidən gəldiyini öyrəndikdə, Onu elə həmin anda Yerusəlimdəki böyük Herodun yanına göndərdi. Böyük Herod İsanı gördükdə çox sevindi. Onunla bağlı xəbərləri eşitdiyi üçün çoxdandır onu görmək istəyir və gerçəkləşdirəcəyi bir əlamətə şahid olmağı ümid edirdi. Ona bir çox sual verdi, lakin o heç bir cavab vermədi. Orada dayanan baş kahinlərlə din alimləri, İsanı ağır dillə günahlandırdılar. Böyük Herod da əsgərləriylə birlikdə onu alçaldıb lağa qoydu. Ona ehtişamlı bir kaftan geyindirib Ponti Pilatın yanına geri qaytardı. Bu hadisədən əvvəl bir-birinə düşmən olan böyük Herodla Ponti Pilat, həmin gün dost oldular. (Luka 23:6-12)*

Matta, Markos və Yuhanna İncillərində isə, hz. İsa (ə.s)-ın guya böyük Herod tərəfindən sorğu-sual edilməsindən bəhs edilmir.

Həmin bu ziddiyyətlər, hz. İsa (ə.s)-ın guya çarmıxa çəkilməsi ilə, əlaqədar qeyd edilənlərin tamamilə tutarsız məlumatlara əsaslandığının, həmin an və mühitlə bağlı söylənilənlərdən heç birinin bir-biri ilə tutuşmadığının açıq dəlilidirlər. Əgər xristianlar, hz. İsa (ə.s)-ın öldürüldüyünə dair İncili mənbə kimi göstərirlərsə, İncilin 4 fərqli kitabından mövzuyla əlaqədar dəqiq və konkret məlumatlar əldə edilə bilməyəcəyini görməlidirlər. Həqiqəti anlamaq üçün Allahın, İncili təsdiqləyici olaraq göndərdiyini bildirdiyi Qurana baxılmalıdır. Uca Allah Quranda, **hz. İsa (ə.s)-ın çarmıxa çəkilmədiyini, qətiyyən öldürülmədiyini, ancaq inkarçıların belə olduğunu zənn edəcəkləri bir mühit yaratdığını** bildirir. Rəbbimiz Quranda hz. İsa (ə.s)-la əlaqədar bu iddiaların əsassız olduğunu; münafiq və inkarçıların hz. İsa (ə.s)-a istiqamətli tələlərinin puç olduğunu və **hz. İsa (ə.s)-ı Öz qatına aldığını** bildirir. Həmin bu İncil keçidlərindəki ziddiyyətləri Quran ayələri əsasında qiymətləndirdiyimiz vaxt, dörd İncilin mövzuyla əlaqədar öz aralarındakı qarışıqlıq dərhal aydınlıq qazanır: Hz. İsa (ə.s) ölməmiş, lakin hər kəsin çarmıxa çəkildiyini zənn etdiyi xüsusi

görünüş göstərilmişdir.

## Hz. İsa (ə.s) ölməmiş, Allah qatına yüksəldilmişdir

İncildə, ziddiyyətli açıqlamalarla bildirilmiş hz. İsa (ə.s)-ın çarmıxa çəkilməsi barəsində doğru məlumatları Quran vasitəsilə əldə edərik. Allah, Quranda **hz. İsa (ə.s)-a qurulmuş tələlərin puç olduğunu və onu qətiyyən öldürmədiklərini** açıqca bildirmişdir:

**Bir də: “Həqiqətən, biz Allahın elçisi Məryəm oğlu İsa Məsihi öldürdük!” dediklərinə görə lənətə düçar edildilər. <u>Halbuki onu nə öldürdülər, nə də çarmıxa çəkdilər</u>. Onlara ancaq İsanın bənzəri göstərildi. Şübhəsiz ki, bunda ixtilaf edənlər onun barəsində şəkk-şübhə içindədirlər. Bu haqda onların, zənnə uymaqdan başqa heç bir məlumatı yoxdur. <u>Onu qətiyyən öldürmədilər</u>. (Nisa surəsi, 157)**

Quranda hz. İsa (ə.s)-ın öldürülmədiyi eyni ayədə iki dəfə xüsusi olaraq vurğulanır və hz. İsa (ə.s)-ın öldürüldüyü inancını müdafiə edənlərin "zənnə uyduqları" bildirilir. Bu olduqca açıq bir ifadədir və bunun başqa cür şərh edilməsi qeyri-mümkündür.

## Hz. İsa (ə.s)-a bənzəyən başqa biri çarmıxa çəkilmişdir

Allah Quranda eyni ayədə: **"Halbuki onu nə öldürdülər, nə də çarmıxa çəkdilər. <u>Onlara ancaq İsanın bənzəri göstərildi</u>"** (Nisa surəsi, 157) deyə xəbər verərək, çarmıxa çəkilən insanın hz. İsa (ə.s)-ın bənzəri olan başqa biri olduğunu bizə bildirir.

Hz. İsa (ə.s)-ın yerinə çarmıxa çəkilən insan, **hz. İsa (ə.s)-a xainlik edən Yəhuda İskariotdur (Judas Iskariot).** Allah, çox böyük bir möcüzə yaradaraq Yəhuda İskariotu hz. İsa (ə.s)-a bənzətmişdir. Hz. İsa (ə.s)-ı çarmıxa çəkmək üçün götürüb aparmağa gəldikləri vaxt, orada olan Yəhuda İskariot, hz. İsa (ə.s) zənn edildiyi üçün, götürülüb aparılmış və çarmıxa gərilmişdir. Həmçinin Yəhuda İskariotun üzünü qan bürüdüyü üçün, xalq da çarmıxa çəkilən bu insanın hz. İsa (ə.s) olmadığını anlamamışdır. Allah Nisa surəsinin 157-ci ayəsinin davamında: **"Bu haqda onların, zənnə uymaqdan başqa heç bir məlumatı yoxdur"** deyə bildirir. Tələ quranlar və ətrafdakılar, yalnız zənnə uymuşdurlar və bundan savayı ayədə bildirildiyi kimi, onların heç bir məlumatları yoxdur.

Necə ki, İncildə hz. *İsa (ə.s)-ın son sözləri olaraq nəql olunan ifadələrin də ("Elohi, Elohi, lema şevaktani", yəni: "Tanrım, Tanrım, məni niyə tərk etdin? (Allahı tənzih edirik))*

mahiyyəti aydın olur. Açıq şəkildə iman zəifliyinin dəlili olan bu sözlər, əlbəttə ki, hz. İsa (ə.s)-a aid ola bilməz. Bu sözlər, bütün tələləri puç olan və hz. İsa (ə.s)-ın yerinə çarmıxa çəkilən Yəhuda İskariota aiddir. Məhz bundan ötrü də, üsyanla doludur. Onsuz da Allahı qəlbən sevən, hər şeyin Allahdan gəldiyini bilən, Allaha könüldən boyun əymiş bir qul olan hz. İsa (ə.s)-ın bu ifadələri əsla işlətməyəcəyi aydın məsələdir. Belə üsyankar ifadələrin Yəhuda İskariot kimi bir münafiqdən çıxmış olması isə, gözlənilən haldır.

## İncilə görə Yəhuda İskariotun yoxa çıxması

Quran ayələrində bidirilənlərə və müxtəlif mənbələr tərəfindən də dəstəklənilən bu sözlərə paralel olaraq, hz. İsa (ə.s)-ın yerinə, ona xəyanət edən Yəhuda İskariotun çarmıxa çəkildiyinə dəlil təşkil edə biləcək İncil keçidləri var. Bu ayələrə görə, həmin bu çarmıxa çəkilmə hadisəsindən dərhal sonra Yəhuda İskariotun tamamilə ortadan yox olması diqqət çəkir. İncil müəllifləri bu vəziyyətə müxtəlif formalarda şərh gətirməyə çalışıblar, Yəhuda İskariotun öldüyünü iddia ediblər, lakin bu iddialarında belə ziddiyyətə düşüblər. Çünki hz. İsa (ə.s) əvəzinə Yəhuda İskariotun çarmıxa çəkildiyini bilmirlər. İncildəki, Yəhuda İskariotun yoxa çıxmasına dair bir-biriylə ziddiyyət təşkil edən açıqlamalar belədir:

*Səhər olduqda bütün baş kahinlərlə xalqın öndə gedənləri, İsanı ölüm cəzasına məhkum etmək barəsində razılaşdılar. Onu bağladılar və aparıb qubernator Ponti Pilata təslim etdilər. İsaya xəyanət edən Yəhuda, onun məhkum edildiyini gördükdə etdiyinə peşman oldu. Otuz gümüşü baş kahinlərə və öndə gedənlərə geri apardı. O: "Mən günahsız birini satmaqla günah işlədim" dedi. Onlar isə: "Bunun bizə nə dəxli var? Bunu sən düşün" dedilər.* ***Yəhuda pulları məbədin içinə saçaraq oradan ayrıldı və gedib özünü asdı.*** *(Matta 27:1-5)*

*O günlərdə Pyotr (Petrus), təxminən yüz iyirmi qardaşdan ibarət olan bir birliyin ortasında ayağa qalxıb belə danışdı: "Qardaşlar... İsanı həbs edənlərə bələdçilik edən Yəhuda ilə əlaqədar olaraq Davudun ağzıyla əvvəlcədən bildirdiyi Müqəddəs Yazının yerinə yetməli idi. Yəhuda bizdən biri sayılmış və bu xidmətdə yerini almışdı". Bu insan, etdiyi pisliyin qarşılığında aldığı ödənişlə bir tarla satın aldı.* ***Sonra baş aşağı düşdü, bədəni yarıldı və bütün bağırsaqları eşiyə töküldü.*** *(Elçilerin İşleri 1:15-18)*

İncildəki bəzi açıqlamalar bir-biri ilə ziddiyyət təşkil etsə də, bu məsələdə ortaq nəticə, Yəhuda İskariotun çarmıxa çəkilmə hadisəsindən dərhal sonra **qəti şəkildə yoxa çıxmış olmasıdır.** Yəhuda İskariot yoxa çıxmışdır, çünki əslində çarmıxa çəkilən və öldürülən insan məhz özüdür. Bu hadisədən dərhal əvvəl isə, **hz. İsa (ə.s), Allahın əmri ilə mələklər tərəfindən göyə, belə ki, Allahın qatına alınmışdır.** Məhz bundan ötrü də, hz. İsa (ə.s)-ı çarmıxa çəkmək məqsədiylə olduğu otağa gələn vəzifəli şəxslər, orada təkcə Yəhuda

İskariotu tapdılar.

## Allah Quranda, hz. İsa (ə.s)-a qurulan tələnin "puç olduğunu" bildirir

Məlum olduğu kimi, münafiqlik edən Yəhuda İskariotun liderliyi altında inkarçılar hz. İsa (ə.s) əleyhində bir tələ qurdular. **Tələnin məqsədi, hz. İsa (ə.s)-ın ölməsidir.** Halbuki Allah Quranda, **hz. İsa (ə.s)-a qurulan tələnin <u>puç olacağını</u> bildirmişdir.** Əgər hz. İsa (ə.s) hər hansı şəkildə ölsə, bu, inkar edənlərin qurduqları tələnin <u>**puç olmadığı**</u>, onların istədiyi kimi nəticələndiyi mənasını verər ki, bu da qeyri-mümkündür. Çünki Allahın vədi var. **Hz. İsa (ə.s)-ı öldürməyi hədəfləyən həmin tələ puç olmuşdur. Hz. İsa (ə.s), qətiyyən ölməmişdir və öldürülməmişdir.** Allah, Quranda bu həqiqəti belə xəbər verir:

**İsa onlardakı inkarı hiss etdikdə dedi: "Allah üçün kimlər mənə yardımçı olacaq?" Həvarilər dedilər: "Bizik Allahın yardımçıları! Biz Allaha iman gətirdik. Sən də şahid ol ki, biz müsəlmanlarıq! Ey Rəbbimiz! Biz sənin nazil etdiyinə iman gətirdik və göndərdiyin elçinin ardınca getdik. Bizi də şahidlərlə bir yerdə yaz!" <u>Onlar (inanmayanlar) hiylə qurdular. Allah da (bunun müqabilində) hiylə qurdu. Allah hiylə quranların ən yaxşısıdır</u>. (Ali İmran surəsi, 52-54)**

Əgər inkarçıların tələləri baş tutmuş olsaydı, əlbəttə ki, bu Quranda bildirilərdi. Lakin Quranda hz. İsa (ə.s)-a qurulan tələlərin puç olduğu və Onun Allahın qatına yüksəldildiyi bildirilir.

## Hz. İsa (ə.s)-a qurulan hiyləgər tələnin pozulması səmimi iman sahibləri üçün böyük nemətdir

Çox açıq dəlillərə baxmayaraq, hz. İsa (ə.s)-ın öldürüldüyü iddiasında israr edənlər ağılla düşünməli və Quranı hər cür ön mühakimədən xilas olmuş şəkildə, tam vicdan açıqlığı ilə təkrar oxumalıdırlar. Hz. İsa (ə.s) ölməmişdir, şərəfli şəkildə göyə qaldırılmışdır. Səmimi bir xristian üçün hz. İsa (ə.s)-ın öldüyü iddiasında israr etmək tamamilə mənasızdır. **Bir xristian üçün, hz. İsa (ə.s)-ın ölmədiyini, Allahın rəhməti ilə inkarçıların tələlərindən xilas olduğunu və Rəbbimizin qatında olduğunu bilmək və buna inanmaq bir nemətdir.** Bu iddia ilə çıxış edən xristianlar, xristianlığın təməl inanclarından biri olan hz. İsa (ə.s)-ın

xristianların günahlarının kəffarəsi üçün, ölməyi seçdiyi inancından imtina etmək istəməzlər. Halbuki bu mövzuda da müxtəlif yanılmalar var. Bu mövzuya bir azdan toxunulacaq.

Bəzi xristianlar, müsəlmanların, hz. İsa (ə.s)-ın ölmədiyi inancını, bir peyğəmbərə əzab çəkməyi yaraşdırmadıqlarına görə müdafiə etdiklərini iddia edirlər. Halbuki müsəlmanlar buna, Quranda bildirildiyi üçün inanarlar. Burada ifadə edilməli mühüm xüsus isə budur: Əlbəttə ki, Allah, peyğəmbərləri müxtəlif əzab, çətinlik və imtahanlarla sınamışdır. Bəzən Allah imtahanın tələbi olaraq inkarçılara müvəqqəti qələbə də vermişdir. Lakin Allah, heç vaxt peyğəmbərləri küfr əhlinin gözündə acizlik içində göstərəcək bir vəziyyətə icazə verməmişdir. Dolayısilə bu vəziyyət hz. İsa (ə.s) üçün də mümkün ola bilməz. Hz. İsa (ə.s)-ın ölmədiyinə inanmaq xristianlar üçün daha gözəldir. Onsuz da Axırzamanda **hz. İsa (ə.s) təkrar yer üzünə göndərildikdə xristianlar onun əllərində və ayaqlarında heç bir yara izi olmadığını görəcəklər.** Yaşadığımız bu dövrdə hz. İsa (ə.s), 2000 il əvvəlki geyimləri, üzərindəki bəylik əşyaları və 2000 il əvvəlki pulu ilə yer üzünə gələcəkdir. İşdə bu böyük dəlil, Xristianların tam mənasıyla qərara gəlmələrini təmin edəcək.

## Xristianların, hz. İsa (ə.s)-ın qanıyla bütün günahlarından təmizləndikləri inancı böyük yanılmadır

Hz. İsa (ə.s)-ın bütün xristianların günahlarının kəffarəsi üçün öldüyü və əslində bütün günahların kəffarəsinin ölüm olduğu inancı, tamamilə çox yanlış inancdır. Xristian qardaşlarımız bu inancdakı yanlışlığı görə bilmələri üçün, Allahın ədalətini, yaratma məqsədini, ağıllı şəkildə və vicdanlarına müraciət edərək təkrar düşünməli və aşağıdakı xüsusları nəzərə almalıdırlar:

## İnsanın dünyaya günahkar gəldiyi iddiası, Allahın sonsuz ədalətinə zidddir

Hər insan bu dünyaya imtahan olunmaq üçün gəlir və özünə verilən məhdud müddətdə, ağlının kəsdiyi hər saniyədə Allaha qul olmaq və yalnız Allah rizası üçün yaşamaqla məsuldur. Allah bir Quran ayəsində belə bildirir:

**Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Üstün və Güclüdür, çox Bağışlayandır. (Mülk surəsi, 2)**

Dolayısılə Allahın yoxdan yaratdığı insan, bu dünyaya gəldiyi andan etibarən, imtahana çəkilir və bu dünyada etdiklərindən ötrü sorğu-sual olunacaq. İnsanın, günahı və savabı bu dünyadakı səmimiyyətlə etdiyi əməllərinə görədir. Hələ imtahanı başlamamış, özünü belə dərk etməyən, dünyaya gözlərini yeni açan heç nədən xəbərsiz bir körpənin, Allahın qanununa görə günahkar olması qeyri-mümkündür.

## Bir insanın başqasının günahlarını yüklənməsi və bundan ötrü əzab çəkməsi, Allahın sonsuz ədalətinə zidddir

Allahın yaratdığı imtahan sistemində, hər hansı bir insanın başqasının günahlarının kəffarəsini ödəməsi qeyri-mümkündür, bu insan hz. İsa (ə.s) olsa belə. Əvvəla dünyada mövcud olan və ya mövcud olmuş hər insan, **təkcə özündən məsuldur**. Onun günah yükünü, nə hər hansı bir insan; nə ata-anası, nə yaxınları, **nə də onun üçün hz. İsa (ə.s) boynuna götürəcək**. Heç kəs, başqasının etdiklərindən **məsul tutulmayacaq**. Heç kəs başqası üçün **kəffarə ödəyə bilməyəcək.** Ölüm vaxtı gəlib çatdıqda, xristianlar da daxil olmaqla, hər insan, Allahın hüzurunda **TƏK-TƏNHA** (bu dünyada etdikləri əməlləriylə) hesab verəcək. Allah Quranda bu həqiqəti bizə belə bildirmişdir:

**Göylərdə və yerdə olanların hamısı Mərhəmətli Allahın hüzuruna ancaq bir qul kimi gələcək. Allah onları hesablamış və bir-bir saymışdır. Onların hər biri Qiyamət günü <u>Onun hüzuruna tək-tənha gələcək</u>. (Məryəm surəsi, 93-95)**

Uca Allah yenə Quranda, heç kəsin başqasının günah yükünü boynuna götürə bilməyəcəyini bildirmişdir:

**De: "Allah hər şeyin Rəbbi olduğu halda, mən Ondan başqa Rəbb mi axtarım?" Hər kəsin qazandığı günah yalnız öz əleyhinədir. <u>Heç bir günahkar başqasının günahını daşımaz</u>. Sonra isə dönüşünüz Rəbbinizə olacaq və O, ixtilafa düşdüyünüz məsələlər barədə sizə xəbər verəcəkdir. (Ənam surəsi, 164)**

**<u>Heç bir günahkar başqasının günah yükünü daşımaz. Şübhəsiz ki, insana öz əməyindən başqası yoxdur</u>. Şübhəsiz ki, öz əməyi (və səyinin) qarşılığı veriləcək. Sonra ona tam qarşılığı veriləcək. (Nəcm surəsi, 38-41)**

Hz. İsa (ə.s), Allahın sevdiyi qulu və peyğəmbəridir. Hər cəmiyyətdə və hər dində olduğu kimi xristianlar arasında da səmimi olanlar da var, pis xasiyyətli insanlar da. Dolayısilə Uca Rəbbimizin çox sevdiyi mübarək qulunun canını, özündən sonra yaşayacaq insanların bir hissəsinin məsuliyyətsiz davranışları, günahları və azğınlıqlarından ötrü aldığını müdafiə etmək böyük vicdansızlıqdır; Allahı tanımamaq, anlamamaqdır.

## Hz. İsa (ə.s) ölməmişdir

Hz. İsa (ə.s)-ın öldüyü iddiasını tamamilə ortadan qaldıran digər bir mühüm həqiqətsə, yuxarıda ətraflı şəkildə bəhs etdiyimiz kimi, hz. İsa (ə.s)-ın ölmədiyi həqiqətidir. Hz. İsa (ə.s) Allahın qatına yüksəldilmişdir. **Bədəni və ruhu ilə diridir və yuxu halında göyə alınıb qorunmuşdur.** Təkcə bu həqiqət belə; "hz. İsa (ə.s)-ın günahların kəffarəsi üçün öldüyü" iddiasını tamamilə ortadan qaldırır.

Öz aləmlərində, hz. İsa (ə.s)-ın ölümünün günahlarına kəffarə olduğunu zənn edərək günahlardan lazımınca çəkinməyənlər, Allahın haram buyurduqları məsələsində rahat davrananlar və ya itaət etdikləri dinin məsuliyyətlərinə tabe olmağın o qədər də əhəmiyyətli olmadığını zənn edənlər xeyli yanılarlar. Bütün insanlar kimi, onların da hər əməli yazılır. Etdikləri hər şey, axirətdə mütləq qarşılarına çıxacaq.

## Günahlar ölümlə deyil, tövbə və peşmanlıqla təmizlənər

Yer üzündəki insanları var edən, onlar üçün müəyyən tale və imtahan mühiti yaradan Uca Allahdır. Əlbəttə ki, Allah qullarını ən yaxşı tanıyandır. Dünyadakı imtahanın tələbi olaraq, onlar üçün imtahan olunacaqları vəsilələr və hadisələr də yaratmışdır.

İnsan isə, yaradılışı etibarilə aciz və cahildir. Asanlıqla xəta və səhvlik edə bilər, doğrunu bildiyi halda unuda bilər, Allahdan çox qorxduğu halda istəmədən xəta edə bilər. Çünki insan dünyada imtahan olunur. Səhvlərindən dərs çıxarır, acizliyini görür, günahlarından ötrü tövbə edir. Nəhayət bütün bunlar vicdanlı bir insan üçün Allaha daha çox yönəlməyə vəsilə olur.

Bu Rəbbimizin dünyada yaratdığı imtahan mühitinin tələbidir. Uca Allah dünyada belə bir sistemi yaradarkən, qullarına "bağışlayan və rəhmli" olduğunu bildirmiş və onlar üçün tövbə qapılarını açmışdır. Allah, mərhəmətlilərin ən mərhəmətlisidir. İnsan, bilərək və ya bilməyərək bir səhvlik etdikdə, böyük və ya kiçik bir günaha işlədikdə peşman olub Allaha tövbə etmə, bağışlanma istəmə imtiyazına malikdir.

Hər cür günahın qarşılığının ölüm olduğunu iddia etmək Allahın çox mərhəmətli, çox rəhmli və tövbələri qəbul edən xüsusiyyətini anlamamaq, qiymətləndirə bilməməkdir. Bu iddia, insanın dünyada yaşamaq və mövcud olmaq məqsədinə tamamilə tərs gəlir. Həmçinin belə bir iddia, Allahın ədalətinə və imtahanın tələbinə zidddir. Əgər bütün insanların işlədiyi günahların qarşılığı ölüm olsaydı və əgər uca Allah lütfündən bəxş edib insanları bağışlayaraq rəhm etməsəydi, bütün dünyanın fəsada uğrayacağını, Allah bir Quran ayəsində belə bildirmişdir:

**Əgər Allah insanları hər etdikləri zülmə görə cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ qoymazdı. Lakin Allah onlara müəyyən vaxta qədər möhlət verir. Onların əcəlinin çatdığı an bircə saat belə nə yubanar, nə də tezləşə bilər. (Nəhl surəsi, 61)**

Yenə Quranda Allahın böyük lütf sahibi, mərhəmətli və tövbələri qəbul edən olmasından ötrü insanlara nemət bəxş edildiyi bildirilir:

**Əgər Allahın sizə lütfü və mərhəməti olmasaydı, Allah tövbələri qəbul edən, hökm və hikmət sahibi olmasaydı (nə edərdiniz)? (Nur surəsi, 10)**

**Əgər Allahın sizin üzərinizdə lütfü və mərhəməti olmasaydı və Allah həqiqətən Rauf (şəfqət edən) və Rəhim olmasaydı (nə edərdiniz)? (Nur surəsi, 20)**

Allahın tövbələri qəbul edən və bağışlayan olması İncildə də bildirilmişdir. Haqqında bəhs edilən xristian qardaşlarımızın İncildə işlənən bu doğru və haqq hökmlərə diqqət yetirmələri olduqca əhəmiyyətlidir:

*...[Allahın] lütfünün zənginliyi sayəsində...* ***qurtuluşa və günahlarımızın bağışlanmasına nail olduq.*** *(Pavlus'tan Efeslilere Mektup, 1:7-8)*

*Bunları dinlədikdən sonra sakitləşdilər. Allahı ucaldaraq belə dedilər: "Deməli,* ***Allah digər millətlərə də, tövbə etmək və həyata qovuşmaq fürsətini vermişdir".*** *(Elçilerin İşleri, 11:18)*

*Onun [Allahın] bizi qaranlığın hökmranlığından qurtar[ması sayəsində]... qurtuluşa və* ***günahlarımızın bağışlanmasına nail olmuşuq.*** *(Pavlus'tan Koloselilere Mektup, 1:13-14)*

*Lakin günahlarımızı etiraf etsək, etibarlı və ədalətli olan* ***Allah günahlarımızı bağışlayıb bizi hər pislikdən təmizləyəcək.*** *(Yuhanna'nın 1. Mektubu, 1:9)*

*İmanla edilən dua xəstəni sağaldacaq və Rəbb onu ayağa qaldıracaq. Əgər xəstə*

*günah işləmişdirsə, **günahları bağışlanacaq.** (Yakup'un Mektubu, 5:15)*

***"Bizə qarşı günah işləyənləri bağışladığımız kimi, Sən də bizim günahlarımızı bağışla.** Doğru yoldan azmağımıza icazə vermə. Bizi pis olandan xilas et. Çünki hakmiyyət, güc və ucalıq əbədiyyən qədər Sənindir! Amin". **Başqalarının günahlarını bağışlasanız, Allah da sizin günahlarınızı bağışlayar.** Lakin siz başqalarının günahlarını bağışlamasanız, Allah da sizin günahlarınızı bağışlamaz. (Matta, 6:12-15)*

*İsa onlara: "Dua edərkən belə söyləyin; Allah, Adın müqəddəs olsun... **Günahlarımızı bağışla.** Çünki biz də bizə qarşı günah işləyən hər kəsi bağışlayırıq. Doğru yoldan azmağımıza icazə vermə" dedi. (Luka, 11:2-4)*

*Başqasını mühakimə etməyin, siz də mühakimə olunmazsınız. Günahkar çıxartmayın, siz də günahkar çıxarılmazsınız. **Başqasını bağışlayın, siz də bağışlanarsınız.** Verin, sizə veriləcək. Yaxşıca basdırılmış, silkələnilmiş və daşmış, dolu ölçü ilə qucağınıza boşaldılacaq. Hansı ölçü ilə versəniz, eyni ölçü ilə alacaqsınız. (Luka, 6:37-38).*

*Elə isə, **günahlarınızın silinməsi üçün tövbə edin və Allaha qayıdın. Belə ki, Rəbb sizə yenilənmə fürsəti versin...** (Elçilerin İşleri, 3:19-20)*

***Bu pisliyindən ötrü tövbə et və Rəbbə yalvar, bəlkə qəlbindəki bu düşüncə bağışlanar.** (Elçilerin İşleri, 8:22)*

Allah bizə bağışlanma istəmə lütfünü verdiyi, bizə tövbə qapılarını açdığı, bağışlayan, sevən və tövbələri qəbul edən olduğunu bildirdiyi halda, hər cür günaha ölümlə cavab veriləcəyini müdafiə etməyin və bunun Allahın hökmü olduğunu iddia etməyin məsuliyyəti böyük ola bilər. Həmçinin bu, İncildə bildirilən Allahın bağışlayan və tövbələri qəbul edən sifətiylə də tamamilə ziddiyyət təşkil edir. Səmimi xristianların, bu inancın xristianlığa nə məqsədlə daxil edildiyini çox yaxşı düşünmələri və vicdanlarıyla qərar vermələri əhəmiyyətlidir.

## Xristianlığın sevgi dini olduğunu söyləyərkən günahın ölümlə təmizləndiyini müdafiə etmək böyük ziddiyyətdir

Bütün xristianlar, xristianlığın sevgi dini olduğunu söyləyər və sevgi üçün hərəkət edərlər. Əlbəttə ki, xristianlıq, Allahın göndərdiyi haqq din olduğu üçün, bu doğrudur və bu, digər bütün haqq dinlər üçün də qüvvədədir. Uca Allah qullarından sevgi istəyər və əsil sevgi ancaq Allahı həqiqətən sevməklə (Rəbbimizin bütün əmr və qadağalarını diqqətlə qorumaqla) mümkün olar.

Lakin bu həqiqət, bəzi xristianların, günahın kəffarəsinin ölüm olduğuna dair yanlış inanclarıyla tamamilə ziddiyyət təşkil edir. Allah qullarını sevəndir və Allah qullarını

bağışlamaq istəyər. Quranda Allah belə bildirir:

**<u>O, çox bağışlayandır, çox sevəndir</u>. (Büruc surəsi, 14)**

**<u>Allah sizin tövbələrinizi qəbul etmək istəyər</u>, ehtiraslara qapılanlar isə, sizin çox azmağınızı istəyərlər. (Nisa surəsi, 27)**

İncildə də uca Rəbbimizin sevən və rəhmli olduğu həqiqəti bildirilmişdir:

***...Rəbbin çox rəhmli və şəfqətli olduğunu** bildiniz. (Yakup'un Mektubu, 5:11)*

*Lakin **mərhəməti bol olan Allah bizi çox sevdiyi üçün...** həyata qovuşdurdu. **Onun lütfü sayəsində xilas oldunuz.** (Pavlus'tan Efeslilere Mektup, 2:4-5)*

***Allahın,** Özünü sevənlər və məqsədinə görə çağrılanlar üçün, **hər şeyin yaxşılıqla birlikdə işləməsini təmin etdiyini** bilirik. (Pavlus'tan Romalılara Mektup, 8:28)*

*Lakin **xilaskarımız Allah yaxşılığını və insana olan sevgisini açıqca göstərərək bizi xilas etdi.** Bunu doğruluqla etdiyimiz işlərdən ötrü deyil, **Öz mərhəmətiylə... etdi.** (Pavlus'tan Titus'a Mektup, 3:4-6)*

*Əziz qardaşlarım, **Allah bizi bu qədər çox sevdiyinə görə** biz də bir-birimizi sevməyə borcluyuq. (Yuhanna'nın 1. Mektubu, 4:11)*

Qullarını sevən, qoruyub himayə edən, onlara şəfqət bəsləyən və onlara rəhm edib bağışlayan uca Allahın bu üstün xüsusiyyətlərinin çox yaxşı başa düşülməsi xristian qardaşlarımız üçün çox əhəmiyyətlidir. Çünki ancaq Allahın xüsusiyyətlərini lazımınca anlaya bilən insanlar, bu böyük yanılmanın nə qədər təhlükəli olduğunu görə bilərlər.

## Xristianlar da, yaşadıqları hər andan, etdikləri hər əməldən məsuldurlar və Allahın hüzurunda haqq-hesaba çəkiləcəklər

Dünyada yaşamış, yaşayan və yaşayacaq bütün insanlar kimi, xristianlar da etdikləri əməllərdən ötrü sorğu-sual olunacaqlar. **Heç birinin günahlarının kəffarəsi ödənməmişdir.** Hər bir xristian, eynilə digər bütün insanlar kimi, etdiklərindən təkcə özü məsuldur və işlədiyi hər günahı və hər savabı mütləq axirət günündə qarşısına çıxacaq. Heç kəs Allahın hüzurunda: "Mənim günahlarımın əvəzi ödənmişdi, hz. İsa (ə.s)-ın qanıyla təmizlənmişdi" deyə bilməyəcək. Heç kəs Allah qatında günahsız olduğunu iddia edə bilməyəcək, təkcə "iman gətirdim" deyərək xilas olmayacaq. Axirət günü hər bir insanın qarşısına əməllərinin

yazıldığı kitab qoyulacaq və etdikləri əməllər tamamilə qarşısına çıxacaq.

**Bəzi xristianlar istədikləri qədər günahlarının kəffarəsinin ödənildiyini düşünsələr və Allah qarşısındakı məsuliyyətlərindən qaçmağa çalışsalar da, haqq-hesab günündən qaça bilməyəcəklər.** Bu dünyada israrla müdafiə etdikləri yanlış inanc Allah qatında əsassızdır. Məhz bundan ötrü də, səmimi xristian qardaşlarımızın bu mövzuda xəbərdar edilmələri və həqiqətləri görmələri çox ciddi əhəmiyyət daşıyır. Bu, onların axirətdəki mövqeləri və əbədi qurtuluşları üçün olduqca əhəmiyyətlidir.

## Quranda hz. İsa (ə.s)-ı xüsusi edən əlamətlər

Hz. İsa (ə.s)-la əlaqədar Quranda bildirilən məlumatların və ya açıqlamaların bənzəri, digər peyğəmbərlər üçün **bildirilmədiyi** unudulmamalıdır.

-Heç bir peyğəmbərin vəfatı üçün **teveffa** sözü (canın təslim alınması) işlədilməmişdir.

-Heç bir peyğəmbər üçün: **"...Kitabı, hikməti, Tövratı və İncili öyrətdim..."** (Maidə surəsi, 110) ifadəsi ilə **özünə üç İlahi kitabın da öyrədildiyi** bildirilməmişdir.

-Heç bir peyğəmbər barədə: **"O qiyamət üçün bir elm (əlamət)dir"** (Zuxruf surəsi, 61) deyə buyurulmamışdır.

-Heç bir peyğəmbər barədə, hz. İsa (ə.s)-ın göyə yüksəldilməsi mənasında bir yüksəldilmədən xəbər verilməmişdir.

-Heç bir peyğəmbər barədə, **özünə iman gətirənlərin qiyamətə qədər üstün gələcəkləri** (Ali İmran surəsi, 55) deyilməmişdir.

-Heç bir peyğəmbər barədə, **ölmədən əvvəl özünə iman gətirməyəcək heç kəsin qalmayacağı** (Nisa surəsi, 159) bildirilməmişdir.

Bütün bunlar, Allahın **hz. İsa (ə.s) üçün xüsusi bir tale yaratdığı** və bu taleyə uyğun olaraq hz. İsa (ə.s)-ın **Allah qatında diri olduğunu və yenidən dünyaya gələcəyini** göstərən əhəmiyyətli dəlillərdir.

**Hz. İsa (ə.s) ölməmişdir. Hazırda Allah qatındadır.** Yaşadığımız Axırzamanda bu mübarək Peyğəmbərimizin yer üzünə göndəriləcəyi bildirilmişdir və **GÖNDƏRİLMİŞDİR. Hazırda dünyada yaşayır və zühur edəcəyi vaxtı gözləyir.** İman sahibi olan hər kəsin hz. İsa (ə.s)-ı bağrına basacağı, sevgi ilə qucaqlayacağı dövr çox yaxındır. Xristian qardaşlarımıza istiqamətli bütün yol göstərici açıqlamalar bu dövr üçün gözəl hazırlıq olması məqsədiylə verilir. Bu kitabı oxuyan xristian qardaşlarımız bu mühüm həqiqəti unutmamalıdırlar.

# IV Fəsil
# Xristianların Allah qorxusu və Allah sevgisi mövzusundakı yanılmaları

## Əsil imanda Allah sevgisi, Allah qorxusu ilə birlikdə yaşanılar

Bütün haqq dinlərin təməli sevgidir. Zamanla Allah adından istifadə edərək, dini öz əməllərinə alət etməyə çalışan bəzi insanlar, bəzən din adı altında terroru, müharibəni, qırğınları və sevgisizliyi ortaya atıblar. Bu insanlar, hansı dini müdafiə etdiklərini iddia etsələr də, mütləq cahil və ya saxtakardırlar. Çünki Allah qullarından zülm və fitnə deyil, sevgi, dostluq və sülhü istəyər.

Burada bu mühüm məlumatı verməyimizin məqsədi, bəzi xristianların öz dinlərini sevgi dini kimi tanıdıb, yəhudilik və xüsusilə də müsəlmanlığı qorxu dini kimi görmələridir. Halbuki bu ciddi yanılmadır. Başda İslam olmaqla, bütün haqq dinlər sevgi və dostluğu nəsihət edərək, insanları sülhə və qardaşlığa dəvət edir. Çünki Allah bizdən bunu istəyir. Bundan başqa bir anlayış irəli sürənlər, haqq din adından yalan danışırlar. Dinin əsası, təməli sevgidir (İslamın sevgi dini olması ilə əlaqədar açıqlamalarımızı kitabın irəliləyən səhifələrində görə bilərsiniz).

Əlbəttə ki, xristian qardaşlarımız sevginin müqəddəsliyinə inanmaqda haqlıdırlar. Lakin bəziləri, sevgi məhfumunu olduqca yanlış şərh edirlər. Bu insanların, sevgidə qorxuya yer olmadığı fikrinə əsaslanaraq, Allah qorxusunu həyatlarından çıxartmaları çox böyük təhlükədir.

## Allah qorxusunun həqiqi mənası

Bu mövzudakı yanlış fikirlərin necə bir təhlükəyə səbəb ola biləcəyindən bəhs etmədən əvvəl, Allah qorxusunun həqiqi mənasının bilinməsi çox əhəmiyyətlidir. İnsanların çoxu Allah qorxusu anlayışını yanlış anlayır, qorxunun zorakı iman gətirəcəyini və bunun da etibarlı olmayacağını iddia edirlər. Halbuki bu, Allah qorxusu demək deyil.

Allah qorxusu; Allaha hörmətdən qaynaqlanan qorxuyla boyun əyməkdir; Allaha olan dərin sevgidən ötrü Allahın razı qalmayacağı bir rəftar və düşüncəyə sahib olmaqdan çəkinməkdir. Allahın sevgisini itirməkdən qorxmaqdır. **Allahın dostluğunu itirmək, imanlı bir insan üçün cəhənnəm əzabından daha böyük əzabdır.**

Allah sevgisi və qorxusu ayrılmaz tərkib hissələridir. Allahı çox sevən bir insan, Allahı incidəcək bir rəftar göstərməkdən qorxduqda Allah sevgisi və qorxusu birləşər. Məhz sevən bir insanın yaşadığı Allah qorxusu budur. Allahı həqiqi mənada sevən bir insan, şərtlər nə olsa da, hansı çətinliklərlə qarşılaşsa da, nə cür imtahan olunsa da, Allaha yenə də ehtiras, məhəbbət və sevgi ilə bağlı olar. Allaha olan sevgisini heç bir şərt, heç bir hadisə və heç bir çətinlik azalda bilməz və sevgisinə mane ola bilməz. Allahın sevgisini itirmə qorxusu, daim Allah eşqi ilə yaşayan bu insanı həmişə motivasiya edər. Ona sevinc bəxş edər. Belə bir insanın ibadətlərinə laqeyd yanaşması, Allaha qulluq etməkdə bilə-bilə səhvliyə yol verməsi, çəkinmədən harama girməsi qeyri-mümkündür. Belə səmimi imana sahib bir insan, Allahı razı sala bilmək üçün həyatı boyu əlindən gələni edəcək.

## Allahın qəzəbinin inkarçılar üçün vacibliyi

Allahın "qəzəblənən" və "intiqam alan" sifətləri də, bəzi insanlar tərəfindən yanlış başa düşülür və ya bilərəkdən təhrif edilir. Allah təkcə, alçaq insanlara, münafiqlərə, Öz adından saxtakarlıq edənlərə və hirsli inkarçılara qəzəblənər. İman gətirənlər üçünsə, axirətdə tam güvən və rahatlıq var. Allah xristianlar da daxil olmaqla, həqiqi mənada iman gətirənlər üçün axirətdə heç bir qorxu olmayacağını bir Quran ayəsində bildirmişdir:

**İman gətirənlərin, habelə yəhudi, sabii və xristianlardan Allaha və Axirət gününə iman gətirib yaxşı iş görənlərin <u>heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər</u>. (Maidə surəsi, 69)**

Bir insan; Allaha qul olduğu və Onu razı salmağa çalışdığı müddətcə, qəzəbindən uzaq olar. Allah, yalnız zalımlardan intiqam alar. Bu Allahın qanunudur. İnsan, ancaq zülm etdikdə Allahın əzabının dərin qorxusu ilə yaşayar. Lakin yaxşılıq etdikdə, Allahı razı salmağa çalışdıqda Allaha güvənər və vicdanı rahat olar.

Allahın intiqam alan xüsusiyyəti, iman gətirənlər üçün çox böyük nemətdir. Məsələn, kiçik bir uşağa zülm edən və ardınca da onu öldürən bir insanın etdiyi əməlin axirətdə qarşılığını aldığını, ədalətin təcəlli etdiyini görmək bir nemətdir. Zülm edən insanın axirətdə bu qarşılığı aldığını izləmək, zülm görən uşaq üçün də çox böyük nemətdir. Məhz bundan ötrü də, iman gətirənlər üçün cənnət necə bir nemətdirsə, zülm edənlərin cəzalandırıldığı cəhənnəm də iman gətirənlər üçün bir nemətdir. Cənnət və cəhənnəm Allahın sonsuz ədalətinin axirətdə təcəlli etdiyi yerlərdir. Peyğəmbərlərə zülm etməyə çalışanlar da, hz. İsa (ə.s)-a xəyanət edənlər və onu şəhid etməyə çalışanlar da, günahsız uşaqları, insanları,

heyvanları qətlə yetirənlər də Rəbbimizin intiqam alan sifətinin tələbi olaraq, axirətdə ən ədalətli qarşılığı alıblar və alacaqlar. Əlbəttə ki, dünyada hər biri üçün tövbə qapısı sonuna qədər açıqdır. Lakin inadkarlıq edib tövbə etməyənlərin bu qarşılığı alması, bilavasitə bu insanlar tərəfindən zülmə məruz qalanlar və bunu izləyənlər üçün könül rahatlığıdır. Dolayısilə Allahın intiqam alan xüsusiyyəti, həqiqi mənada iman gətirən vicdan sahibi bir insanı sevindirməlidir.

Mərhəmət mövzusu da yaxşı qiymətləndirilməlidir. Bizə mərhəmət duyğusunu öyrədən Allahdır. Allah istəməsəydi, dünyadakı heç kəs belə bir duyğunun varlığını bilməyəcəkdi. Bütün insanlar, mərhəmət duyğusundan tamamilə məhrum yaşayacaqdı. Dolayısilə, Allahın yaratdığı və öyrətdiyi bir şeyi Allaha qarşı dəlil kimi gətirmək, [haşa] Allaha mərhəmət dərsi verməyə cürət etmək (Allahı tənzih edirik) həm olduqca cahil hərəkət, həm də böyük günahdır. Allah sonsuz mərhəmət sahibidir. Uca Allah kimin hansı fitrətdə yaradıldığını, **kimin mərhəmətə və kimin isə, əzaba layiq olduğunu, şübhəsiz ki, ən yaxşı biləndir.** Axirətdə heç kəsə, azacıq da olsa haqsızlıq edilməyəcək. Allah sonsuz ədalət sahibidir və axirətdə hər kəs barəsində haqq ilə hökm veriləcək. İncildə Rəbbimizin sonsuz ədalətini ifadə edən sözlərdən bəziləri belədir:

*Söyüşə söyüşlə cavab vermədi, əzab çəkdikdə heç kəsi təhdid etmədi; davasını, <u>ədalətlə mühakimə edən Tanrıya buraxdı</u>. (1 Petrus 2: 23)*

*<u>Haqsızlıq edən etdiyi haqsızlığın qarşılığını alacaq, heç bir ayrı-seçkilik edilməyəcək</u>. (Pavlus'tan Koloselilere Mektup, 3:25)*

*[Allah] <u>pislik edən hər kəsə</u>... <u>sıxıntı və əzab verəcək; yaxşılıq edən hər kəsə</u>... <u>ucalıq, möhtərəmlik və sağlamlıq verəcək</u>. Çünki Allah insanlar arasında ayrı-seçkilik etməz. (Pavlus'tan Romalılara Mektup, 2:9-11)*

*<u>Allah "hər kəsə, etdiyi əməllərinin qarşılığını verəcək"</u>. Həmişə yaxşılıq edərək ucalıq, möhtərəmlik, ölümsüzlük axtaranlara əbədi həyat bəxş edəcək. Eqoistlərin, haqqa tabe olmayıb haqsızlıq ardınca gedənlərin üzərinə isə, qəzəb yağdıracaq. (Pavlus'tan Romalılara Mektup, 2:6-8)*

*<u>Allah ədalətsiz deyil [Allahı tənzih edirik]</u>. Zəhmətinizi və mübarəklərə xidmət etmiş olaraq və etməyə davam edərək Onun üçün göstərdiyiniz sevgini unutmaz. (İbranilere Mektup, 6:10)*

Allah Quran ayələrində isə belə buyurur:

**Biz qiyamət günü dəqiq tərəzilərlə haqq-hesab çəkəcəyik. <u>Heç kimə hər hansı şeydə haqsızlıq edilməyəcək</u>. Görülmüş iş bir xardal dənəsi mislində olsa belə, onu gətirib tərəziyə qoyacağıq. Biz haqq-hesab çəkməyə bəs edərik. (Ənbiya surəsi, 47)**

**Əgər zalım olan hər kəs yer üzündə olanların hamısına sahib olsaydı, mütləq onu əzabdan qurtarmaq üçün fidyə verərdi. Onlar əzabı gördükdə dərindən peşman olarlar. Onların arasında ədalətlə hökm verilər və onlara haqsızlıq edilməz. (Yunis surəsi, 54)**

## Allah qorxusu Allaha gözəl bir qul olmaq və cənnətə layiq olmaq üçün şərtdir

Yuxarıda saydıqlarımız, iman gətirən bir insanı motivasiya edən çox böyük həqiqətlərdir. Allahı həqiqi mənada sevən və bundan ötrü Allaha qarşı yanlış hərkət etməkdən şiddətlə qorxan bir insanın hadisələrə olan dünyagörüşü tam fərqli olar.

Belə bir insan harama girə bilməz, ibadətlərini görməzlikdən gələ bilməz və vicdanının səsinə laqeyd yanaşa bilməz. Bir sözlə, Allah üçün etməli olduğu hər şeydə görünməmiş dərəcədə həssas olar.

Belə bir insan vicdanlı olar, eqoist olmaz, həyatının sonuna qədər fədakar və şəfqətli olar.

Belə bir insan əsla başqalarına zərər verməz, Allaha hesab verə bilməyəcəyi bir şeyi etməkdən çox qorxar.

Belə bir insan, yaşadığı hər andan ötrü Allaha hesab verəcəyini, Allahın hər an özünü görüb izlədiyini bilərək yaşayar.

Bu insan həmişə əsil həyatın dünya deyil, axirət olduğunu dərk edər.

Belə bir insan, Allahı lazımınca sevməyinin bəxş etdiyi sevinci və coşğunu yaşayar. Bu coşğusu həyatı boyu qətiyyən yox olmaz. Dolayısilə **Allahdan qorxan bir insan, nemət içində yaşayar.**

İncildə Allah qorxusu bu sözlərlə təsvir edilmiş və xristianlar Allah qorxusuna dəvət edilmişdir:

*...Qürbəti xatırladan bu dünyadakı vaxtınızı Allah qorxusu ilə keçirin. (Petrus'un 1. Mektubu, 1:17)*

*Rəbbdən qorxmağın nə demək olduğunu bildiyimizə görə, insanları məmnun etməyə çalışırıq. Nə olduğumuzu Allah bilir; ümid edirəm ki, siz də vicdanınızda bilirsiniz. (Pavlus'tan Korintlilere 2. Mektup, 5:11)*

*...Sənin qəzəbin üzərlərinə gəldi. Ölüləri mühakimə etmək, qulların olan peyğəmbərləri, mübarəkləri, kiçik və ya böyük olmağından asılı olmayaraq, Sənin adından*

*qorxanları mükafatlandırmaq və yer üzünü məhv edənləri məhv etmək vaxtı da gəldi. (Vahiy, 11:18)*

*Belə ki, Allahı razı salacaq şəkildə hörmət və qorxuyla ibadət edək. (İbranilere Mektup, 12:28)*

Əgər bir insan, Allaha yaxşı bir qul ola bilməməkdən qorxmursa, Allahı sevdiyini söyləyir, lakin Allah üçün çox az şey edirsə və sonsuz axirət həyatında qurtulması üçün, təkcə Allaha olan sevginin kafi olduğunu söyləyirsə, deməli, bu insan ciddi şəkildə yanılır. Belə bir düşüncə Allahın istədiyi səmimiyyətə uyğun deyil. Allah qorxusu insanı ibadətləri yerinə yetirməyə, Allah üçün daha yaxşı bir qul olmağa təşviq edən ən əsas amildir. Dolayısilə Allah qorxusunu lazımsız hesab edib (Allahı tənzih edirik) sadəcə Allah sevgisinə sahib olmağın kafi olacağını düşünən bir insan, qorxu və ümid içindəki bir ruh halına sahib olmayacaq. Bu da Allah rizasını qazanmaq və Onu məmnun etmək üçün, daimi səy göstərməsinə mane olacaq və onu həmişə tənbəlliyə sürükləyəcək.

Məhz hazırki dövrdə, Allah qorxusunu rədd edərək Allahı sevməyin kafi olduğunu müdafiə edən bəzi xristianların düşdüyü vəziyyət də budur. Dolayısilə bu insanlar, Allahdan qorxmağın nə demək olduğunu, burada bəhs edilən halıyla yenidən daha dərin düşünməli və İncildəki "Allahdan qorxun" dəvətini qəbul etməlidirlər.

# V Fəsil

# Hz. İsa (ə.s)-ın ilah olduğuna inananların cənnətə gedəcəkləri yanılması

## Əsil iman sahibləri çətinliklərlə imtahan olunarlar

Hazırda dünyada təslis inancını müdafiə edən bir çox xristian, heç bir istisna etmədən, mütləq cənnətə gedəcəkləri fikrinə inanırlar. Bu yanlış inanca görə, cənnətə layiq olmaq üçün (haşa) hz. İsa (ə.s)-ın ilah olduğuna inanmaq kifayətdir. Əlbəttə ki, bu yanlış düşüncə həqiqi İsəvilikdə mövcud olmayan, kilsənin sonradan müəyyənləşdirdiyi inanclardan biridir. Lakin kilsənin sanksiyaları və təzyiqindən ötrü xristianlar bu yanlış inanca mütləq inanmalı olduqlarını düşünürlər. Xristianlar bu yolla, hz. İsa (ə.s)-ın bütün günahların kəffarəsi üçün çarmıxa çəkildiyinə, papalar və rahiblərin günahları bağışlaya bildiklərinə inanarlar. Bütün bunların özlərini xilas etdiyi və mütləq cənnətə gedəcəkləri yanılmasına qapılarlar. Həmin bu xristianlara görə axirətdə hər hansı cəza veriləcəksə, bu cəza təkcə hz. İsa (ə.s)-ı ilah kimi qəbul etməyənlərə veriləcək (Allahı tənzih edirik).

Aşağıdakı sözlərimiz, bu böyük yanlışlığa qapılmış xristianlara aiddir. Bu inanca sahib xristian qardaşlarımıza bu sualları yönəldirik:

-O zaman imtahan niyə var? Niyə insanlar imtahan olunur?

-Niyə çətinliklər, fəlakətlər, ateizm, kommunizm, sevgisizlik, qırğınlar, müharibələr, zəlzələlər, qasırğalar və ölümlər yaradılır?

-Niyə haramlar və halallar var?

-Yaxşılıq və pislik nəyə görədir?

-Dünyanın məqsədi, yemək yeyib oturmaq və "hz. İsa (ə.s) ilahdır" deyib ölümü gözləməkdirmi?

-Allah rizası üçün səy göstərmək, çətinlik çəkmək, nəfsi üstələmək, çətinliklər, xəstəliklər və fəlakətlər qarşısında səbir göstərmək bu inancın harasındadır?

-Madam ki, cənnətə getmək bu qədər asandır, o zaman vəfa, fədakarlıq, haqqından vaz keçmə, incə düşüncə, dostluq, himayədarlıq kimi gözəl xüsusiyyətləri tətbiq etməyə nə ehtiyac var?

-Ateizm, dinsizlik, kommunizm kimi olduqca təhlükəli cərəyanlarla mübarizə aparmaq bu inancın harasındadır?

-Belə bir inancda ibadətlər vardırmı?

-Belə bir inancda Allah rizasını qazanmaq üçün səy göstərmək vardırmı?

Əlbəttə ki, Allah belə bir din yaratmaz.

Yer üzündəki yaradılışın bir səbəbi və Allahın bir qanunu var. Uca Allah bu səbəbi bir Quran ayəsində belə bildirmişdir:

**Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Üstün və Güclüdür, çox Bağışlayandır. (Mülk surəsi, 2)**

İncildə də xristianların həmişə ümid içində, səy göstərməli olduqları bildirilir:

*Ümidinizdən doğan tam zəmanətə qovuşmanız üçün, **hər birinizin sona qədər eyni səyi göstərməsini arzu edirik**. Tənbəl olmamağınızı, vəd edilənləri iman və səbirlə miras alanların nümunəsinə uyğun gəlməyinizi istəyirik. (İbranilere Mektup, 6:11-12)*

*Elə isə əziz qardaşlarım... **qurtuluşunuzu nəticəyə aparmaq üçün daha çox səy göstərin.** (Pavlus'tan Filipililere Mektup, 2:12)*

*Məhz bundan ötrü də, **hər cür səyi göstərərək imanınıza** fəziləti, fəzilətinizə biliyi, biliyinizə təmkininizi, təmkininizə səbat gücünü, səbat gücünüzə Allah yoluna bağlılığı, bu bağlılığınıza qardaş sevgisini, qardaş sevginizə isə sevgini qatın. (Petrus'un 2. Mektubu 1:5-7)*

*"Allahın hökmranlığına [cənnətə], **bir çox çətinlikdən keçərək girməliyik**" deyirdilər. (Elçilerin İşleri, 14:22)*

Yaradılış məqsədimiz imtahan verməkdir. Bu imtahan, Allah üçün yaşayan insanlarla, imansızları bir-birindən ayırd edəcək. Ayədə bildirildiyi kimi əməl baxımından hər insan imtahana çəkiləcək və bu imtahandan uğurla keçən cənnəti qazanacaq.

İncildə də dünyadakı çətinliklərin hikməti belə bildirilib:

*Baxın bu əzablar, **Allahın istəyi ilə çəkdiyiniz bu əzablar [Allahın imtahanı olaraq qarşılaşdığınız çətinliklər] sizdə necə də böyük ciddilik, təmizlənmək üçün necə də böyük istək yaratdı!...** (Pavlus'tan Korintlilere 2. Mektup, 7:11)*

Dünyadakı imtahan çətinliklərlə doludur. Məhz bundan ötrü də, peyğəmbərlər həmişə çətinlik çəkiblər. Bunun üçün də, **ölümlə təhdid edilib, yurdlarından sürgün edilib və haqsız yerə həbs olunublar.** Allah rizası üçün təbliğ edən, Allahın varlığından danışan, hazırda dünyanı əhatə etmiş bütün dinsiz cərəyanlara qarşı cəbhə alan hər insan bənzər çətinliklərlə üzləşər. Allaha iman gətirən, Onun gücündən və böyüklüyündən bəhs edən hər kəs bu imtahanın çətinliklərini yaşayar. Beləliklə də, Allaha qarşı səmimiyyətini göstərmiş olar.

**Çətinliklərə baxmayaraq, Allahı sevmək və ibadətləri yerinə yetirməkdə qətiyyətli olmaq bir insanı əsil dindar edər.** Allaha qarşı səmimiyyət və sevgi, bu çətinliklər qarşısında göstərilən səbatlıq və qətiyyətlə sübut edilər. Dolayısilə iman üçün ölçü, Allah üçün çətinliklərə sinə gərmək, mühit və şərtlər nə olursa olsun, ibadətdən güzəşt getməmək və **dünya üçün deyil, Allah üçün yaşamaqdır**.

Allah üçün yaşayan bir insan bu dünyada rahatlıq tapmaq ardınca qaçmaz. Tam əksinə çətinliklərlə üzləşəcəyini bilər. Çətinliklər və sınaqlarla imtahan olunacağını da bilər. Allaha qarşı səmimiyyətini belə göstərəcəyinə inanmışdır. Bu, Allahın Quranda açıqca bildirdiyi bir həqiqətdir:

**Yoxsa siz elə güman etdiniz ki, sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlmədən Cənnətə daxil olacaqsınız? Onlara <u>elə yoxsulluq və dözülməz çətinlik üz vermiş, elə sarsılmışdılar ki</u>, sonunda elçi, yanındakı möminlərlə: "Allahın köməyi nə vaxt gələcək?" dedi. Həqiqətən, Allahın köməyi yaxındır. (Bəqərə surəsi, 214)**

Hz. İsa (ə.s), bir peyğəmbər və təbliğçi olmasından ötrü, Allaha iman gətirməyə dəvət etdiyi üçün çətinliklərlə üzləşib. Bu həqiqət də bizə, İncildəki bir çox ayə ilə bildirilir:

*Həmin an Ruh, İsanı səhraya göndərdi. İsa səhrada qaldığı qırx gün müddətində <u>şeytan tərəfindən sınandı</u>. Vəhşi heyvanlar arasında idi, mələklərsə ona xidmət edirdi. (Markos, 1: 12-13)*

*Necə ki, o çıxıb getdi, hadisə ilə əlaqədar xəbəri hər tərəfə yaymağa başladı. Belə ki, <u>İsa artıq heç bir şəhərə açıqca girə bilməz oldu. Təkcə çöldə, tənha yerlərdə qalırdı</u>. Eləcə də, xalq hər yerdən onun yanına axışıb gəlirdi. (Markos, 1: 45)*

*İsa bundan sonra evə getdi. Yenə elə böyük insan kütləsi toplandı ki, İsayla tələbələri yemək belə yeyə bilmədilər. Yaxınları bunu eşitdikdə, "<u>ağlını itirib</u>" deyərək onu aparmağa gəldilər. <u>Yerusəlimdən gələn din alimləri isə, "baalzevul onun içinə girmiş" və "cinləri, cinlərin öndərinin gücüylə qovur</u>" deyirdilər. (Markos, 3: 20-22)*

*Bu Məryəmin oğlu, Yaqub, Yose, Yəhuda və Simonun qardaşı olan dülgər deyildirmi? Bacıları burada, aramızda yaşamırmı? Həmçinin onu rədd etdilər. İsa da onlara: "<u>Bir peyğəmbər, öz məmləkətindən, qohum ətrafından və öz evindən başqa yerdə xor görülməz</u>" dedi. (Markos, 6: 3-4)*

*"<u>Bəşər oğlu, baş kahinlərin və din alimlərinin əlinə təslim ediləcək</u>. Onlar da onu ölüm cəzasına məhkum edəcək və digər millətlərə təslim edəcəklər. <u>Onunla lağ edəcək</u>... (Markos, 10: 33-34)*

*Pasxa və mayasız çörək bayramına iki gün qalmışdı. <u>Baş kahinlərlə din alimləri İsanı</u>*

*hiylə qurmaqla tutub öldürməyin bir yolunu axtarırdılar. Belə ki, onlar: "Bayramda olmasın, yoxsa xalq arasında qarışıqlıq çıxar" deyirdilər. (Markos, 14: 1-2)*

*Baş kahinlər və ali təşkilatın digər üzvləri, İsanı ölüm cəzasına məhkum etmək məqsədiylə, əleyhində çıxış edəcək şahid axtarır, lakin tapa bilmirdilər. Bir çox insan onun əleyhində yalan yerə şahidlik etdisə də, şahidlikləri bir-birini tutmadı. (Markos, 14: 55-56)*

*İsa onların pis niyyətlərini bildiyinə görə: "Ey ikiüzlülər!, Məni niyə sınayırsınız?" dedi. (Matta, 22: 18-19)*

*Bu vaxt baş kahinlərlə xalqın öndə gedənləri, Kayafa adlı baş kahinin sarayında toplandılar. İsanı hiyləgərliklə tutub öldürmək üçün tələ qurdular. (Matta 26: 3-4)*

Həmçinin İncildə, Allah üçün çətinliklərə sinə gərən həvarilərin vəziyyətindən də xəbər verilir:

*İsa: "Sizə doğrusunu söyləyim. [Allah rizası üçün] mənim və müjdənin [Allahın əmrlərinin] uğruna evini, qardaşlarını, ata və ya anasını, övladlarını və ya torpaqlarını tərk edərək indi, bu dövrdə çəkəcəyi zülmlərlə birlikdə yüz qat daha çox evə, qardaşa, anaya, övlada, torpağa və gələcək dövrdə əbədi həyata qovuşmayacaq heç kəs yoxdur. Necə ki, birincilərin bir çoxu sonuncu, sonuncuların bir çoxu da birinci olacaq". (Markos, 10:29-31)*

*O [hz. İsa (ə.s)] belə dedi: "[Allah rizası üçün] mənim adım uğruna evlərini, qardaşlarını, ata və ya anasını, övladlarını və ya torpaqlarını tərk edən hər kəs, bunların yüz qatını əldə edəcək və əbədi həyatı miras alacaq. Necə ki, birincilərin bir çoxu sonuncu, sonuncuların bir çoxu da birinci olacaq". (Matta, 19:29-30)*

*Bunun üçün, Allahın istəyindən ötrü əzab çəkənlər, yaxşılıq edərək canlarını etibarlı Yaradana əmanət etsinlər. (Petrus'un 1. Mektubu, 4:19)*

*O [hz. İsa (ə.s)] belə dedi: "Lakin siz özünüzə diqqət yetirin! İnsanlar sizi məhkəmələrə verəcək... [və] döyəcəklər. Məndən ötrü [Allah rizası üçün mənə itaət etdiyinizdən ötrü] qubernatorların, kralların önünə çıxarılacaq, beləliklə də, onlara şahidlik edəcəksiniz. Necə ki, əvvəla müjdə [Allahın əmrləri] bütün millətlərə eşitdirilməlidir. Sizi tutub məhkəməyə verdikləri vaxt: "Nə söyləyəcəyik?' deyə əvvəlcədən narahat olmayın. Həmin anda sizə nə vəhy olunsa onu söyləyin. Çünki danışan siz deyil, Allah olacaq. Qardaş qardaşı, ata övladını ölümə təslim edəcək. Övladlar ata-analarına baş qaldırıb onları öldürdəcək. Mənim adımdan ötrü [Allah rizası üçün mənə itaət etdiyinizdən ötrü] hər kəs sizdən nifrət edəcək. Lakin sonuna qədər qətiyyət göstərən xilas olacaq". (Markos, 13:9-13)*

*Lakin bütün bu hadisələrdən əvvəl sizi tutub zülm verəcəklər. Sizi... zindana atacaqlar. Mənim adımdan ötrü kralların, qubernatorların önünə çıxarılacaqsınız... Ata-ananız, qardaşlarınız, qohum və dostlarınız belə sizi satacaq və bəzilərinizi öldürdəcəklər. Mənim adımdan ötrü [Allah rizası üçün mənə itaət etdiyinizdən ötrü] hər kəs sizdən nifrət edəcək. Necə ki, başınızdakı saçlardan bir tel belə yox olmayacaq. Qətiyyət göstərməklə*

*canlarınızı qazanacaqsınız". (Luka, 21:12-19)*

*...O gün Yerusəlimdəki kilsəyə qarşı dəhşətli təzyiq dövrü başladı... Saul isə iman gətirən xalqı qırmağa başladı. Ev-ev gəzərək, qadın-kişi demədən iman gətirənləri bayıra sürükləyir və həbs edirdi. Bunun nəticəsində dağılan iman sahibləri, getdikləri hər yerdə Allah sözünü müjdələyirdilər. (Elçilerin İşleri, 8:1-4)*

*...[Peyğəmbərlər] iman sayəsində ölkələr ələ keçərdilər, ədaləti təmin etdilər, vəd edilənlərə qovuşdular, aslanların ağzını qapadılar. Qızğın odu söndürdülər, qılıncın ağzından qaçıb xilas oldular. Zəif düşdükdə qüvvətləndilər, müharibədə gücləndilər, yadelli orduları darmadağın etdilər... Başqaları isə, sərbəst buraxılmağı rədd edərək dirilib [axirətdə] daha yaxşı həyata qovuşmaq ümidi ilə işgəncələrə səbir etdilər. Digərlərinə isə, lağ edilərək qamçı vuruldu, hətta zəncirə vurulub həbs edildilər. Daşlandılar, mişarla biçildilər, qılıncdan keçirilib öldürüldülər. Qoyun və keçi dərisi ilə gəzdilər, yoxsulluq çəkdilər, çətinliklərlə qarşılaşdılar, təzyiq gördülər. Dünya onlara layiq deyildi. Həmişə səhralarda, dağlarda, mağaralarda, yeraltı oyuqlarda gəzdilər. (İbranilere Mektup, 11:33-38)*

*O [hz. İsa (ə.s)] belə dedi: "Bunları sizə, səndələyib düşməyəsiniz deyə söylədim... Bəli, elə bir saat gəlir ki, sizi öldürən hər kəs Allaha xidmət etdiyini zənn edəcək. Bunları, Allahı və məni tanımadıqları üçün edəcəklər. Bunları sizə indidən bildirirəm. Belə ki, vaxtı gəldikdə bunları sizə söylədiyimi xatırlayasınız..." (Yuhanna, 16:1-4)*

(Mövzuyla əlaqədar digər bütün İncil sözləri üçün baxın: *"İncildən gözəl sözlər,* 17-ci bölüm", Harun Yəhya)

İncil və Quranın bizə bildirdiyi budur: İman gətirənlər, sırf iman etdikləri, Allah yolundan getdikləri və təbliğ etdikləri üçün;

- Öldürülürlər
- Sürgün edilirlər
- İncidici sözlər eşidirlər
- Məhkəmə qarşısına çıxarılırlar
- Həbs edilirlər
- Döyülürlər, işgəncəyə məruz qalırlar
- Qamçılanırlar, zəncirə vurulurlar
- Yalançı şahidlər tərəfindən günahlandırılırlar
- Yoxsulluq içində yaşayırlar
- Dəliliklə günahlandırılırlar
- Ailələri tərəfindən qəbul edilmir, hətta ailələri tərəfindən öldürülürlər

- Dağlarda, mağaralarda, yeraltı oyuqlarda yaşayırlar
- Nifrətlə qarşılanırlar
- Əzab çəkirlər

Bunlar, İncilə görə əsil mömin xüsusiyyətləridir. Peyğəmbərlər və səmimi iman sahibləri belə yaşayıblar. İmtahan veriblər, çətinlik çəkiblər. Bunlar, yalnız Allaha iman gətirdikləri və dindən güzəştə getmədikləri üçün başlarına gəlmişdir. Deməli, əsil mömin, Allah üçün çətinliklərə sinə gərən və imtahanı çətin olan insandır.

Biz bütün peyğəmbərləri buna görə sevərik. Həvariləri və səhabələri buna görə sevərik. Onlar imandakı dərinliklərini, Allah sevgilərini, Allah rizası üçün yaşamağı və dünyanı deyil, axirəti istədiklərini göstəriblər. Məhz buna görə də, onlara, cənnətin ən gözəl köşklərində ruzi verilir.

Əsil iman budur. Bu, Allahın üç İlahi kitabda da bildirdiyi və peyğəmbərlərin həyatlarıyla sübut edilmiş bir həqiqətdir. Əsil iman, evdə oturub yalnız Allahı sevirəm söyləmək deyildir. Allahı sevdiyini iddia edənlər, imanın əsil mahiyyətini bilməlidirlər.

## "Hz. İsa (ə.s)-ın ilah olduğuna inansanız, cənnətə gedərsiniz" məntiqi böyük təhlükədir

Hazırda yevangelistlərin və təslisi müdafiə edən digər xristian məzhəblərinin böyük hissəsinin axirət anlayışı olduqca yanlışdır. Belə bir inanca görə, Allah üçün elmi mübarizə aparmağa ehtiyac yoxdur. Ateizm, darvinizm və kommunizm kimi dinsiz cərəyanlarla mübarizə aparmağa ehtiyac yoxdur. Belə bir inanca görə, ibadətə də ehtiyac yoxdur. İnsan onsuz da öz inancına görə Allahın rizasını çoxdan qazandığını düşünər. Həftədə bir dəfə kilsəyə getməsi kifayətdir. Bəziləri bunu belə zəruri hesab etmir. Belə bir inanca görə, Allah üçün çətinlik çəkmək deyə bir şey yoxdur. Həmin bu inanca sahib insan, onsuz da çətinliklə qarşılaşacağı mühitlərə və mövzulara daxil olmaz. Belə bir mühitdə insan nəfsi ilə zidd düşən, nəfsin istəyinə yox deməli və onu yetişdirməsi lazəm gələn, Allah üçün fədakarlıq etməsini tələb edən, Allah üçün səbir, vəfa, qətiyyət və əzmkarlıq kimi təməl iman xüsusiyyətlərini göstərməli olduğu demək olar ki, heç bir hadisə yoxdur. İnsan, dünyada dünyanı yaşayar; nəfsinə, ailəsinə, həyatına tərs gələn heç bir şeylə qarşılaşmaz; zülm etsə də, günah işləsə də cənnətlik olduğunu düşünər. Çünki hz. İsa (ə.s)-ın ilah olduğuna inanır. Belə bir din anlayışında da bu kafi görülər.

Əlbəttə ki, burada bəzi xristianlar istisna edilməlidir. Təbiidir ki, bütün xristianlar bu inanca sahib deyil. Burada, təslis iddiasını müdafiə edən və yanlış cənnət anlayışına sahib olan bəzi xristianların vəziyyəti təsvir olunur.

Belə səhv bir din anlayışında ədalət sistemi yoxdur. Zülm edənlə Allah üçün yaxşılıq edən arasında hər hansı ayrı-seçkilik olmaz. Çünki insanlar arasındakı yeganə ayrı-seçkilik təslis inancını qəbul edib-etməməyə əsaslanıb. Bir insan həyatı boyu Allah üçün əziyyət çəksə, yaxşılıq etsə, bütün həyatı Allah üçün fədakarlıqlarla keçsə də, təslis inancını rədd etdiyi vaxt, bu inanca görə cəhənnəmə gedəcək.

Səmimi xristian qardaşlarımıza dəvətimiz budur:

Hər haqq dinə zaman keçdikcə bidətlər daxil edilmişdir. Hər haqq dini təhrif etməyə çalışmış müxtəlif mərkəzlər olmuşdur. Xristianlığa da həmin bu bidətləri əsil dindarlar daxil etməyib. Dolayısilə bunlara kor-koranə əməl etmək sonunda ciddi peşmançılığa səbəb ola bilər. Səmimi xristianlar da doğru yolu, Allahı tanıyaraq; haqq olan İncil sözlərinə əməl edərək; vicdanlarına, ağıllarına və imanlarına müraciət edərək tapmalıdırlar.

Dindar olmaq üçün Allah qorxusu lazımdır. Allah sevgisindən qaynaqlanan dərin Allah qorxusu ilə ibadətlər zövqlə və güzəştsiz yerinə yetirilər, çətinliklər qarşısında gözəl şəkildə səbir edilər, yaşanılan hər an Allah üçün yaşanılar. **Dindar insanın həyatı dəyişər.** Əsil dindar, Allah ilə birgə yaşayar. Məhz bundan ötrü də, həyatı insanların əksəriyyətindən fərqli olar. Əlbəttə ki, dindar bir insan da dünya nemətlərindən ən gözəl şəkildə faydalanar, lakin dünyadan heç nə gözləməz. Çətinliklər, çətin hadisələr və fəlakətlər onu kədərləndirməz; çünki yaxşılıqlar kimi, hər çətinliyin də Allahdan gəldiyini bilər. Çətinliklər qarşısında daha çox şükür edər, çətinliklər sayəsində daha çox güclənər. Bu əsil İncildə də belə bildirilmişdir:

*Qardaşlarım, **müxtəlif sınaqlarla qarşılaşdığınız vaxt bunu böyük sevinclə qarşılayın.** Çünki bildiyiniz kimi, **imanınızın sınağa çəkilməsi dayanma gücü yaradar**. Dayanma gücü də, heç bir çatışmazlığı olmayan, yetkin, kamil insanlar olmağınızı təmin etsin. (Yakup'un Mektubu, 1:2-4)*

*Zaman bitərkən ortaya çıxarılmağa hazır olan qurtuluşa qovuşmağınız üçün iman sayəsində Allahın gücü ilə qorunursunuz. Bundan ötrü də, hazırda **qısa müddət üçün müxtəlif sınaqlardan ötrü əzab çəkməyiniz lazımdırsa da, sevinclə coşursunuz**. **Beləliklə səmimiliyi sübut edilən imanınız... sizə tərif, ucalıq və şərəf qazandıracaq**. İmanınız, odla təmizlənildiyi halda, yox olan qızıldan daha qiymətlidir. Məsihi görməmiş olsanız da [Allah rizası üçün] onu sevirsiniz. Hazırda onu görmədiyiniz halda, ona [Allahın bir Peyğəmbəri olaraq] iman gətirir, sözlə ifadə edilə bilməyən uca sevinclə coşursunuz. Çünki imanınızın nəticəsi olaraq canlarınızın qurtuluşuna nail olursunuz. (Petrus'un 1. Mektubu, 1:5-9)*

Məhz bundan ötrü də, Allahı sevən bir insan, Allah üçün hər an hər şeyi edə biləcək gücdədir. Allah sevgisində əzmkarlıq, qətiyyət, səbat və gözəl əxlaq var. Allah sevgisi, fədakarlıq tələb edir. Dolayısilə **cənnətə layiq olmaq səy tələb edər.** Allahı razı salmaq; Allah üçün yaşamaq, imtahan qarşısında səbat göstərmək və lazım gəldikdə bütün dünyəvi şeylərdən, başda can və maldan Allah üçün vaz keçməklə mümkün olar.

*"Mənim ucbatımdan* ***insanlar sizi təhqir edib zülm etdikləri, yalan yerə sizə qarşı hər cür pis sözü söylədikləri zaman, nə xoşbəxt sizin halınıza! Sevinin, sevinclə coşun! Çünki göylərdəki [axirətdəki] mükafatınız böyükdür****. Sizdən əvvəl yaşayan peyğəmbərlərə də belə zülm etdilər". (Matta, 5:11-12)*

İstər xristian, istər yəhudi, istərsə də müsəlman olsun, axirətdə kədərlənməyəcək insanlar; **Allaha bir və tək olaraq iman gətirənlər** və yaxşı iş görənlər olacaq. Bu həqiqət Quran ayələrində bildirilmişdir:

**Şübhəsiz ki, iman gətirənlərin, yəhudi, xristian və sabiilərdən Allaha və Axirət gününə iman gətirənlərin və yaxşı iş görənlərin mükafatı öz Rəbbi yanındadır. Onlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. (Bəqərə surəsi, 62)**

**İman gətirənlərin, habelə yəhudi, sabii və xristianlardan Allaha və Axirət gününə iman gətirib yaxşı iş görənlərin heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. (Maidə surəsi, 69)**

Əgər səmimi xristianlar, təslis inancının gətirdiyi anlayışı qəbul edərək, haşa hz. İsa (ə.s)-ın ilah olduğuna inanmağın üzlərinə, cənnət qapılarını açacağına inanmağa davam etsələr, bu onlara sonsuz axirət həyatlarında heç gözləmədikləri peşmançılıq gətirə bilər. Məhz bundan ötrü də, təslis yanılmasına qapılan xristianlar, bu kitab boyunca bildirilən xəbərdarlıqları nəzərə almalı, Allahın əsil dindarlar üçün müəyyənləşdirdiyi iman şərtlərini və razı olduğu həyat tərzini nəzərdən keçirməli və əsil imanın necə olmalı olduğunu mütləq anlamağa çalışmalıdırlar. Əlbəttə ki, əsil imanın ən böyük şərti, kitabın əvvəlində də bildirdiyimiz kimi, TƏK OLAN ALLAHA iman gətirməkdir.

Bunu xatırlatmaq lazımdır: Burada edilən xatırlatma, yalnız xristian qardaşlarımızın yaxşılığı üçündür. Görülə biləcəyi kimi, belə bir xatırlatma heç kəsin mənfəətinə xidmət etmir. Hər kəs axirətdə öz etdiklərindən məsuldur. Lakin Quranda müsəlmanlar üzərinə yüklənən: "Yaxşı işlər görməyi buyurmaq və pis əməlləri qadağan etmək" əmrinin tələbi olaraq, burada bu xatırlatmaların edilməsi bir ibadətdir.

Bu kitabda bəzi xristian qardaşlarımız bəlkə də həyatlarında heç eşitmədikləri həqiqətləri oxuyurlar. Hz. İsa (ə.s) zühur etdikdə, o mübarək Peyğəmbərimiz də xristian qardaşlarımıza qapıldıqları bu böyük yanılmaları, xristianlığa daxil edilən bidətləri başa salacaq. Çünki bütün bunlar, İncili və Tövratı təsdiqləmək və tamamlamaq üçün göndərilmiş və dolayısilə həm xristianlar, həm də yəhudilərin müqəddəs kitabı olan Quranda yazılır. Bu kitabda bir çox nümunə ilə göstərdiyimiz kimi, Quran ayələrinə uyğun gələn bir çox İncil keçidi də bunları təsdiqləyir. Dolayısilə xristian qardaşlarımız, ağla və vicdana uyğun olanı

etməlidirlər. Bu qiymətli dövrü ciddi səy göstərərək, dünyada zülmün, qarışıqlığın, əzabların və çətinliklərin yerinə sülh, qardaşlıq və sevginin hakim olması üçün çalışmaqla keçirməlidirlər. Axirətdə gözəl qarşılığı, ancaq bu yolla ala biləcəklərini də unutmamalıdırlar.

# VI Fəsil

# Bəzi xristianların armaqedon yanılması

## Axırzaman, Dəccal fitnəsinin yaşanılacağı dövrdür

Hazırda Axırzamanda yaşayırıq. Bu mühüm dövr, dünyada qiyamətdən əvvəlki son dövrdür. Həmçinin bu mübarək dövr, Peyğəmbərimiz (s.ə.v)-in hədislərində, eləcə də, İncil və Tövrat ayələrində çox geniş izahatlarla təsvir edilib. Qiyamətdən əvvəlki son dövr, yəni Axırzaman, Dəccal fitnəsinin yaşanacağı, fəlakətlərin, zülmlərin, qarışıqlıq və bədbəxtliklərin, müharibələrin, qırğınların, pozulmanın, iqtisadi böhranların, maddi çöküşün, terror, zorakılıq və vəhşiliyin ən geniş şəkildə yayılacağı və hər kəsin bir xilaskar axtardığı bir dövr olacaq. İnsanların böyük əksəriyyəti bu dövrdə pisliyi genişləndirəcək, Allahı və ibadətləri unutmağa meyl edəcək, öz aləmlərində problemlərin həllini müahribə, qırğın və pislikdə tapacaq, qarışıqlıq və təxribatçılığa üz tutacaqlar.

Axırzamanda Dəccal fitnəsinin yayılması, yer üzündəki bütün cəmiyyətlərin fəlakətə sürükləndirilməsi və insanların bir xilaskar üçün Allaha yalvarmaları ilə birlikdə, Rəbbimiz Axırzamanın mübarək şəxslərini yer üzünə göndərəcək. Bu mübarək şəxslər, hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) olacaq. Yer üzü, hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın yer üzündəki zühuru ilə sakitləşəcək, Dəccalın fitnəsi aradan qalxacaq və yer üzündə daha əvvəl heç görülməmiş bir Qızıl Əsr dövrü yaşanılacaq. Bu dövrdə müharibələr bitəcək, tək bir damla qan axıdılmayacaq, top, tüfəng və silahdan istifadə edilməyəcək, insanlar qətiyyən zülm görməyəcək. Hz. Mehdi (ə.s), yer üzünə tamamilə sülh və rahatlıq mühiti gətirəcək, ədalətlə hökm edəcək və yatanı belə oyandırmayacaq. Peyğəmbərimiz (s.ə.v) hədislərində bu böyük və mühüm həqiqəti belə xəbər vermişdir:

*İnsanlar, bal arılarının kraliça arı ətrafında toplanması kimi, hz. Mehdi (ə.s)-ın ətrafında toplanacaqlar. Daha əvvəl zülmlə dolu olan dünyanı, ədalətlə dolduracaq. Elə ədaləti olacaq ki, YUXUDA OLAN BİR BİRİ BELƏ OYANDIRILMAYACAQ VƏ BİR DAMLA QAN BELƏ AXIDILMAYACAQ. Dünya, sanki əsri səadət dövrünə geri qayıdacaq. (El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 29 və 48)*

*ONUN [HZ. MEHDİ (Ə.S)-IN] DÖVRÜNDƏ NƏ BİRİ YUXUSUNDAN OYANDIRILACAQ, NƏ DƏ BİRİNİN BURNU QANAYACAQ. (El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 44)*

*Ona [hz. Mehdi (ə.s)-a] beyət edənlər, [Kəbə ətrafındakı] rukün və mövqe arasında beyət edəcəklər. YATANI OYANDIRMAZ, ƏSLA QAN TÖKMƏZLƏR. (El-Heytemî, El-Kavlu'l*

*Muhtasar Fi Alamet-il Mehdiyy-il Muntazar, səh. 24)*

## Hz. Mehdi (ə.s) dövründə müharibə olmayacaq

*MÜHARİBƏ [USTASI] DA YÜKLƏRİNİ [SİLAH VƏ VƏSAİTLƏRİNİ] YERƏ QOYACAQ. (Sünen-i İbn-i Mace, 10/334)*

*MÜHARİBƏ [USTASI] YÜKLƏRİNİ [YƏNİ SİLAH VƏ SAİRƏNİ] YERƏ QOYAR. (İmam Şa'rani, Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, 496)*

*Düşmənçilik və kini də yox edəcək... QAB SU İLƏ DOLDUĞU KİMİ YER ÜZÜ SÜLHLƏ DOLACAQ. Din birliyi də olacaq, artıq Allahdan başqasına tapınılmayacaq. MÜHARİBƏ DƏ YÜKLƏRİNİ YERƏ QOYACAQ. (Sünen-i İbn-i Mace, 10/334)*

*Heç bir insan arasında düşmənçilik qalmayacaq. Həmçinin bütün DÜŞMƏNÇİLİKLƏR, BOĞUŞMALAR, HƏSƏDLƏŞMƏLƏR MÜTLƏQ ARADAN QALXACAQ. (İmam Şa'rani, Ölüm-Kıyamet-Ahiret ve Ahirzaman Alametleri, səh. 496)*

## Hz. Mehdi (ə.s) dövründə pisliklər aradan qalxaraq yerini yaxşılıqlara buraxacaq

*Onun (hz. Mehdi (ə.s)-ın) dövründə YAXŞI İNSANLARIN YAXŞILIĞI ARTAR, PİSLƏRƏ QARŞI BELƏ YAXŞILIQ EDİLƏR. (Kitab-ul Burhan fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 17)*

*Qab su ilə dolduğu kimi yer üzü sülhlə dolacaq. Heç kəs arasında DÜŞMƏNÇİLİK QALMAYACAQ VƏ BÜTÜN DÜŞMƏNÇİLİKLƏR, BOĞUŞMALAR, HƏSƏDLƏŞMƏLƏR MÜTLƏQ ARADAN QALXACAQ. (Sahih-i Müslim, 1/136)*

## Hz. Mehdi (ə.s) dövründə müharibələrin bitəcəyi Tövratda da bildirilib

*...Son günlərdə... Rəbb bir çox xalqın arasındakı anlaşmazlıqları aradan qaldıracaq... Millət millətə qılınc qaldırmayacaq, döyüş təhsili verməyəcəklər artıq. (Yeşaya, 2:2-4; Mika, 4:1-3)*

*Döyüş arabalarını Efraimdən, atları Yerusəlimdən (Qüdsdən) uzaqlaşdıracağam. Döyüş yayları qırılacaq... (Zekeriya, 9:10)*

*O dövrdə [hz. Mehdi (ə.s) dövründə], aclıq və ya müharibə, həsəd və ya düşmənçilik olmayacaq... (Maimonides, Mişna Tora, Kralların Kanunları 12:5)...*

*...Ölkədən yayı, qılıncı, müharibəni ləğv edəcəyəm, onlara əmin-amanlıq bəxş edəcəyəm.. (Hoşea, 2:18)*

*...Ölkənizə sülh təmin edəcəyəm. Qorxu içində yatmayacaqsınız... Müharibə üzü görməyəcəksiniz. (Levililer, 26:5-6)*

*"...Topladıqları silahları yandıracaqlar. Kiçik-böyük qalxanları, yayları, oxları, çubuqları, mizraqları oda atacaqlar... Yandırmaq üçün silahlardan istifadə edəcəklər..." Hakim Rəbb belə deyir. (Hezekiel, 39:9-10)*

*...İnsanlar qılınclarını çəkiclə döyərək kotan dəmiri, mizraqlarını bağban bıçağı edəcəklər... (Yeşaya, 2:4; Mika, 4:3)*

Dolayısilə hz. Mehdi (ə.s) və hz. İsa (ə.s) dövründə qan yoxdur. Müharibələr yoxdur. Dəccalın fitnəsi dayandırılmışdır. Millətlərə, dövlətlərə sülh gəlmişdir. O dövrdə heç kəs müharibənin arxasında olmayacaq. Çünki müharibənin təməl səbəbi olan batil etiqadlar, darvinist-materialist zehniyyət və bu yanlış zehniyyətin gətirdiyi mənfəətpərəstlik, eqoizm və ruhsuzluq aradan qalxmış olacaq. İnsanları əsil dindarlıqdan uzaqlaşdıran radikal din və ideologiyalar ortadan qalxacaq və dolayısilə zorakılığın və sevgisizliyin təməl zehniyyəti yox olacaq. Hz. Mehdi (ə.s) və hz. İsa (ə.s)-ın zühuru ilə yaşanılacaq Qızıl Əsr, dünyanın ən xoşbəxt, ən rahat, ən dinc, ən sülh dolu və ən bolluq içindəki dövrü olacaq.

Hz. Mehdi (ə.s) hazırda yaşayır. Hz. İsa (ə.s) isə nüzul etmişdir. Hər iki mübarək şəxsin də zühuru gözlənilir. Hər iki mübarək şəxs də, hazırda gizli və açıq şəkildə Dəccalın fitnəsinə qarşı elmi mübarizə aparırlar. Onların zühuru ilə birlikdə sülhə və rahatlığa doğru gedişat yaşanılacaq. Lakin bundan əvvəl, dünyanı fitnələrin və müharibələrin bürüdüyü bir dövrün olacağı bildirilib. Yaşadığımız dövr, hz. Mehdi (ə.s) və hz. İsa (ə.s)-ın zühurundan əvvəlki, yəni fitnə və qarışıqlıqların yaşanıldığı dövrdür.

Bəzi yevangelistlər isə, gələcəkdə Orta Şərqdə, xüsusilə Mesopotamiya bölgəsində armaqedon adlı müharibə yaşanılacağına inanır və bu müharibə gözləntisinə uyğun olaraq bölgə üzərində müxtəlif planlar qurulur. Ən böyük yanılmaları isə, armaqedon müharibəsinin Orta Şərqdə çoxdan başladığı və uzun müddətdir ki, davam etdiyi yanılmasıdır.

## Armaqedon ssenarilərinin arxasındakı çirkli əməllər

Bəzi xristianlar İncildə, hz. Məsihin çıxış vaxtında baş verəcəyi bildirilən armaqedon müharibəsi zamanı, atların cilovlarına qədər çatacaq miqdarda qan töküləcəyini iddia edirlər. Həmin bu müharibədə, yeddi il davam edəcək fəlakət dövrünün yaşanılacağını, yaşanan müharibələr zamanı isə, yəhudilərin dörddə üç hissəsinin müsəlmanlar tərəfindən yox ediləcəyini, İsrail və bəzi Orta Şərq torpaqlarının tamamilə sıradan çıxacağını, bütün

bunların da hz. İsa (ə.s)-ın çıxışı üçün mühüm əlamət olacağını söyləyirlər.

Bu dəhşətli ssenariyə görə, yəhudilər müsəlmanlara qarşı “armaqedon” adlandırılan müharibəni qazanmadıqca, hz. İsa (ə.s) yer üzünə təkrar qayıtmayacaq. Bundan ötrü də, bəzi xristianlar, hz İsa (ə.s)-ın yer üzünə qayıtması üçün, bu böyük müharibənin başlamasını və yəhudilər tərəfindən qazanılmasını sanki şərt kimi görürlər. Bu müharibə bitdikdən sonra isə, hz. İsa (ə.s)-a iman gətirən 144 000 yəhudidən başqa bütün yəhudilərin qırılması gözlənilir. Bu qanlı döyüşlər nəticəsində, bütün müsəlmanların və demək olar ki, bütün yəhudilərin yox ediləcəyinə, eləcə də, təkcə hz. İsa (ə.s)-a bağlı xristianlarla, seçilmiş 144 000 yəhudinin xilas olacağına inanırlar.

Həmin bu yevangelist xristianlar İncildə Axırzamanda baş verəcəyi bildirilən və geniş şəkildə təsvir edilən armaqedon müharibəsini tamamilə yanlış şərh edirlər. Həmçinin bu yanlış inancın bir tələbi olaraq da, hazırda Orta Şərqdə davamlı qan axmasının, qardaşın qardaşla vuruşmasının və bitmək bilməyən gərginliyin hz. İsa (ə.s)-ın gəlişi üçün mütləq lazım olduğu yanılmasını müdafiə edirlər. Türkiyənin Cənub-Şərq bölgəsini, eləcə də, İraq və Suriyanı əhatə edən və Orta Şərqə qədər uzanan geniş ərazidə, öz inanclarına görə yəhudilərin çox böyük hissəsinin qətlə yetiriləcəyi, qanın sel kimi axıdılacağı vəhşilik üçün hazırlıq görürlər. Bu gözlənti yevangelist xristianların çox böyük hissəsi üçün imtina edilə bilməz bir məqsəd və gün keçdikcə daha da güclənən bir hədəfə çevrilmişdir, çünki onların yanlış inancına görə, hz. İsa (ə.s)-ın zühuru üçün armaqeddon baş verməli və bu bölgə təcili surətdə qana bulanmalıdır.

Bu dəhşətli gözləntinin bir nəticəsi olaraq, bəzi xristianlar dünyada yaşanan müharibə, qarşıdurma və anlaşmazlıqları yatırtmaq əvəzinə, **sanki qan tökülməsini təşviq edən siyasətləri dəstəkləyir, hətta müharibəyə təhrik edirlər**. Bu vəhşiliyi öz aləmlərində bir doğum sancısı kimi xarakterizə edir, hz. İsa (ə.s)-ın müjdəli gəlişi üçün bu vəhşiliyə dəstək verməli olduqları yanılmasına inanırlar.

Halbuki həmin bu xristianlar böyük yanılmaya qapılıblar. Armaqedon müharibəsi Orta Şərqdə çoxdan başlamışdır və hələ də davam edir. 2003-cü ildəki İraq müharibəsi, İncildə armaqedon kimi göstərilən, hədislərdə və Tövratda isə, bütün əlamətləri təsvir edilən Axırzaman əlaməti büyük müharibənin başlanğıc tarixidir. O tarixdən indiyədək Orta Şərqdə qarşıdurmalar bitməmiş və həmişə müsəlman qanı axmışdır və hələ də axır. Sayları milyonlarla ifadə edilə biləcək qədər müsəlman şəhid olmuşdur, müsəlman ölkələrin böyük əksəriyyətində qarşıdurma, vətəndaş müharibəsi, qarışıqlıq və terror var. Dolayısilə yevangelistlərin gələcəkdə olmasını gözlədikləri armaqedon, əslində 2003-cü ildən bəri Orta Şərqdə davam edir. Bu müharibə, uzun müddət davam edəcək bir mnüharibədir. Dolayısilə hazırki dövrdə Orta Şərqdə yaşanılanlardan savayı gələcəkdə baş verəcək böyük bir müharibə yoxdur. Gələcəkdə daha böyük bir müharibə gözləntisi, həmin bu xristianları Orta Şərqlə əlaqədar bir çox mövzuda yanıldır.

İşin maraqlı tərəfi isə, müsəlmanları müharibə və qırğının tərəfdarı, özlərini isə sevgi və sülhün tərəfdarı kimi göstərməyə çalışan bəzi xristianların belə həvəslə müharibə gözləntisi içində olmalarıdır. Halbuki İslam inancına görə, Axırzamanda hz. İsa (ə.s)-dan dərhal əvvəl zühur edəcək və hz. İsa (ə.s) ilə birlikdə bütün dünyaya İslam əxlaqını hakim edəcək **hz. Mehdi (ə.s)-ın dövründə müharibələrin olmayacağını müjdələyən insan, İslam Peyğəmbəri hz. Məhəmməd (s.ə.v)-dir.** Yəni xristianların dünya səviyyəsində apardıqları təbliğatın əksinə, əslində sülh, əmin-amanlıq, ədalət, şəfqət və sevgi tərəfdarı bir Axırzaman təsəvvürü olan din İslamdır.

Bəzi xristianların hz. İsa (ə.s)-ın qayıdışı üçün milyonlarla insanın qanının tökülməsini, ölkələrin həlak olmasını imtina edilməz bir şərt kimi göstərmələri və böyük qəflət içində bütün müsəlmanların böyük həyəcanla gözlədikləri mübarək hz. Mehdi (ə.s)-ın zühurunu dəccaliyyət kimi xarakterizə etməyə çalışmaları olduqca təhlükəli bir zehniyyətdir.

Bu ssenaridə yanılan tərəf, təhrif edilmiş İncil keçidlərində işlənən bəzi ifadələri yanlış şərh edərək, atların yəhərlərinə qədər qan tökülməsini həyəcanla gözləyən bəzi yevangelist xristianlardır. Hazırda Orta Şərqdə onsuz da qan su yerinə axır və bəhs edilən dəhşətli ssenari onsuz da gerçəkləşir. Gələcəkdə, başqa bir müharibə ilə, bundan daha qorxunc bir ssenarinin gerçəkləşəcəyinə inanmaq, bunun üçün Orta Şərqi qızışdırmaq və yenidən şəkilləndirmək lazım olduğunu müdafiə etmək dəccaliyyətin tələsinə düşməkdir.

Bu, dünyada gizli təşkilat və hakimiyyət qurmaq istəyən mərkəzlərin, xristian görünüşü altında İncilin sonradan əlavə olunmuş və ya yanlış şərh olunmuş bəzi hissələrini dəlil göstərərək oynadıqları bir oyundur. Dindar kimliyi altında bu oyunu oynayırlar. Dəccal ordusu, keçmişdə də dəfələrlə istifadə etdiyi və dəfələrlə müvəffəqiyyət qazandığı bu oyunu yenidən oynamaqda problem görmür. Məqsəd; **dindar müsəlman, xristian və yəhudilərin qardaş olmalarının**; darvinizmə, materializmə, ateizmə qarşı **birlikdə** fikri mübarizə aparmalarının qarşısını ala bilməkdir.

Uzun müddət ərzində oynanılan bu oyun nəticəsində dindarlar zəiflədiyi halda, dəccaliyyətin müdafiəçiləri güclənmiş, beləliklə də, mənəvi dəyərləri heç yerinə qoyan, eqoizmi tək etibarlı dəyər qəbul edən, həyatı bitmək bilməyən bir mübarizə və təkcə güclülərin ayaqda qala biləcəyi bir meydan kimi göstərən darvinist və materialist zehniyyəti asanlıqla yaya biliblər. Armaqedon hazırda bu mərkəzlərin ən vəhşi planıdır. Bu oyundan xəbərsiz olanların, sülh və sevgi dini olan İslamiyyətə qarşı nə qədər yanlış dünyagörüşünə sahib olacaqları da aydın məsələdir.

## İslama qarşı mənfi dünyagörüşü planlı şəkildə yazılmış bir ssenaridir

Bəzi İncil keçidlərini dəlil göstərərək insanların böyük bir müharibə gözləməsinə səbəb olan bəzi Dəccali mərkəzlər, yazdıqları bu qanlı Axırzaman ssenarisi ilə əslində,

İslama qqarşı yanlış bir dünyagörüşü yaratmağa çalışırlar. Müharibə ssenarilərini dəstəkləyən bəzi nəşriyyat orqanları, yalan xəbərlər, tək tərəfli şərhlər və təxribatlar yoluyla səmimi müsəlmanları Dəccal kimi göstərməyə çalışırlar. Hazırda dünyada bəzi yevangelist xristianların, İslama düşməncəsinə yanaşmalarının və ön mühakiməli dünyagörüşlərinin altında yatan təməl səbəb budur. Bu insanlar, özlərini dindar göstərərək, Axırzaman barəsində verdikləri məlumatları İncil əsasında verdiklərini iddia edir, bütün insanların sülh və əmin-amanlıq içində yaşayacaqları bir dünya tərifi verən İslam dinində qətiyyən olmayan müharibə və zülm tərəfdarı hökmləri öz aləmlərində İslama aid etməyə çalışırlar. Bu mərkəzlərin məqsədi, diqqəti müsəlmanların üzərinə çəkərək, müharibəyə təhrik edən tərəfdarlarını və Orta Şərqdə böyük bir müharibə başlatmağa istiqamətli siyasətlərini kamuflyaj etmək; baş tutduğu təqdirdə ateizmə, dinsizliyə və materializmə qarşı çox böyük güc meydana gətirəcək Kitab əhli ilə müsəlman ittifaqını müəyyən şəkildə mane olmaqdır.

Bu çirkin oyun nəticəsində, səmimi dindar xristianların bir hissəsi İslamı yanlış tanıyır, yanlış şərh edir, eləcə də, İslamın gözəllik, sülh və sevgi dini olduğu həqiqətindən xəbərsiz yaşayırlar. Bu oyun, eyni zamanda müsəlmanlarla xristianlar arasında süni bir ayrılığın yaranmasına da səbəb olur. Bu hiyləgər plan nəticəsində, eyni Allaha inanan səmimi dindarlar birlik ola bilmir, hətta tam əksinə aralarında süni nifaq və düşmənçilik meydana gəlir. Bu vəziyyət, bütün dünyaya dinsizliyi, darvinizmi, anarxiyanı, zülmü, müharibələri, cinayətləri, degenerasiyanı yaymaq istəyən dəccal sisteminin gizlincə fəaliyyətlərini davam etdirməsi üçün, axtardığı ən əlverişli zəmini meydana gətirir. Üç böyük dinin mənsubları, yəni müsəlmanlar, xristianlar və yəhudilər bir-birləriylə mübarizə apardığı bir vaxtda, meydan onlara qalır.

İman sahiblərinin zəifləməsi, Dəccal tərəfdarlarının güclənməsi deməkdir. Bundan ötrü də, Dəccal tərəfdarlarının ateizmi, materializmi və əxlaqi degenerasiyanı yaya bilmələri, öz ideologiyalarını gücləndirmələri üçün, iman sahibləri zəif və öz aralarında parça-parça olmalıdırlar. Dəccal tərəfdarlarının səmimi dindarlar arasındakı ittifaqı pozmaq və onları parçalamaq üçün bu qədər çalışmalarının səbəbi budur. Oynanılan bu hiyləgər oyun nəticəsində dindar xristianlar da, əslində özləri bilmədən və təbiidir ki, istəmədən bu mərkəzlərin dinsizliyi yayma siyasətinə alət olurlar.

Bu çirkli oyuna qarşı bütün əsil dindarların oyanıq olmaları və əsl fikri mübarizəni birlik ruhu içində, Allah inancına qarşı çıxan və cəmiyyətləri din əxlaqından uzaqlaşdırmağa çalışan ideologiyalara qarşı aparmaları təcili yerinə yetirilməli məsələdir. İnsanların ədalət, güvən, sülh və əmin-amanlıq mühitində yaşamalarının önündəki ən böyük təhlükənin, dinsizliyi yayma məqsədinə sahib dəccal sistem və onun nəzarəti altındakı darvinizm, materializm kimi azğın ideologiyalar olduğu heç vaxt unudulmamalıdır.

Bunu ifadə etmək lazımdır ki, İncildə qeyd olunan Dəccal tərifi, Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-dən rəvayət edilən hədislərlə tam uyğunlaşır. Dolayısilə, İslam

mənbələrində təsvir edilən və müsəlman aləminin əsrlərdir ki, gözlədiyi, Dəccalla xristian aləminin gözlədiyi Dəccal eyni xüsusiyyətlərə malikdir, eyni aldatma üsullarını tətbiq edəcək və eyni azğın ideologiyaların yayılması üçün çirkli mübarizə aparacaq. Digər bir sözlə, əsas məsələ xristianların, ortaq düşmənləri olan Dəccala qarşı müsəlmanlarla birlikdə hərəkət etmələridir.

## Armaqedon çoxdan başlamışdır və hələ də davam edir

Daha əvvəl qeyd etdiyimiz kimi, **gələcəkdə başlanacağı söylənilən armaqedon əslində çoxdan başlamışdır və hələ də davam edir**. Armaqedon müharibəsinin, ötən illərdə baş verən <u>İraq müharibəsi ilə başladığını və hələ də davam etdiyini</u> həm İslami mənbələrdə, həm də xristian mənbələrində bildirilən əlamətlər tam şəkildə təsdiqləyir. "Böyük və qanlı bir müharibə olacaq" deyən Dəccal tərəfdarı mərkəzlər də, bu həqiqəti çox yaxşı bilir, lakin şüurlu şəkildə insanlardan gizlədirlər.

İraq; 2003-cü ildə ABŞ, İngiltərə, Avstraliya, İspaniya, Danimarka və Polşadan gələn əsgərlərlə işğal edilmişdir. Bu işğal vaxtı, həm müsəlmanlardan, həm də xristianlıq və ya başqa dinlərə mənsub olan vətəndaş və əsgərlərdən olmaqla çox sayda insan şəhid edilmiş və ya öldürülmüşdür.

İncildə İraqın Axırzamandakı işğalı belə təsvir edilib:

***Dünya tacirləri onun [Babil*] üçün ağlayıb yas tutur. Çünki bundan belə mallarını satın alacaq heç kəs qalmayıb.*** *Qızılı, gümüşü, qiymətli daşları, mirvariləri, nazik kətanı, ipəyi, bənövşəyi və qırmızı parçaları, hər növ qoxulu ağacı, fil dişindən hazırlanmış hər növ əşyanı, ən bahalı ağaclardan, tunc, dəmir və mərmərdən hazırlanmış hər növ malı, darçın və hil, buxur, gözəl qoxulu yağ, likvidambar... zeytunyağı, un və buğdanı, malları, qoyunları, atları, avtomobilləri... satın alacaq heç kəs qalmayıb artıq. "Ürəyinin istədiyi meyvələr əlindən getdi, bütün qiymətli və gözoxşayan malların yox oldu..." deyəcəklər. Babildə bu malları sataraq varlanan tacirlər,* ***şəhərin çəkdiyi iztirabdan ötrü dəhşətə gələcəklər****... "Nazik kətan, bənövşəyi və qırmızı parça ilə dolu olan, qızıl, qiymətli daş və incilərlə bəzənmiş böyük şəhər!* ***O qədər böyük zənginlik bir saat içində yox oldu.*** *Gəmi kapitanları, yolçular, tayfalar və dənizdə işləyənlərin hamısı, onu yandıran odun tüstüsünü gördükdə uzaqda dayanıb;* ***"böyük şəhər [Babil] kimisi vardırmı?" deyə fəryad etdilər****... "Dənizdə gəmiləri olanların hamısı onun sayəsində, onun qiymətli mallarıyla varlanmışdılar.* ***Şəhər bir saat içində viran oldu" ... "Böyük şəhər Babil də məhz belə şiddətlə atılacaq...*** *Sənin tacirlərin dünyanın böyükləri idi". (Vahiy, 18:11-21)*

** Babil: Hazırki İraq dövlətinin paytaxtı olan Bağdad şəhəri yaxınlığında yerləşən qədim bir şəhər adıdır.*

İraqın müxtəlif ölkələr tərəfindən işğal edilməsi, İraqda yaşanılacaq qırğın və armaqedon müharibəsi hədislərdə də ən incə nöqtəsinə qədər bildirilib:

*"Axırzamanda **Bağdad alovlarla yox edilər...**" (Risalet-ül Huruc-ül Mehdi, III cild, səh. 177)*

İraqın işğalının başladığı gündən etibarən Bağdad, ən güclü bombardmana tutulan şəhərlərdən biri olmuşdur. Ağır bombardmanlar, gecələri Bağdadın eynilə hədisdə bildirildiyi kimi alovlanıb yanmasına səbəb olmuşdur. Bağdadın qəzet və televiziya xəbərlərinə əks olunan görünüşləri, yuxarıdakı hədisdə diqqət çəkilən hadisə ilə, tam uyğunluq təşkil edir.

*Rəsulullah (s.ə.v) belə buyurmuşdur: "...Elə bəla və müsibətlər olacaq ki, heç bir insan, sığına biləcəyi bir yer tapa bilməyəcək. **Bu bəlalar Şamın (Dəməşq) ətrafında dolanacaq və İraqın üzərinə çökəcək.** Ərəbistan yarımadasının əlini və ayağını bağlayacaq... Onlar bəlanı bir tərəfdən dəf etməyə çalışarkən, digər tərəfdən o yenə ortaya çıxacaq". (Kenzul Ummal, Kitab-ul kıyame kısm-ul efal, V cild, səh. 38-39)*

Hədisdə bildirilən "müsibətlərin Şamın ətrafında dolanıb, İraqın üzərinə çökəcək olması", Amerikanın son İraq işğalı vaxtı yaşanmışdır.

***"...İraqa hücum edilmədikcə qiyamət qopmaz.** Həmçinin İraqdakı günahsız insanlar Şama doğru sığınma yerləri axtaracaqlar. Şam yenidən qurular, İraq da yenidən qurular". (Kenzul Ummal, Kitab-ul kıyame kısm-ul efal, V cild, səh. 254)*

Hədisdə İraqın və Suriyanın yenidən qurulacağına diqqət çəkilir. Həqiqətən də baş verən qarşıdurmalardan ötrü, İraqın və 2011-ci ildən etibarən də Suriyanın demək olar ki, hər bölgəsi yerlə-yeksan olmuşdur. Hər iki ölkənin də yenidən qurulması məcburi hal almışdır.

*"İraq xalqı üç firqəyə ayrılar. Bəziləri soyğunçulara qoşular. Bəziləri ailələrini geridə qoyub qaçarlar. **Bəziləri isə, döyüşər və öldürülərlər. Siz bunları gördüyünüz vaxt qiyamətə hazırlanın".** (Yusuf el-Makdisi, Fera İdu Fevaidi'l Fikr Fi'l İmam El-Mehdi El-Muntazar)*

Hədisdə bildirildiyinə görə, İraqdakı qarışıqlıqlar və İraqın müəyyən bölgələrinin işğalından sonra xalqın bir hissəsi "talançılara" qoşulacaq. Həqiqətən də qarşıdurmalar əsnasında xalqın bir hissəsi, oğurluq, qəsbkarlıq, yağmalamaq kimi "talançılıq" olaraq xarakterizə edilə biləcək fəaliyyətlər icra edən qruplar sırasına daxil olublar. Hədisdə xalqın bir hissəsinin isə, edilən zülmdən ötrü yaşadıqları yerdən tezliklə qaçmağa cürət edəcəkləri, hətta geridə qoyduqları ailələrini belə düşünə bilməz mövqedə olacaqları bildirilib. Hədisdə xalqın bir hissəsinin isə, müharibəyə qoşulacağı və öldürüləcəyi bildirilir. İraqın əvvəlcı ABŞ və xüsusilə sonradan müxtəlif radikal təşkilatlar tərəfindən işğal edilməsi vaxtında da, bir çox qarşıdurma baş vermiş, xeyli insan həyatını itirmiş və xeyli insan da bölgədən

qaçmışdır.

*Əbu Nadrə (r.ə) belə söyləmişdir: "Cabir (r.ə)-in yanında idik və o belə söylədi: "Elə bir zaman yaxınlaşır ki, İraq əhalisinə bir kilə (kütlə vahidi), bir dirhəm (pul vahididir) gətirilməyəcək". Biz də belə dedik: "Kimə görə belə olacaq". O isə belə dedi:* ***"Əcəmilər ('ərəb olmayanlar) buna mane' olacaqlar".*** *Sonra isə belə dedi: "Şam əhalisinə bir dinar, bir kilə (kütlə vahidi) belə gətirilməyəcək". Biz də: "Bu kimdən ötrü olar" dedik. O da:* ***"Rumlardan ötrü olar"*** *dedi. (Et-Tac, Ali Nâsıf el-Hüseyni)*

İraq, müsəlman olmayan xarici dövlətlər tərəfindən işğal edilmiş və dərhal sonra hədisdə bildirildiyi kimi, yenə xarici dövlətlər tərəfindən İraqa uzun müddət embarqo tətbiq olunmuşdur.

*O:* ***"İraqa ölçəyi və dirhəmi verilməyəcək. Şama da ölçəyi və dinarı verilməyəcək. Misirə ölçəyi və dinarı verilməyəcək.*** *Başladığınız yerə qayıdacaqsınız" deyə buyurdu və bunu üç dəfə təkrarladı. Buna Əbu Hüreyrənin əti və qanı şahid oldu". (Müslim, Fiten 33, (2896); Ebu Davud, Harac 29, (3035))*

*"İraqlıların əlində demək olar ki, ölçəcəkləri bir çəki aləti və alver edə biləcəkləri bir pul qalmayacaq". (Kenzul Ummal, Kitab-ul kıyame kısm-ul efal, V cild, səh. 45)*

Hədislərdə üç ölkəyə diqqət çəkilməsi mənalıdır. İraq, Suriya və Misir, müxtəlif səbəblərdən ötrü, hazırki vaxtda qarışıqlıqların artdığı Orta Şərqin üç böyük ölkəsidir. Hədislərdə bildirildiyi şəkildə həmin bu qarşıdurmalardan ötrü, hər iki ölkənin də iqtisadiyyatı böyük zərər çəkmişdir. İraqın işğalından sonra İraq dinarı tədavüldən çıxarılmış, Misirdə baş verən daxili qarşıdurmalardan sonra iqtisadiyyata böyük zərbə vurulmuşdur. Suriyada isə, onsuz da iqtisadiyyat adlı bir şey qalmamışdır.

Həm İncil keçidləri, həm də Peyğəmbərimiz (s.ə.v)-dən rəvayət edilən hədislərdən də açıqca aydın olduğu kimi, İraqda başlamış və Orta Şərqin böyük hissəsində yayılmış müharibə, armaqedon ilə əlaqədar bütün təriflərə uyğun gəlir. Armaqedon, həzrəti İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın çıxışından əvvəl yer üzündə baş verəcək Axırzaman əlamətlərindən bir əlamətdir. Armaqedon mövzusunda qurulmuş bütün oyunlar hz. Mehdi (ə.s)-ın gəlişi ilə pozulacaq. Dəccal mərkəzlərinin dəstəkçisi halına gətirilmiş bəzi müsəlman və xristianların qan və vəhşət gözləntiləri boşa çıxacaq. Hz. İsa (ə.s)-ın zühuru, qan və müharibə xəbərçisi deyil, tam əksinə bütün bu müharibələrin bitdiyi, Orta Şərqin və dünyanın rifaha nail olduğu sülh xəbərçisi olacaq.

**ƏSİL MÜSƏLMANLAR, ƏSİL XRİSTİANLAR VƏ ƏSİL YƏHUDİLƏR SÜLH MƏSƏLƏSİNDƏ BİRLƏŞƏCƏK VƏ BİRLİKDƏ ALLAHIN ADINI UCALDACAQLAR.** Hz. Mehdi (ə.s)-ın zühur etdiyi dövr, bütün bu vəhşət ssenarilərinin əksinə, SEVGİ, SÜLH, DİNCLİK VƏ ƏMİN-AMANLIQ DÖVRÜ OLACAQ.

Hz. Mehdi (ə.s) dövründə MÜHARİBƏLƏR VƏ QIRĞINLAR BİTƏCƏK. CİNAYƏT

TÖRƏDİLMƏYƏCƏK, CƏZAÇƏKMƏ MÜƏSSİSƏLƏRİ BELƏ BOŞALACAQ. Tank, top, tüfənglər əridilib yox ediləcək.

**Hz. Mehdi (ə.s) dövründə nəinki müharibə və qarışıqlıq yaşanmayacaq, hətta TƏK BİR İNSANIN BURNU BELƏ QANAMAYACAQ.** Hz. Mehdi (ə.s), şəfqəti, sevgisi, ədaləti, gözəl əxlaqı ilə bütün dünyanı qardaşlığa, sülh və sevgiyə yönəldəcək, dünya sülh və bolluğun hökm sürdüyü, insanların nemət və dinclik içində yaşadığı QIZIL ƏSRƏ daxil olacaq.

Allah, hər üç dində də sevgini, sülhü və qardaşlığı tərifləmiş və ucaltmışdır. Allahın bütün iman sahiblərinə bir rəhmət kimi xəbər verdiyi hz. Mehdi (ə.s) dövrünü, bir qırğın və vəhşilik dövrü kimi göstərməyə çalışan azğın düşüncənin, Dəccalın bir oyunu olduğu görməzlikdən gəlinməməlidir. Səmimi olan hər müsəlman və hər xristian ağıllı şəkildə düşünməli və oynanılan bu oyunu görməlidir.

# VII Fəsil
# Bəzi xristianların müsəlmanlar barəsindəki yanlış dünyagörüşləri

Mövhumatçı, bir dinin tələblərini yerinə yetirirmiş kimi görünüb əslində o dinə sonradan daxil edilən xurafatlara tabe olan, hətta xurafatları özü yaradan insana deyilir. Hər dində müvhumatçılar ola bilər. Mövhumatçı bir insanın ən nəzərə çarpan xüsusiyyəti, tabe olduğunu iddia etdiyi dinin hökmlərinə uyğun davranmağı rədd etməsi, hətta o dinin gətirdiyi məsuliyyətləri qəbul etməməsi, özünə görə bir din anlayışı mənimsəməsi və bunu özünə və cəmiyyətə zorla qəbul etdirməyə çalışmasıdır. Dolayısilə mövhumatçı ideologiyaya sahib bir insan üçün dində olmayan tətbiqlər asanlıqla dinə daxil edilə bilər. Dindənkənar mövzular çəkinmədən tətbiq oluna bilər, hətta din adı altında cinayətlər işlənə bilər, cəmiyyətlər cəhalətə sürükləndirilə bilər, təzyiqlər göstərilə bilər, sevgini ön plana çıxardan haqq dinlər nifrət dinləri kimi göstərilə bilər. Məhz bundan ötrü də, bir mövhumatçı, olduqca təhlükəlidir.

Bir qədər əvvəl ifadə etdiyimiz kimi, mövhumatçı hər dindən çıxa bilər. Xristian mövhumatçılar olduğu və xristianlığı əslindən tam fərqli göstərdikləri, bu sevgi dinini sanki nifrət dini kimi göstərə bildikləri kimi; İslamı olduğundan fərqli göstərməyə çalışan mövhumatçılar da var. İslam adı altında qəzəb, cəhalət, nifrət, intihar, qırğın kimi terminlərlə xatırlanan; elmə, incəsənətə, gözəl olan hər şeyə qarşı çıxan; nemətlərdən zövq ala bilməyən, eləcə də, xristian və yəhudilərə qarşı düşməncə münasibət bəsləyən zehniyyət, müsəlmanların deyil, mövhumatçıların zehniyyətidir. Bir çox insan öz aləmində İslamla eyniləşdirdikləri bu qəribə görünüşü tənqid edir və bundan ötrü də, İslama qarşı cəbhə alırlar. Halbuki cəbhə almalı olduqları İslam dini deyil, mövhumatçılıqdır, radikal zehniyyətdir..

## Radikalizm, Qurana zidd, sevgisiz sistemin adıdır

İslam dininə aid edilməyə çalışılan qaranlıq və qan tökücü zehniyyət, əslində İslama deyil, mövhumatçılığa aiddir. Bu, din adı altında radikalizmi müdafiə etmək deməkdir. **Mövhumatçı, yəni radikal bir insan sevgisizdir, ruhu qapqaradır, mövhumatçı və**

**anlayışsızdır. Hər cür gözəlliyə, estetikaya, incəsənətə və elmə qarşıdır. Həyata qarşıdır; sevincə, xoşbəxtliyə qarşıdır.**

**Mövhumatçı zehniyyətdəki bir insan hər gözəlliyə nifrətlə baxar.** Çiçəkdən nifrət edər, uşaqdan nifrət edər, pişikdən, itdən, dovşandan nifrət edər. İçi və ruhu bomboşdur. Ruhlarında sevgiyə aid heç nə yoxdur. İnsana dəyər verməz, heç bir canlı varlığa əhəmiyyət verməzlər. İncəlik, şəfqət, mərhəmət onların bildikləri anlayışlar deyil.

Bütün bunların nəticəsi olaraq bir mövhumatçı, **qadından da nifrət edər**. Bəzi insanlar tərəfindən İslama aid edilməyə çalışılan qadın düşmənçiliyi, əslində qadına ən çox dəyər verən, qadını ucaldıb qoruyan İslamın deyil, mövhumatçı və mürtəce radikalların xüsusiyyətidir (bu mövzu kitabın irəliləyən səhifələrində geniş şəkildə ələ alınacaq).

Mövhumatçı zehniyyətdəki bir insan, heç kəsi sevmədiyi kimi sevilməz də. Hər kəs bir mövhumatçının varlığından, məntiqindən, həyat və düşüncə tərzindən narahat olar. Hətta mövhumatçı zehniyyətdəkilərdən digər mövhumatçılar belə nifrət edərlər. Heç vaxt həmrəy olmazlar, dostluq və rahatlıq içində olmazlar. Əlbəttə ki, bu Qurandan uzaq yaşamalarından qaynaqlanır.

Burada təkrar əhəmiyyətlə ifadə etmək lazımdır ki, bir mövhumatçı və ya digər bir sözlə, bir radikal, hər dindən və hər təbəqədən çıxa bilər. Təkcə müsəlmanların deyil, xristianlar və yəhudilərin arasında da dini əslindın uzaqlaşdırmağa çalışan, Allah inancının gətirdiyi coşğu və sevgi əvəzinə qapqaranlıq və qan tökücü bir ruh halını yerləşdirməyə çalışan insanlar var. Burada mövzu etibarilə müsəlmanlar arasına gizlicə daxil olmağa çalışan mövhumatçı təbəqədən bəhs edilir.

Bir mövhumatçı, hansı təbəqədən və hansı dindən olsa da, eyni çirkli və qaranlıq fikrin nümayəndəsidir. **Bu ürküdücü ruh halının bir nəticəsi olaraq mövhumatçı zehniyyətdəki bir insan daim qan istəyər. Hər yerdə qan axtarar._Təkcə qan və zülmlə rahatlıq tapar.** İçindəki nifrəti ancaq qan axıdaraq, pisliklə ifadə edər. Məhz, İslam adından ortaya çıxıb qan tökücülüyü müdafiə edən, xristianlara, yəhudilərə hətta müsəlmanlara qarşı düşmənçiliyi yayan insanlar, Quranda təsvir edilən əsil MÜSƏLMANLAR DEYİL, dəccaliyyətin təsiri altındakı MÖVHUMATÇILARDIR.

**Məhz bütün bu səbəblərdən ötrü də, xristian qardaşlarımız mövhumatçıları, əsil müsəlmanlardan, mövhumatçı zehniyyəti də, əsil İslam dinindən çox yaxşı ayırt etməlidirlər. Təkcə bu zaman qarşı çıxdıqlarının İslam deyil, radikalizm olduğunu görə biləcəklər.**

Bəs İslam, niyə dünyada mövhumatçılar tərəfindən olduğundan fərqli göstərilir və buna icazə verilir?

## Müsəlman əleyhdarlığını qızışdıran dəccaliyyət və radikalizm əlaqəsi

Müsəlman əleyhdarlığını genişlətmək, Dəccal üçün mühüm bir hədəfdir. Çünki İslam son haqq dindir və Quran 1400 ildir ki, heç bir dəyişikliyə uğramamışdır. Allahın himayəsi altında olan Quran ayələri, haqq dinin mükəmməl mənada yaşanması üçün kifayətdir. Qurana tam tabe olunaraq yaşanılan əsil İslam dini ilə möhkəm və güclü iman meydana gələr.

Məhz bu güclü iman, insanların get-gedə daha çox dindarlaşması və üç dinin iman sahibləri arasında hər keçən gün güclənən həmrəylik, Dəccal üçün böyük təhlükə və təhdiddir. İslam əxlaqında mühüm yeri olan birlik və həmrəylikdən qaynaqlanan maddi və mənəvi güc, Dəccalın illər ərzində yaratdığı bütün şeytani sistemləri və ideologiyaları ortadan qaldıra biləcək böyüklükdədir. Dəccal; müsəlmanların hamısı birlik olduqda və bu birlik, yəhudi və xristianlarla da ittifaq yaratdıqda bunun dünyada necə nəhəng bir güc meydana gətirəcəyini, fəlsəfəsinin elmi və fikri cəhətdən necə bir korlanacağını çox yaxşı bilir.

Dəccal sisteminin qabaqcılları, yaratdıqları şeytani sistemin qarşısında dayanan bu mənəvi gücün varlığından uzun müddətdir ki, xəbərdardırlar. Necə ki, illərdir, incə siyasət və strategiyalarla qurduqları qanlı armaqedon planının səbəbi də bundan xəbərdar olmalarıdır. Bu plan çərçivəsində, **əslində darvinist və ateist olan bəzi insanları "müsəlman" adı altında terrorist kimi yetişdirmiş, guya İslama xidmət adı altında qırğınlara göndərmişdirlər.** Yenə həmin bu mərkəzlər, günahsız insanlara istiqamətli cinayət, sui-qəsd, qırğın, intihar hücumu kimi İslamın ruhuna tamamilə zidd olan anlayışları İslamda varmış kimi göstəriblər. Hətta İslama zidd olan fikirləri elə yayıblar ki, **özlərini İslam alimi kimi göstərən bir sıra insanlar** belə, bütün dinlər arasında yaşanılacaq və milyonlarla insanın ölümü ilə nəticələnəcək bu qanlı müharibə planını açıqca müdafiə etməyə başlayıblar. Yüz minlərlə insana təsir etmiş, yüz minlərlə insana insan öldürməyi və qırğın törətməyi normal göstərə bilmişdirlər. Üstəlik, özlərini və ətraflarındakı insanları bunu Allah üçün etdiklərinə inandırıblar.

Bu kitabda ələ aldığımız armaqedon müharibəsi gözləntisi kimi, İslama aid edilməyə çalışılan qırğın və müharibə ssenariləri də eyni Dəccali zehniyyətin məhsuludur. Dəccal bu üsuldan istifadə edərək iman sahiblərini bir-birindən ayırmağı, aralarını vurmağı, güclərini yox etməyi və beləliklə də, öz azğın planlarını həyata keçirmək üçün imkan və mühit yaratmağı hədəfləyir və bunu böyük ölçüdə bacarmışdır.

Bunu həmişə xatırlamaq lazımdır. Dəccal, iman sahiblərinə qarşı hər vaxt Allahın adından istifadə edərək ortaya çıxmışdır. O, heç vaxt üzünü açıqca bəlli etməz. İman sahiblərini doğru yoldan uzaqlaşdırmaq **üçün mütləq dindən və dindar görünüşlü bəzi**

**insanlardan istifadə edər.** Məhz bundan ötrü də, Dəccal dindar təbəqə üzərində təsirli ola bilmiş, öz şeytani sistemini dəstəkləyəcək və gücləndirəcək hər cür batil və azğın fikri asanlıqla yaya bilmişdir.

**İslamla əlaqələndirilməyə çalışılan azğın iddiaların (bunlar arasında müsəlmanların, xristianları və yəhudiləri qətlə yetirmək istədikləri, müsəlman olmayanlara yaşamaq şansı verməyəcəkləri, sevgi və şəfqətdən uzaq olduqları kimi yalan iddialar sayıla bilər) hamısı uydurmadır.**

Əsil sülh və sevgi dini olan İslamın əslini tanımayanlar, Quran ayələrindəki qardaşlıq, ədalət, sülh, mərhəmət və şəfqətlə əlaqədar ayələrdən xəbərsiz olanlar, bu yalan iddiaların azğın istiqamətlərini görməyə bilərlər. Dəccali mərkəzlərin İslama aid etməyə çalışdıqları həmin bu İslam görünüşünün azğın və yalan olduğunu anlaya bilmək üçün; **Quranla hökm edən, Quranın ruhunu bilən, Quranı Peyğəmbərimiz (s.ə.v) kimi anlayan və tətbiq edən** insanlar olmaq lazımdır. Əgər bir insan "mövhumatçıdırsa", yəni İslam dinini azğın xurafatlarla şərh edir, öz aləmində ağla və məntiqə zidd olan (həmçinin Quranla da uyğun gəlməyən) hökmlər çıxardır, asanlıq dini olan İslamı (haşa) çətin, anlaşılmaz, qarşıdurma çıxardan, davakar, sevgisiz və s. kimi göstərirsə, (Allahın istəmədikdən sonra) bu həqiqəti anlaması qeyri-mümkündür. Əsil mühüm məsələ, mövhumatçılığın, təkcə İslam üçün deyil, xristianlıq və yəhudilik üçün də böyük təhlükə olmasıdır. Dolayısilə İslama aid edilməyə çalışılan azğın anlayışların təməlini anlaya bilmək üçün, mövhumatçılığın Qurandan və ümumiyyətlə bütün haqq dinlərdən nə qədər uzaq olduğu yaxşı qavranılmalıdır.

## Mövhumatçılar nə Quranı tətbiq edər, nə də tətbiq etdirərlər

Mövhumatçılar, yəni radikalistlər **İslama qarşı Dəccalın ən böyük tərəfdarlarıdır**. Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v) bunu bir hədisi ilə belə xəbər vermişdir:

*"Ümmətimdən başı sarıqlı yetmiş min alim, Dəccala tabe olacaq". (İmam Ahmed Bin Hanbel, Müsned, səh. 796)*

Peyğəmbərimiz (s.ə.v) hədisində, kimlərin Dəccala tabe olacağını bildirərkən, xüsusilə **müsəlman ümmətindən çıxacaq və özünü "alim" kimi göstərəcək** insanlardan bəhs edir. Hədisdə, Dəccal tərəfdarı olaraq bütün Allah dostlarına qarşı fəaliyyət aparan və dinə ən çox zərər verən başlıca qrupun, **özünü müsəlman kimi göstərən mövhumatçılar** olduğuna diqqət çəkilir.

Yenə Peyğəmbərimiz (s.ə.v) bir hədisində belə buyurur:

*"Axırzamanda nəsillər törəyəcək, belə ki, onların beyinləri işləməyəcək. Danışarkən çox gözəl danışacaqlar.* ***Quran oxuyacaqlar, lakin imanları qırtlaqlarından aşağı***

***keçməyəcək...*** *" (Buhari, Sahih 3611, 5057, 6930, Müslim, 1066, Ebu Davud 4767, Ahmed bin Hanbel, Müsned 1, 81, 113, 131, 289; Tayalisi, el-Müsned, nr. 1984.)*

Hədisdə bildirildiyi kimi, bu insanlar çox gözəl natiqlik qabiliyyətinə sahib və Quranı oxuyan insanlar olacaq; lakin "imanları boğazlarından keçməyəcək", yəni **Quranı əsas kimi qəbul etməyəcəklər**. Qurandan bəhs edəcək, ancaq Qurana bağlı olmayacaq və Qurana xurafat qarışdıraraq hökm verəcəklər. Quranın açıqlamalarını kafi görməyəcək, İslam adı altında yaratdıqları dini tətbiq edəcəklər.

Mövhumatçıların məqsədi, Quranı tətbiq etdirməməkdir. Onlar, Quranda olmayan şeyləri İslam dininə daxil etməyə çalışarkən, Quran ayələrində qeyd olunan və öz batil xurafatlarına uyğun gəlməyən hökmləri və tövsiyələri də rədd edirlər.

Onlar üçün Quranın sevgini, şəfqəti, qardaşlığı, birliyi, sülhü nəsihət etməsi, Quranda bütün gözəlliklərin tərifləniIməsi, incəsənətin, elmin təşviq edilməsi böyük qəzəb səbəbidir. Quran əxlaqını yaşamağın gətirdiyi ruh keyfiyyəti və dərinliyi, ağıllı, estetik, müasir, sevgi dolu müsəlman modeli, onların xurafatçı dinlərinə qətiyyən uyğun gəlmir. Məhz buna görə də, Dəccal, öz aləmində Qurana əsaslanan İslam dininə içəridən zərbə endirmək və guya ləğv etmək üçün mövhumatçılıqdan istifadə edir. Lakin xüsusilə ifadə etmək lazımdır ki, Dəccalın ordusunun mühüm hissəsini hər dindən çıxacaq və öz dinlərinə və bütün dünyaya zərər vermək məqsədinə sahib olacaq mövhumatçılar meydana gətirir. Həm xristian, həm yəhudi, həm də müsəlman mövhumatçılar eyni qanlı ssenari üçün birləşir, bu döyüşün baş verməsi və dünyadakı dəccali sistemin yayılması üçün əllərindən gələni edirlər.

Burada bunu da ifadə etmək lazımdır: Həqiqətən səmimi olan, Allahı qəlbən sevən, yalnız məlumatsızlığından və ya aldığı yanlış təlimdən ötrü İslam dinində həqiqətdə olmayan fikirləri müdafiə edənlər ola bilər. Hazırda dünyadakı radikal seqmentin böyük hissəsini bu insanlar meydana gətirir və bu şəxslərə yönəlmiş mütləq şəkildə şəfqət formalı təhsil fəaliyyəti lazımdır. Onlar, Quranın nuru ilə aydınlıqları vaxt, mütləq doğrunu və haqqı qəbul edəcək kimsələrdir. Uca Allah mütləq səmimi qullarına doğru yolu göstərəndir.

## Mövhumatçılıq xristianlıq üçün də təhlükədir

Daha əvvəl qeyd etdiyimiz kimi, mövhumatçılar hər dindən çıxa bilir. Necə ki, hz. İsa (ə.s)-a öz aləmlərində zərər verməyə çalışanlar da din adından ortaya çıxan dövrün mövhumatçıları idi.

İncildə hz. İsa (ə.s), ikiüzlülər, korlar və ilanlar şəklində səsləndiyi mövhumatçıları bu açıq ifadələrlə təsvir etmişdir:

*"Vay halınıza ey din alimləri və fəriseylər, ikiüzlülər! Göylərin hakimiyyətinin qapısını*

*insanların üzünə örtürsünüz; nə özünüz içəri girir, nə də girmək istəyənləri buraxırsınız!*

*"Vay halınıza ey din alimləri və fəriseylər, ikiüzlülər! Tək bir insanı dininizə döndərmək üçün dənizləri, qitələri gəzərsiniz. Dininizə dönəni də özünüzdən iki qat cəhənnəmlik edərsiniz.*

*"Vay halınıza ey din alimləri və fəriseylər, ikiüzlülər! Siz nanənin, şüyüdün və zirənin onda bir hissəsini verərsiniz, ancaq Müqəddəs Qanunun daha mühüm mövzularına (ədaləti, mərhəməti, sədaqəti) məhəl qoymarsınız. Onda bir hissəni verməyi ehmal etmədən əsl bunları yerinə yetirməliydiniz. Ey kor bələdçilər! Kiçik ağcaqanadı süzər ayırd edər, lakin dəvəni udarsınız!*

*"Vay halınıza ey din alimləri və fəriseylər, ikiüzlülər! Stəkanın və çanağın kənarını təmizləyirsiniz, halbuki bunların içi acgözlük və azğınlıqla doludur. Ey kor fərisey! Sən əvvəlcə stəkanın və çanağın içini təmizlə ki, kənardan da təmiz olsunlar.*

*"Vay halınıza ey din alimləri və fəriseylər, ikiüzlülər! Siz kənardan gözəl görünən, lakin içi ölü sümükləri və hər cür murdarlıqla dolu əhənglənmiş məzarlara bənzəyərsiniz. Kənardan insanlara dürüst görünərsiniz, lakin daxilən ikiüzlülük və pisliklə dolusunuz.*

*"Ey ilanlar, gürzələr nəsli! Cəhənnəm cəzasından necə qaçacaqsınız? Məhz bunun üçün sizə peyğəmbərlər, müdriklər və din alimləri göndərirəm. Bunlardan bəzisini öldürəcək, ... bəzisini sinaqoqlarınızda qamçılayacaq, şəhərdən şəhərə qovacaqsınız. Beləliklə, doğru insan olan Habilin qanından, məbədlə qurbangah arasında öldürdüyünüz Berekya oğulu Zəkəriyanın qanına qədər, yer üzündə axıdılan hər dürüst insanın qanından məsul tutulacaqsınız. (Matta 23: 13-35)*

## Xristianlar mövhumatçılığı, həqiqi İslamla qarışdırmamalıdırlar

Qətiyyən Quranda yeri olmayan; İslam adından müharibələr yaradan, zülm edən, intihar hücumları təşkil edən, öldürmək və qan axıtmaq ardınca qaçan müsəlman modeli, xristian və yəhudilərin İslam dini haqqında yanlış qənaət sahibi olmalarına səbəb olur.

Daha əvvəl ifadə etdiyimiz kimi, **qan tökücü zülm sistemini müdafiə edənlər həqiqi İslamdan, yəni Quran əxlaqından tamamilə uzaqdırlar.** Onlar bunu, cahilcəsinə yaratdıqları xurafatlarla və batil inanclarla dolu batil dinlərinin tələbi olaraq edirlər. **Quranda sevgisiz, mərhəmətsiz, qarşıdurma meydana gətirən bir zehniyyətə qətiyyən yer yoxdur.**

Rəbbimiz Quranda hansı dindən olursa olsun, mövhumatçılığı müdafiə edən, dini xurafatlarla qarışdırmağa və yaşanmaz hala gətirməyə təşəbbüs edən, Allahın adı ilə insanları aldatmağa çalışan bu zehniyyətdəki insanları belə tanıdır:

**Onlardan elə bir dəstə də vardır ki, oxuduqlarını Kitabdan hesab edəsiniz deyə Kitabı oxuyarkən dillərini əyib bükürlər. Halbuki bu, Kitabdan deyildir. Onlar: "Bu, Allah tərəfindəndir!" deyirlər. Halbuki o, Allah tərəfindən deyildir. Onlar bilə-bilə Allaha qarşı yalan danışırlar. (Ali İmran surəsi, 78)**

Əsil müsəlmanlıq Allahın Quranda bildirdiyi, mübarək Peyğəmbərimiz (s.ə.v)-in şərh etdiyi İslam əxlaqına uymaqla yaşanılar. Yəni müsəlmanlar, bəzi mövhumatçıların xurafatlarına və uydurma izahlarına görə deyil, **Qurana və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinə görə yaşamaqla məsuldurlar**. Meyar xurafatlar deyil, Quran və sünnədir. Əsri Səadət dövründə, Qurana və Peyğəmbərimiz (s.ə.v)-in həyatına uyğun yaşanılan İslam həqiqi İslamdır. Peyğəmbərimiz (s.ə.v)-in çox şəfqətli, sevgi dolu, qoruyucu, zadəgan, incəsənətə, estetikaya, gözəlliyə, təmizliyə, nəzakətə çox dəyər verən həyatı, hər müsəlman üçün ən mükəmməl nümunədir. Dolayısilə **müsəlman olmayanların İslamı həqiqətlərə görə deyil, əksinə bəzi mövhumatçıların qaranlıq həyatlarına görə qiymətləndirmələri böyük səhvlikdir** (mövzuyla əlaqədar ətraflı məlumat toplamaq üçün baxın: Harun Yəhya, *"qaranlıq təhlükə fanatizm").*

Xristian qardaşlarımız aşağıdakı açıqlamaları mütləq diqqətlə oxumalıdırlar:

# 1-ci hissə

## İslamı zorakılıqla uyğunlaşdırmaq həqiqi islamı tanımamaqdan qaynaqlanar

Terrorist hücumları, kütləvi qırğınları, intihar bombaçılarının hərəkətlərini İslamla uyğunlaşdıran bəzi insanlar, dünyada İslam adı altında terror əsdirənlərin müsəlman olduqlarına dair yanlış fikrə qapılırlar. Üstəlik, bu insanların Qurana tabe olan əsil müsəlman olduqlarını düşünürlər. Halbuki bu insanların nə İslam, nə də müqəddəs kitabımız Qurani-Kərimlə heç bir əlaqələri yoxdur.

## İslam dini; terrorist hücumları, qırğınları, intihar hücumlarını və hər cür vəhşiliyi lənətləyir

Hazırki dövrdə dünya tərəfindən tanınan və ölkələrində zalımlıq edən terrorist liderlərin böyük əksəriyyəti, əslində təxribat törətmək, üçün xüsusi olaraq öyrədilmiş kəşfiyyat agentləridir. Bunlar, ABŞ və Avropada tanınmış kəşfiyyat qruplarına mənsubdurlar və bilavasitə bu təşkilatlardan əmr alırlar. Bu insanların hamısı materialist və darvinist təhsil alıblar. Bu insanlar Allahın əmr etdiyi həqiqi İslam əxlaqını həyatlarının heç bir anında yaşamayan, Peyğəmbərimiz (s.ə.v)-in sevgi və şəfqət dolu, mərhəmətli, bağışlayıcı və ədalət sahibi əxlaqından uzaq, **darvinist təlqinlərin təsiri altında olan insanlardır. Bu insanların qapıldıqları böyük yanlış fikrə görə həyatda qalmağın və güclü olmağın tək yolu qarşıdurmadır, müharibədir. Guya zorakılıq və zülm həyatın tələbidir, sevgi, şəfqət və mərhəmət kimi xüsusiyyətlər isə insanı zəif göstərən acizliklərdir.**

Bəzi ibadətləri yerinə yetirmələri, hər hansı bir İslam ölkəsinin vətəndaşı olmaları, şəxsiyyət vəsiqələrində müsəlman yazması həqiqəti dəyişdirməz. Bu insanlar tamamilə darvinist dünyagörüşünə sahibdirlər. Ətraflarındakı insanları da materialist-darvinist dünyagörüşünə görə qiymətləndirərlər:

Onların qapıldıqları bu böyük yanlış fikrə görə: "İnsanlar, bir qədər daha inkişaf etmiş heyvanlardır; ruhları və mənlikləri yoxdur, heç kimə qarşı məsul deyildirlər. Hər heyvan kimi insan da həyatda qala bilmək üçün eqoist olmaq, təkcə özünü düşünmək məcburiyyətindədir. Bu heyvan dəstəsindəki zəiflər mütləq aradan götürülüb, yox edilməlidirlər". Əlbəttə ki, bu yanlış məntiqdəki bir insanın kütləvi qırğınlar törətməsinə mane ola biləcək heç bir əxlaqi və vicdani səbəb qalmır.

Həmin bu terrorist liderlər, əslində, ABŞ-da və müxtəlif Avropa ölkələrində, İslam əxlaqından uzaq şəkildə "ədəbsiz və özündənrazı" yetişdirilmiş, gecə klublarından çıxmayan, Qərb mədəniyyətinin mənfi və degenerasiya olunmuş tərəflərini qəbul etmiş ateist zehniyyətdəki insanlardır. Burada bunu ifadə etmək lazımdır ki, bir insan din əxlaqını yaşamağa başlamadan əvvəl hər cür fərqli həyat tərzini yaşamış ola bilər, bu qınanılacaq vəziyyət deyil. İnsanın səmimi şəkildə tövbə edib Allah inancına yönəlməsiylə Allahın, onun bu səhvlərini bağışlaması ümid edilər. Lakin həmin bu insanlar üçün vəziyyət fərqlidir.

Bu insanlar vəzifə zamanları gəldikdə, saqqal buraxıb əhli-sünnə inancına bağlı bir müsəlman görünüşünə bürünüb iş başına keçərlər. Bəzi kəşfiyyat təşkilatlarının dərin bölmələrindən lazımi əmrləri alar və bunlara uyğun fəaliyyətlərini tərəddüdsüz icra edərlər. **Onların müsəlmanlıq və İslamla heç bir əlaqələri yoxdur.** Onların dini İslam deyil; materializmdir, darvinizmdir. Qurana tamamilə tabe olan, səmimi müsəlmanların, Qurana zidd olan belə bir zülm sisteminin dəstəkçisi və hissəsi olmaları qeyri-mümkündür. **Dünyada bu zülmü həyata keçirənlər, darvinistlər, materialistlər, Stalin, Çe (Che), Lenin, Mussolini, Hitler və Mao pərəstişkarlarıdır.** Bunlar, qanlı materialistlərin, kommunistlərin, faşistlərin azğın fikirlərini öz aləmlərində İslam adı altında tətbiq etməyə çalışan, din əxlaqından tamamilə uzaq düşüncədəki insanlardır. Bəzi ətraflar tərəfindən haqsız yerə,

İslam dininə aid edilməyə çalışılan zalım sistem, məhz bu şəkildə işləyir.

Müsəlmanların bir hissəsi, İslam adı altında həyata keçirilən bu zalım tətbiqlərin həqiqətləri əks etdirmədiyini iddia edə bilər və bunu tamamilə inkar edə bilərlər. Halbuki əsil doğru olan, bu fəaliyyətləri rədd etmək deyil, bunların, bəzi din əleyhdarı kəşfiyyat agentləri tərəfindən, öz aləmlərində İslam dinini dünyada təsirsiz hala gətirmək və Onun güclənməsinin qarşısını almaq üçün edildiyini qeyd etməkdir. Bütün bunların İslam dinində qəti şəkildə haram buyurulan hərəkətlər olduğu hamıya eşitdirilməsidir.

## Xirosimaya atılan bomba xristianların əməli hesab edilməmişdir, terrorist fəaliyyətlər də həqiqi müsəlmanların əməli hesab edilə bilməz

Yuxarıda bəhs etdiyimiz düşüncədəki xristianlar, müsəlmanlar barəsində bu əsassız iddialarla çıxış edərkən, mühüm bir xüsusu görməzlikdən gəlirlər. Məlum olduğu kimi, keçmişdə Amerika Birləşmiş Ştatları; Xirosima və Naqasakiyə atom bombası ataraq on minlərlə günahsız insanın həyatını itirməsinə səbəb oldu. Bu insanlar arasında müsəlmanlar, xristianlar və yəhudilər də vardı. Eləcə də, uşaqlar, yaşlılar, günahsız qadınlar və kişilər. Lakin İslam aləmi, heç vaxt əksəriyyəti xristian olan ABŞ hökumətinin həyata keçirdiyi bu tətbiqi xristianlığa aid etmədi.

Bombanı atan insanların hansı dindən olduqlarının üzərində heç dayanmadı, bu bombalamanın "xristian hücumu" olduğunu iddia etmədi. Yenə eynilə keçmişdə baş verən və adı açıqca "xaç yürüşləri" olan hücumlar əsnasında da, minlərlə müsəlman vəhşicəsinə şəhid edildi, hətta fərqli məzhəblərdəki xristianlar da işgəncəyə uğradılıb öldürüldü, məscidlərlə yanaşı kilsələr də talan edildi. Son dövrdə İraqda, Əfqanistanda və bəzi digər müsəlman ölkələrində tökülən qanlar da müsəlman qanı idi. Lakin heç vaxt müsəlmanlar bunlara əsaslanaraq, İncilə tabe olanların qan tökücü olduqları söyləmədilər.

Hər ağıllı insan, zülmün yaşandığı bir yerdə mütləq dinsizliyin hakim olduğunu asanlıqla anlaya bilər. Necə ki, Qurana tabe olan, Allaha iman gətirən ağıllı müsəlmanlar, həmin bu qırğınlardan ötrü heç vaxt xristianlığı məsul tutmazlar. Bu, Allaha qəlbən iman gətirən bir insanın edə biləcəyi bir hərəkət deyil.

Müsəlmanlara qarşı həmin bu çirkin iddialarla çıxış edən bəzi xristianların da artıq bu yanlış düşüncələrindən və vərdişlərindən imtina etmə vaxtı gəlib çatmışdır. Ümumiyyətlə bu iddiaların təməlində məlumatsızlığın böyük təsiri olur. Bundan ötrü də, xristianlar ön mühakiməsiz şəkildə Quranı oxumalı, Peyğəmbərimiz (s.ə.v)-in həyatını araşdırmalı və mütləq həqiqi İslam əxlaqını yaşayan saleh möminlərin əsərlərini, həyatlarını, düşüncələrini və fəaliyyətlərini nəzərə almalıdırlar.

# Hörmətli Adnan Oktarın qarqad ağacı hədisi ilə əlaqədar açıqlamaları

## Qarqad ağacı hədisi ilə, Axırzamandakı gizli kamera sistemlərindən xəbər verilir

**Adnan Oktar**: Hədisdə: *"Yəhudilərlə döyüşəcək və onları öldürəcəksiniz"* deyilir. Əgər yəhudi olan bir insan din əleyhdarıdırsa və müsəlmanlara hücum edirsə, qan tökürsə, uşaqları öldürürsə, insanları öldürürsə özünü qanuni olaraq müdafiə edərsən. Buradakı hədisdə qanuni müdafiə olunmaqdan bəhs olunur, günahsız bir yəhudini öldürmək isə, haramdır.

*"Belə ki, daş belə: "Ey müsəlman, budur yəhudi, arxamda (gizləndi), gəl, öldür onu!" deyəcək""*. Məsələn, tutaq ki, 3-4 yaşında bir uşaq var, daşın arxasında dayanır, o da daşdan da bir səs gəldiyini eşitdi: "Ey müsəlman gəl, yəhudi var arxamda öldür" deyə. Deməli, sən hallüsinasiya görürsən, sənə şeytan səslənir. Uşaq öldürülməz, məzlum öldürülməz, qadın öldürülməz. Təkcə qanuni müdafiə olunma vəziyyətində, özünü müdafiə edə bilərsən. Bundan başqa, insan öldürmək yoxdur. Dolayısilə biz bir daşın arxasında yəhudi bir uşaq görsək, daşdan da bizə səs gəlsə, biz belə deyərik: "Hallüsinasiya görürük" və səsə qulaq asmarıq.

Məsələn, on yəhudi uşağı, biri hamısını öldürsə Allah qorusun. "Haradan çıxartdın bunu" desək, o da: "Daş mənə söylədiyi üçün etdim" desə, biz onun dəli olduğunu anlayarıq və bu insan cinayət işləmişdir, qatildir. Açıq şəkildə cinayət işləmişdir, zülm etmişdir və qarşılığı cəhənnəmdir.

Hədisin mənası yaxşı bilinməlidir. Peyğəmbərimiz (s.ə.v) Axırzamandakı ünsiyyətə diqqət çəkir... Qayadan, qayanın arxasından gələn məlumatla onlara qarşı əməliyyat icra edilir və ya ağacların arasına gizlənir. Ağacın arasına hiss etdirmədən gömülür və oradan məlumat alınır gizli kamerayla. Bu, müdafiə döyüşündə meydana gələcək sistemə diqqət çəkməkdir. Peyğəmbərimiz (s.ə.v), hz. Mehdi (ə.s) dövründəki yüksək texnologiyaya diqqət çəkir. Yoxsa günahsız birini öldürmək haramdır.

Peyğəmbərimiz (s.ə.v)-in dövründə heç bir yəhudi bu şəkildə qətlə yetirilmədi. Heç bir xristian qətlə yetirilmədi. Peyğəmbərimiz (s.ə.v) bilavasitə cübbəsini çıxardıb sərirdi, Kitab əhli də onun üzərində otururdu, Peyğəmbərimiz (s.ə.v) onlara hörmət edirdi, hörmət göstərirdi. Peyğəmbərimiz (s.ə.v)-in dövründə müsəlmanlar, xristianların yanına hicrət etdilər, onlara güvəndilər, can təhlükəsizliyi üçün. Onlarla qardaş oldular, getdilər süfrələrinin başına əyləşdilər, yeməklərini yedilər, xristian və yəhudi qadınlarla evləndilər.

**Altuğ Berker**: Müəllimim söylədiyinizlə əlaqədar ayə oxuyuram; 5-ci surənin (Maidə surəsi) 5-ci ayəsi: **"Bu gün pak nemətlər sizə halal edildi. Kitab verilənlərin yeməkləri sizə halal, sizin yeməkləriniz də onlara halaldır. İsmətli və azad mömin qadınlar da, sizdən əvvəl Kitab verilənlərin ismətli və azad qadınları da, namuslu olub zinakarlıq etməmək və dost saxlamamaq şərti ilə mehrlərini verdiyiniz təqdirdə sizə halaldır..."**

**Adnan Oktar**: Xristian qadınla evlənilir, yəhudi qadınla evlənilir. Evlənmək nə deməkdir? Sevgi var deməkdir, dostluq var deməkdir, qardaşlıq var deməkdir, elə deyil? Uşaqlarının anası olur. Eyni yataqda yatırsan, eyni mühitdə yeyib içirsən. Oxuduğumuz Quran ayəsidir. Ayə ilə, bildirilir *(Hörmətli Adnan Oktarın 21 noyabr 2010-cu ildəki müsahibəsindən).*

## Daşlar və ağaclar Axırzamanda müsəlmanlara məlumat verəcək

**Adnan Oktar**: ...Peyğəmbərimiz (s.ə.v) belə buyurub: *"Müsəlmanlar yəhudilərlə müharibə etmədikcə qiyamət qopmaz".* Yəhudilərlə Fələstində müharibə etdilər. Altı günlük müharibə var. Çox böyük hadisə oldu. Misirlə müharibə etdilər, Suriya ilə müharibə etdilər, İordaniya ilə müharibə etdilər. Bu hədis gerçəkləşdi. Bu oldu.

Yenə Rəsulullah (s.ə.v) digər bir hədisdə isə, belə buyurub: *"Hər daş, hər ağac ey müsəlman arxamda bir yəhudi var, gəl onu öldür deyəcək".* İndi bir kərə, bir insan günahına görə cəzalandırılar. Bir daşın arxasında yəhudi bir uşaqla qarşılaşsaq, məzlum kiçik bir uşaqla. Daş da bizə: *"Bax, burada, yanımda yəhudi bir uşaq var, onu öldür"* deyə səslənsə. Bu şeytanın səsləməsidir. Biz buna qulaq asmarıq. Çünki bu cinayətə təşviq edən bir hallüsinasiyadır. Bu düzgün deyil. Biz nə edərik? Arxamızda nəyin olub-olmadığını, məsələn, elektron cihaz vasitəsilə müəyyənləşdirə bilərik.

Elektron xəbərləşmə ilə, insanların yerini müəyyənləşdirə bilərik. Lakin öldürmək üçün deyil, təsirsiz hala gətirmək üçün. Zərər verən bir yəhudidirsə, dinsiz bir yəhudidirsə, Allahsızdırsa, kitapsızdırsa, Tövrata tabe olmursa, Qurana tabe olmursa, çünki Tövrata görə də, müsəlmanlara zülm edilməz. Çünki yəhudilər Tövrata görə müsəlmanlara Nuhun nəsli kimi baxmalıdırlar. Nuhun nəsli. Nuhun nəsli nə deməkdir? Müsəlman, mömin deməkdir. Hər yəhudi, müsəlmana Nuhun nəsli olaraq baxdığına görə, mömin olaraq gördüyünə görə; onun canına, malına və namusuna toxunması haramdır. Toxuna bilməz, lakin o zülm edən bir yəhudidirsə, deməli, daşlar, ağaclar, hər cür cisim, mebel də ola bilər, bir şey də ola bilər; mikro kameralarla, texniki alətlərlə bizə bunu xəbər verməlidir. Biz də yerini tapıb onu təsirsiz hala gətirməliyik.

Öldürmək demək, fikirlə təsirsiz hala gətirmək mənasındadır. Məsələn, bu hz. Mehdi (ə.s) barəsində də deyilir, belə ki, o (hz. Mehdi (ə.s)) dəccaliyyəti öldürür. Dəccalı öldürür, yəni fikrini öldürür. Fikri cəhətdən öldürməkdir, elmi cəhətdən öldürməkdir, bədəni deyil, inşaAllah. Dolayısilə daş və ağacın müsəlmanlara məlumat verməsi, Axırzamanda onsuz da baş verir hazırda.

Biz; "Cənub-Şərqi Anadolu bölgəsində mehmetciklərimizin mübarizəsində mikrokameralar yerləşdirilsin, düşmənin yeri müəyyənləşdirilsin" dedik. Kamera hara yerləşdirilər? Gizli, düşmənə qarşı mübarizə aparılırsa, daşın içinə yerləşdirməlisən. Yaxud ağacın içinə yerləşdirilməlidir ki, görülməsin. Gizlicə düşməni müəyyənləşdirə bilmək üçün, mükəmməl bir texnologiyaya, gizli bir kəşfiyyat şəbəkəsinin necə qurulacağına Peyğəmbərimiz (s.ə.v) vəhylə mükəmməl şəkildə işarə etmişdir.

Bu ancaq Axırzamanda olur hazırda. Bu yəhudilər üçün deyildir; əgər ateist yəhudi, ateist xristian və ateist müsəlman zülm verdisə, əzab çəkdirirsə, cinayət işləyirsə, biz onu müəyyənləşdirməliyik. Rəsulullah (s.ə.v) onun bir tərəfini, bir hissəsini söyləmişdir. Biz oradan hamısını anlayarıq. Peyğəmbərimiz (s.ə.v) əsaslı və qısa izah edər. Deməli, müsəlman, mübarizə anında bizim nəfsi müdafiə edəcəyimiz vaxt, gizli məlumatı bu cür bir sistemlə əldə edəcək Axırzamanda. Məsələn, Peyğəmbərimiz (s.ə.v): *"İnsanlar ovuclarının içinə baxıb, hz. Mehdi (ə.s)-ı görəcəklər"* deyə söyləyir. İndi etdilər. İpodlar var; telefonlar var. İnsan ovucunun içə baxan kimi, qarşısındakı insanı görür. Bu gerçəkləşmiş oldu. Nəzərdə tutulan budur, inşaAllah *(hörmətli Adnan Oktarın 14 noyabr 2010-cu ildəki müsahibəsindən).*

## "İslamda zorakılıq vardır" iddiası, dəccaliyyətin və ona itaət edən mövhumatçıların uydurmasıdır

Qurana görə İslamda zorakılıq, terror və intihar hücumların qətiyyən yer yoxdur. Qurana görə müharibə, yalnız can, mal və namus təhlükəsiylə üzləşildikdə, müdafiə məqsədi ilə edilə bilər. Belə hallarda belə, müsəlmanlar əsla həddi aşmamaq, əsir götürdükləri təqdirdə əsirlərə ədalətli davranmaq, hətta özləri ac olduqları vaxtlarda belə, ilk növbədə əsirlərə yemək verməklə, onları bağışlayıb sərbəst buraxmaqla, tezliklə sülhü təmin etməklə, məzlumları və vətəndaşları qorumaqla məsuldurlar. Necə ki, Peyğəmbərimiz (s.ə.v)-in həyatı araşdırıldıqda İslamın bu mövzuda hansı rəftarı zəruri etdiyi açıqca görülür.

## Müsəlmanlar müdafiə məqsədiylə vuruşublar

Peyğəmbərimiz (s.ə.v) və səhabələr, Məkkədə yaşadıqları 13 il ərzində Məkkəli müşriklərin ağlasığmaz işgəncələrinə, hücumlarına, böhtanlarına məruz qalmış, evlərindən zorla çıxarılmış və ölümlə təhdid edilmişdirlər. Edilən bu qədər hücum və təzyiqlərə baxmayaraq, əsla şiddətə əl atmamışdırlar.

Məkkədəki təzyiqlərin çox artmasından sonra Mədinəyə hicrət etmiş, Mədinə dövründə də, eyni hücumlara məruz qaldıqlarına və canlarının açıqca təhlükə altında qaldığına görə, təkcə özlərini müdafiə etmək məqsədiylə məcburi surətdə döyüşlərə qoşulublar. Məsələn, Bədir döyüşü, Məkkəli müşriklərin ordularını toplayıb müsəlmanları şəhid etmək məqsədiylə hücuma keçmələrindən ötrü baş vermişdir.

Xəndək döyüşü də müsəlmanların, özlərini qorumaq üçün şəhərin ətrafında xəndəklər qazdıqları, tamamilə müdafiə döyüşü olmuşdur. Bir sözlə, keçmişdəki döyüşlər, bütpərəstlərin bilavasitə azğın şəkildə hücuma keçmələri nəticəsində məcburiyyətdən qaynaqlanan müdafiə döyüşləri olmuşdur. Heç biri hücum döyüşü deyildir. Bu dövrdə Peyğəmbərimiz (s.ə.v)-ə endirilən müdafiə ilə əlaqədar xüsusi hökmlər də yalnız bu döyüşlərdəki xüsusi vəziyyətə məxsus olaraq endirilmiş ayələrdir.

## Hz. Məhəmməd (s.ə.v) də, hz. İsa (ə.s) kimi sevgi, şəfqət və mərhəmət insanıdır

Bəzi xristianlar, hər ikisi də bizim üçün çox qiymətli olan peyğəmbərlərimizi öz aləmlərində (cahilcəsinə münasibətlə) müqayisə edirlər. Hz. İsa (ə.s)-ın bir sevgi insanı, Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in isə, müharibə tərəfdarı olduğu istiqamətində yaraşıqsız çıxarışlar edirlər. Bu, həm hz. Məhəmməd (s.ə.v)-in, həm də hz. İsa (ə.s)-ın Allaha təslim olmuş, vəhylə hərəkət edən mübarək elçilər olduğunu görməzlikdən gələn cahil və ön mühakiməli bəzi xristianlar tərəfindən ortaya atılmış bir böhtandır.

Bu iki mübarək insan da, Allahın sevgililəri, dostları olduqlarından ötrü, əlbəttə, hər ikisi də sevgi, şəfqət və mərhəmət insanıdır. Bunun əksi qeyri-mümkündür.

Peyğəmbərimiz (s.ə.v)-in 23 illik peyğəmbərlik dövrü olmuşdur. Bütpərəstlərin birbaşa hücumlarının baş verdiyi olduqca çətin dövrləri də əhatə edən bu 23 illik dövr ərzində, Peyğəmbərimiz (s.ə.v), müsəlmanların canlarına qəsd edən və müsəlmanların bütün sülh tərəfdarı münasibətlərinə baxmayaraq, fasiləsiz şəkildə davam edən hücumlar qarşısında iman gətirənləri qorumaq üçün, müdafiə məqsədli döyüşlər aparmışdır. Həmçinin bütün bu döyüşlər əsnasında Allahın vəhyi ilə hərəkət etmiş və Onun vəhyi ilə qərarlar vermişdir. Əgər

müsəlmanları qorumağı hədəfləyən döyüş məsuliyyəti Allahdan gələn bir vəhylə hz. İsa (ə.s)-a bildirilmiş olsaydı, o da eynilə Peyğəmbərimiz (s.ə.v) kimi bu ibadəti təslimiyyətlə yerinə yetirəcəkdi. Lakin hz. İsa (ə.s), 3 il davam edən peyğəmbərlik dövrü ərzində bütpərəstlərin belə bir hücumuyla qarşılaşmamışdır. Dolayısilə döyüş və müdafiə ilə əlaqədar bu ayələrin endirilməsinə ehtiyac olmamışdır.

Döyüşün, Peyğəmbərimiz (s.ə.v) və müsəlmanların xoşuna gəlmədiyi halda, fərz buyurulduğu, Quran ayəsi ilə bildirilmişdir.

**Sizin xoşunuza gəlməsə də, döyüş sizə vacib edildi. Ola bilsin ki, sevmədiyiniz bir şey sizin üçün xeyirli, sevdiyiniz bir şey isə sizin üçün zərərli olsun. Allah bilər, lakin siz bilməzsiniz. (Bəqərə surəsi, 216)**

## İslamda müdafiə döyüşündə belə həddi aşmamaq və bağışlayıcı olmaq əmr edilir

Allahın Quranda bizə təsvir etdiyi iman dərinliyini görüb anlaya bilən bir insan, müsəlman üçün əsas məsələnin həmişə bağışlamaq olduğunu da asanlıqla qavraya bilər. Məsələn, Allah Quranda döyüşdə həddi aşmamağı və qarşı tərəf döyüşü dayandırdığı təqdirdə, müsəlmanların da dayandırmalı olduğunu bildirmişdir:

**Sizinlə döyüşənlərə qarşı Allah yolunda siz də döyüşün və həddi aşmayın! Həqiqətən, Allah həddi aşanları sevmir. (Bəqərə surəsi, 190)**

Əgər (döyüşə) son qoysalar (siz də son qoyun); **şübhəsiz ki, Allah, bağışlayandır, rəhmlidir. (Bəqərə surəsi, 192)**

Müsəlmanların döyüşə girə bilmələri üçün, qarşı tərəfin hücuma keçməsi şərtdir. Döyüş; xəbərdarlıqlara baxmayaraq, qətiyyən söz anlamayan, təcavüzkar, zalım bir cəmiyyətin zülmündən qorunmaq məqsədiylə əl atılan məcburiyyətdir. Bu vəziyyətdə belə, müsəlmanlar, həddi aşmamaqla məsuldurlar; yəni təkcə özlərini müdafiə etməlidirlər. Yuxarıdakı ayədə Rəbbimizin bildirdiyi kimi, hücum edən tərəf döyüşə son qoyduqda müsəlmanların da son qoymaları nəsihət edilir. Həmçinin İslama görə döyüş əsnasında qadınlara, uşaqlara, yaşlılara və şikəstlərə qayğı göstərilməsi, onların qorunması, zərər çəkməmələri üçün fövqəladə tədbirlər alınması çox əhəmiyyətlidir.

## İslamda haqsız olaraq cana qəsd etmək haramdır

Yenə Quranda, cana qəsd etməyin haram olduğu açıqca bildirilmişdir:

**...Kim bir nəfsi, bir başqa nəfsə və ya yer üzündəki bir fəsada qarşılıq olmadan (haqsız yerə) öldürsə, O, bütün insanları öldürmüş kimi olar. Kim də onu (ölümdən qurtarsa) diriltsə, O, bütün insanları diriltmiş kimi olar. Elçilərimiz onlara aydın dəlillər gətirdilər. Onların çoxu isə bundan sonra da yer üzündə həddi aşdılar. (Maidə surəsi, 32)**

**Onlar Allahla yanaşı başqa ilaha tapınmaz, Allahın haram etdiyi cana haqsız yerə qıymaz və zina etməzlər. Bunu edənlərə ağır cəza verilər. (Furqan surəsi, 68)**

Ayələrdən də açıqca aydın olduğu kimi, bir müsəlmanın fəsad və ya başqa bir insana qarşılıq olmadan, haqsız yerə bir cana qıyması Quranda haram buyurulmuşdur. Allah Maidə surəsində, göndərdiyi elçilərin bu haramı insanlara təbliğ etmələrinə baxmayaraq, bir çoxunun həddi aşdığını bildirir. Yəni hökmün Quranla bildirilməsinə baxmayaraq, Quranı kafi hesab etməyərək, həddi aşacaq, haqsız yerə zülm və qan tökülməsi ardınca gedəcək bir cəmiyyətdən bəhs edilir. Məhz bu cəmiyyət, İslam adından ortaya çıxan lakin dəccaliyyətin təsiri altında olan bir sıra mövhumatçılardır.

Yenə Quranda döyüşdə əsir götürülən insanların, bağışlanılmaları və sərbəst buraxılmaları nəsihət edilmişdir. Allah Quranda, cinayət işlənildiyi təqdirdə belə, günahkarın, öldürülən insanın yaxınları tərəfindən bağışlanılmasının daha xeyirli olacağını bildirmişdir. Müsəlmanın Qurana görə məsuliyyəti, həmişə Allah rizası üçün ən xeyirli olanı seçməkdir. Allah cinayətdə belə, bağışlamağı xeyirli gördüyünə görə, müsəlmanın əsil əməl etməli olduğu hökm budur. İslam, şəfqət, mərhəmət, sevgi, sülh, ədalət və dinclik dinidir. İslamı Quranda təsvir edilən şəklindən daha fərqli göstərməyə çalışanlar bu hərəkətlərindən tezliklə imtina etməlidirlər.

# 2-ci hissə

## Qadın düşmənçiliyi İslamın deyil, darvinistlər və mövhumatçıların xüsusiyyətidir

Qadın düşmənçiliyi və qadını ikinci dərəcəli vətəndaş kimi görmək yanılması, darvinistlərin, faşistlərin, kommunistlərin və mövhumatçıların ortaq xüsusiyyətidir. Mövhumatçılar xurafatlar içində yaşadıqlarından, darvinistlər də qadınları guya az inkişaf etmiş heyvan növü hesab etdiklərindən qadınlara dəyər verməz, hətta onlardan nifrət edərlər. Lakin, əlbəttə ki, bütün bunlar şeytanın təhriki ilə ortaya çıxan, qeyri-insani düşüncələrdir.

Müsəlman cəmiyyətlərdə olduğu qədər, xristianlar və yəhudilər üçün də mövhumatçılığın böyük təhlükə olduğundan bəhs etmişdik. Həm xristianlar, həm də yəhudilərdən qadını ikinci dərəcəli vətəndaş kimi görüb, qadına olan nifrətini hər fürsətdə bəlli edən bir çox mövhumatçı var. Lakin, necə ki, bəzi xristianlar və ya bəzi yəhudilərin bu yanlış dünyagörüşləri tamamilə xristianlığa və ya yəhudiliyə aid edilə bilməzsə, bəzi müsəlmanların sahib olduqları eyni yanlış dünyagörüşü də İslama aid edilə bilməz. İslam dinində qadın və kişi bərabərdir. Hətta Quranda qadın daha üstün tutulmuşdur, qorunmuşdur. Allah Quran ayələrində insanlar arasındakı tək meyarın təqva olduğunu bildirir. **İslam qadını tərifləyib ucaldır. Dolayısilə İslam dinində qadını kiçik hesab edən bir üslubun olduğunu iddia edənlər çox böyük səhvliyə yol verirlər.**

İslam dininin qadını guya ikinci dərəcəli bir insan kimi qəbul etdiyi istiqamətindəki yanlış dünyagörüşü, kitabın əvvəlindən burayadək üzərində dayandığımız dəccali mərkəzlərin, İslam əleyhdarlığını yaya bilmək üçün seçdikləri ən həssas mövzulardan, əl atdıqları ən əsas üsullardan biridir. Həmin bu ətraflar, heç bir təməli və doğruluğu olmayan bu yanlış dünyagörüşünü dünya səviyyəsində yaya bilmək və İslamla əlaqədar mənfi anlayış hakim etmək üçün də, mövhumatçılardan istifadə edərlər.

Peyğəmbərimiz (s.ə.v)-in qadınlara olan şəfqətli, mərhəmətli yanaşmasından, Quran ayələrində qadınlara verilən bütün haqqlardan, qadınlara göstərilməli bildirilən gözəl əxlaqdan uzaq olan bu insanlar, öz uydurduqları xurafatlarla həqiqətən də qadınlara qarşı zülmü, ədalətsizliyi, haqsızlığı, mərhəmətsizliyi, hətta elə bil, onları insan yerinə qoymamağı öz aləmlərində dinimizin əmri kimi göstərməyə çalışırlar. Cahilcəsinə onların ardınca gedən kütlələr də əsrlərdir ki, davam edən bu tətbiqləri davam etdirmiş və bu çirkli inanc bəzi müsəlman cəmiyyətlərdə özünə zəmin tapmışdır. Həmin bu mövhumatçıların xurafatlarını əsaslandırdıqları mənbə isə, qadın əleyhdarlığını müdafiə edən saxta hədislərdir.

## Peyğəmbərimiz (s.ə.v)-in hədislərindən nümunələrlə İslamda qadına verilən dəyər

**Adnan Oktar**: Peyğəmbərimiz (s.ə.v) belə demişdir: *"Qadınları sevmək peyğəmbərlərin əxlaq xüsusiyyətindəndir".* Kuleyni, Kafi və bir çox yerdə var. Yenə Rəsulullah (s.ə.v)-dən bir hədis: *"Bir insanın qadınlara qarşı sevgisinin çoxalmadığı müddətcə, imanının artacağını düşünmürəm".* Qadın sevgisi imanla əlaqəlidir, inşaAllah.

Rəsulullah (s.ə.v)-dən yenə hədis: *"Mənim göz nurum namazda, həzz qaynağım da qadınlarda qərarlaşdı".* Allah tərəfindən, bir nemət olaraq. Yenə Rəsulullah (s.ə.v)-dən bir hədis: *"Qulun qadınlara olan sevgisi çoxaldıqca, fəzilət baxımından da imanı da artar".* Peyğəmbərimiz (s.ə.v) belə söyləmişdir: *"İnsanın əlində tutacağı, mühafizə edəcəyi xəzinənin, sərvətin ən xeyirlisini söyləyimmi? Bu əməlisaleh qadındır"*.

Ömər ibn əl-Xəttab belə söyləmişdir: *"Vallah biz cahiliyyət dövründə qadınlara dəyər verməzdik".* Necə ki, indi küfr əhlində qadına dəyər vermirlərsə, o dövrdə də bu vardı. *"Allah onlarla əlaqədar ayələr göndərdikdən və onlara bəzi haqqlar verdikdən sonra biz də qadınlara dəyər verməyə başladıq və onları sevdik"* deyir *(Adnan Oktarın 7 oktyabr 2012-ci ildə A9 telekanalında verdiyi müsahibədən).*

## Axırzamanda qadınlara lazımi dəyər veriləcək

**Adnan Oktar**: ...Qadınlara qarşı sevgi Axırzamanın xüsusiyyəti olacaq. Mehdi (ə.s) dövründə, qadınlar seviləcək və azad olacaq. Peyğəmbərimiz (s.ə.v) bununla əlaqədar xüsusi hədislər söyləmişdir. Məsələn, Peyğəmbərimiz (s.ə.v) qadınların tək başına və ya dostlarıyla birlikdə uzun məsafələr boyu səyahət edəcəklərini söyləmişdir.

Hazırda gedə bilmir qadınlar. Baxın Məclisdə (TBMM) də çox az sayda qadın var. Bu çox anormal vəziyyətdir. Məclisin ən azı yarısı qadın olmalıdır, əsas vəzifələrin ən az yarısını qadınlar təşkil etməlidir.

Qadın baş nazir də olar, prezident də olar, məclis başçısı da olar. Qadınlar çox gözəl varlıqlardır, biz hər yerdə onların nəcib görünüşünü, o gözəl mehriban görünüşlərini görək. Qadınlar Allahın Rəhman və Rəhim adlarının təcəllisidir. Allahın Lətif və Nur adlarının təcəllisidirlər... *(hörmətli Adnan Oktarın Kocaeli və Aba telekanallarında verdiyi, 27 noyabr 2010-cu ildəki müsahibələrindən)*

## Quranda qadının hüququ həmişə ön plandadır və qadın təriflənmişdir

İslamda qadının yerini anlamaq üçün, əvvəlcə Quran ayələrinə və Peyğəmbərimiz (s.ə.v)-in tətbiqlərinə baxılmalıdır.

Qadın, Qurana görə çox mübarək və tərifənən bir varlıqdır. Qadınlar sonsuz güc və qüdrət sahibi olan Rəbbimiz tərəfindən çox böyük bir nemət, qəlblərə xitab edən bir bəzək və gözəllik olaraq yaradıldıqları kimi, İslam üçün materializm, darvinizm, kommunizm və bunun kimi bütün dinsiz cərəyanlarla aparılacaq elmi mübarizənin də mühüm bir parçasıdırlar. Quran ayələrinə baxıldıqda qadınların hüququnun kişlərlə müqayisədə həmişə ön planda tutulduğu görülər. Qadın, Quran ayələrində həmişə qorunur, haqqları müdafiə olunur, maddi-mənəvi zərər çəkməməsi üçün haqqlarla dəstəklənilir. Çətin məsuliyyətlərin daha çox kişilərə verilmiş olmasının hikməti budur. Allah qadını, gözəl bir təcəlli, namus və təmizlik simvolu, şəfqət və sevgi mənbəyi kimi yaratmışdır. Qadın, dünyaya mehribanlığı, sevgini, ən gözəl dostluğu öyrədən müəllimdir. Allahın bir bəzək kimi yaratdığı, tərifədiyi, qoruduğu gözəl bir nemətdir.

Müsəlmanlıqda qadın sultandır. İslamda kişilərə bəzi fiziki məsuliyyətlərin yüklənməsi bundan ötrüdür. Qadın, evdə və ya çöldə işləmək, pul qazanmaq məcburiyyətində deyil. Əlbəttə ki, istəsə işləyə bilər, lakin çətin vəziyyətdə qalmaması, çətinlik çəkməməsi üçün kişi qadının baxımı və ehtiyaclarıyla maraqlanmağa məcburdur. Dolayısilə bir kişi həyat yoldaşını tarlada, fabrikdə və ya hər hansı bir yerdə işlməyə məcbur edə bilməz. Tam əksinə onun ən gözəl şəkildə rahatlıq tapması, ona zərər gəlməməsi, qorunub himayə edilməsi kişinin məsuliyyətinə verilmişdir.

Qadın-kişi bərabərliyi mövzusunda İslama istiqamətli tənqidlər etməyə çalışanlar, Quranın qadınlara verdiyi bu üstün dəyərdən xəbərsizdirlər. Onlar, qadın-kişi bərabərliyi mövzusunda lüzumsuz yerə qışqırıb bağırar və İslama böhtanlar atdıqları bir vaxtda, ön mühakiməli dünyagörüşünə sahib olduqları və Quran ayələrində təsvir edilən həqiqi İslam əxlaqından xəbərsiz olduqları üçün, **Qurana görə qadının kişidən daha üstün tutulduğunu bilməzlər.**

Quranın endirilməsi ilə, o dövrdəki cahil cəmiyyətlərdə qadınlara olan yanlış dünyagörüşü də ortadan qaldırılmış və qadına cəmiyyətdə hörmətli yer qazandırılmışdır. Peyğəmbərimiz (s.ə.v), qadınlara həmişə çox böyük dəyər vermiş, Rəbbimizin aləmlərə rəhmət kimi endirdiyi Quran ayələri vəsiləsi ilə, qadınların ikinci dərəcəli insan rəftarı görmələrinə əsla icazə verməmişdir. Peyğəmbərimiz (s.ə.v) eyni zamanda qadınları Allahın bir nemət kimi görüb, onlara dərin sevgi, mərhəmət, şəfqət və hörmət bəsləmişdir. Peyğəmbərimiz (s.ə.v)-in qadınlara bəslədiyi bu dərin duyğuları, onun bu hikmətli sözləri çox gözəl ifadə edir:

*Dünyanızdan mənə üç şey sevdirildi: Gözəl qoxu, **əməlisaleh qadın** və gözümün nuru olan namaz. [Nesâî, İşretu'n-Nisâ 1, (7, 61).]*

Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-dən rəvayət edilən səhih hədislərdə, İslam dinində qadınlara verilən həqiqi dəyər tam açıq şəkildə görülür. Bu hədislərdən bəziləri belədir:

*Qadınlara nəcabət və şərəf sahibi insan dəyər verər. Onları ancaq pis və alçaq insanlar xor görər... (İ. Asakir)*

*"Sizin ən xeyirliniz, həyat yoldaşlarına qarşı ən yaxşı davrananlardır". (İ. Asakir)*

*Həyat yoldaşlarınızı kədərləndirməyin. Onlar, Allahın sizə olan əmanətidir. Onlara qarşı mülayim olun, yaxşılıq edin! [Müslim]*

*Allah, həyat yoldaşı ilə yaxşı yola gedib zarafatlaşanı sevər və onların ruzilərini artırar. [İ. Lâl]*

*Ən üstün mömin, həyat yoldaşına, ən yaxşı, ən lütfkar davranan gözəl əxlaqlı kimsədir. [Tirmizi]*

*Ən yaxşı müsəlman, həyat yoldaşına ən yaxşı davranandır. İçinizdə, həyat yoldaşına ən yaxşı davranan mənəm. [Nesai]*

*Həyat yoldaşına gülər üzlə baxan kişinin əməl dəftərinə, bir kölə azad etmiş savabı yazılar. [R. Nasıhin]*

*Həyat yoldaşını döyən, Allaha və Rəsuluna üsyankar olar. Qiyamətdə onun düşməni mən olaram. [R. Nasıhin]*

Quranı oxuyan bir insan, ayələrdə qadının ağlına, incə düşünmə və incəlikləri görmə qabiliyyətinə dair müxtəlif işarələr olduğunu dərhal görər. Məsələn, Quranda Səba Məlikəsi Bilqeysdən bəhs edilir. Bilqeys, o dövrün dövlət başçısı olmuşdur. Allah Quranda qadının, dövlət başçısı ola biləcəyinə və dövlət orqanlarının idarəetməsini boynuna götürə biləcəyinə işarə edir.

Allaha qarşı çıxan, münafiqlik edən, pis əxlaq göstərən qadınlar "qadın" olduqları üçün deyil, Allaha qarşı üsyankar olduqları və zülm etdikləri üçün tənqid edilirlər. Bu barədəki hökm qadın üçün də, kişi üçün də eynidir. Bu barədəki hökm hər dində eynidir. Dövləti dağıtmağa çalışan anarxist qadınlar həbsxanaya salındığı üçün həmin dövlətə "qadın düşməni" deyilə bilməyəcəyi kimi, münafiq və müşrik qadınların varlığından ötrü, eyni ittiham bir dinə qarşı da edilə bilməz.

## İslama görə kişilər qadınların hakimi deyil, onları qoruyub himayə edənlərdir

Hazırki dövrdə bəzi ətraflar, xüsusilə də bəzi xristianlar, İslam mənbələrində "kişinin qadına hakim olduğunun" təsvir edildiyini iddia edir və bəzi mövhumatçıların qadınlar üzərindəki yanlış tətbiqlərini də bu məntiqləriylə eyniləşdirirlər. Öz aləmlərində bu yanlış məntiqlərinə dəlil kimi göstərdikləri ayə bu cürdür:

**Allahın bəzilərini digərlərindən üstün etdiyinə və öz mallarından xərclədiklərinə görə kişilər qadınlar üzərində məsuliyyət sahibi himayəçidirlər... (Nisa surəsi, 34)**

Bu ayədə işlənən "kavvam" sözünün ərəbcədəki mənası "qoruyan, himayə edən, nəzarət edən" deməkdir. Dolayısılə ayədəki açıqlama, yuxarıda verdiyimiz izahlarla tam şəkildə üst-üstə düşür. Allah kişilərə qadınları sıxıntılar və çətinliklərə qarşı qorumaq, himayə etmək və nəzarət etmək vəzifəsini vermişdir. Bu, daha əvvəl də bildirdiyimiz kimi, **qadının acizliyindən və ya qorunmağa möhtac bir varlıq olmasından deyil, qiymətli bir nemət olmasından qaynaqlanır.** İnsanların bəzilərinin digərlərindən üstün edilməsi ifadəsiylə də, kişilər və qadınların yaradılışındakı fərqin vurğulandığı aydındır. Əlbəttə ki, qadınlar və kişilər fiziki cəhətdən bir-birlərindən fərqli quruluşlara sahibdirlər. Lakin qadının fiziki cəhətdən, kişiyə nisbətə daha zəif olması, onun cəmiyyətdə kişidən daha az dəyər görməsi üçün bir səbəb deyil. Əlbəttə ki, güc və qüvvət baxımından üstün xüsusiyyətlərə sahib qadınlar da var. Lakin ümumiyyətlə kişilərin çətin və ağır vəzifələri boynuna götürəcək fiziki üstünlüyə sahib olduqları aydın məsələdir. Lakin yaradılışdakı bu fiziki fərq əsla əxlaqi, əqli və ya mənəvi üstünlüyün əlaməti deyildir, tam əksinə kişinin qoruyuculuq xüsusiyyətini yerinə yetirməsi üçün zəruridir.

**Quranda kişinin qadının idarəçisi olduğuna dair heç bir hökm yoxdur.** Qurana görə nə kişilər qadınlar üzərində, nə də qadınlar kişilər üzərində hakimiyyət qura bilməz. Hər ikisi də bir-birini tamamlamaq üçün, Allaha qarşısında bərabər haqq və məsuliyyətlərlə yaradılıblar. Qadınların kişilər tərəfindən "qorunması və himayə" edilməsi, Allahın qadınlara verdiyi üstün dəyərdən qaynaqlanır.

## Üstünlük təqvaya görədir, cinsiyyətə görə deyil

Allah Quran ayələriylə, qadınlara bir gözəllik və nemət olaraq, onları qoruma altına

almış, lakin bununla birlikdə İslama xidmət etmək məsələsində müsəlman kişilərlə müsəlman qadınları bərabər tutmuşdur. Hər ikisi də Allaha ibadət etməklə, Quran əxlaqını yaşamaqla, insanlara yaxşı işlər görməyi buyurub, pis əməllər etməyi qadağan etməklə və Quranda bildirilən bütün əmr və tövsiyələrə tabe olmaqla məsuldurlar. Allah Quranın: **"Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə doğru ilə yanlışı ayırd etmə bacarığı verər, günahlarınızdan keçər və sizi bağışlayar. Allah böyük lütf sahibidir"** (Ənfal surəsi, 29) ayəsində, Allahdan qorxub çəkinən hər insana, "doğrunu yanlışdan ayırd etmə bacarığı" verəcəyini vəd etmişdir. İnsanın qadın və ya kişi olması bu nəticəni dəyişdirmir. Səmimiyyəti, ixlası və imanı qarşılığında, Allah bir insana həyatın hər sahəsində özünü doğru yola yönəldəcək, doğru qərarlar almasını və məqsədəuyğun rəftarlar göstərməsini təmin edəcək ağıl verir. Dolayısilə ağıl, insanın cinsiyyətinə görə deyil, tamamilə Allaha olan səmimi bağlılığına, yaxınlığına və qorxusuna görə meydana gəlir.

Allah üçün dinsiz cərəyanlara qarşı elmi mübarizə aparan kişi və qadın müsəlmanlar arasında isə, **üstünlüyün tək ölçüsü təqvadır.** Rəbbimiz bir ayədə belə buyurur:

**Ey insanlar! <u>Biz sizi kişi və qadından yaratdıq</u>. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. <u>Şübhəsiz ki, Allah yanında ən üstün olanınız, (irq və ya nəsil cəhətdən) təqva cəhətdən ən üstün olanınızdır</u>. Şübhəsiz ki, Allah, Biləndir, Xəbərdardır. (Hucurat surəsi, 13)**

Bu ayə, yuxarıda təsvir etdiyimiz mövhumatçılara da ən gözəl cavabı verir. Öz aləmlərində Quranı dəlil göstərərək kişiləri qadınlardan üstün hesab edənlər **yalan danışırlar. Uydurduqları xurafatlarla insanları aldatmağa çalışırlar. Quran ayələrini və Peyğəmbərimiz (s.ə.v)-in həyatını araşdırmaq mövhumatçıların qadınlara olan dünyagörüşlərinin həqiqi İslam dini ilə heç bir əlaqəsinin olmadığını anlamaq üçün kifayətdir.**

Uca Allah bir çox ayəsində "mömin kişilər və mömin qadınlar"dan bəhs edir. Quranda qadın və kişi ayrı tutulmamışdır. Allah möminlərdən bəhs edərkən onların kişi və ya qadın olmalarına deyil, yaxşı əməllər görən insanlar olmalarına diqqət çəkir. Quranda edilən üstünlük ayrı-seçkiliyi qadın və kişi arasında deyil, yaxşı əməllər görən möminlərlə müşrik və münafiqlər arasında edilir. İmanın özünə qazandırdığı ağılla hərəkət edən hər insan, qadın və ya kişi olmasından asılı olmayaraq, həyata dair hər mövzuda uğur qazana bilər və bir çox insandan önə də keçə bilər. Bu tamamilə insanın, istəyindən, şövqündən və əzmindən asılıdır. İman gətirənlər İslam əxlaqının bir tələbi olaraq, özlərini heç vaxt heç bir mövzuda kafi görməzlər. Həmişə daha ağıllı, daha qabiliyyətli, daha məsuliyyət sahibi, daha şəxsiyyətli, daha gözəl əxlaqlı insanlar ola bilmək üçün səy göstərərlər.

Uca Allah, müsəlmanlar arasında kişi və ya qadın ayrı-seçkiliyi olmadığını, aralarındakı üstünlüyün təkcə imana, səmimiyyətə, ixlasa və, Allah qorxusuna yəni təqvaya görə müəyyən olunduğunu ayələrində xəbər vermişdir:

**Mömin kişilərlə mömin qadınlar bir-birlərinin vəlisidir. Onlar insanlara yaxşı işlər görməyi buyurar, pis əməlləri qadağan edər, dosdoğru namaz qılar, zəkat verər, Allaha və Onun Elçisinə itaət edərlər. Məhz Allahın rəhm edəcəyi insanlar bunlardır. Həqiqətən, Allah üstün və güclü, hökm və hikmət sahibi olandır. Allah mömin kişilərə və mömin qadınlara ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları və Ədn bağlarında gözəl məskənlər vəd etmişdir. Allahın razılığı isə daha böyükdür. Məhz böyük qurtuluş və xoşbəxtlik budur. (Tövbə surəsi, 71-72)**

**Həqiqətən, müsəlman kişilər və müsəlman qadınlar, mömin kişilər və mömin qadınlar, könüllü surətdə (Allaha) itaət edən kişilər və könüllü surətdə (Allaha) itaət edən qadınlar, sadiq olan kişilər və sadiq olan qadınlar, səbirli kişilər və səbirli qadınlar, hörmətlə (Allahdan) qorxan kişilər və hörmətlə (Allahdan) qorxan qadınlar, sədəqə verən kişilər və sədəqə verən qadınlar, oruc tutan kişilər və oruc tutan qadınlar, ismətlərini qoruyan kişilər və ismətlərini qoruyan qadınlar, Allahı çox zikr edən kişilər və qadınlar üçün Allah bağışlanma və böyük mükafat hazırlamışdır. (Əhzab surəsi, 35)**

Ayədə açıqca görülə biləcəyi kimi qadınlar və kişilər Allaha qarşısında bərabər məsuliyyətləri daşıyırlar. Qadın və kişilər arasındakı bərabərlik, Allahın qadına və kişiyə dünya həyatındakı imtahan müddətində bərabər haqqlar tanımasından da aydın olur.

Allah: **"Biz yer üzündə olan bütün şeyləri ona bəzək etdik ki, insanlardan hansının əməlcə daha gözəl olduğunu sınaqdan keçirək"** (Kəhf surəsi, 7) və **"hər kəs ölümü dadacaqdır. Biz sizi sınamaq üçün şər və xeyirlə imtahana çəkirik. Həmçinin siz Bizə qaytarılacaqsınız!"** (Ənbiya surəsi, 35) ayələriylə, kimlərin daha gözəl əməllər işləyəcəyininin ortaya çıxması üçün, qadınları və kişiləri sınaqdan keçirdiyini bildirmişdir. Allah digər bir ayədə isə: **"Biz sizi bir az qorxu, aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayacağıq. Səbir edənlərə müjdə ver"** (Bəqərə surəsi, 155) deyə bildirərək, həyatlarının sonuna qədər qadınları və kişiləri müxtəlif hadisələrlə sınayacağını, bütün bunlar qarşısında səbir göstərə bilənlərə isə, rəhmətiylə cavab verəcəyini müjdələmişdir.

Allah həm qadınlar, həm də kişilər üçün müəyyən ömür müddəti müəyyənləşdirmiş, hər ikisini də Qurandan məsul tutmuş və hər ikisinə də həyatlarının hər anında özlərinə doğrunu ilham edəcək bir vicdan vermiş, eləcə də, nəfsi və şeytanı hər ikisinin düşməni etmişdir. Dünya həyatındakı imtahanın tələbi olaraq, qadın və ya kişi olmağından asılı

olmayaraq, hər kim gözəl əxlaq göstərib yaxşı əməllər əməllərdə işləsə, Allah bu insanların dünyada və axirətdə ən gözəl qarşılığı alacaqlarını bildirmişdir:

**<u>Həm kişilərdən, həm də qadınlardan</u> iman gətirmiş olaraq yaxşı işlər görənlər Cənnətə girərlər və onlara xurma çərdəyinin qırıntısı qədər haqsızlıq edilməz. (Nisa surəsi, 124)**

## Quranda qadınların haqqları həmişə qorunmuşdur

Allahın insanlar arasında dinclik və ədaləti təmin etməsi üçün, bildirdiyi Quran əxlaqı ilə, qadının istər ictimai həyatındakı, istərsə də, ailə həyatındakı bütün haqqları qoruma altına alınmışdır. Şübhəsiz ki, bu, qadınlar üçün də çox böyük rəhmət, böyük asanlıq və nemətdir. Allahın bildirdiyi əxlaqa görə hərəkət edildikdə, qadınlar çətinlik çəkməyəcək, gələcəkləri və rahatlıqları zəmanət altına alınacaq.

İrəliləyən sətirlərdə Allahın Quran ayələri ilə bildirdiyi, qadını və sahib olduğu ictimai haqqları zəmanət altına alan ayələrdən bəzilərinə toxunacaq və İslam əxlaqında qadına nə qədər dəyər verildiyini və ona necə qayğı göstərildiyini göstərəcəyik.

## Boşanma vəziyyətində qadınların könüllərinin alınması və məmnun edilmələri

Boşanma, nəfslərinin istəyinə uyğun yaşayan bəzi insanlar üçün, qarşı tərəflə olan bütün mənfəət əlaqələrini bitirmələri mənasını verər. Bu insanlar mənfəət əlaqəsinin bitdiyi yerdə, qarşı tərəfə artıq qayğı və diqqət göstərmələri üçün bir səbəb qalmadığına inanarlar. Çox vaxt, ayrıldıqları insanlara qarşı olan bütün sevgi və hörmət hisslərini də itirdikləri üçün, təkcə öz mənfəətlərini qoruma altına alacaq şəkildə hərəkət edər, qarşı tərəfin içində olduğu vəziyyəti, yaaşdığı sıxıntı və çətinlikləri, ehtiyac içində olduqları mövzuları görməzlikdən gələ bilərlər. Halbuki uca Rəbbimiz Quranda, boşandıqdan sonra qadınlara şəfqət və mərhəmətlə, gözəl əxlaqla davranılmalı olduğunu belə təsvir etmişdir:

**Qadınlarınızı boşadığınız və onların gözləmə müddəti sona yetişdiyi zaman, <u>onları ya gözəl tərzdə saxlayın, ya da gözəl tərzdə buraxın</u>..." (Bəqərə surəsi, 231)**

**Ey iman gətirənlər! Əgər mömin qadınlarla evlənsəniz, sonra da onlara toxunmazdan**

**əvvəl boşasanız, artıq onlar üçün gözləmə müddətini saymağa (yanınızda saxlamağa) haqqınız yoxdur. Artıq (dərhal) onları yararlandırın (onlara kifayət edəcək məbləğ verin) və onları gözəl tərzdə buraxın. (Əhzab surəsi, 49)**

Boşanma ərəfəsində və boşanmadan sonra kişinin qadına göstərməli olduğu nəzakət, hörmət, diqqət, mərhəmət və qoruyuculuq Quranın əmridir. Belə bir əxlaq yalnız Quranla yaşanar. Aydındır ki, qadına ən böyük əhəmiyyət İslamda verilir. Bunu görmək üçün xurafatçıların yalanlarına deyil, Quran ayələrinə və Peyğəmbərimiz (s.ə.v)-in tətbiqlərinə baxılmalıdır.

## Boşandıqdan sonra qadınların maddi zəmanət altına alınmaları

İslamda boşandıqdan sonra qadının gələcəyinin maddi cəhətdən zəmanət altına alınması əmr edilmişdir. Boşanan bir qadının başlı-başına, himayəsiz, maddi cəhətdən dayaqsız buraxılması Quranda qadağan edilir. Əgər bir insan həqiqətən Qurana tabe olan saleh bir mömindirsə, Allahın Quranda bildirdiyi bu hökmlərə də tam şəkildə əməl etmək məcburiyyətindədir. Onsuz da belə bir insan, bunu Allah sevgisi ilə diqqətlə və istəyərək yerinə yetirər.

Quranda boşanmış bir qadının maddi zəmanət altına alınmasını şərt gətirən ayələr belədir:

**(Əri tərəfindən) Boşanan (qadın)lar üçün, qanuni surətdə yararlanma (və dolanışıq) payı var. Bu, çəkinənlər üçün bir haqq (borc)dır. (Bəqərə surəsi, 241)**

**...Onlara şəriətə müvafiq qayda üzrə pay verin. Varlı öz imkanına görə, kasıb da öz imkanına görə versin. Bu isə, yaxşılıq edənlər üçün bir borcdur. (Bəqərə surəsi, 236)**

**Var-dövlət sahibi nəfəqəni (alimenti) varına görə versin. İmkanı az olan isə Allahın ona verdiyindən xərcləsin. Allah heç kəsin üzərinə Özünün ona verdiyi nemətdən artıq yük qoymaz. Allah hər bir çətinlikdən sonra asanlıq verir. (Talaq surəsi, 7)**

Ayələrdən göründüyü kimi zəngin bir insan da, imkanı az olan bir insan da boşandığı qadını qorumaqla məsul tutulmuşdur. Həyatı boyu həmin qadını bir daha heç görməyəcək,

maddi-mənəvi heç bir mənfəət əldə etməyəcək də olsa, boşandığı həyat yoldaşını maddi cəhətdən qoruma altına almaqla və ona nəzakətli davranmaqla məsuldur. Uca Allah bunun da mütləq könül xoşluğuyla, sevərək və istəyərək edilməsinin zəruriliyini ayələrində bildirmişdir:

**Qadınlara öz mehrlərini <u>könül xoşluğu ilə</u> verin! Əgər onlar öz xoşları ilə bundan sizə bir pay versələr, onu nuşcanlıqla və halallıqla yeyin! (Nisa surəsi, 4)**

## <u>Qadınlara verilən malların boşandıqdan sonra geri alınmaması</u>

Uca Rəbbimiz ayələrində, boşandıqdan sonra kişinin evli olduğu müddət ərzində həyat yoldaşına verdiyi hər hansı bir şeyi geri almamalı olduğunu bildirmişdir:

**Əgər bir arvadın yerinə başqa bir arvad almaq istəsəniz, onlardan birinə yığın-yığın (mal və pul) vermiş olsanız belə, <u>heç bir şey geri almayın</u>! Məgər verdiyinizi böhtan atmaq və açıq-aşkar günah işlətməkləmi geri alacaqsınız? Onu necə geri ala bilərsiniz ki, siz bir-birinizlə yaxınlıq etmişdiniz və <u>onlar da sizdən möhkəm əhd-peyman almışdılar</u>? (Nisa surəsi, 20-21)**

**...<u>Onlara (qadınlara) verdiklərinizdən bir şey götürmək sizə halal olmaz</u>... (Bəqərə surəsi, 229)**

Allah ayələrdə kişiyə evlənməklə qadına bir söz və zəmanət verilmiş olduğunu xatırladır. Bu sözdən ötrü də, qadına “yığın-yığın mal və pul” verilmiş olsa da, yenə də onlardan bunları geri qaytarmağı tələb etməməyi bildirmişdir. İman gətirən, Allahdan qorxan və hər işi Allahın rizasını qazana bilmək ümidiylə edən bir insan, sözün Allaha verilmiş olduğunu bilər. Bundan ötrü də, bu mövzudakı məsuliyyətini ən gözəl şəkildə yerinə yetirər. Bu, hal-hazırda demək olar ki, dünyanın heç bir yerində tətbiq oluna bilməyən çox üstün bir əxlaqdır. Məhz Quranın dərinliyini, sevgi və şəfqət anlayışını qavraya bilməyən mövhumatçıların və onları İslamın həqiqi nümayəndələri kimi görmək yanılmasına qapılanların ən böyük yanılmalarından biri budur. Qadına layiq olduğu dəyər yalnız Quranda verilir.

Bəzi xristianlar bu əmrlərin niyə hazırda İslam ölkələrində tətbiq olunmadığını dilə

gətirir və bu mövzuya şübhəylə yanaşırlar. Əlbəttə ki, bunun səbəbi hazırda İslam ölkələrində həqiqi Quran əxlaqının yaşanmaması, bir çox ölkədə mövhumatçıların uydurduqları xurafatların hakim mövqedə olmasıdır. Yoxsa tamamilə Qurana uyğun hərəkət edən bir müsəlman, Allahın bu əmrlərini könül rahatlığı və xoşbəxtliklə yerinə yetirər.

## Boşandıqdan sonra qadınların sığınacaqla təmin edilməsi

Quran ayələrinə görə kişi, boşandıqdan sonra belə qadının təhlükəsizliyini və rahatlığıını təmin etməklə məsul tutulub. Həmin ana qədər, maddi-mənəvi hər cür ehtiyacını həyat yoldaşının və ya evlilik mühitinin təmin etdiyi imkanlarla qarşılayan qadın, boşanma ilə, birlikdə bir çox cəhətdən çətinlik içində qala bilər. Mömin əxlaqı belə bir vəziyyətdə insanın mümkün qədər anlayışlı olmasını və qarşı tərəfin ehtiyaclarını öz ehtiyacları kimi bütün incəliklərinə qədər düşünüb kömək etməyə çalışmasını tələb edir. Məhz buna görə də, xüsusilə boşanma kimi qadının zərər çəkə biləcəyi vəziyyətlər üçün, Rəbbimiz xüsusi olaraq alınmalı tədbirləri, edilməli şeyləri və göstərilməli olan gözəl əxlaq xüsusiyyətlərini ayələriylə bildirmişdir. Uca Allah, boşanmadan sonra qadının çətin vəziyyətdə qalmaması və kafi qorumanın təmin edilə bilməsi üçün kişiyə, onu yaxınlığında tutmasını nəsihət edir. Hətta ayədə, bunun bir təhlükə anında qoruya biləcəyi şəkildə edilməli olduğu bildirilir. Boşanmadan sonra özünə qala biləcəyi münasib bir yer tapana qədər bu mövzuda qadına imkan təmin edilməsi, ona hər hansı şəkildə zərər gəlməsinə icazə verilməməsi, mömin üçün, vicdani cəhətdən mühüm məsuliyyətdir:

**(Boşadığınız) qadınlara <u>imkanınız daxilində öz yaşadığınız yerin bir kənarında yer verin. Darlıq və sıxıntıya salmaq məqsədilə onlara zərər yetirməyin</u>. Əgər onlar hamilədirlərsə, yüklərini yerə qoyana (hamiləlikdən azad olana) qədər <u>onlara nəfəqə (aliment) verin</u>. Sizin üçün uşaq əmizdirirlərsə, onların haqqını verin. (Vəziyyətinizi və əlaqələrinizi) Öz aranızda (gözəl və İslama uyğun tərzdə) görüşüb danışın. Əgər çətinlik çəksəniz, bu təqdirdə uşağı başqa bir qadına əmizdirə bilər. (Talaq surəsi, 6)**

Burada mövzunun əhəmiyyəti baxımından, bunu təkrar ifadə etmək lazımdır: Əlbəttə ki, ayələrdə bildirilən bu qoruma tədbirləri qadının özünə baxmaqdan aciz olduğu mənasını vermir. Bu, bəzi ön mühakiməli insanların İslam dininə hücum etmək məqsədiylə ortaya atdıqları cəfəngiyatlardır. Ayələrdə üstün bir əxlaqdan bəhs edilir. Burada, bəhs edilən nəzakətli əxlaq, üstün tutmaq və dəyər verməkdir. Qadına sahib çıxmaq, çox hörmətli və qiymətli bir varlıq olduğunu ona hiss etdirməkdir. Allahın qadına verdiyi əhəmiyyəti və qoruyuculuğu feli cəhətdən göstərməkdir.

## Qadınlara zorla varis çıxılmaması

Quranda qadının qorunması ilə əlaqədar məsuliyyətlərdən biri də, qadınlara zorla varis çıxılmamasıdır. Allah ayəsində belə buyurur:

**Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir. Qadınlar açıq-aşkar yaramaz bir iş görməyincə, onlara verdiklərinizin bir hissəsini geri almaq üçün onlara təzyiq göstərməyin. Onlarla yaxşı yola gedin..." (Nisa surəsi, 19)**

Allah bu ayə ilə də qadına təzyiq göstərilməsini və maddi cəhətdən onu çətin vəziyyətə salacaq bir tətbiqi qadağan etmişdir.

## Anaya verilən dəyər

Analıq mövqeyi, Quranda təriflənmişdir. Ana-ataya hörmət, onlara yaxşı davranmaq, onları hər vaxt olduğu kimi yaşlandıqları vaxt da, qoruyub himayə etmək Quranda xüsusilə saleh möminlərin üzərinə yüklədilmiş məsuliyyətlərdir və bu mövzuyla əlaqədar bir çox ayə var. Bu ayələrdən bəziləri belədir:

**Biz insana ata-anası ilə gözəl davranmağı tövsiyə etdik... (Ənkəbut surəsi, 8)**

Quranda ata-anaya hörmət və yaxşılıq etmək müsəlmanlara tövsiyə edilmişdir. Lakin anaya xüsusi dəyər verilmişdir. Allah ayələrində belə bildirmişdir:

**Biz insana ata-anasına yaxşı davranmasını tövsiyə etdik. Anası onu bətnində gündən-günə artan çətinliklə daşımışdır. Onun süddən kəsilməsi isə iki il ərzində olur. Mənə və ata-anana şükür et! Axır dönüş Mənədir. (Loğman surəsi, 14)**

**Biz insana ata-anasına yaxşı davranmasını tövsiyə etdik. Anası onu bətnində əziyyətlə daşımış və əziyyətlə doğmuşdur. Onun bətndə daşınma və süddən kəsilmə müddəti otuz ay çəkir. Nəhayət, o, yetkinlik çağına yetişib qırx yaşa çatdıqda deyər: "Ey Rəbbim! Mənə,**

**mənim özümə və <u>ata-anama bəxş etdiyin nemətə şükür etmək</u> və Sənin razı qalacağın yaxşı iş görmək üçün ilham ver, nəslimi də mənim üçün əməlisaleh et. Həqiqətən mən tövbə edib Sənə yönəldim və həqiqətən, mən müsəlmanlardanam!". (Əhqaf surəsi, 15)**

Həqiqətən də, hər ana, övladını dünyaya gətirə bilmək üçün aylarla böyük fədakarlıqlara qatlanır. Allahın ayədə bildirdiyi kimi, körpəsini gündən-günə artan çətinliklə bətnində daşıyır və sonra da, onu çətinliklə dünyaya gətirir. Həmçinin sonra da yenə böyük fədakarlıq göstərərək övladının hər cəhətdən rahatlıq tapmasını və himayəsini də boynuna götürür. Üstəlik, bunları edərkən heç bir qarşılıq gözləmir, hətta öz ehtiyaclarını da ikinci plana alır. Allah bu həqiqətləri bizə xatırladır və analarımızın çox qiymətli varlıqlar olduğuna diqqət çəkir.

Quranda qadına verilən dəyər və əhəmiyyət bu qədər qəti hökmlərlə açıqlandığı halda, qadın hər cəhətdən qorunarkən bəzi xristianlar öz aləmlərində İslamda qadının xor görüldüyünü iddia edərək və Quran müsəlmanlarına qarşı xurafatçıları dəlil gətirərək tənqid etməyə təşəbbüs edirlər. Bu insanlar ayələri diqqətlə oxumalı və bitərəf şəkildə düşününməlidirlər. Həmçinin bu insanların Tövrat və İncildə qeyd olunan qadınlara aid bəzi ifadələri nəzərə almadan Quranı tənqid etməyə çalışmaqda israrlı olmaları da çox təəccüblüdür.

## Tövrat və İncildəki qadınlara aid yanlış açıqlamalara nümunələr

İslam dininin qadına olan dünyagörüşü ilə əlaqədar bilinən yanlış məlumatlar, xüsusilə son vaxtlarda bəzi xristian qruplar tərəfindən tez-tez dilə gətirilir. Halbuki, yuxarıda ətraflı şəkildə izah etdiyimiz kimi, Quranın qadınlara dair dünyagörüşü sevgi, şəfqət, mərhəmət və ədalət təməli üzərində qurulub.

İslama bu tənqidləri gətirən bəzi xristian qruplarının bu mövzuda niyə **Tövrat və İncildə olan bəzi ifadələrə heç toxunmadıqları şübhə məsələsidir. Tövrat və İncilə baxdığımız vaxt, qadınlara dair olduqca dəhşətli ifadələrin** olduğunu görərik.

Məsələn, xristianların da Müqəddəs Qanun saydıqları, məsul olduqlarını düşündükləri və öz kitabları kimi qəbul etdikləri Tövratda zina edən bir qadının cəzası **daşlanaraq öldürülməkdir**. Bəzi İslam ölkələrinin tətbiqlərinin əksinə daşlayaraq insan öldürmək Quranın heç bir ayəsində yoxdur. Lakin Tövratda vardır. Mövzuyla əlaqədar ayələr belədir:

*Əgər bir insan başqa birinin arvadıyla yatarkən tutulsa, həm qadınla yatan insan, <u>həm də qadın, ikisi də öldürülməlidir</u>. İsraildən pisliyi atmalısınız. (Yasanın Tekrarı 22:22)*

*Əgər bir insan şəhərdə başqa biriylə nişanlı bir qızla qarşılaşsa və onunla yatsa, ikisini*

*də şəhərin qapısına aparmalı və <u>daşlayaraq öldürməlisiniz</u>. (Yasanın Tekrarı 22:23)*

*Lakin bu iddia doğrudursa, qızın evli olduğuna dair bir dəlil tapıla bilməsə, qızı ata evinin qapısı önünə gətirməlidirlər və <u>şəhər camaatı qızı daşlayaraq öldürməlidir</u>. (Yasanın Tekrarı 22:20)*

*Biri başqa birinin arvadıyla, yəni qonşusunun arvadıyla zina etsə, <u>həm özü, həm də zina etdiyi qadın mütləq öldürülməlidir</u>. (Levilliler 20: 10)*

*Atasının arvadıyla yatan, atasının namusunu ləkələmiş olar. İkisi də <u>mütləq öldürülməlidir. Ölümə layiq olublar</u>. (Levilliler 20: 11)*

*Bir insan <u>gəliniylə yatsa, ikisi də mütləq öldürülməlidir</u>. Alçaqlıq ediblər, ölümə layiq olublar. (Levilliler 20: 12)*

*Bir insan həm bir qızla, həm də qızın anasıyla evlənsə, alçaqlıq etmiş olar. Aranızda belə alçaqlıqlar olmasın deyə <u>üçü də yandırılmalıdır</u>. (Levilliler 20: 14)*

Quranda isə, hər hansı şəkildə zina ittihamı atan insanın, **həmin vaxt hadisəyə bilavasitə şahid olmuş 4 şahid** gətirmək məcburiyyəti var. Ancaq və ancaq həmin bu 4 şahid olduqda və şahidlər hadisə yerində zinaya bilavasitə şahid olduqları təqdirdə bir insanın zina etdiyinə dair qəti hökm meydana gələr.

Hökm verildikdən sonra cəza isə, yüz çubuq vurulmasından ibarətdir (Nur surəsi, 2-8). Aydındır ki, buradakı cəza hökmü qorxutmaq məqsədlidir. Aydındır ki, buradakı cəza hökmü qorxutmaq məqsədlidir. Çünki bir insanı tam zina edən vaxt, açıq şəkildə görə biləcək 4 insanın olması, faktiki cəhətdən qeyri-mümkündür.

4 şahid gətirilmədikdə isə, **bu ittihamın tamamilə ortadan qalxdığı ayələrdə bildirilir**:

**Bir ər arvadına zina böhtanı atdıqda və şahid gətirmədikdə isə, qadının Allaha beş dəfə and içməsi onun üzərindəki <u>bu ittihamı tamamilə ortadan qaldırar</u>. (Nur surəsi, 8-9)**

Tövratda isə zinanın cəzası **"daşlanaraq ölmək"**dir. Üstəlik, şahid gətirmək məcburiyyəti yoxdur. Cəzanın tətbiq olunması üçün bir söz belə kifayətdir. Bəzi xristianlar İslamı bu mövzuda tənqid edir, halbuki Tövratdakı bu hökm barəsində heç bir açıqlama vermirlər. Belə ağır və olduqca açıq bir hökm istənilən vaxt, bütün yəhudilərə və xristianlara aid edilə bilər. Bu mövzular yəhudilər və xristianlar haqqında çox qəribə fikirlərin meydana gəlməsinə səbəb ola bilər. Lakin müsəlmanlar, buradakı hökmün **qorxutmaq məqsədli olduğuna, əyani cəhətdən tətbiq olunmayacağına, zaman keçdikcə dəyişdirildiyinə hökm edərlər, eləcə də, yəhudi və xristianlara olan dünyagörüşləri də buna uyğun olar.**

Buna dair digər bir nümunə isə, mühasirəyə alınan şəhərlərdəki əsir qadınlarla

əlaqədardır. Quranda kişi və ya qadın olmağından asılı olmayaraq, bütün əsirlər himayə altına alınmış, döyüş bitdikdə isə, sərbəst buraxılmaları əmr edilmişdir. Lakin Tövrata görə mühasirəyə alınan bir şəhərdəki **qadınlar və uşaqlar "düşmən malıdırlar"** və **"yağmalana bilərlər":**

*Lakin sülh təklifinizi qəbul etməyib, sizinlə döyüşmək istəsələr, o zaman şəhəri mühasirəyə alın. Tanrınız RƏBB şəhəri sizə təslim etdikdə, orada yaşayan bütün kişiləri qılıncdan keçirin. Qadınları, uşaqları, heyvanları və şəhərdəki hər şeyi yağmalaya bilərsiniz. Tanrınız RƏBBin sizə verdiyi düşmən malından istifadə edə bilərsiniz. (Yasanın Tekrarı 20: 12-14)*

Üstəlik, mühasirəyə alınan bir şəhərdəki qadınlar, hətta uşaqlar, hətta körpələr belə ÖLDÜRÜLMƏLİDİR:

*"Bu qadınlar Balamın verdiyi nəsihətə qulaq asaraq Peor hadisəsində İsraillilərin RƏBBə xəyanət etməsinə səbəb oldular. Buna görə də, RƏBBin topluluğu arasında ölümcül xəstəlik baş verdi. İndi bütün oğlan uşaqlarını və kişi ilə yatmış qadınları öldürün. Təkcə kişi ilə yatmamış gənc qızları özünüz üçün sağ buraxın. (Yasanın Tekrarı 20: 16-18)*

*Musa döyüşdən qayıdan ordu komandirlərinə (mayorlara, kapitanlara) qəzəbləndi. "Yoxsa bütün qadınları sağ qoydunuz?" deyərək, onları azarladı... (Çölde Sayım 31: 14-15)*

*"Hakim RƏBB belə deyir: Onları dəhşətə gətirəcək və üstlərinə mallarını yağmalayacaq izdihamlı kütlə salacağam. Onları daşa tutacaq, qılınclarıyla parçalayacaqlar; oğullarını, qızlarını öldürəcək, evlərinə od vuracaqlar". (Hezekiel 23: 46-47)*

*Kişilərlə qadınları, gənclərlə yaşlıları, cavan oğlanlarla cavan qızları, çobanla sürüsünü, cütçüylə öküzlərini, saxtakarlarla köməkçilərini darmadağın edəcəyəm. (Yeremya, 51: 22-23)*

*Tutulanın bədəni dəlik-deşik ediləcək, ələ keçən qılıncdan keçiriləcək. Balaları gözləri önündə parçalanacaq, evləri yağmalanacaq, qadınlarına təcavüz ediləcək... Oxlarıyla gəncləri parçalayacaq, körpələrə yazıqları gəlməyəcək və uşaqlara rəhm etməyəcəklər. (Yeşeya 13: 15-18)*

*O birilərinə: "Şəhər boyunca onu izləyin və bütün insanları acımadan və rəhm etmədən öldürün" dediyini eşitdim. "Yaşlını, gənci, gənc qızı, qadını, uşaqları öldürün..." (Hezekiel, 13: 5-6)*

*İndi get, amaleqlilərə hücum et. Onlara aid hər şeyi tamamilə yox et, heç bir şeyə rəhm etmə. Qadın-kişi, uşaq-muşaq, öküz, qoyun, dəvə, eşşək hamısını öldür. (1 Samuel, 15: 3)*

*Xeşbon padşahı Sixona etdiyimiz kimi, hamısını yox etdik. Hər şəhəri, qadın, kişi və uşaqlarla birlikdə, tamamilə yox etdik. (Yasanın Tekrarı, 3: 6)*

*Tanrımız RƏBB onu əlimizə təslim etdi. Onu, oğullarını və bütün xalqını yox etdik. Bütün şəhərlərini ələ keçirtdik, hamısını yox etdik. Qadın, kişi, uşaq, heç kəsi sağ qoymadıq. (Yasanın Tekrarı, 2: 33-34)*

Döyüşən bir şəhərdəki **qadın-uşaq və heç bir canlının yaşadılmamalı olduğu** yenə Tövratdakı hökmlərdən biridir:

*Yaxınlığınızdakı millətlərə aid olmayan sizdən çox uzaq şəhərlərin hamısına belə davranmalısınız. Lakin Tanrınız RƏBBin miras olaraq sizə verəcəyi bu xalqların şəhərlərində nəfəs alan heç bir canlını yaşatmamalısınız. Tanrınız RƏBBin sizə buyurduğu kimi, onları (Xet, Emor, Kənan, Periz, Xiv və Yevus xalqlarını) tamamilə yox etməlisiniz. (Yasanın Tekrarı 20: 15-17) (Yasanın Tekrarı 20: 15-17)*

İslamda oğurluğa qarşı, ayədə açıqca bildirildiyi kimi; "təkrarın qarşısını alan bir cəza olaraq" əl kəsmək cəzası var. Lakin bir insan işlədiyi günahdan ötrü tövbə etsə, bu cəza aradan qalxar (Maidə surəsi, 38-39). Əlbəttə ki, heç kəs belə qorxuducu bir qarşılıq alacağını bilə-bilə tövbə edib bağışlanmaq nemətini geri çevirməyəcək. Dolayısilə **buradakı hökmün, tətbiq məqsədli deyil, təkcə insanları qorxutmaq məqsədli olduğu aydındır.**

Bu hökmdən ötrü müsəlmanları tənqid edən xristianlar, əslində bu mövzuda Tövrata baxmalıdırlar. Tövratda olduqca **qəribə səbəblərdən ötrü əl kəsmək cəzası vardır. Üstəlik, bu qəti hökm kimi tətbiq olunar və günahı işləyən insana mərhəmət də göstərilməz:**

*"Əgər iki kişi vuruşmağa başlasalar və birinin arvadı ərini, onu döyən kişinin əlindən qurtarmaq üçün, gəlib əlini uzadaraq, ərini döyən kişinin cinsiyyət orqanından tutarsa, həmin qadının əlini kəsməlisiniz; ona acımamalısınız. (Yasanın Tekrarı 22: 11-12)*

Qadınlara dair Tövratda qeyd olunan qəribə tətbiqlərdən biri isə, belədir:

*Bir qadın cinsi əlaqəyə girmək məqsədiylə bir heyvana yaxınlaşsa, qadını da, heyvanı da mütləq öldürməlisiniz. Onlar ölümə layiq olublar. (Levilliler, 20: 16)*

**Eyni vəziyyət İncil üçün də hakimdir.** Bəzi xristianlar müsəlmanları, qadını ikinci dərəcəli vətəndaş kimi gördükləriylə ittiham edərlər. Halbuki **İncilə baxıldıqda, qadının ikinci dərəcəli vətəndaş mövqeyinə gətirildiyinə və kişinin də ona hakim olaraq yaradıldığına dair açıqlamalar diqqəti çəkir.** İncildə bu barədəki sözlər belədir:

*...Məsih ... kilsənin başçısı olduğu kimi, kişi də qadının başçısıdır. (Efesliler 5:23)*

*Qadınlar yığıncaqlarınızda səssiz qalsın. Danışmalarına icazə yoxdur. Müqəddəs Qanunun da bildirdiyi kimi, itaətkar olsunlar. Öyrənmək istədikləri bir şey varsa, evdə ərlərindən soruşsunlar. Çünki qadının yığıncaq əsnasında danışması ayıbdır. (1 Korintliler, 14: 34-35)*

*Qadının öyrətməsinə, kişiyə hakim olmasına icazə vermirəm; səssiz olsun. Çünki əvvəlcə Adəm, sonra isə, Həvva yaradıldı; aldadılan da Adəm deyildi, qadın aldadılıb günah*

*işlədi. (1 Timoteos, 2:12-14)*

*<u>Kişi qadın üçün deyil, qadın kişi üçün yaradıldı</u>. (1 Korintlilər, 11: 9)*

Görüldüyü kimi xristianlıq və yəhudilikdə qadınları alçaldan çox ağır ifadələr olduğu halda, bəzi insanların bu ifadələrə göz yumub, İslamı pisləməyə çalışmaları anlaşılmaz məsələdir. Bu insanların onsuz da Quranda olmayan hökmlərdən ötrü, İslamı öz aləmlərində hədəf almalarının heç bir izahı yoxdur. Necə ki, müsəlmanlar; xristianlar və yəhudilərə dair belə bir dünyagörüşünə sahib deyillərsə, yəhudilər və xristianlar arasında da qadını alçaldan mövhumatçılar olduğunu bilir və bunu qətiyyən bu iki dinin əslinə aid etmirlərsə; xristianlar da (Quranda olmayan xurafatları və bunları tətbiq edən mövhumatçıları dəlil göstərərək) İslama dair yanlış dünyagörüşünə sahib olmamalıdırlar.

## Əsl qadın düşmənləri mövhumatçılar, münafiqlər, darvinistlər, materialistlər, kommunistlər və faşistlərdir

Qadınlara ikinci dərəcəli insan rəftarı etmək, hər fürsətdə onları alçaltmaq, qadının nemət kimi dəyərini bilməmək, bir sözlə, qadınlardan nifrət etmək, əslində darvinistlər, materialistlər, kommunistlər, faşistlər və mövhumatçıların xüsusiyyətidir. Bu insanlar heç bir gözəllikdən zövq almadıqları; incəsənətdən, estetikadan, gözəl qoxudan, heyvanlardan, bitkilərdən, musiqidən anlamadıqları kimi; bir nemət olaraq yaradılmış qadının dəyərini də qavraya bilməzlər. Özləri də mənəvi cəhətdən narahat olduqları, təmizlik və estetikadan zövq almayan bir həyat yaşadıqları üçün, gözəllikləri də görə bilməzlər. Həyatlarında zövq deyil, sıxıntı var, bundan ötrü də, nemətlərə nifrət və qəzəblə yanaşarlar.

Mövhumatçılıqda qadını ən çox alçaldan, qadına ən çox ikinci dərəcəli rəftarı göstərən insan, nümunəvi insan kimi göstərilər. Bu hər üç dinin mövhumatçıları üçün hakimdir. Halbuki İslam adından ortaya çıxan mövhumatçılar, tamamilə Qurana zidd hərəkət edir, Quran ayələrində və Peyğəmbərimiz (s.ə.v)-in tətbiqlərində yer almayan bir bəla içində yaşayırlar. İslamı deyil, xurafatlarla meydana gətirdikləri batil bir dini tətbiq edən bu insanların düşüncələrinin İslama aid edilməsi olduqca mənasızdır.

Əlbəttə ki, qadınlara dair bu azğın məntiq, əslində dinsizliyin qaynağı olan darvinizm mənşəlidir. Darvin, qadınları alçaq görən dünyagörüşünü açıqca dilə gətirməkdən çəkinməmişdir. *"İnsanın Mənşəyi"* adlı kitabında, qadınların idrak etmə, iti qavrama və təqlid məsələsində **"daha aşağı irqlərin xüsusiyyətlərini daşıdıqlarını"** və bundan ötrü də, **"daha köhnəlmiş və aşağı səviyyəli mədəniyyətə sahib olduqlarını"** (John R. Durant, "The Ascent of Nature in Darwin's Descent of Man" in The Darwinian Heritage, Ed. by David Kohn, (Princeton, NJ: Princeton University Press, 1985), səh. 295)  yazmışdır. Qadınları öz aləmlərində təkamül keçirməkdə olan, inkişaf etməmiş bir irq kimi görən bu zehniyyətin

necə ürküdücü bir həyat tərzi olduğu dərhal aydın olur. Belə mövhumatçı bir zehniyyətə sahib olan Darvin, qadının evlilikdəki rolunu bu inanılması çətin sözlərlə təsvir edir:

*"...oynayacaq bir obyekt - istənilən halda bir itdən daha yaxşıdır". (Charles Darwin, The Autobiography of Charles Darwin 1809-1882 (Edited by Nora Barlow), W. W. Norton & Company Inc., New York, 1958, səh. 232-233)*

Darvinin bu dəhşətamiz dünyagörüşünü davam etdirənlər; mövhumatçılar, münafiqlər, kommunistlər, faşistlər və dinsizlər olmuşdur. Çirkli və mövhumatçı darvinist zehniyyətin bütün müdafiəçiləri qadına qarşı bu dünyagörüşünü qoruyub saxlayır. **Bütün kommunist cəmiyyətlər bu məntiqdədir.** İslam adından ortaya çıxan bəzi **darvinist hocaların hamısı bu zehniyyətdədir. Qız uşaqlarını doğulan kimi öldürən və qız uşağı oldu deyə özünü alçaldılmış hesab edənlər yenə mövhumatçılardır.** Quran, həmişə qadının lehinə olduğu və həmişə qadının qorunmasına üstünlük verildiyi halda; mövhumatçılarda, münafiqlərdə və darvinistlərdə bütün sistem kişini qorumağa və qadını əzməyə xidmət edir. Dolayısilə qadını aşağı hesab edən bu azğın zehniyyət İslamın deyil, Darvinin və radikalizmin zehniyyətidir.

Hazırda İslam əxlaqının lazımınca yaşanmadığı bütün cəmiyyətlərdə qadına ikinci dərəcəli insan rəftarı göstərilir. Qadına ən böyük dəyəri verən isə İslam əxlaqının və Peyğəmbərimiz (s.ə.v)-in sünnəsinin tam şəkildə yaşandığı saleh müsəlmanların meydana gətirdiyi cəmiyyətlərdir. Dolayısilə alçaq, dinsiz və Quranla deyil, xurafatlarla yaşayan cəmiyyətlərin çirkli anlayışlarını İslami qaynaqlıymış kimi göstərməyə çalışan insanlar çox ciddi şəkildə yanılırlar. Qadının ən üstün tutulduğu, bütün haqqlarının və həyatının qoruma altına alındığı, lazımi dəyərin verildiyi tək din İslamdır.

# 3-cü hissə

## Dində məcburiyyət yoxdur, bu Quranın qəti hökmüdür

Quranın qəti hökmü budur: **İslamda məcburiyyət yoxdur.**

Bu həqiqət ayələrdə belə bildirilmişdir:

**Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir. (Bəqərə surəsi, 256)**

**Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları mömin olmağa sənmi məcbur edəcəksən? (Yunis surəsi, 99)**

**O (Nuh) dedi: "Ey qövmüm! Fikriniz nədir bir deyin görək, əgər mən Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəmsə, O da Öz tərəfindən mənə gözünüzə görünməyən bir mərhəmət (peyğəmbərlik) bəxş edibsə, onda necə olsun? Siz bunu istəmədiyiniz bir halda, biz sizi buna məcburmu edəcəyik? (Hud surəsi, 28)**

**De: "Ey kafirlər!**

**Mən sizin ibadət etdiklərinizə ibadət etmərəm,**

**Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz.**

**Mən sizin ibadət etdiklərinizə ibadət edən deyiləm,**

**Siz də mənim ibadət etdiyimə ibadət edən deyilsiniz.**

**Sizin dininiz sizə, mənim dinim də mənədir!" (Kafirun surəsi, 1-6)**

Müsəlmanlar Allahın: **"Yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə"** (Loğman surəsi, 17) əmrinin tələbindən ötrü, yaxşı işlər görməyi əmr edib, pis işləri qadağan edər və insanları gözəl sözlə Allahın yoluna dəvət edərlər. Lakin hidayəti verən Allahdır (Qəsas surəsi, 56). Eləcə də, Quranı oxuyan və anlayan bütün müsəlmanlar bunu çox yaxşı bilərlər. Dolayısilə bir müsəlmanın vəzifəsi, insanlara Quranı izah etmək, onları Qurana dəvət etmək, yəni onlara təbliğ etməkdir. Bu dəvəti, təkcə hidayətə nail olanlar qəbul edəcək, nail olmayanlar isə, bu dəvətdən uzaqlaşacaq. Dolayısilə hidayətə nail olmamış bir insan nə qədər məcbur edilsə də, heç vaxt həqiqi mənada müsəlman olmayacaq. Dolayısilə onu buna məcbur etmək, həm Qurana görə haramdır, həm də bu bir nəticə verməyəcək.

İslam, təslimiyyət deməkdir. Bir insanın İslamı qəbul etməsi, həqiqi mənada hidayətə nail olması və həqiqi bir müsəlman olması üçün, Allaha və Qurana səmimi və qəlbən təslim olması şərtdir.

Bəs bir insan İslamı qəbul etməyə məcbur edilsə nə baş verər?

**Bir insan İslamı qəbul etməyə məcbur edilsə müsəlman deyil, münafiq olar.** Zorla ibadət edər, zorla namaz qılar, nəticədə isə, qəzəb və nifrət dolu bir münafiqə çevrilər. İslamdan və müsəlmanlardan nifrət edər və müsəlman kimi görünüb həyatını öz aləmində müsəlmanları tələyə sala bilmək üçün sərf edər.

Münafiq, müsəlmanların ən böyük düşmənidir, dünyadakı ən alçaq məxluqdur. Allah münafiqlərə cəhənnəmdə ən alçaq təbəqəni layiq görmüşdür. Bu alçaq varlıqlar, həmişə

müsəlmanlara zərər verməyə çalışarlar. Dolayısilə Allahın hökmünə əməl etməyib bir insanı zorla müsəlman etməyə çalışmaq, ortaya yalnız münafiq çıxardar və zərər gətirər. Bu müsəlmanın heç istəməyəcəyi şeylərdən biridir.

Bir insanın zorla müsəlman olması, Quranın ümumi ruhuna da zidddir. Quranda bildirilən bir ədalət anlayışı var. Buna görə də, istənilən düşüncə və ideologiyaya sahib olmaq mümkün qədər azaddır. Allah Quranda bunu, kafirlərə xitab edən: **"Sizin dininiz sizə, mənim dinim də mənədir!"** (Kafirun surəsi, 6) ayəsiylə açıqca bildirmişdir. Bu, tam demokratiya deməkdir, din və inanc azadlığıdır. İnanc azadlığı və demokratiya isə Quran qaynaqlıdır. Quranda qeyd olunan bu anlayış bütün dünyaya yayıldıqda tam demokratiya və azadlıq yaşanılacaq. Bu ədalət sistemi, bütün cəmiyyətləri, bütün dünyanı, bütün inancları əhatə edən və insanlığın tələbi olan bir qanundur. Allahın qanunudur. Quran hökmləri insanların maddi və mənəvi cəhətdən rahatlıq tapacaqları şəkildə yaradılıb.

Quran ayələrində qətiyyən insanların canını yandıracaq və narahat edəcək heç bir hökm yoxdur. İslamiyyət, insanların sevə-sevə, könül rahatlığı ilə yaşayacaqları, xoşbəxt olacaqları bir din kimi göndərilmişdir. Bir müsəlman müşrik belə olsa bu insanın hidayətə nail olması üçün dua etməklə, ona şəfqətli davranmaqla, onu qoruyub himayə etməklə məsuldur. Allah, müşriklərin bir yerdən başqa bir yerə gedərkən qorunmalarını belə müsəlmanların üzərinə məsuliyyət kimi yükləmişdir. Müsəlmanlara, öz canları bahasına müşrikləri qorumaq vəzifəsi tapşırılmışdır. Quranda bu mövzu ilə əlaqədar ayə belədir:

**Əgər müşriklərdən biri səndən 'aman diləsə', ona aman ver ki, Allahın sözünü eşitsin. <u>Sonra onu özünün 'əmin-amanlıq içində olacağı' yerə çatdır</u>. Çünki onlar bilməyən bir qövmdür. (Tövbə surəsi, 6)**

İslam sevgi, şəfqət, anlayış və hörmət üzərində qurulmuş bir dindir. Bunları tətbiq etməyənlər, İslam əxlaqını tanımır və həqiqi Quran əxlaqını yaşamırlar.

## Mövhumatçılar, "dində məcburiyyət yoxdur" hökmünü takiyə kimi tətbiq edərlər

Bəzi insanlar, əvvəlcə "dində məcburiyyət yoxdur" anlayışı ilə ortaya çıxan, lakin sonradan gizlicə zorlama üsulundan istifadə etməyə başlayan bəzi müsəlmanları nümunə göstərərək bu mövzuda takiyə üsulundan istifadə edildiyini iddia edirlər. Əvvəla belə insanlar, həqiqi müsəlmanlarla, Qurana görə deyil, xurafatlara görə yaşayan mövhumatçıları bir-birindən yaxşı ayırd etməlidirlər. Bir mövhumatçı, Allahın Quran ayələrində bildirdiyi

hökmlərin xeyir və hikmətlərini onsuz da tam mənasıyla görə bilməmiş, Quranın ruhunu tam olaraq anlamamış, dolayısilə Quranın haqq və tək kitab olduğu ilə, tam razılaşmamış bir radikaldır. Öz ağlınca, Allahın hökmünə və Quran ayələrinə baxmayaraq, məcbur ediləcəyi və təzyiq göstəriləcəyi təqdirdə, bir insanın müsəlman ola biləcəyini zənn edər. Halbuki bu açıqca Rəbbimizin hökmlərinə qarşı çıxmaqdır. Bunun nəticəsində isə, (daha əvvəl ifadə etdiyimiz kimi) ortaya münafiqlər, İslam əleyhdarları, İslamı zorlama və təzyiq dini kimi görən insanlar çıxır.

Həqiqi İslam dini, təkcə İslam dini Peyğəmbərimiz (s.ə.v) dövründəki kimi doğru və tam tətbiq olunduqda və Quran ayələrinə tam olaraq əməl edildikdə yaşanılar. Bundan başqa heç bir nümunə İslam deyil. Quranın tək bir ayəsini belə qeyri-kafi görən, qəbul etməyən insan artıq dindən çıxmışdır. Belə bir insanın İslam adından ortaya çıxıb İslamda olmayan tətbiqləri həyata keçirməsindən ötrü, həmin tətbiqlər İslama aid edilə bilməz. Eynilə **xristianlıq adından ortaya çıxıb qırğınlar törədən, məscid və Quran yandıran mövhumatçıların tətbiqlərinin xristianlığa aid edilə bilməyəcəyi kimi.**

Qurani-Kərimdəki ayələrlə üst-üstə düşməyən bir tətbiq vardırsa, bu İslamın tətbiqi deyildir. Dolayısilə xristianlar, həqiqi İslam dinini tanımaq istəyirlərsə, təkcə Qurana baxmalıdırlar.

## Quran, mövhumatçılığa qarşı savaş başlatmışdır

Quran; mövhumatçılığın gətirdiyi hər cür bəlaya, bədbəxtliyə, zülmə, sevgisizliyə, qəzəbə, qan tökücülüyə qarşı savaş başlatmışdır. Qurana əsaslanan İslam dini, mövhumatçılığın tam əksidir.

İslam; sevgi, sülh və dostluğu nəsihət edər. Birlik olmağı, birlikdə Allahın adını ucaltmağı, qardaş olmağı, dünyada dinclik və təhlükəsizliyin yaradılmasını təşviq edər.

## <u>Mövhumatçılıqdan xilas olmağın yolu İslama qarşı savaş başlatmaq deyildir</u>

Cahilcəsinə mövhumatçılığı İslam dini kimi qəbul edənlər və bu mövhumatçı sistemi ortadan qaldırmaq istəyənlər, ümumiyyətlə böyük yanılmaya qapılaraq, İslama qarşı düşməncəsinə bir münasibət bəsləyirlər. Bu yanlış dünyagörüşü, xüsusilə bəzi materialist, ateist və darvinist mətbuat, beyin mərkəzləri və dünya siyasətində təsirli rol oynayan bir sıra ətraflar tərəfindən, şüurlu surətdə yayılmağa çalışılmışdır. Həmin bu ətraflar, müsəlmanlığı

qəsdən yanlış tanıdaraq: **"Müsəlmanlar belədir, sizə yaşamaq kimi tanımazlar, dolayısilə onlar sizi yox etmədən siz onları yox edin"** kimi təlqinlərlə, insanları İslam dininə və müsəlmanlara qarşı qızışdırırlar.

Bəzi xristianlar bu təlqinlərin təsiriylə, mövhumatçı sistemin gətirdiyi bəzi zalım tətbiqlərin ortadan qaldırılması üçün, Quran və İslam diniylə mübarizə aparılmalı olduğunu müdafiə edərlər (Quranı və İslam dinini tənzih edirik). Halbuki ağla və vicdana sığmayan bu üsul, **mövhumatçılığın daha da güclənməsinə və inkişaf etməsinə gətirib çıxardar. Qurana və həqiqi İslam dininə edilən hər cür hücum, özləri kimi düşünməyənlərə zorakılıq tətbiq edilməli olduğunu müdafiə edən mövhumatçı sistemi daha da gücləndirər.** Həmin bu mövhumatçıların müdafiə etdiyi qan tökücü sistemi ortadan qaldırmağın yolu, **Quranı və həqiqi müsəlmanlığı ön plana çıxartmaq**, Əsri Səadət müsəlmanlığını yenidən həyata keçirməkdir.

Həqiqi müsəlmanların şən, ünsiyyətcil, sevgi, şəfqət, dostluq və qardaşlıq dolu, demokratiya və azadlığı müdafiə edən, müasir və uzaqgörən həyatları mövhumatçı zehniyyətdə olanları heyrətamiz dərəcədə narahat edər, sanki qovurar və yandırar. Dolayısilə, xristian qardaşlarımız, həm müsəlmanların, həm də xristian və yəhudilərin əleyhdarı olan mövhumatçı zehniyyətə qarşı, həqiqi müsəlmanlara dəstək olmalı və onlarla birlikdə hərəkət etməlidirlər.

**Mövhumatçılıqla mübarizə aparmaq müsəlmanlar üçün bir ibadətdir.** Çünki müşriklərlə mübarizə aparmaq Quranın əmrlərindən biridir. Quranda "müşriklər" deyə işlənən qrupun digər adı mövhumatçılardır. Uca Allah ayələrdə münafiqlərdən bəhs edər, kafirlərdən bəhs edər, qəlbində xəstəlik olanlardan bəhs edər, bunların hamısı müşriklərdir. Bunlar Əsri Səadət əleyhdarlarıdırlar, **QURAN ADINDAN QURANA QARŞI SAVAŞ BAŞLADARLAR.**

Lakin, əlbəttə ki, bu mübarizə, elmi və fikri mübarizə olmalıdır. Daha əvvəl xatırlatdığımız kimi, mövhumatçı kütlə, ümumiyyətlə müxtəlif səbəblər və xurafatlar nəticəsində Qurandan uzaq qalmış təhsilsiz, məlumatsız bir qrupdur. Dolayısilə mövhumatçılıq təhlükəsinin ortadan qalxa bilməsi üçün, bu insanlar öyrədilməlidirlər. Əlbəttə ki, öyrədildikləri və Quranda izah edilən həqiqi İslam dinini anladıqları vaxt, onlar da mövhumatçı zehniyyətin məntiqsizliyini görəcəklər.

Sevgisiz, şəfqətsiz, mərhəmətsiz, ağılsız, mədəniyyətsiz, ədəbsiz; elmi və incəsənəti heç xoşlamayan; dərin düşünə bilməyən, göstəriş edən, dini qarmaqarışıq hala gətirməyə çalışan və həmişə uydurmalarla, xurafatlarla özünə görə bir din meydana gətirən azğın cərəyanın adı "mövhumatçılıq" və ya digər adıyla "müşriklik"dir. Dolayısilə TAMAMİLƏ QURANA ZİDD OLARAQ MEYDANA GƏTİRİLMİŞ, ÖZ ALƏMİNDƏ QURANI KAFİ GÖRMƏYƏN VƏ QURANDA ƏMR EDİLƏN HÖKMLƏRİN TAM ƏKSİNİ TƏTBİQ EDƏN MÖVHUMATÇI SİSTEM, MÜSƏLMANLARIN DA FİKRİ CƏHƏTDƏN MÜBARİZƏ APARMALI OLDUQLARI BİR ANLAYIŞDIR.

Mövhumatçılığa gətiriləcək çıxış yolu, Əsri Səadət müsəlmanlığını və həqiqi Quran əxlaqını müdafiə etmək və radikalizmin pəncəsinə düşənləri öyrətməkdir. Peyğəmbərimiz (s.ə.v) mövhumatçılara qarşı çıxır və İslamın gətirdiyi demokratiya, sevgi, hörmət və azadlıq nemətlərini ən mükəmməl şəkildə tətbiq edirdi.

## Həqiqi İslam əxlaqı yaşanıldıqda həm xristianlar, həm də yəhudilər rahatlıq tapacaqlar

Xristian qardaşlarımızın, bu kitabda izah etdiyimiz sevgi, sülh, demokratiya, azadlıq, xoşbəxtlik, müasirlik kimi anlayışlarla əlaqədar izahatları "yaxşı niyyətlə edilmiş şərhlər" kimi qiymətləndirməmələri çox əhəmiyyətlidir. Bunlar bizim şəxsi şərhimiz olmayıb, QURANIN ƏSASIDIR. Bunlar, Quranın ruhuna, hz. Məhəmməd (s.ə.v)-də gördüyümüz bütün nümunələrə, Rəhman və Rəhim olan Allahın rizasına uyğun olandır. Peyğəmbərimiz (s.ə.v) dövründə Quran hökmləri bu cür tətbiq olunmuşdur. Qan tökücülük, təkcə mövhumatçıların xurafatlarında var. Dəccalın nəzarəti altındakı mövhumatçı zehniyyətə sahib insanlar, qan tökücülüyü bütün dünyaya yayaraq bunu İslam kimi göstərmiş və kütlələri aldatmışdır.

Xristianların, Quranın həqiqi və əsl mesajını görmələri olduqca əhəmiyyətlidir. Peyğəmbərimiz (s.ə.v) və Qurani-Kərim dünyadakı bütün insanlar üçün bir nurdur. İnsanları xoşbəxt edən, dünyanı aydınladan hər şey Qurandadır. Bunu, Allah rizası, vicdan, iman və qəlb gözü ilə baxan hər insan açıqca görəcək. Quranı, Əsri Səadət dövründəki kimi yaşamaq bütün dünyaya tam rahatlıq və gözəllik gətirəcək. Quranın müsəlmanlar tərəfindən bu cür tətbiq olunması, xristianlar və yəhudilər üçün də, dinclik, xoşbəxtlik və rahatlıq səbəbi olacaq. Bunun nəticəsində dünyaya olduqca xoşbəxt bir həyat hakim olacaq. Onsuz da insanların fitrətində olan, lakin dəccal sisteminin təsirlərindən ötrü yox olmuş sevinc, cəmiyyətlərə geri qayıdacaq. İnsanlar sevinəcəkdir. İncəsənət inkişaf edəcək, əsil incəsənətlə məşğul olan incəsənət xadimləri ortaya çıxacaq. Dəccal sisteminin təsiriylə yox olub gedən memarlıq yenidən canlanacaq. Çünki dünyaya dinclik, xoşbəxtlik, güvən, dostluq, qardaşlıq və hamısından əhəmiyyətlisi Allah sevgisi yayılacaq. İnsanların qəlbində Allah sevgisi olduqda isə, həmin cəmiyyətə incəsənət, estetika, sevinc, xoşbəxtlik və elm gələr, bir sözlə, hər şeyə gözəllik və coşğu gələr. Quran müsəlmanının anlayışı, şəfqət, mərhəmət, sevgi, ağıl, tutarlılıq və tutarlı rəftarlar sərgiləmək, ağıllı düşünmək, fədakar olmaq, hadisələrə yaxşı niyyətlə baxmaq, hər şeydə xeyir görmək üzərinə qurulub. İslamın bu cür yaşanıldığı bir dünya, həm xristianlar, həm də yəhudilər üçün fövqəladə gözəllikdə olacaq.

Xristianların qarşı çıxmalı və elmi mübarizə aparmalı olduqları şey isə, hər üç din üçün də böyük təhlükə olan mövhumatçılıq, darvinizm və materializmdir. Dəstəkləməli və müdafiə etməli olduqları şey isə, İslam dininin Qurandakı halı ilə yaşanması və hazırki

dövrdə bunu təmin edəcək mehdiyyətdir. Bunu dəstəklədikləri təqdirdə mövhumatçılıq, mürtəcelik, darvinizm və materializm ortadan qalxacaq, dünyaya bayram sevinci gələcək, hər şey və hər yer aydınlanacaq. Mövhumatçılığın, darvinist və materialist ideologiyaların təsiri altında qalmış insanlar isə, doğru təhsillə qazanılmış olacaq. Quran ayəsində bildirildiyi kimi, uca Allah kilsələr və sinaqoqları qoruyur. Xristian və yəhudi qardaşlarımız istədikləri kimi, ibadətlərini edəcək, istədikləri rahatlığa və əmin-amanlığa qovuşacaqlar. Müsəlmanlar; xristian və yəhudilərlə qardaşlıq və sevgi içində yaşayacaq, döyüşlər bitəcək, artıq qan tökülməyəcək, dünya rifahın, dincliyin və təhlükəsizliyin yaşanıldığı sülh məkanına çevriləcək. Bu Allahın vədidir. Mütləq gerçəkləşəcək. Lakin bunun üçün, Allah bizdən cəhd göstərməyimizi istəyir.

# Peyğəmbərimiz (s.ə.v)-in Kitab əhlinə qarşı şəfqətli, qoruyucu və sevgi dolu münasibəti

## Peyğəmbərimiz (s.ə.v), nəcran xristianlarının ziyarəti vaxtı, əyləşmələri üçün əbasını yerə sərmişdir

1) Rəsulullah (s.ə.v)-in Kitab əhlinin toy mərasimlərində iştirak etdiyi vaxt, xəstələrinə baş çəkdiyinə və onlara nemət verdiyinə dair çox sayda rəvayət var. Hətta nəcran xristianları onu ziyarət etdikləri vaxt, hz. Məhəmməd (s.ə.v) onlar üçün əbasını yerə sərmiş və xristian qonaqlarına əbasının üstünə əyləşmələrini söyləmişdir.

## Peyğəmbərimiz (s.ə.v) Kitab əhlinin müsəlmanların himayəsi altında olduqlarını söyləmişdir

Peyğəmbərimiz hz. Məhəmməd (s.ə.v)-in, xristian olan İbn Həris İbn Kab və qövmünə yazdırdığı müqavilə mətnində: **"Şərqdə və qərbdə yaşayan bütün xristianların dinləri, kilsələri, canları, isimətləri və malları Allahın, Peyğəmbərin və bütün möminlərin himayəsi altındadır.** Xristianlıq dinini yaşayanların hər hansı biri istəmədən İslamı qəbul etməyə məcbur edilməyəcək. Xristianlardan biri hər hansı bir cinayətə və ya haqsızlığa məruz qalsa **müsəlmanlar ona kömək etmək məcburiyyətindədir"** deyə yazdırmışdır. *(İbn Hişam, Ebu Muhammed Abdulmelik, Es-Siretü'n-Nebeviyye, Daru't-Türasi'l-Arabiyle, Beyrut, 1396/1971, II/141-150)*

## Peyğəmbərimiz (s.ə.v), ziyarətə gələn Kitab əhlinin qalması üçün səhabələrin evlərini onlar üçün ayırardı

Hz. Peyğəmbər (s.ə.v) dövründə, qruplar halında elçilər və heyətlər Mədinəyə baş çəkərdilər. Gələn heyətlər (bura Kitab əhli də daxildir) bəzən 10 gündən artıq da qala bilirdilər ki, Əbdürrəhman ibn Əvf, Muğirə ibn Şöbə, Əbu Əyyub Əl-Ənsari və **Ənsardan bəzi insanların evləri, onlar üçün ayrılardı.** Bunlarla yanaşı, Məscidül-Nəbinin ətrafındakı elm öyrənən suffa əhlinin qaldığı yerlər ilə, Məscidin yaxınlığında qurulan bir çadır, gələn

ziyarətçilər üçün hazırlanardı.

Hz. Peyğəmbər (s.ə.v), görüşməyə gələnlərin bəzilərinə, amannamə və əhdnamə (yazılı əmr və təlimat, bəzi şəxs və qruplara verilən haqq və imtiyazları, xaricilərlə əldə olunan razılaşma hökmlərini ehtiva edən sənəd) və onlar üçün ayrılan əraziləri bildirən rəsmi sənəd verərdi. Bəzi bölgələrə də öz aralarından qubernatorlar təyin edərdi. Yenə Mübarək Elçi, müsəlmanlara zəkat məmurları göndərdiyi halda, xristian kimi qalanlara da cizyə məmurları göndərirdi. Əslində gələn bu rəsmi heyətlər, bütün Ərəbistan yarımadasının, hz. Məhəmməd (s.ə.v)-in peyğəmbərliyini və hakimiyyətini qəbul etməsinə sanki bir dəlildilər. *(Sarıçam, Hz. Muhammed ve Evrensel Mesajı, səh. 356)*

## Peyğəmbərimiz (s.ə.v) vəhy enməyən bəzi mövzularda Məkkəli müşriklərin deyil, Kitab əhlinin davranışlarına görə hərəkət etmişdir *

Allahın Elçisi (s.ə.v) Məkkədə, vəhy almadığı mövzularda Məkkəli müşriklərə müxalif çıxaraq, **Kitab əhlinin davranışlarına uyğun** hərəkət etmişdir. *(Buhârî, Libâs 70; Müslim, Fedâil 90)*

## Peyğəmbərimiz (s.ə.v), səhabələri xristian Nəcaşinin yanına hicrətə göndərmişdir

Peyğəmbərimizin hicrətdən əvvəl ilk maraq göstərdiyi və müsəlmanların hicrət etmələrini arzuladığı xristian ölkə, Həbəşistan olmuşdur. Allahın Elçisi, Məkkə müşriklərinin amansız işgəncələri və təzyiqləri qarşısında Məkkəli müsəlmanların Həbəşistana hicrət etmələrini arzulamış və bu hisslərini bu ifadələrlə dilə gətirmişdir.

***"İstəsəniz və əlinizdən gəlsə, Həbəşistana sığının. Çünki orada hökm sürən kralın torpaqlarında heç kəsə zülm edilməz. Ora doğru və əmin bir yerdir, Allah asanlıq verənə qədər orada qalın".*** *[Hamîdullah, el-Vesâikü's- Siyâsiye, (tərcüməçi: Vecdi Akyüz), İstanbul 1997, səh. 115; Hamîdullah, İslâm Peygamberi, I, 297]*

## Peyğəmbərimiz (s.ə.v) bir yəhudinin cənazəsi keçərkən ayağa qalxmışdır

Cabir ibn Abdullah (r.ə) belə nəql etmişdir: “Yanımızdan bir cənazə keçdi. *Rəsulullah (s.ə.v) dərhal bu cənazə üçün ayağa qalxdı. Biz də (ona uyaraq) onunla birlikdə ayağa qalxdıq və: "Ey Allahın Elçisi! Bu bir yəhudi qadının cənazəsidir" dedik. Bundan sonra hz. Peyğəmbər (s.ə.v) belə dedi: "...Cənazəni gördüyünüz zaman, dərhal ayağa qalxın". (Müslim, Cenaiz, 78, Hadis no: 1593)*

Qeys ibn Sad (r.ə)-dən rəvayət olunduğuna görə İbn Əbu Leyla belə nəql etmişdir: *“Qeys ibn Sad ilə Səhl ibn Hüneyf, Qadisiyədə olduqları vaxt, yanlarından bir cənazə keçdi. Bunlar ayağa qalxdılar. “Özlərinə: “Bu cənazə, bu yerin camaatından (yəni zimmilərdən) biridir” deyildikdə, Qeys ilə Səhl də belə dedilər: Rəsulullah (s.ə.v)-in yanından bir cənazə keçmişdi. Allahın Elçisi, ayağa qalxdı. Özünə həmin bu cənazədə bir yəhudi olduğu bildirildikdə O da belə buyurdu: "Məgər bu da bir insan deyil?". (Müslim, Cenaiz, 78, Hadis no: 1596)*

## Peyğəmbərimiz (s.ə.v) zimmilərə əziyyət verilməməsini buyurmuşdur *

Peyğəmbərimiz (s.ə.v) bir hədisində belə buyurmuşdur: *"Kim zimmilərdən (İslam ölkəsindəki qeyri-müsəlmanlardan) birinə əziyyət versə, mən onun düşməni olaram".*

## Peyğəmbərimiz (s.ə.v), peyğəmbərliyinin ilk vaxtlarında, xristianlarla görüşürdü

Peyğəmbərimiz (s.ə.v), Allahın Elçisi sifətiylə təbliğə başladığı zaman, ilk dəfə Məkkədə bəzi **xristianlarla qarşılaşmışdı.** Hətta, Özünə vəhy gəlməyə başladığı ilk günlərində hz. Xədicə və Peyğəmbərimiz (s.ə.v)-lə görüşən Vərəqə ibn Nofəl də İncilin əlyazmalarına sahib olan bir xristian idi. *(Buhârî, Bedu'l- Vahy 3)*

## Peyğəmbərimiz (s.ə.v), kimsənin dininə qarışılmasına icazə verməmişdir

Din seçmə azadlığının ifadəsi olan: **"La ikrâhe fı'd-dîn (dində məcburiyyət yoxdur)"** (Bəqərə surəsi, 256) ayəsinin hökmünü tətbiq edən Peyğəmbərimiz (s.ə.v), 630-cu ildə, müsəlman olduqlarını bildirmək məqsədiylə Mədinəyə gələn Himyar hökmdarının elçilərinə

bu təlimatı vermişdir: *"Bir yəhudi və ya bir xristian, müsəlman olduqları təqdirdə, möminlərdən olarlar (onlarla eyni hüquqlara malik olarlar).* ***Kim yəhudiliyindən və ya xristianlığından imtina etmək istəmirsə, ona müdaxilə edilə bilməz".*** *(İbn Hişâm, es-Sîre, II, 586)*

## Peyğəmbərimiz (s.ə.v)-in bilavasitə özü yəhudilərlə ticarət etmişdir

Allah Rəsulunun, insanlarla əlaqələrində prinsip qəbul etdiyi dəyərlərdən biri dürüstlükdür. Bu üstünlüyə sahib olduğunu gördüyü kimsənin başqa dindən olması, onunla ticarət etməsinə maneə təşkil etməmişdir. Bilavasitə özü **Mədinəli yəhudi tacirlərdən qida maddələri və borc almışdır.**

Allahın Rəsulu (s.ə.v) vəfat etdikdə, **şəhərdəki bir yəhudidən aldığı borcun qarşılığı, Peyğəmbərimiz (s.ə.v)-in öz zirehi idi.**

## Peyğəmbərimiz (s.ə.v)-in Xeybərin fəthi zamanı, yəhudilərə göstərdiyi şəfqət

Xeybərin fəthindən sonra əldə olunan qənimətlər arasında yığın-yığın Tövrat nüsxələri olmuşdur. **Hz. Peyğəmbər (s.ə.v) bu nüsxələri qənimətlər arasından çıxardıb, nüsxələrin yəhudilərə geri qaytarılmasını əmr etmişdir.**

Yenə Xeybərin fəthindən sonra, müsəlman əsgərlər, yəhudilərə aid bağlardan və xurma bağçalarından yeməyə başladılar. Yəhudilər bu vəziyyəti hz. Peyğəmbər (s.ə.v)-ə şikayət etdilər. **Hz. Peyğəmbər (s.ə.v) də bölgə xalqının mallarına, bağ və bağçalarına toxunulmamasını əmr etdi.**

## Peyğəmbərimiz (s.ə.v) Mədinə vəsiqəsiylə (müqaviləsi) yəhudilərin və xristianların dininə qarışılmayacağını söyləmişdir

Peyğəmbərimiz (s.ə.v)-in xristian, yəhudi və müşrik cəmiyyətlərlə imzaladığı **Mədinə vəsiqəsi** də mühüm ədalət nümunəsidir. Mədinə vəsiqəsinin bəndlərindən biri belədir: *"Bəni-Əvf yəhudiləri, möminlərlə birlikdə eyni ümmətdirlər,* ***yəhudilərin dinləri özlərinə, müsəlmanların dinləri də özlərinədir".***

Mədinə vəsiqəsinin 16-cı bəndində isə: **"Bizə tabe olan yəhudilər, heç bir haqsızlığa**

**uğramadan və düşmənləriylə də köməkləşmədən, kömək və dəstəyimizə haqq qazanacaqlar"** deyə bildirilmişdir.

Peyğəmbərimiz (s.ə.v)-dən sonra da səhabələri, Peyğəmbərimiz (s.ə.v)-in müqavilə bəndlərinə daxil etdirdiyi bu hökmə sadiq qalmış və eyni hökmü, **Berberi, Buddist, Brahma və bənzəri inanclara sahib insanlar üçün də tətbiq etmişdirlər.**

## Peyğəmbərimiz (s.ə.v) nəcranlılara verdiyi amannamədə onların müsəlmanların himayəsi altında olduğunu söyləmişdir

Bilavasitə Peyğəmbərimiz (s.ə.v) tərəfindən Ədruh, Maqna, Xeybər, Nəcran və Akabəli Kitab əhlinə verilən rütbələr, müsəlmanların **Kitab əhlinin can və mal təhlükəsizliyini zəmanət altına aldıqlarını və onlara inanc və ibadət azadlığı tanıdıqlarını** göstərir. Peyğəmbərimiz (s.ə.v)-in nəcranlılarla bağladığı müqavilədə qeyd olunan bu bəndlər də diqqət çəkicidir:

*Nəcranlılar və yanlarındakıların, canları, malları, dinləri, varları və yoxları, ailələri, kilsələri və sahib olduqları hər şey Allahın və Allahın Peyğəmbərinin zəmanəti altına alınacaq.*

*Heç bir yepiskop və ya keşiş kilsəsindən və ya monastırından məhrum edilməyəcək və heç bir rahib rahiblik həyatını tərk etməyə məcbur edilməyəcək.* ***Onlara heç bir əziyyət verilməyəcək və ya onları alçaldan hər hansı hərəkət edilməyəcək. Həmçinin, torpaqları ordumuz tərəfindən işğal edilməyəcək.*** *Haqqını tələb edən olsa, Nəcranda ədalətlə hökm veriləcək...*

*Onlara düşən sədaqət və öhdəçiliklərini yerinə yetirməkdə səy göstərmələridir. Zülmə və təzyiqə məruz qalmayacaqlar.*

## İman gətirənlərin birləşməsi bir zərurətdir

Allah inancının, ədalətin və vicdanın tələbi; dünyada Allah inancına qarşı çıxanlarla fikri mübarizə aparmaq, dünyadakı bütün pis əməllərin üstünü açaraq bunların fikri təməllərini yox etməyə çalışmaqdır. Apardıqları qanlı fəaliyyətlərdə öz aləmlərində uca İslam dinindən istifadə etməyə çalışan, müsəlman adı və ya kimliyi daşıyan cahil, hətta əslində dinsiz olan insanların İslam dini və Quran ayələrinə qətiyyən uyğun gəlməyən tətbiqləri bir-birindən mütləq ayırd edilməlidir.

İslamın əslini görməzlikdən gələrək, Dəccal tərəfdarlarının planlarına aldanmaq səmimi iman gətirən bir insanın edə biləcəyi bir rəftar deyil. Edilən bu gizli və sistemli təlqin üsullarıyla, bəzi xristianlar özlərini müsəlmanlardan uzaq tutur, hətta onlara qarşı cəbhə meydana gətirirlər. Bunu edərək özlərini yevangelist xristianlardanmış kimi göstərməyə çalışan din əleyhdarı insanların təsiri altında müsəlmanlara qarşı kin və nifrət duyğularını təşviq edirlər. Allahı sevən dindarlar olaraq, Allahın dostlarıyla birlik olmalı olduqları halda, ateist, darvinist və terrorist bir sistemin liderliyini edən hiyləgər bir təşkilatın izindən (xəbərsiz də olsa) gedirlər. Bu yanlış inancın həm özlərinə, həm də dünyadakı bütün iman sahiblərinə nə qədər böyük zərər verdiyini görə bilmirlər.

Allahın icazəsi ilə, ALLAHIN ADI VƏ KƏLAMI, MÜTLƏQ BÜTÜN DÜNYAYA HAKİM OLACAQ VƏ QALİB GƏLƏCƏK. Bu Allahın bütün həqiqi iman sahiblərinə olan vədidir. Lakin bunun vəsilələri olmaq üçün, səbəblərə sarılmalı və bütün dünyada güclü inanc həmrəyliyi içində olunmalıdır. Səmimi yevangelist xristianlar, yevangelist masonların çirkli oyunlarını görüb, sürükləndikləri böyük təhlükəni görüb səmimi dindar müsəlmanlarla ittifaq yaratsalar, bütün insanların sülh və dinclik içində yaşaya biləcəkləri, müharibələrin, qarşıdurmaların bitəcəyi bir dünya nizamının qurulması mümkün olacaq. Allahdan bir nemət olaraq daha dinc və daha rahat, gözəl bir həyat yaşayacaqlar.

Ateist masonluğun gizli liderliyi altındakı əsil təhlükənin (yəni ateizm, darvinizm, materializm, Marksizm, kommunizm təhlükəsinin) ölçülərini daha yaxşı gördükləri vaxt, əsl fikri mübarizəni bütün iman sahibləriylə birlikdə, Allah inancına qarşı mübarizə başlatmış bu cür azğın sistemlərə qarşı aparacaqlar. Uca Allahın icazəsi ilə, 3 böyük dinin mənsublarının həyəcanla gözlədikləri hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın zühur vaxtı çox yaxındır. Qurana görə Allahın vədi gərəyi, həmin dövrdə hz. İsa (ə.s)-ın sülh və həmrəylik dəvətini mütləq bütün xristianlar öz istəkləriylə qəbul edəcəklər. Qurana görə hz. İsa (ə.s)-ın yenidən zühurunda, Kitab əhlindən (xristian və yəhudilərdən) ölmədən əvvəl ona iman gətirməyəcək hər hansı bir insan qalmayacaq (Nisa surəsi, 159). O zaman, əsl edilməli şeyin, iman sahibləri arasında sevgi və birlik yaratmaq olduğunu uca Rəbbimizin icazəsi ilə anlayacaqlar. Lakin əhəmiyyətli olan, hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın zühur dövrünə çox yaxınlaşmışkən bu həqiqəti görmək və BU MÜBARƏK İNSANLAR ÜÇÜN LAZIMİ ELMİ ZƏMİNİN HAZIRLANMASINA QABAQCILLIQ EDƏRƏK, ONLAR ÜÇÜN RAHAT FƏALİYYƏT GÖSTƏRƏCƏKLƏRİ BİR MÜHİT HAZIRLAMAQDIR. Şübhəsiz ki, Allahın, İslam əxlaqını, sülhü, dincliyi və sevgini hakim etmək üçün heç nəyə ehtiyacı yoxdur (Allahı tənzih edərik). Lakin Allah, iman gətirənlərə dua etmə və mükafat almaq gözəlliyini lütf etmişdir. ƏSİL SƏMİMİ DİNDARLAR ARASINDAKI GÜCLÜ BİRLİK, DİNSİZLİYİN YER ÜZÜNDƏN SİLİNMƏSİ VƏ UCA RƏBBİMİZİN ADININ BÜTÜN DÜNYADA BİR VƏ TƏK OLARAQ XATIRLANMASI ÜÇÜN BİR DUA XÜSUSİYYƏTİNDƏDİR.

# VIII Fəsil
# Hz. İsa (ə.s) nüzul etdi

## Hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) hazırda dünyadadırlar

Xristianların 2000 ildir, müsəlmanların isə 1400 ildir ki, gözlədikləri böyük nüzul gerçəkləşmişdir. Hz. İsa (ə.s) hazırda yer üzündədir. Yaşadığımız dövr Axırzamandır. Dünyanın qurtuluşa nail olmasına vəsilə olacaq iki mübarək Axırzaman şəxsi hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) yer üzündədir. Hazırda fəaliyyətlərinə davam edirlər. Əsri Səadətdən sonrakı dünyanın ən mühüm dövrü, hazırda yaşanılır. Bu, iman gətirənlər üçün çox gözəl və çox həyəcan verici bir müjdədir.

Peyğəmbərimiz (s.ə.v)-dən rəvayət edilən hədislərdən, həmçinin Tövrat və İncil sözlərindən, dünyanın son zamanına yaxınlaşdığımız və hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) dövründə yaşamaqda olduğumuz aydın olur [mövzuyla əlaqədar ətraflı məlumat toplamaq üçün baxın: *"Hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) bu əsrdə gələcək"* Harun Yəhya]

Bu müqəddəs bir dövrdür. Möhtəşəm bir dövrdür. Dünyadakı qarışıqlıq hz. İsa (ə.s) və hz. Mehdi (ə.s)-ın fəaliyyətləriylə sona çatacaq. Dünya, Əsri Səadət dövrünün bolluğunun, xoşbəxtliyinin, sevincinin və coşğusunun yaşanıldığı Qızıl Əsri qovuşacaq.

Qızıl Əsr, bütün müharibələrin bitdiyi, bütün insanların dinclik və sülh içində yaşadığı, cinayətlərin ortadan qalxdığı, aclıq, səfalət, qorxu, zülm kimi bütün bəlaların yox olduğu, cezaçəkmə müəssisələrinin tamamilə bağlanıldığı, topların, tüfənglərin, bütün silahların əridilib yox edildiyi xoşbəxtlik əsri olacaq. Bu mübarək dövrdə, bəzi xristianların gözlədiyi kimi müharibələr olmayacaq, düşmənçilik olmayacaq. Bütün dinlərin mənsubları bir yerdə, qardaş və dost kimi yaşayacaqlar. Qızıl Əsr, bütün dünyanın toplu şəkildə ən böyük rahatlığa və dincliyə nail olduğu səadət dövrü olacaq.

Hz. İsa (ə.s) zühur etdikdə, bilavasitə özü xristianlara təslis inancının nə qədər böyük yanılma olduğunu başa salacaq. Allahın oğlu olmadığını, özünün də digər bütün insanlar kimi Allaha möhtac, aciz bir qul olduğunu xristianlara özü söyləyəcək. Quranı oxuyacaq, Qurana tabe olacaq və bütün xristianları Qurana dəvət edəcək. Məhz bu zaman, bütün xristianlar, burada izah edilənlərin doğru olduğuna qəti şəkildə inancaqlar. Həmçinin Allahın icazəsi ilə ayədə bildirildiyi kimi, hz. İsa (ə.s) ölmədən əvvəl ona iman gətirməyən heç kəs qalmayacaq:

**Kitab əhlindən elə kimsə yoxdur ki, ölümündən əvvəl ona iman gətirməsin. Qiyamət günü isə İsa onların əleyhinə şahid olacaqdır. (Nisa surəsi, 159)**

Əlinizdəki bu kitab təslis yanılmasına qapılmış xristianlara geniş və ətraflı bir açıqlama mahiyyətindədir. Kitabda qeyd olunan Quran və İncildə bildirilmiş açıqlamalarla, qarşıya, onları doğru yola, tək olan Allahın yoluna dəvət etmək məqsədi qoyulur. Xristianlara çox böyük və gözəl bir müjdə verilir. Allah, onlara və təbiidir ki, bütün insanlara hz. İsa (ə.s)-ın o gözəl, nurlu, möhtəşəm camalını göstərəcək. 2000 il sonra bağrımıza basacağımız, coşğuyla sevgiylə qarşılayacağımız sevimli peyğəmbərimiz hz. İsa (ə.s) hazırda yer üzündədir, bütün insanların qarşısına çıxacağı, zühur edəcəyi günlərsə çox yaxındır.

# IX Fəsil
# Bəzi yevangelistlərin Antichrist (Dəccal) düşüncəsindəki təhlükə

Hazırki dövrdə bəzi yevangelistlər, İncildəki Dəccal tərifini yanlış şərh etdikləri üçün, müsəlmanlar və yəhudilərin bir xilaskar kimi gözlədikləri və dünyaya sülh gətirəcək olan hz. Mehdi (Kral Məsih) haqqındakı açıqlamaları öz aləmlərində dəccaliyyətlə əlaqələndirirlər. Bu olduqca təhlükəli dünyagörüşündən ötrü, Axırzamanda gələcək və bütün dünyaya sülh gətirəcək Mehdinin xüsusiyyətlərini Dəccali xüsusiyyətlər kimi göstərməyə çalışırlar (hz. Mehdi (ə.s)-ı tənzih edirik). Üstəlik, bundan ötrü də, sülh, sevgi, qardaşlıq kimi anlayışlardan bəhs edənlərə şübhə ilə baxırlar. Əvvəla bu dünyagörüşündə olduqca böyük səhvlər var və bunlar istəmədən də olsa, dünyada sevgini yox edəcək və nifrəti yaya biləcək təhlükəli düşüncələrdir.

## Bir milləti və ya cəmiyyəti bütöv halda Dəccal elan etmək vicdansızlıqdır

Bəzi yevangelistlərin İncilə əsaslanaraq verdikləri Dəccal tərifində, sülh gətirəcək bir xilaskarın əslində Dəccala işarə etdiyi iddiası yer alır. Bu qəribə iddianın verdiyi məna isə, budur; hər kim sülhdən, sevgidən və dostluqdan bəhs etsə potensial olaraq Dəccal və ya Dəccal tərəfdarıdır. Bu yanlış dünyagörüşü, dünyadakı heç bir insanın sülhdən bəhs etməməsinə, bir-birini sevməməsinə, xüsusilə də hz. Mehdi (ə.s)-ın çıxışını gözləyən müsəlmanların sülh və sevgidən bəhs etməməsinə səbəb ola biləcək bir dünyagörüşüdür ki, bu da, olduqca təhlükəlidir. Bu düşüncə, hazırda dünyanın ən böyük ehtiyacı olan iman sahiblərinin birləşməsini də qeyri-mümkün hala gətirən olduqca mərəzli dünyagörüşüdür.

Bu iddia ilə yola çıxan bəzi yevangelistlər, İsrail ətrafındakı ölkələr arasından bütünlüklə bir milləti və ya cəmiyyəti hədəf alır, İncildə xüsusilə belə bir cəmiyyətə işarə edildiyini iddia edir və bu insanları Dəccal kimi görməkdə və göstərməkdə bir problem görmürlər.

Bu, ilk başda həmin bu xristianların öz inandıqları müqəddəs kitabın əsasları ilə də üst-üstə düşməyən bir davranış forması və dünyagörüşüdür. İçində yaşayan imanlı, gözəl əxlaqlı, günahsız, yaxşı niyyətli insanları görməzlikdən gələrək bir milləti şübhə altında qoymaq, sonra da Dəccalın iziylə gedəcək insanlar kimi onları qəbul etmək və buna görə həmin cəmiyyətə qarşı cəbhə almaq və ya onlara qarşı nifrəti alovlandırmaq çox ciddi vicdansızlıqdır. Hər millətin içində yaxşı insanlar da var, pis insanlar da.

Dəccal və Allah tərəfdarları hər dövrdə yaxşılıqdan və ya pislikdən yana olmalarıyla bir-birlərindən seçiliblər. Dolayısilə hansı dinə mənsub olsa da, bir milləti bütünlüklə pis millət elan etmək, oradakı günahsız və gözəl insanları bir anda yox hesab etmək Allahın dinində olmaz. Belə bir Dəccal tərifi, çox mərhəmətsiz, mərhəmətdən və şəfqətdən uzaq bir tərifdir. Belə təriflər terroru, zülmü, təxribatçılığı və nifrəti təşviq edər. Belə təriflər insanları bir cəmiyyətə qarşı səbəbsiz bir qəzəbə, hətta hücuma, döyüşə istiqamətləndirər. Belə bir tərif verən həmin bu insanlar, əslində özlərinin Dəccala xidmət etdiklərindən xəbərsidirlər.

Normalda dinin əslini tanıyan və onu yaşayan bir insan, belə bir məntiqi müdafiə etməməlidir. Qardaşlığın, gözəl əxlaqın, insanlara şəfqət və mərhəmətlə baxmağın gözəlliyini yaşamalı və bundan bəhs etməlidir. Bir insan, bir cəmiyyətin bütövlükdə şeytanın yolundan getdiyini iddia edəcək məntiqə sahibdirdə, deməli, həmin insanın dindən xəbəri yoxdur. Bütün haqq dinlər insanlara sevgiylə, şəfqətlə və mərhəmətlə baxmağı nəsihət edər. Yenə bütün haqq dinlər, Dəccalı, Dəccalın sistemini və Dəccal tərəfdarlarını təsvir etmişdir. Bütün pisliklərin mənbəyi olan Dəccalı ayırd etmək və anlamaq olduqca asandır. Bu tərifə görə:

Qan tökmək istəyən, qırğınları, mərhəmətsizliyi, zülmü dəstəkləyən hər kim olursa olsun, o Dəccalın ordusundandır və Ona xidmət etməkdədir. Əlbəttə ki, bu insanlar arasında dinsiz, yəhudi, xristian və müsəlman olan da var. Lakin; "Müsəlmanlar Dəccal ordusudur" demək olduqca yanlışdır. Bütün yaxşılıqları, Dəccalın ilkin əlaməti kimi qəbul edib, sonra da bunu bir millətlə uyğunlaşdırmaq həm günah, həm vicdansızlıq, həm də ciddi şəkildə məntiqsizlikdir. Həmin millətin nümayəndəsi olan günahsız uşaqlar, günahsız qadınlar-kişilər, dindar səmimi gözəl insanlar bir anda yox hesab edilmiş olur.

Bu eyni zamanda öz müqəddəs kitablarına atılmış bir böhtandır. İncildə qətiyyən bu mənada bir ifadə işlənməmişdir. Həmin bu yevangelistlər belə azğın bir inancı müdafiə edərək, ətraflarındakı insanları da yanlış istiqamətləndirir və onları bütövlükdə nifrətə sürükləyirlər. Bu, günahı çox böyük olan bir məsuliyyətdir.

## İncildəki Dəccal tərifləri darvinizmlə tam uyğunluq təşkil edir

*1) Sonra on buynuzlu, **yeddi başlı bir canavarın Romanın dənizindən çıxdığını gördüm. Buynuzlarının üzərində on tac vardı, başlarının üzərində söyüş xarakterli adlar yazılmışdı**. 2) Gördüyüm canavar bəbirə bənzəyirdi._Ayaqları ayı ayağı, ağzı aslan ağızı kimiydi. Əjdaha canavara öz gücü və taxtıyla birlikdə böyük səlahiyyət verdi. 3) Canavarın başlarından biri? sanki ölümcül yara almışdı. Necə ki, bu ölümcül yara sağalmışdı. **Bütün dünya çaşqınlıq içində canavarın arxasınca getdi. 4) İnsanlar canavara səlahiyyət verən əjdahaya tapındılar. "Canavar kimisi vardırmı?** Onunla kim vuruşa bilər?" deyərək canavara*

*da tapındılar. (Vahiy, 12)*

*5) Canavara, yalan sözlər danışan, söyüşlər söyən bir ağız və qırx iki ay müddətlə istifadə edə biləcəyi bir səlahiyyət verildi. 6) Tanrını söymək, Onun adını və iqamətgahını, yəni göydə yaşayanları söymək üçün ağzını açdı. 7) Mübarəklərlə döyüşüb onları məğlub etməsinə icazə verildi.* ***Canavara hər el, hər xalq, hər dil, hər millət üzərində səlahiyyət verildi****. 8) Yer üzündə yaşayan və dünya yaradılandan bəri boğazlanmış Quzunun həyat kitabına adı yazılmayan hər kəs ona tapınacaq. 9) Qulağı olan eşitsin! (Vahiy, 13)*

## *"Romanın dənizindən çıxan 10 başlı canavar"*

*"Sonra on buynuzlu,* ***yeddi başlı bir canavarın Romanın dənizindən çıxdığını gördüm. Buynuzlarının üzərində on tac vardı, başlarının üzərində söyüş xarakterli adlar yazılmışdı****"*

Xristianlara görə Romanın dənizindən çıxaraq 10 tacın təsvir etdiyi 10 krallığa yayılacaq olan dəccaliyyət, bəzi yevangelistlər tərəfindən 10 ayrı millətə sahib bir ölkə kimi qəbul edilmişdir və buna əsaslanaraq, Dəccal tərifi verilir. Lakin bu olduqca məntiqsiz və bir o qədər də təhlükəli bir iddiadır.

Həmin bu İncil keçidində bəhs edilən bir ölkə və ya bir millət deyil, 10 krallığa, yəni çox böyük bir əraziyə yayılacaq bir ideologiyadır. Belə ki, bu, bütün dünyaya bəla gətirmiş və hələ də dağıdıcı təsiri davam edən darvinizmdir. Başlanğıc nöqtəsi İngiltərə olan və bütün dünyaya yayılan saxta ideologiya olan darvinizm, insanı öz aləmində heyvan yerinə qoyaraq, həyatın təsadüfən meydana gəldiyi iddiasını yaymağa çalışır. Güclünün zəifi əzməsinin həyatın bir tələbi olduğu yalanını təlqin edərək, bütün bəlalara, müharibələrə, qırğınlara, soyqırımlara səbəb olmuşdur.

20-ci əsr və sonrasında dünyanı fəlakətlərə sürükləyən darvinizm, yaşadığımız Axırzamanda ortaya çıxacaq Dəccalın tərifinə mükəmməl şəkildə uyğun gəlir. Bəzi yevangelistlər, öz aləmlərində ölkələri və millətləri Dəccal adlandıraraq həm günah işləyir, həm də ciddi şəkildə vaxt itirirlər. Əsil Dəccal, bütün dünyada öz təsirini davam etdirdiyi və dünyanı fəlakətə sürükləməyə davam etdiyi bir vaxtda, yevangelistlər qoyduqları yanlış diaqnozla vaxt itirir və əsil mübarizə aparmalı olduqları hədəfi görə bilmirlər. Əslində Dəccal bu yolla onların da başını qatır.

Necə ki, İncil keçidindəki digər hissələr araşdırıldıqda da, darvinizmdən bəhs edildiyi görülür:

## *"Bütün dünya çaşqınlıq içində canavarın arxasınca getdi"*

Vahiy 13-də verilən Dəccal tərifində, bəhs edilən canavarın bütün dünyaya yayılacağından bəhs edilir. Bu, yevangelistlərin “bir millətin dəccallığını” ləğv edən ifadədir. Həmçinin bu, bəhs edilən dəccaliyyətin, insanların arxasınca gedəcəyi bir ideologiya olacağını da təsdiqləyən xüsusiyyətdədir. Həqiqətən də darvinizm, tamamilə bir saxtakarlıq olmasına, heç bir elmi dəlilə əsaslanmamasına, elmi kəşflər və təcrübələrlə həmişə yanlış olduğunun göstərilməsinə baxmayaraq, bütün dünyanı arxasınca sürükləmişdir.

Vahiy 12-də bildirilən: "Bütün dünya çaşqınlıq içində canavarın arxasınca getdi" cümləsində "çaqınlıq" sözü olduqca diqqət çəkicidir. Bununla insanların çaşqınlıq içində, yəni nə etdiklərini bilmədən Dəccalın arxasınca getdikləri bildirilir. Necə ki, darvinizmin yayılması da belə olmuşdur. Dəlilsiz bir nəzəriyyə, müxtəlif saxtakarlıq üsullarıyla təşviq edilmiş və bütün dünya, nə etdiyini bilmədən bu ideologiyanın bilərək və ya bilməyərək müdafiəçisi olmuşdur. Hətta, belə ki, darvinist diktatorluq bütün dövlətləri, bütün universitetləri, bütün təhsil təşkilatlarını, bütün rəsmi təşkilatları və bütün mətbuatı təsiri altına almışdır.

## *"İnsanlar canavara səlahiyyət verən əjdahaya tapındılar"*

Həmin bu tərifdə ifadə edilən canavara səlahiyyət verən əjdaha, darvinizmin özünə saxta ilah qəbul etdiyi elmdir. İnsanlar, elmin adından darvinizmi haqlı çıxartmaq üçün istifadə etdilər və hazırda da istifadə edirlər. Elm darvinizmi təkzib etmiş olmasına baxmayaraq, elm adı altında ortaya çıxar və elmi [haşa] Allahın yerinə qoyarlar. Necə ki, bəzi darvinist nəşrlərdə; "yeni Tanrı; elm" başlığının qoyulması tam bəhs edilən kəhanətin gerçəkləşdiyini göstərir (Allahı tənzih edirik).

## *"Canavar kimisi vardırmı? Onunla kim vuruşa bilər?" deyərək canavara da tapındılar*

Darvinizmin müxtəlif mərkəzlər tərəfindən yayılması, bütün dünyaya hakim edilməsi və darvinist diktatorluğun təsiriylə "rədd edilə bilməz" hala gətirilməsi nəticəsində, insanlar bu böyük Dəccal axınına təslim oldular. Necə ki, hazırda dünyada hər hansı bir professorun, bir dövlət adamının, bir müəllimin, bir şagirdin, bir yazıçının darvinizmin əleyhində söz

söyləməsi qeyri-mümkündür. Bunu etsələr dərhal işlərindən atılar, ictimai ətraflarından təcrid olunar və karyeralarından məhrum olarlar. Məhz darvinist diktatorluğun bu hakimiyyəti, eləcə də, bu zorakı və zalım təzyiqindən ötrü, hazırda bütün insanlar darvinizmə boyun əymiş vəziyyətdədirlər. Bir çoxu həqiqəti bilmələrinə baxmayaraq, darvinist diktatorluğun gücünə müvaqimət göstərə bilmədiklərindən, etiraz etmək əvəzinə təslim olublar. Burada tam hazırki dövr təsvir olunur və darvinist diktatorluq qarşısında bəzi insanların boyun əydiyinə işarə olunur. Məhz bu dəccaliyyətdir.

### *Tanrını söymək, Onun adını və iqamətgahını, yəni göydə yaşayanları söymək üçün ağzını açdı*

Darvinizm, tam bu sözlərdə ifadə edildiyi kimi, Allah inancına qarşı çıxa bilmək (Allahı tənzih edirik) üçün, ortaya atılmış bir nəzəriyyədir. Həqiqətən də, ilk gündən etibarən dünya səviyyəsində ateizmə dəstək olmuş və Allaha iman gətirənlərlə, yaradılışı müdafiə edənlər həmişə təkamül müdafiəçilərinin hədəfinə çevrilmişdirlər. Bütün ateist ideologiyaların ən təməl başlanğıc nöqtəsi darvinizmdir. Dolayısilə bu xüsusiyyətindən ötrü darvinizm, həmin bu ayədə verilən Dəccal tərifinə tam uyğun gəlir.

### *Canavara hər el, hər xalq, hər dil, hər millət üzərində səlahiyyət verildi*

Həqiqətən də darvinizmin hazırda dünyada çatmadığı tək bir kənd, tək bir qəsəbə belə yoxdur. Dəccal çirkli ideologiyasını hər yerdə yaymış, hər yerə çatmışdır.

Bütün bu açıqlamalardan çox dəqiq şəkildə aydın olur ki, İncildə verilən Dəccal tərifi, hazırki dövrdə bütün cəmiyyətləri zəhərləndirən darvinizmin tam tərifidir. Necə ki, Tövrat və Quranda verilən Dəccal tərifləri də, tam darvinist ideologiya ilə üst-üstə düşür. Müqəddəs Kitablarda, müxtəlif təsvirlər və təriflərlə həmişə eyni Dəccaldan xəbər verilmişdir. **Dəccal, bəzi yevangelistlərin inandığı kimi bir ölkə, bir millət və ya bir cəmiyyət deyil; cəmiyyətləri, millətləri və ölkələri hakimiyyəti altına alan darvinizmdir.**

## Dəccal tərifində yanılmaya qapılan bəzi yevangelistlərin yanlış takiyə anlayışı

Burada haqqında danışdığımız bəzi yevangelistlərin təhlükə meydana gətirən tərəfləri;

yaxşı və gözəl olanı, sülhü və sevgini müdafiə edənlərə Dəccal yaraşdırması etmələridir. Bu qəribə anlayışa görə, xristian olmayan bir insan və ya cəmiyyət potensial Dəccaldır və əgər sülhü, qardaşlığı, dostluğu, sevgini müdafiə edirsə, deməli, Dəccal olduğunu da elan edir. Yevangelistlər, Quran və Tövratda bildirilən "xilaskar Mehdi" tərifini də yanlış şərh edərək Dəccal hesab edirlər. İrəli sürdükləri bu yanlış Dəccal anlayışı ilə, sanki insanlara; "sülhü müdafiə etməyin", "insanları qardaşlığa, gözəlliyə, birliyə dəvət etməyin", "dostluğa və qardaşlığa dəvət edənə şübhə ilə baxın" düşüncəsini aşılayırlar. Əslində özləri bilməsələr də, hətta istəməsələr də, Dəccalın istəyini yerinə yetirir və yaxşını pis göstərərək Dəccalın məqsədinə xidmət edirlər.

Bəzi yevangelist xristianların, müsəlmanlara dair yanlış inanclarından biri də takiyə mövzusunda verdikləri açıqlamalardır. Takiyə, "qorunmaq, gizlənmək" mənalarını verən bir sözdür. Quranda Nəhl surəsinin 106-cı ayəsində: **"(Qəlbi imanla sabit qaldığı halda, məcbur edilən kəslər istisna olmaqla), kim iman gətirdikdən sonra inkar etsə və qəlbini küfrə açsa, Allahın qəzəbinə düçar olar. Onlar üçün böyük bir əzab vardır"** açıqlaması qeyd olunur. Bu ayədə, iman gətirmiş olmasına baxmayaraq, təzyiq altında olan bir insanın, öz canının və ya başqalarının canının təhdid altında olduğu çətin vəziyyətdən xilas ola bilmək üçün, müvəqqəti olaraq imanını inkar edə biləcəyindən bəhs edilir. Digər bir sözlə, canı, malı, ailəsi və ya ölkəsi qəti və mümkün təhlükələrlə üzləşdikdə insanın müvəqqəti olaraq takiyə etməsi, yəni diliylə inkar etdiyini söyləməsi qanunidir. Takiyənin bundan başqa hər mənası yoxdur.

Nədənsə hökmü bu qədər açıq olan bir məhfum, bəzi yevangelistlər və bəzi İslam əleyhdarlarının fərqli şərhlərinə məruz qalmışdır. Bu insanlar, Quranda olduqca açıq izah edilmiş bu mövzunu öz aləmlərində: "Sülh tərəfdarı müsəlmanların bütün həyatlarını yalan üstündə qurduqları və bütün insanları aldada bilmək üçün, bu yalanı müdafiə edərək yaşadıqları" kimi şərh edərlər. Əslində bu bir şərhdən kənar, açıqca bir böhtandır. Bunu iddia edən insanlar müsəlmanlara: "Sülhü müdafiə edirlər, lakin nə vaxtsa həqiqi üzlərini göstərib qırğın törədəcəklər" iddiasıyla böhtan atır, bəzi digər İslam əleyhdarları isə: "Sülhü, fikir və inanc azadlığını müdafiə edirmiş kimi görünürlər, halbuki bütün insanları zorla İslama qaytarmağa çalışacaqlar" deyərək mövzunu sapdırırlar. Bu açıqca bir səhvlik və böyük yanılmadır.

Əvvəla həqiqi müsəlmanlar Allahın Quranda bildirdiklərinə qeyd-şərtsiz inanarlar və onları tətbiq edərlər. Quranda bildirilən şey isə, sevgi, sülh, mərhəmət, bağışlayıcılıqdır. İslam dininin təməli olan səmimiyyət isə, qəlbin və sözün bir olmasıdır. Dolayısilə müsəlmanlar Qurandan kənar bir əxlaq göstərməkdən şiddətlə qaçarlar. Allahın əmrlərinə uyğun olaraq həmişə sülhü, sevgini, qardaşlığı və mərhəmətin müdafiə edərlər.

Takiyə, ayədən də aydın ola bildiyi kimi, təzyiq altındakı insanın içində olduğu vəziyyətdən xilas ola bilməsi üçün, diliylə inkar etdiyini söyləməsidir. Bir müsəlmanın

həyatında bəlkə də heç qarşılaşmayacağı olduqca xüsusi bir vəziyyət üçün, etibarlı olan belə bir sözün, bir müsəlmanın bütün həyatına aid edilə biləcək vəziyyətə çevrilməsi təəccüb oyandıracaq hadisədir. Bu səhvliyə yol verənlər həqiqi İslam dinindən xəbərsizdirlər və Quranda bildirilən din əxlaqının səmimiyyət, dürüstlük təməlində qurulduğunu bilmirlər. Müsəlman, həyatını yalanla keçirtməz, bu haramdır. Müsəlman bütün həyatını müsəlmanlığın gətirdiyi dürüstlüklə keçirdər. Sevgini və sülhü isə, takiyə olması üçün deyil, Quranda Allahın əmri olduğu üçün müdafiə edər.

Burada çox ciddi məntiqsizlik var. Düşünün ki, bir insan, Allah rizası üçün bütün həyatını sülhə, qardaşlığa, insanları dost etməyə həsr edəcək və sonra da, min bir çətinliklə bir yerə topladığı və sevgi birliyi yaratdığı insanları birdən qətl etməyə qərar verəcək. Əvvəla bu çox məntiqsiz və azğın bir dünyagörüşüdür. Əgər bir insan şeytani fikrə sahibdirsə və insanları qətlə yetirmək istəyirsə, xüsusilə qırğınların olduqca geniş yayıldığı hazırki dövrdə bunun üçün takiyə etməsinə ehtiyac yoxdur. Onsuz da bu Dəccali və şeytani fikrini istənilən şəraitdə tətbiq edə bilər. Necə ki, öz aləmlərində dindən bir vasitə kimi istifadə edən Dəccal tərəfdarlarının hazırki dövrdə bunu çəkinmədən tətbiq etdiklərini bilirik. Bu insanlar din adından ortaya çıxır, "dinin əmrindən ötrü" qatil olduqlarını iddia edir, dinə və dindarlara böhtan atır və yalan danışırlar. Məhz əsil dəccaliyyət budur.

## Əsil, Dəccala xidmət edənlər sevgini, sülhü və şəfqəti qadağan edənlərdir

"Sülhü müdafiə edənlər takiyə edir" deyən bir məntiqə görə, xristian olmayan bütün sülh tərəfdarları Dəccal elan edilməlidir. Bütün sevgi tərəfdarlarına Dəccal kimi baxılmalıdır. İnsanların din, dil, irq, mədəniyyət, milliyyət ayrı-seçkiliyi edilmədən birləşmələrini istəyən hər kəs Dəccaldır. Şəfqəti müdafiə edən Dəccaldır. Dostluğu müdafiə edən Dəccaldır. Bir sözlə, Quranda, Tövratda və İncildə Allahın təriflədiyi bütün gözəl əxlaq xüsusiyyətlərini bir müsəlmanın tətbiq etməsi, müəyyən mənada qadağan edilmişdir. Çünki bir müsəlman gözəl əxlaq göstərsə, sülhü və sevgini dəstəkləsə, bu zaman o, həmin bu yevangelistlərin Dəccal tərifinə uyğun gələcək. Dolayısilə dünyada birlik, qardaşlıq və dinlər arası ittifaq meydana gətirməyə çalışan həqiqi müsəlmanlarla bir yevangelistin dost ola bilməsi qeyri-mümkün görünür. Çünki dostluq istəyənin Dəccal olduğu düşünülər, dostluq istəməyənin də düşmən. Bu qəribə məntiq, sanki gözəl əxlaqlı olmağı qadağan edir.

Bu düşüncə dünyanı fəlakətə sürükləməyə kifayətdir. Bu düşüncə hakim olduqda dünyada sülh, mərhəmət və bağışlayıcılıq qalmaz. Belə bir anlayış hakim olduqda, dünya sülhünün yaşanması, insanların sevgi ilə birləşmələri qeyri-mümkündür, çünki dünya əhalisinin 23%-ni təşkil edən nəhəng bir kütlənin, Dəccalın tərəfdarları olduğuna inanılır. Dəccalın tərəfdarları ilə, ittifaq yaratmaq mümkün olmayacağına görə, müsəlmanlardan

həmişə uzaq dayanılmalı, onların sülh çağırışlarına aldanmalı, qardaşlıq, dostluq, birlik və həmrəylikdən bəhs edirlərsə, buna inanılmamalı olduğu düşünülər. Məhz bəzi yevangelistlərin ortaya qoyduğu və minlərlə insanı arxalarınca sürüklədikləri, yanlış və olduqca təhlükəli məntiq budur.

Bu mövzudakı mühüm nümunələrdən biri də, özlərini müsəlman kimi göstərən bəzi radikalların yəhudilərə dair azğın iddialarıdır. Onlar da, müsəlmanların yəhudilər barəsində, yuxarıda tərifini verdiyimiz azğın dünyagörüşünü mənimsəmələrinə çalışıblar. Onların təlqininə görə yəhudilərdən nifrət edilməli, əsla onlarla dost olunmamalıdır. Həmin bu radikallar bu mövzuda çox ciddi işlər görmələrinə baxmayaraq, biz QURANA TABE OLAN HƏQİQİ DİNDARLAR OLARAQ yəhudilərə dair belə bir dünyagörüşünün hakim olmamalı olduğunu çox yaxşı bilirik. Bizim qarşılaşdığımız Tövratın əsaslı hökmlərinə əməl edən yəhudilər, "biz dünyaya sülh gətirmək istəyirik, Tövrat bizə bunu izah edir" dedikləri vaxt, biz yalnız buna inanarıq. Çünki onlar da, eynilə bizim etdiyimiz kimi, dinin təməlini, yəni sülhü və sevgini müdafiə edirlər.

Eyni vəziyyət xristianlar üçün də hakimdir. Müsəlman olduğunu iddia edən bir insan, hz. İsa (ə.s)-ın gəlişini gözlədiyini söyləyən bir xristianın əslində takiyə etdiyinə, yaxın bir vaxtda gəlib özünü kəsib doğrayacağına inana bilər. Əslində bəzi ristianların müsəlmanlara hazırki dünyagörüşlərinə baxıldıqda, belə bir xülyaya qapılmaq da olduqca asandır. Lakin heç bir həqiqi müsəlman, həqiqi bir xristiandan bunu gözləməz. Bunu takiyə kimi qiymətləndirməz. İncilə tabe olan həqiqi bir xristianın əslində sevgi və şəfqət dolu olduğunu bilər. Dolayısilə "gözəl olanı müdafiə edir, deməli, Dəccaldır" şəklindəki dünyagörüşü, həm heyrətamiz dərəcədə məntiqsiz, həm olduqca azğın, həm də Allahın yaratdığı həqiqi din anlayışından tam uzaq bir iddiadır.

Bəzi yevangelistlər bu iddialarıyla, əslində hazırki dövrdə davam edən və bütün bəşəriyyətə fəlakət, narahatlıq və dəhşət gətirmiş müharibə və qarşıdurma mühitini müəyyən mənada dəstəkləyirlər. Böyük bir hissəsi bundan xəbərsiz ola bilərlər, lakin vurduqları ziyan böyükdür. İnsanlara, əsla sülhün haim olmayacağı təlqinini verir, kütləvi qırğınların, dəhşət ssenarilərinin davam edəcəyini söyləyirlər. Yeni qorxu cəmiyyətləri meydana gətirir və bu cəmiyyətləri İncilin əslindən tamamilə uzaq, nifrət və kin dolu cəmiyyətlərə döndərirlər. Bunun, İncilə və xristianlığa xidmət etmək olduğunu zənn edir və əslində bu üsulla (bilərək və ya bilməyərək) hazırda bütün dünyaya hakim olmuş Dəccal sisteminə xidmət edirlər. Məhz bundan ötrü də, həmin bu insanlar, bir ənənə halına gətirilən və bəzi kütlələr tərəfindən kor-koranə şəkildə inanılan bu iddianın nə qədər böyük təhlükə olduğunu tezliklə görməlidirlər.

## Müsəlmanlar Qurana görə yəhudilər və xristianlara sevgi və şəfqət duyarlar. Bu takiyə deyil, Quranın hökmüdür

"Müsəlmanların sülh istəyərək takiyə etdikləri" iddiası ilə çıxış edənlərin, əslində Quran hökmləri barəsində kifayət qədər məlumat sahibi olmadıqları da aydın məsələdir. Quranda yəhudilər və xristianlar, müsəlmanların qoruması və zəmanəti altına verilmişdir. Bir müsəlman mütləq Kitab əhlinə şəfqət və sevgi göstərməklə məsuldur. BU HÖKMLƏR TAKİYƏ EDİLMƏSİ ÜÇÜN DEYİL, SEVGİ VƏ DOSTLUĞUN TƏMƏLİ OLAN HƏQİQİ QURAN ƏXLAQI YAŞANMASI ÜÇÜN vardır. Bir müsəlman, həqiqi Quran əxlaqını yaşadığı üçün, Kitab əhlinə sevgi və şəfqət duyar.

Üstəlik, Quran hökmünə görə, bir müsəlman Kitab əhlindən olan bir qadınla evlənə bilər və onun yeməyini yeyə bilər. Bir insan, evləndiyi, uşaqlarının anası olan, "yoldaşım", "arvadım", "sevgilim" dediyi bir insanı, bir gün anidən qərar verərək kəsməyə necə təşəbbüs edə bilər? Bu necə bir iddiadır ki, illərlə yaxşı davranıb, birlikdə ailə qurub, uşaqlarını böyüdüb, sevgi və hörmət göstərdikdən sonra müsəlman kişi birdən qərar verəcək və "mən əslində takiyə etdim, indi səni qətlə yetirəcəyəm" deyib silaha sarılacaq?

Bu dəlisov bir inancdır, dəlisov bir şübhədir. Haqqında danışılan yevangelistlər, müdafiə etdikləri iddianın gətirdiyi bu cür məntiqsizlikləri anlaya bilmirlər. Həqiqi Quran hökmlərini də bilmədikləri üçün, doğru qiymətləndirmə apara bilmir və bunun nəticəsində isə, mühüm bir insan kütləsi məlumatsızlıq ucbatından İslam əleyhdarına çevrilir. Dolayısilə yer üzündə qəti sülh və dostluq əsla təmin edilə bilmir.

## Hz. Mehdi (ə.s) qan axıtmayacaq və əsla bu hökmdən kənara çıxa bilməz

Bəzi yevangelistlər, bir müddət sonra hz. Mehdi (ə.s)-ın takiyə etdiyinin ortaya çıxacağını iddia edirlər. Guya hz. Mehdi (ə.s) sülhsevər siyasətindən imtina edəcək və dəhşətli qırğınlar törədəcək. Bu ağlasığmaz iddiaya ən gözəl cavab Peyğəmbərimiz (s.ə.v)-in hədislərində verilmişdir. Həmçinin hədislərə bənzər ifadələri Tövrat ayələrində də görmək mümkündür.

Müsəlmanların inandığı və Peyğəmbərimiz (s.ə.v)-dən rəvayət edilən hədislərlə olduqca təfərrüatlı şəkildə təsvir edilmiş Mehdinin ən böyük xüsusiyyəti, başa keçdikdə; TƏK BİR DAMLA BELƏ QAN AXITMAYACAQ OLMASIDIR. Yeri gəlmişkən mühüm bir xüsus da vurğulanmalıdır: Mehdinin qan axıtmayacaq olması, Peyğəmbərimiz (s.ə.v)-in əmridir. Peyğəmbərimiz (s.ə.v)-də bunu, özünə bildirilən vəhylə söyləmişdir. Dolayısilə hz. Mehdi (ə.s)-ın bu hökmdən kənara çıxması qeyri-mümkündür. Əgər bir insan, bu hökmdən kənara çıxsa və qan axıtsa, bu təqdirdə həmin insanın müsəlmanlıqla əlaqəsi qalmaz. Hz. Mehdi

(ə.s), Peyğəmbərimiz (s.ə.v)-in əmrini, sevərək, istəyərək, şövqlə və istəklə mütləq tətbiq edəcək. Bundan kənar hərəkət etməsi qeyri-mümkündür və onsuz da etməz də.

Bir insanın hz. Mehdi (ə.s) ola bilməsi üçün, sahib olmalı olduğu xüsusiyyətlər hədislərdə təfərrüfatlı şəkildə bildirilib. Hz. Mehdi (ə.s)-ın sevgini, sülhü, qardaşlığı, mərhəməti ön planda tutacağı, bunu yaymaq üçün elmi yolla mübarizə aparacağı, insanların iman gətirməsinə vəsilə olacağı bildirilmişdir. Mehdi (ə.s) İslam əxlaqının gözəlliklərinin yaşanmasına vəsilə olacaq.

İslami mənbələrdə bildirilən Mehdi; yəhudi mənbələrdə bildirilən Kral Moşiyah, eləcə də, İncildə Faraklit və su küpü daşıyan insan tərifləriylə ifadə edilən insanla eynidir. Hazırda mehdiyyət dövrünü yaşayırıq. Allahın icazəsi ilə hz. Mehdi (ə.s) da həyatda və fəaliyyətdədir, biz təkcə zühurunu gözləyirik. Dolayısilə yaşadığımız dövrün Mehdi dövrü olmasından ötrü, BUNDAN SONRA MÜHARİBƏ OLMAYACAQ. BÖYÜK MÜHARİBƏLƏR BİTMİŞDİR. Bir müddət daha müharibə barəsində söz-söhbətlər yayılmağa davam edəcək, lakin müharibə olmayacaq. Dolayısilə bəzi yevangelistlərin müharibə gözləntisi bir nəticə verməyəcək.

## Hz. Mehdi (ə.s) silahları ortadan qaldıracaq və insanlar üçün faydalı hala gətirəcək

İslama görə hz. Mehdi (ə.s)-ın ən böyük xüsusiyyətlərindən biri, başa keçən kimi, bütün silahları ortadan qaldırmasıdır. Bu Tövratda da bildirilən bir hökmdür və buna görə də, Kral Moşiyah (Mehdi) başa keçdiyi anda bütün silahları ortadan qaldıracaq. Bütün silahlar əridilərək sənayedə istifadə ediləcək və insanlara faydalı hala gətiriləcək. Kiçik bir qrupun müharibə söz-söhbətləri etməsi, Allahın bu dünya üçün müəyyənləşdirdiyi gözəl taleyi dəyişdirə bilməyəcək.

Bu dünyanın taleyi Qızıl Əsrə doğru gedir. Bəli, hazırki dövrdə Mehdinin zühurundan əvvəl, İncildə də bildirilən doğum sancıları olacaq və olmaqdadır. Dünyada yaşanılan qarışıqlıqlar bu doğum sancısına işarə edir. Lakin bunların heç biri, özü ilə, böyük bir dünya müharibəsi gətirməyəcək. Hədislərə görə müharibə söz-söhbətləri olacaq, lakin müharibə başlamayacaq. Dəccal, hz. Mehdi (ə.s) tərəfindən məğlub ediləcək. Bu da, bəzi yevangelistlərin gözlədiyi kimi qan və qırğınlarla deyil, sevgi, mərhəmət, dostluq və elmlə olacaq.

## Hz. Mehdinin qan axıtmayacağı ilə əlaqədar bəzi hədislər

*İnsanlar, bal arılarının kraliça arı ətrafında toplanması kimi, hz. Mehdi (ə.s)-ın ətrafında toplanacaqlar. O (hz. Mehdi (ə.s)) daha əvvəl zülmlə dolu olan dünyanı, ədalətlə dolduracaq. Elə ədaləti olacaq ki,* ***yuxuda olan biri belə oyandırılmayacaq və BİR DAMLA QAN BELƏ AXIDILMAYACAQ.*** *Dünya, sanki əsri səadət dövrünə geri qayıdacaq. (El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 29 və 48)*

*Hz. Mehdi (ə.s), Peyğəmbər (s.ə.v)-in izindən gedəcək,* ***yatan insanı oyandırmayacaq, QAN DA AXIDILMAYACAQ.*** *(Muhammed B. Resul Al-Hüseyni El Berzenci, Kıyamet Alametleri, Pamuk nəşriyyatı, Kıyamet Alametleri, səh. 163)*

*Bu əmir də (hz. Mehdi (ə.s)) insanların yer üzünü daha əvvəl zülmlə doldurduqları kimi, YER ÜZÜNÜ ƏDALƏTLƏ DOLDURACAQ. (Sünen-i İbn-i Mace, 10/348)*

*Zülm və günahla dolu olan DÜNYA, O (HZ. MEHDİ (Ə.S)) GƏLDİKDƏN SONRA ƏDALƏTLƏ DOLUB DAŞACAQ. (El Kavlu'l Muhtasar Fi Alamatil Mehdiyy-il Muntazar, səh. 20)*

*Qab su ilə dolduğu kimi YER ÜZÜ SÜLHLƏ DOLACAQ. Heç kəs arasında DÜŞMƏNÇİLİK QALMAYACAQ VƏ BÜTÜN DÜŞMƏNÇİLİKLƏR, BOĞUŞMALAR, HƏSƏDLƏŞMƏLƏR MÜTLƏQ ARADAN QALXACAQ. (Sahih-i Müslim, 1/136)*

*...Onun (hz. Mehdi (ə.s)-ın) dövründə yaxşı insanların yaxşılığı artar, pislərə qarşı belə yaxşılıq edilər". (Kitab-ul Burhan Fi Alamet-il Mehdiyy-il Ahir Zaman, səh. 17)*

## Hz. Mehdi (ə.s) elmi mübarizə ilə insanlara müharibəni unutduracaq, sülh və sevgi mühitini meydana gətirəcək

Hz. Mehdi (ə.s) qətiyyən qan axıtmayacağına və bütün silahları ortadan qaldıracağına görə, bəzi yevangelistlərin iddialarının əsassız olduğu aydındır. Hz. Mehdi (ə.s)-ın qan axıtmamaq xüsusiyyəti, illər ərzində sülh üçün apardığı elmi mübarizə nəticəsində meydana gələcək. İnsanlar, qardaşlar kimi bir-birlərini qucaqlayacaq və əsil mənada sevgi mühiti meydana gələcək. Hz. Mehdi (ə.s), bu mühitin meydana gələ bilməsi üçün həyatı boyu bütün insanlara, bütün dindarlara dostluq və sülh mesajları verəcək. Bütün dünya sülh fikrinə sahib çıxacaq, sevginin gözəlliyi mövzusunda öyrədiləcək və nifrəti bir kənara qoyacaq. Dolayısilə dünyanın kəskin şəkildə korlandığı və qarışıqlıq içində olduğu bir dövrdə, sevgi və məhəbbət toxumları çətinliklə və heyrətamiz bir səylə atıldığı bir vaxtda, bəhs edilən yevangelistlərin iddia etdiyi kimi, hz. Mehdi (ə.s)-ın birdən-birə: "Bu təkcə takiyə idi, əslində bütün bunları qırğın törətmək üçün etdim" deməsi hədislərə, Quran və Tövrat hökmlərinə

uyğun gəlmədiyi kimi, görünməmiş dərəcədə məntiqsizdir.

Silahlar ortadan qalxmış, bütün insanlar sülhün zəruri olduğuna inanmış və bir-birlərini sevmişdirlər. Eləcə də, ədalət də təmin edilmişdir. Bütün bunları müxtəlif çətinliklər, böhtanlar, ittihamlar və təhdidlərə baxmayaraq, illərlə apardığı elmi mübarizə ilə bacarmış hz. Mehdi (ə.s), bir anda xristianların iddia etdiyi kimi qərara gəlib necə qırğın törədə bilər? Onsuz da hz. Mehdi (ə.s) bunu etməyəcək, lakin bununla yanaşı, artıq mühit də müharibəyə icazə verməyəcək şəkildə dəyişmişdir. Ətrafda sülh tərəfdarı insanlar vardır və tək bir silah belə yoxdur. Silahlar əridilmiş, ortadan qaldırılmışdır. Hər kəsin Qurana görə sülhün zəruri olduğuna qəlbən inandığı bir vaxtda, insanları hansı məlumatla müharibənin zəruri olduğuna razı salmaq olar? İnsanlara Qurandan dəlillər gətirilmişdir, ayələr deyilmişdir, Qurana görə yer üzündə sülhü hakim etməli olduqları öyrədilmişdir. Xristianlar və yəhudilərə sevgi və şəfqətlə yaxınlaşmalı olduqları izah edilmişdir. Hər kəs, bunların Allahın əmri olduğunu anlamışdır. Artıq bu insanları bunun əksinə necə razı salmaq olar?

Əlbəttə ki, bu olduqca məntiqsizdir. Məhz insanların müharibəni unutmaları və artıq müharibə ilə razılaşa bilməyəcəkləri insanlar olmaları, hz. Mehdi (ə.s)-ın varlığı ilə mümkün olacaq. Hz. Mehdi (ə.s) dövründə insanlar arasında Qurana görə doğru hökm hakim olmuş olacaq. Heç kəs doğru hökmü qətiyyən dəyişdirə bilməz. Mehdiyyət dövrü, Quranın sevgi dolu mehribanlığının, sülh içində yaşanılan dinclik mühitinin yaşanıldığı böyük bir dövr olacaq.

## Bütün iman sahibləri dünyanı gözəllik, sevgi, sülh məkanı etməklə məsuldurlar

Bu fəsildə qısaca toxunduğumuz iddiaları ortaya atan yevangelistlər İncili sevən insanlar olmalarına baxmayaraq, İncildə görə bilmədiyimiz ürküdücü bir fantaziyanı doğru qəbul edəcək hala düşüblər. Məhz bu insanların görməzlikdən gəldiyi əsil Dəccal, inanclı insanlar üzərində belə, bu cür dəhşətamiz bir təsir yarada bilir. Atların boğazına qədər çatacaq qan gözləntisinə sahib olan bir din müdafiəçisi, açıqca bir kabus yaşayır və öz tərəfdarlarına da eyni kabusu yaşadır. Məhz Dəccali sistem, dərhal burada özünü göstərir.

Bir insan əsil müsəlmandırsa, sülhü istəmək və müdafiə etməklə məsuldur. İnsanlar arasında sevgi və şəfqət birliyi yaratmaqla məsuldur. Bir insan əsil müsəlmandırsa, xristianlara və yəhudilərə qarşı kin bəsləyə bilməz. Bunlar ona haramdır. Hətta müsəlman, iman gətirməyən bir insanı belə canı bahasına qorumaqla, onu sağ-salamat gedəcəyi yerə çatdırmaqla məsuldur. Bu, müsəlmanın Quranda bildirilən bir xüsusiyyətidir:

**Əgər müşriklərdən biri səndən 'aman diləsə', ona aman ver ki, Allahın sözünü eşitsin. Sonra onu özünün 'əmin-amanlıq içində olacağı' yerə çatdır. Çünki onlar bilməyən bir qövmdür. (Tövbə surəsi, 6)**

Müsəlman Qurana görə, kimliyindən asılı olmayaraq, özünə sığınanı qorumaqla məsuldur. Əgər bir müsəlman bu əxlaqdan kənara çıxarsa, onsuz da müsəlmanlıq xüsusiyyətini itirmiş olar. Bu, onun həyatı boyu davam etdirməli olduğu gözəl bir əxlaq xüsusiyyətidir. Həmçinin hədislərdə müsəlmanlar və xristianların Dəccala qarşı ittifaq yaradacaqları da bildirilir. Hz. İsa (ə.s) gəldikdə hz. Mehdi (ə.s)-la birlikdə hərəkət edərək, Dəccalı elmlə yox edəcək. Dəccaliyyətin yox edilməsi və dünyaya sülhün hakim olması üçün, bu iki dinin mənsublarının ittifaq yaratması olduqca əhəmiyyətlidir.

Bütün dinlərin və peyğəmbərlərin aşiqi olan hz. Mehdi (ə.s) zühur etdikdə, Allah, o gözəlliyini də dünyaya gətirəcək. Dünya, sevgi və sülh məkanı olacaq, gözəlliklər və bolluqlar diyarı olacaq. Haqqında danışılan yevangelistlər, yanlış və olduqca təhlükəli olan bu ürküdücü ssenarilərdən xilas olaraq, həqiqi Mehdi və Məsih sevincini yaşamalı və bu gözəl sülh mühiti üçün sevgi və qardaşlığı yayaraq hazırlıq görməlidirlər. Allahın istədiyi budur.

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

### Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

### Keçilməz ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

### Həyat həyatdan gəlir

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

### XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

“Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir”. *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *(“New Evidence on Evolution of Early Atmosphere and Life”, Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü “Earth” jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

### Həyatın kompleks quruluşu

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün

dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel “Scientific American” jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

“Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir”. *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

### Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia

edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

**İnsanın təkamülü nağılı**

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər "*ausrtalopithecus* > *homo habilis* > *homo erectus* > *homo sapiens*" ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

### Darvin formulu!

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin formulu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal

şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah’ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl “Necə görürük?” sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz

bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

### Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar

üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**…Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**

Bu kitabın yazılma məqsədi, əsla xristian qardaşlarımızı tənqid etmək, İncili etibarsız etmək və ya xristianlıq dinini ortadan qaldırmaq deyil. Quran, İncil və Tövratı ortadan qaldırmaq üçün deyil, onları təsdiqləyici olaraq göndərilmişdir. Bu kitabda xristianlığa dair bilinən yanlış məlumatlar İncil və Quran ayələri əsasında təsvir edilir və xristianlarla ittifaq yaratmaq dəvəti edilir. Bu unudulmamalıdır ki, Quranda xristianlar və yəhudilər "Kitab əhli" kimi xüsusi mövqeyə sahibdirlər və dinsizliyə qarşı müsəlmanların müttəfiqidirlər. Hz. İsa (ə.s)-ın gəlişinin müjdələndiyi bu dövrdə, üç İbrahimi dinin ittifaqı zəruri və şərtdir. İman gətirənlərin birliyi ilə, Allah bütün dünyada dinclik və təhlükəsizlik mühiti yaradacaq, eləcə də, dünya ədalət və xoşbəxtlik məkanına çevriləcək.